**İLHAM ƏLİYEV**

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YÜZ İKİNCİ KİTAB

## MART 2020 - MAY 2020

AZƏRNƏŞR
BAKI - 2020

# İLHAM
# ƏLİYEV

ÇIXIŞLAR • NİTQLƏR

BƏYANATLAR • MÜSAHİBƏLƏR

MƏKTUBLAR • MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2020

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2020, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildi əsasən dövlət başçısının Azərbaycanda və dünyada koronavirus pandemiyası ilə örnək olacaq mübarizəsini əhatə edir.

Bu cilddə eyni zamanda, oxucular dövlət başçısının Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videobağlantı formatında keçirilən Fövqəladə, «Qoşulmama Hərəkatı»nın Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş «COVID-19-a qarşı birlikdəyik» mövzusunda Zirvə görüşlərində, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin təşəbbüsü ilə keçirilən görüşdə çıxışları, məruzələri, yardım təklifləri ilə də tanış ola bilərlər.

Kitabda, həmçinin dövlət başçısının Bakıda modul tipli xəstəxana kompleksinin, «Yeni klinika» tibb müəssisəsinin açılışlarında, Bakı–Sumqayıt yolunun genişləndirilməsi çərçivəsində görülən işlərlə tanışlıq, Sumqayıt Kimya Sənaye Parkında «Bakı Tekstil Fabriki» MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin, «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulan Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılışı zamanı etdyi çıxışları və digər materiallar da yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

Ə $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2020}}$ **BBK - 32**

© Azərnəşr, 2020

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ KORONAVİRUS İNFEKSİYASINA QARŞI MÜBARİZƏ MƏQSƏDİLƏ GÖRÜLƏN TƏDBİRLƏRƏ DAİR TELEFONLA GÖRÜŞ

*14 mart 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında martın 14-də telefon danışığı olmuşdur.*

*Dövlət başçıları telefon danışığında koronavirus infeksiyasına qarşı mübarizə məqsədilə ölkələrimiz tərəfindən görülən tədbirlərə dair məlumat mübadiləsi apardılar.*

*Prezidentlər koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Türkiyə və Azərbaycan vətəndaşlarının hava və quru yolu ilə qarşılıqlı səfərlərinin 15 mart saat 00.00-dan etibarən müvəqqəti olaraq dayandırılması barədə razılığa gəldilər.*

*Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq əlaqələrinin yüksələn xətt üzrə inkişafından məmnunluqlarını ifadə etdilər.*

**İRLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYKL HİGGİNSƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müqəddəs Patrik Günü münasibətilə Sizi və İrlandiya xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu xoş fürsətdən istifadə edərək, Sizə cansağlığı, uğurlar, xalqınıza rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 mart 2020-ci il*

## ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRİ SAHİL BABAYEV İLƏ GÖRÜŞ

*16 mart 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevi qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Sosial sahədə aparılan islahatlar bu il də davam etdirilir. Bu islahatlar çox genişmiqyaslı islahatlardır və nəticə etibarilə Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşdırılması istiqamətində atılan önəmli addımlardır. Xüsusilə keçən il 4 milyondan artıq Azərbaycan vətəndaşının maddi rifahı yaxşılaşdırıldı, çox böyük sosial paket icra edildi. Bu bir daha onu göstərir ki, Azərbaycan hökuməti daim öz vətəndaşının yanındadır və maddi imkanları hələ də məhdud olan vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması diqqət mərkəzindədir.

Bu il bu istiqamətdə növbəti addımlar atılır və atılacaqdır. Pensiyaların artırılması təmin edildi. Bu bir daha göstərir ki, ötən il həyata keçirilən ciddi sosial paket bizim məqsədyönlü seçimimizdir. Əminəm ki, vətəndaşlarımızın sosial vəziyyəti ildən-ilə daha da yaxşılaşdırılacaqdır. Pensiya təminatı ilə bağlı görülmüş işlər, xüsusilə bu il yanvarın 1-dən görülmüş işlər haqqında məlumat verin.

**S a h i l  B a b a y e v:** Təşəkkür edirəm, möhtərəm cənab Prezident. Siz qeyd etdiyiniz kimi, ötən il həyata keçirilmiş genişmiqyaslı sosial islahatlar paketinin önəmli bir istiqaməti məhz pensiyalar idi. Ölkədə minimum pensiyanın 72 faiz artırılması nəticəsində 660 min pensiyaçımızın pensiyasında ciddi şəkildə artım oldu və minimum pensiyanın alıcılıq qabiliyyəti parametri üzrə Azərbaycan MDB məkanında birinci yerdə qərarlaşdı. Əlavə olaraq, əməkhaqqı artımları ilə bağlı, xüsusi şərtlərlə pensiya alan 90 min pensiyaçımızın da pensiyası orta hesabla 31 faiz artdı və bu da ümumilikdə keçənilki paketin 750 min insanı əhatə etməsini təmin etdi.

Digər tərəfdən, bu il sosial yönümlü islahatların davamı olaraq, Sizin imzaladığınız sərəncamla bütün pensiyalar 16,6 faiz indeksləşdirildi ki, bunun da nəticəsində Azərbaycanda bütün pensiyalar üzrə orta aylıq pensiya 300 manatın üzərində oldu. Sırf yaşa görə pensiyanı götürdükdə isə bizim gözləntimiz orta aylıq pensiyanın 350 manata çatdırılmasıdır. Bu da, əlbəttə ki, son 2-3 ildə Sizin rəhbərliyiniz və təşəbbüsünüzlə aparılan genişmiqyaslı sosial islahatların nəticəsi və uğurudur.

Ümumiyyətlə, son islahatlarımızın maliyyə dəyəri 560 milyon manata bərabərdir. Yəni cari il ərzində indeksləşdirmə hesabına pensiyaçılarımıza əlavə olaraq, 560 milyon manat vəsait ödəniləcəkdir.

Keçənilki islahatları da nəzərə alsaq – ümumi illik maliyyə dəyəri 450 milyon manata yaxın idi – cəmi 1 il ərzində qəbul edilmiş qərarlar nəticəsində pensiyaçılarımıza 1 milyard manatdan artıq vəsait

ödənilir. Bu vəsait də tam şəkildə Dövlət Sosial Müdafiə Fondu tərəfindən qarşılanır və dövlət büdcəsi üçün əlavə yük yaratmır.

Aparılmış islahatlar nəticəsində Dövlət Sosial Müdafiə Fondunun özündə də ciddi sağlamlaşma təmin olundu. İlk dəfə olaraq, dövlət öhdəlikləri hesabına maliyyələşən pensiyalar üçün ayrılmış vəsaitin 320 milyon manatı dövlət büdcəsinə geri qaytarıldı – 150 milyon manatı büdcə paketinin dürüstləşməsi çərçivəsində ilin ortasında, 170 milyon manatı isə ilin sonunda. Əsassız və saxta təyinatların ləğvi nəticəsində əlavə olaraq, 200 milyon manat qənaət əldə edildi ki, bu da cari ildəki pensiya islahatlarına yönəldilməsi üçün Dövlət Sosial Müdafiə Fondunun ehtiyatlarında qaldı. Yəni ümumilikdə 520 milyon manat fərq meydana çıxdı ki, bu da pensiya sisteminin sağlamlaşması nöqteyi-nəzərindən çox önəmlidir. Bir vacib indikator da odur ki, dövlət öhdəliklərinin maliyyələşməsi üçün dövlət büdcəsindən Pensiya Fonduna ayrılan vəsait onun gəlirlərində əgər 2017-ci ilin sonunda 38 faiz təşkil edirdisə, artıq 2020-ci ildə bu göstərici 29 faizə düşübdür. Beləliklə, Pensiya Fondunun müstəqilləşməsi ilə büdcə asılılığının azaldılması istiqamətində ciddi irəliləyiş əldə edilibdir.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı göstəricilərdir və bu işlər davam etdirilməlidir. Pensiya təminatının alıcılıq qabiliyyətinə görə Azərbaycanın MDB məkanında birinci yerdə olması, hesab edirəm ki, böyük nailiyyətdir. Əlbəttə, iqtisadi imkanlarımız ge-

nişləndikcə biz bu vəsaiti ilk növbədə, sosial məsələlərin həllinə yönəldəcəyik.

Ünvanlı sosial yardımla bağlı sizə göstəriş vermişdim ki, onun əhatə dairəsi genişləndirilsin. Son müddət ərzində iqtisadi sahədə canlanma var, iqtisadi artım təmin edilir, o cümlədən sənaye istehsalında – qeyri-neft sektorunda sənaye istehsalı təqribən 15 faizə yaxın artıbdır – yeni iş yerləri açılır, vətəndaşlar üçün yeni imkanlar yaradılır. Ancaq buna baxmayaraq, mən göstəriş vermişdim ki, hələ də dövlət dəstəyinə ehtiyacı olan vətəndaşların dövlət təminatı təmin edilsin və bu vətəndaşların sayı artırılsın. Bu sahədə dinamika necədir və mənim göstərişim necə icra olunur?

**S a h i l  B a b a y e v:** Cənab Prezident, Sizin bu növbəti təşəbbüsünüzə uyğun olaraq, biz ünvanlı sosial yardım mexanizmini ötən il ərzində ciddi şəkildə genişləndirdik. Əgər 2019-cu ilin əvvəlində 40 min ailə bu proqramdan yararlanırdısa, ilin sonunda artıq ailələrin sayı 72 min oldu. Yəni 1 il ərzində çox ciddi şəkildə, təqribən 60–70 faizlik artım əldə edildi. Digər tərəfdən, bu il üçün dövlət büdcəsindən ayrılmış vəsait çərçivəsində 85–90 min ailənin ünvanlı sosial yardımla əhatə olunması planlaşdırılır. Bu da ünvanlı sosial yardım proqramının əlavə olaraq, daha 20 faiz genişləndirilməsi deməkdir. Bununla bərabər, kriteriyaların yumşaldılması və bu istiqamətdə əhaliyə dəstək verilməsi barədə Sizin tapşırığınız olmuşdu. Artıq ötən il bir sıra istiqamətlərdə addımlar atıldı, torpaq pay mülkiyyəti ilə bağlı yüngülləşmələr tətbiq olundu, sırf o islaha-

tın nəticəsində əlavə 7000 ailə ünvanlı sosial yardım proqramına daxil ola bildi. Bu il üçün də kommunal xərclərin limitinin artırılmasına dair təkliflər hazırlanıb və hökumət tərəfindən müzakirə olunur. Yeni parlament tərəfindən qanunvericiliyə edilmiş dəyişikliklərlə biz 85–90 min ailənin məhz ünvanlı sosial yardım proqramı ilə əhatə olunmasını təmin edəcəyik.

Paralel olaraq, ehtiyac meyarının bir il ərzində ciddi şəkildə – 10 faizdən çox artırılması, 143 manatdan 160 manata çatdırılması imkan verdi ki, ünvanlı sosial yardımın məbləği də artsın. Əgər 2018-ci ildə ünvanlı sosial yardımın məbləği 160 manat idisə, ötən il bu göstərici 200 manata çatdı. Bu il üçün proqnozlarımıza əsasən, bu rəqəm 215–220 manat arasında olacaqdır. Deməli, hər ay ünvanlı sosial yardım alanlar bu qədər vəsaitlə təmin olunacaqlar.

**İlham Əliyev:** Bu hər ailənin büdcəsinə böyük töhfədir. Hər ailə dövlətdən 215 manat alacaqsa, əlbəttə, bu ailələrin sosial təminatı daha da yaxşı olacaqdır.

İlin əvvəlində mən göstəriş vermişdim ki, bu il şəhid ailələri və müharibə veteranları üçün daha çox sayda evlər tikilsin. Biz bu vətəndaşların sosial təminatını ildən-ilə yaxşılaşdırırıq. Keçən il 934 ailəyə ev verilib. Mən göstəriş vermişdim ki, biz bu həcmi artıraq və bu il 1500 ailə üçün evlərin təqdimatı nəzərdə tutulur. Bu istiqamətdə işlər nə yerdədir və 2 ay ərzində hansı işlər görülübdür?

**Sahil Babayev:** Cənab Prezident, çox düz buyurursunuz. Ötən il 934 mənzil və fərdi ev təqdim

olunub ki, onların 300-ü fərdi ev, 634-ü isə mənzildir. Biz bu proqramla respublikanın 25 rayonunu əhatə etmişik. Sizin tapşırıqlarınıza uyğun olaraq, bu proqram cari ildə daha da genişləndirilib – 1500 mənzili və fərdi evi əhatə edib. Proqram 52 rayonumuz əhatə olunmaqla, 700 mənzili və 800 fərdi evi nəzərdə tutur. Artıq bütün inventarlaşma işləri yekunlaşdırılıb, müvafiq satınalmalar elan edilibdir. Bu il Gəncə istisna olmaqla, respublikanın əsas şəhərlərində növbədə olan bütün insanlar mənzil və evlə təmin ediləcəklər. Gəncədə 170 nəfər növbədədir, onların da 100 nəfərinə bu il evlər, mənzillər təqdim olunacaq. Fərdi evlər proqramı çərçivəsində 52 rayon üzrə 800 fərdi ev şəhid ailələrinə və müharibə əlillərinə təqdim olunacaq. Builki proqramın icrası nəticəsində 2014-cü ilə qədər növbəyə duran insanların sayı 1500-ə düşəcək. Bununla bağlı Sizin tapşırıqlarınız olub ki, onları da sürətlə yekunlaşdıraq.

**İlham Əliyev:** Çox yaxşı, bu sürətlə getsək, həmin kateqoriyadan olan və növbədə duran bütün vətəndaşları biz 2021–2022-ci illərdə evlərlə, mənzillərlə təmin edəcəyik.

Özünüməşğulluq proqramı ilə bağlı hansı işlər görülür? Mən göstəriş vermişəm ki, bu proqramın əhatə dairəsi genişləndirilsin. Eyni zamanda, biz Dünya Bankını bu məsələyə cəlb etdik. Mənim Dünya Bankının icraçı direktoru ilə Davosda keçirdiyim görüşdə bu məsələ müzakirə olundu. Dünya Bankı bizə həm maliyyə dəstəyi göstərəcək, həm də məsləhət xidmətlərini təmin edəcəkdir.

Siz mənə məruzə etmişdiniz ki, tələbat kifayət qədər böyükdür. Təqribən 50 000-ə yaxın müraciət olubdur. Mən göstəriş vermişdim ki, bu il ən azı 10 000 insan bu proqramla əhatə olunsun. Proqramla əhatə olunma istiqamətində, əlbəttə, nazirlik tərəfindən meyarlar işlənilib, təmin edilib, vətəndaşlar treninqlərdən keçiblər. Ancaq əsas məsələ ondadır ki, vətəndaşları bu işə cəlb edəndən sonra özünüməşğulluqla bağlı monitorinq keçirilsin. Çünki dünya praktikasında özünüməşğulluq proqramı ilə əhatə olunan cəmi vətəndaşların təqribən 50 faizi bu imkandan səmərəli şəkildə istifadə edə bilir. Məsələn, elə hallar da var ki, rayon və kənd yerlərində malqara ilə təmin olunan vətəndaşların bəziləri o malqaranı aparıb bazarda satır və beləliklə, məsuliyyətsizlik göstərirlər. Halbuki bu işdə əsas məqsəd ondan ibarətdir ki, vətəndaşlar verilən vasitələrlə öz dolanışıqlarını sonra özləri təmin etsinlər. Əgər vətəndaşlar dövlət tərəfindən verilən vəsaitə belə yanaşacaqlarsa, bu dözülməzdir. Bu vətəndaşlara ikinci dəfə heç bir dəstək göstərilməməlidir, o cümlədən onlar ünvanlı sosial yardımdan da məhrum edilməlidirlər. Ona görə ki, dövlət öz xoş niyyətini göstərir. Ancaq vətəndaşlar da buna məsuliyyətlə yanaşmalıdırlar. Özünüməşğulluq proqramı ilə əhatə olunmaq istəyənlərin sayı kifayət qədər çoxdur və kriteriyalar əsasında onların arasında seçim edilir. Əgər bu proqrama düşən vətəndaşlar özlərini belə aparacaqlarsa, əlbəttə ki, çox ciddi tədbirlər görülməlidir. Bu il bu istiqamətdə hansı işlər görülüb və ilin sonuna qədər hansı işlər görüləcəkdir?

**S a h i l  B a b a y e v:** Möhtərəm cənab Prezident, özünüməşğulluq proqramı həqiqətən də əhalidə çox böyük maraq oyadıbdır. Məşğulluq proqramında iştirak etmək niyyəti olan insanlar çoxdur. Siz rəqəmi qeyd etdiniz, 50 000-ə yaxın müraciət vardır. Ona görə də biz orada prioritetləşməni bu şəkildə qoyduq ki, əlilliyi olan şəxslər, şəhid ailələri, məcburi köçkünlər, ailəsində şəhid və əlil olan insanlara üstünlük verək. Əgər 2017-ci ildə bu proqram 1500 ailəni əhatə etmişdisə, 2018-ci ildə 7000, 2019-cu ildə 10 000 ailəni əhatə etdi. Bu il üçün biz 11 000-i hədəf müəyyən etmişik.

Biz proqrama beynəlxalq təşkilatları da cəlb etmişik. Sizin müvafiq görüşünüzdən və tapşırığınızdan sonra Dünya Bankı ilə aparılan müzakirələr uğurla başa çatdı. Müqavilə layihəsi artıq yekun olaraq razılaşdırılıb və martın sonunda Dünya Bankının Direktorlar Şurasının təsdiqinə təqdim ediləcəkdir. Biz Dünya Bankının prosedurlarını nəzərə alaraq düşünürük ki, müqavilə may, yaxud iyun ayına qədər imzalanacaq. Lakin buna baxmayaraq, biz hazırlıq işlərini davam etdiririk. Artıq layihə icra qrupu da formalaşdırılıb və hazırlıq tədbirlərinə tam şəkildə başlanılıbdır. Bu il Dünya Bankının layihəsi çərçivəsində ən azı 1000 ailənin maliyyələşdirilməsini planlaşdırırıq. Növbəti ildən artıq 5000 ailə Dünya Bankının layihəsi ilə maliyyələşəcəkdir.

Biz BMT-nin İnkişaf Proqramı ilə 500 ailənin özünüməşğulluğunun təşkil edilməsi üzərində iş aparırıq. Artıq onlar bütün təlimləri keçiblər, bu ildən aktivlərlə təmin olunacaqlar. BMT-nin İnkişaf Proqramının verdiyi yeni təcrübəni, yeni yanaşmanı biz

digər layihələrimizdə də tətbiq edəcəyik. Paralel olaraq, Heydər Əliyev Fondunun «Regional İnkişaf» İctimai Birliyi ilə «Sosial bağlar» layihəsi çərçivəsində hər il 250 ailəni də özünüməşğulluq proqramı vasitəsilə maliyyələşdiririk. Hər il 250 ailə üçün təqribən bir hektar ərazidə bağ salınıb ki, onların da davamlı gəlirliliyi təmin olunsun.

Əlbəttə, bu proqramın icrasının ən önəmli istiqaməti onun davamlılığı və səmərəliliyidir. Biz bununla bağlı monitorinq proqramını müəyyən etmişik. Hər rüb monitorinqlər keçirilir. İlk ilinin tamamından sonra biz monitorinqləri daha aktiv həyata keçirməyə çalışırıq. Çünki birinci ilin monitorinqləri çox yüksək – 85–90 faizin üzərində nəticələr göstərir. Amma səmərəliliyin daha düzgün, daha real qiymətləndirilməsi üçün ikinci ilin monitorinqləri önəm kəsb edir. Biz ictimai şəffaflığın təmin olunması üçün də müvafiq elektron portal yaratdıq. Hər bir insanın aldığı aktivlə birlikdə videoçəkilişi, fotoçəkilişi və aldığı aktivin keyfiyyətinə dair sənədlər orada açıqlanır. Hər bir monitorinqin nəticəsinə dair videolar da oraya qoyulacaq və orada açıqlanacaqdır. Əlbəttə, bu aktivlərlə bağlı adekvat addım atmayan insanlar haqqında müvafiq tədbirlər görüləcəkdir.

Özünüməşğulluq proqramının dayanıqlılığının gücləndirilməsi üçün növbəti addım onun istiqamətlər üzrə bölgüsünün daha da təkmilləşdirilməsi idi. Çünki birinci ildə böyük istək məhz kənd təsərrüfatına, heyvandarlığa idisə – bizim portfelimizin 82 faizi kənd təsərrüfatına aid idi – artıq cari ildə

bu, 67 faizə düşür. İndi istehsalat və xidmət sahələri də bu işə fəal qoşulmağa başlayıbdır. Bu da şəhər ərazilərində əhalinin özünüməşğulluğu, kiçik və mikrobiznesin inkişafı baxımından çox önəmlidir.

Çox gözəl uğur hekayələrimiz də vardır. Məsələn, 2018-ci ildə yaradılmış bir keçi ferması artıq çox genişlənib, əlavə 10 nəfər işçisi də vardır. Kiçik yat sexləri var ki, ciddi şəkildə genişləndirilib. Yəni uğur hekayələrimiz artıq var, amma qeyd etdiyiniz kimi, sui-istifadə halları da var ki, onlara qarşı mübarizə aparılacaqdır.

**İlham Əliyev:** Çox yaxşı. Biz bu işləri elə təşkil etməliyik ki, səmərəlilik əmsalı ən yüksək həddə çatsın.

Qeyri-formal məşğulluqla bağlı mənim müvafiq göstərişlərim yerinə yetirilir. Mənə müntəzəm olaraq bu məsələ ilə bağlı məruzələr edilir. Mənə verilən məlumata görə, son müddət ərzində 300 mindən çox işçi ilə əmək müqaviləsi bağlanılıb. Yəni bu işlər rəsmiləşdirilibdir. Burada, əlbəttə ki, çox ciddi monitorinq tədbirləri keçirilməlidir. Bu məsələ ilə bağlı sizə müvafiq göstərişlər verilibdir. Eyni zamanda, sistem xarakterli, institusional tədbirlər də nəzərdə tutulur ki, qeyri-rəsmi məşğulluğun əhatə dairəsi daralsın. Əlbəttə, burada maarifləndirmə də xüsusi rol oynayır. Mən də bir neçə dəfə vətəndaşlara müraciət edərək demişdim ki, əgər hansısa sahibkar onlara bu formada işləmək təklif edərsə, buna razı olmasınlar, dərhal müvafiq yerli və mərkəzi icra orqanlarını məlumatlandırsınlar. Çünki əgər qeyri-rəsmi işləyəcəklərsə, sabah onların nə pensiyası, nə də sosial sığortası olacaq, xüsusilə nəzərə

alsaq ki, bu ildən başlayaraq, ölkə ərazisində icbari tibbi sığorta sistemi mərhələli şəkildə tətbiq olunur. Mənə verilən məlumata görə, həm pilot şəhərlərdə, həm də bu il başlanmış bu işə əhali tərəfindən çox böyük dəstək, böyük maraq vardır. Ona görə belə təkliflərdən vətəndaşlar özləri imtina etməlidirlər. Amma bəzi hallarda çarəsiz qalırlar. Bəzi hallarda məcbur olub sahibkarların qanunsuz təkliflərinə razılıq verir, qeyri-formal işləyirlər.

Ona görə maarifləndirmə işləri daha geniş vüsət almalıdır. Rəsmiyyətə düşməyən işçiləri işlədən sahibkarlara qarşı ciddi sanksiyalar, cərimələr tətbiq edilməlidir. Eyni zamanda, göstəriş vermişəm ki, Azərbaycanda heç kim 8 saatdan çox işləməməlidir. Çünki insanları istismar edirlər. Onlar da çarəsiz qalıb, məcbur olub buna razılıq verirlər. Ona görə vətəndaşlarla nazirlik arasında çox fəal canlı bağlantı olmalıdır. Siz həm öz imkanlarınızdan istifadə edərək, monitorinqlər aparmalı, həm də «qaynar xətlər», yaxud da digər əlaqə vasitələrilə vətəndaşlarla daim təmasda olmalısınız. Bilirəm ki, bu istiqamətdə işlər aparılır. İndi o işlər nə yerdədir?

**Sahil Babayev:** Cənab Prezident, qeyri-formal məşğulluqla mübarizə fəaliyyətimizin əsas istiqamətlərindən biridir. Sizin təsdiq etdiyiniz müxtəlif fərman və sərəncamlar çərçivəsində qeyri-formal məşğulluğun azaldılması üçün ən ciddi stimullar yaradılıb. Məsələn, vergi güzəştləri tətbiq olunub, eyni zamanda, inzibati tədbirlər gücləndirilibdir. Bu tədbirlərin müsbət dinamikası ötən il çox ciddi şəkildə özünü göstərdi. Təkcə bir il ərzində özəl sektorda

əmək müqavilələrinin sayı 100 min artdı. Həmçinin dövlət sektorunda əlavə olaraq, 53 min artım oldu. Çox ciddi tədbirlər nəticəsində Əməkhaqqı Fondu birbaşa 42 faiz artdı. Bu, Əməkhaqqı Fondunda 42 faiz leqallaşma deməkdir. Bu həm iqtisadiyyata, həm pensiya-sosial təminatına, həm də «kölgə iqtisadiyyatı»nın azaldılmasına ciddi dəstəkdir. Bu müsbət dinamika davam edir. Mən bu günə olan statistikaya əsasən, deyə bilərəm ki, yanvarın 1-i ilə bu gün arasında əmək müqavilələrinin sayında 19 400 artım vardır.

**İ l h a m Ə l i y e v:** Əlavə?

**S a h i l B a b a y e v:** Bəli, əlavə olaraq. Əməkhaqqı fondunda da 5 faizlik artım vardır. Cənab Prezident, özəl sektorda bu müsbət dinamika davam etdiyi təqdirdə, bunun həm iqtisadi səmərəsi çox geniş olacaqdır, həm də vətəndaşların sosial təminatı güclənəcəkdir.

Bu istiqamətdə təbliğatla bağlı çoxsaylı videoçarxlar çəkilib, pres-relizlər təqdim olunubdur. Şəhərin müxtəlif yerlərində bannerlər yerləşdirilib. Ötən il 50-dən artıq tədbir keçirilib, builki proqramımızda isə 100-dən çox tədbirin təşkili nəzərdə tutulur. Müxtəlif rayonlardan, regionlardan işəgötürənlər, həmkarlar ittifaqlarının nümayəndələri dəvət olunaraq, onlarla ciddi təbliğat işləri aparılacaqdır. Paralel olaraq «Çağrı» Mərkəzimiz tam gücü ilə işləyir. Ötən il 280 min müraciət qəbul etmişik. Ehtimal edirik ki, bu il bizim «Çağrı» Mərkəzimiz 400 mindən çox müraciət qəbul edəcək. Biz müraciət və şikayətlərə ilk növbədə, ətraflı izahat

veririk. Pozuntularla bağlı işəgötürənlərə xəbərdarlıqlar göndəririk. Xəbərdarlıqlara riayət etməyənlərə isə cərimələr tətbiq edirik.

Cənab Prezident, məruzə edim ki, Sizin müvafiq fərman və sərəncamlarınızla minimum əməkhaqqı artdıqdan sonra bir ay ərzində təqribən 300 mindən çox şəxsin əməkhaqqı hələ də əvvəlki kimi qalmışdı. Onlarla ciddi təbliğat işləri apardıq, elektron xəbərdarlıq göndərdik, cərimələr barədə məlumat verdik. Nəticədə qısa müddət ərzində 300 min rəqəmi 50 mindən aşağı düşdü. Beləliklə, 250 min insanın əmək müqavilələrində müvafiq düzəlişlər edildi. Bu işlər mütəmadi və davamlı olaraq aparılacaq. Əlbəttə, xəbərdarlıqlara məhəl qoymayan, bildirişləri nəzərə almayan işəgötürənlərə qarşı ciddi tədbirlər görüləcəkdir.

**İlham Əliyev:** Çox yaxşı. Bundan sonra da bu məsələyə xüsusi diqqət göstəriləcək. Elə etməliyik ki, bizim bu təşəbbüsümüz maksimum dərəcədə reallaşsın və qeyri-formal məşğulluq ən aşağı səviyyəyə düşsün. Hesab edirəm ki, kompleks tədbirlər nəticəsində biz buna nail olacağıq.

Bu il də DOST mərkəzlərinin tikilməsi nəzərdə tutulur. Keçən il biz 2 mərkəzin açılışını etdik. Mən şəxsən açılışlarda iştirak etmişəm. Bu mərkəzlərdən biri keçən ilin may ayından fəaliyyətdədir, nə qədər müraciət olub? Bəyənmə əmsalı hansı səviyyədədir? Bu il neçə mərkəzin və nə vaxt tikilməsi nəzərdə tutulur?

**Sahil Babayev:** Cənab Prezident, may ayından etibarən fəaliyyət göstərən birinci mərkəzimiz

və dekabrdan fəaliyyət göstərən ikinci mərkəzimiz üzrə bu günədək ümumilikdə 81 min müraciət qəbul edilib. Vətəndaşların məmnunluq səviyyəsi 95,8 faizdir. Sizin müvafiq fərman və sərəncamlarınızla yaradılmış DOST Agentliyi – DOST mexanizmi öz uğurunu təsdiq edir. Vətəndaşlar bu mexanizmdən çox razıdırlar. Hər bir rayondan bizə müraciətlər gəlir ki, bu şəbəkə sürətli şəkildə genişləndirilsin. Sizin dəstəyinizlə artıq 8 yeni mərkəz üzərində iş aparılır. Onlardan biri yaxın günlərdə açılış üçün hazır olacaqdır. Bu 8 mərkəzdən ikisi Bakıda, digərləri isə Abşeron, Sumqayıt, Quba, Bərdə, Şəki və Sabirabadda yaradılacaqdır. Regional DOST mərkəzlərində əlavə olaraq, peşə hazırlığı mərkəzi komplekslərinin də yaradılması nəzərdə tutulur. Bu mərkəzlərdə müraciət edən işsiz və işaxtaran vətəndaşlarımızın peşə hazırlığı təmin olunacaq. DOST Mərkəzi fəaliyyətə 90 xidmətlə başlamışdı. Sizin dəstəyinizlə xidmətlərin sayı əvvəlcə 126-ya, sonra isə 132-yə qədər artırıldı. Biz düşünürük ki, yeni məşğulluq xidmətləri də buraya əlavə edildikcə, bu mexanizm təkcə sosial təminat yönümlü deyil, eyni zamanda, məşğulluq və əmək münasibətləri baxımından da geniş nəticə əldə edəcəkdir. «Çağrı» Mərkəzi də DOST mərkəzlərinə inteqrasiya olundu, bu səbəbdən orada bizim ciddi şəkildə artımımız meydana çıxdı və qısa müddət ərzində artıq Azərbaycanda ən çox istifadə olunan «Çağrı» mərkəzlərindən birinə çevrildi.

**İlham Əliyev:** Çox yaxşı. Bu proqram doğrudan da bu sahədə dönüş nöqtəsi oldu. Hesab edirəm ki, bu sahədə göstərilən xidmətlərin təkmilləşdi-

rilməsi inqilabi xarakter daşıyır. Təbii ki, vətəndaşların məmnunluğu da yüksək səviyyədədir – 95 faiz yeni yaradılmış xidmət üçün çox yüksək nəticədir. Hesab edirəm ki, gələcəkdə bu mərkəzlərin regional xarakter daşıması, eyni zamanda, funksiyaların, xidmətlərin artırılması, vətəndaşlara göstərilən xidmətlərin səviyyəsi, səmərəsi daha da yüksələcəkdir. Beləliklə, Azərbaycan bu sahədə də öz intellektual məhsulu ilə fərqlənəcək. Necə ki, bu gün «ASAN xidmət» mərkəzləri bizim intellektual brendimizdir və artıq digər ölkələr də bu təcrübədən yararlanırlar, hesab edirəm ki, vaxt gələcək onlar da DOST mərkəzlərində göstərilən xidmətləri əsas götürərək, belə bir sistemin yaradılmasına nail olacaqlar. Biz də istənilən tərəfdaşla bu istiqamətdə işləməyə hazırıq. Əgər sizə bu məsələ ilə bağlı digər ölkələrdən müraciət olunarsa, əlbəttə ki, məsləhətləşmə əsasında müvafiq məlumatları verə bilərsiniz.

Bir məsələ də çox ciddi xarakter daşıyır. Neftin qiymətinin kəskin düşməsi nəticəsində təbii ki, biz dövlət investisiyalarını xeyli ixtisar etdik. Bunun nəticəsində işsizliyin səviyyəsi artdı. Bu da təbiidir. Çünki işsizliyi aşağı səviyyədə saxlamaq üçün dövlət bütün mexanizmlərdən istifadə edir. Əgər biz görsək ki, özəl sektorda haradasa işlər ixtisar olunur, əlbəttə, mənim göstərişimlə dövlət dərhal öz sözünü deməlidir. 2015–2016-cı illərdən başlayaraq, mənim tapşırığımla ödənişli ictimai işlər yaradılıbdır. Bu işlərin yaradılmasının əsas səbəbi işsiz qalan vətəndaşları işlə təmin etməkdir. Mənim göstərişimlə bu proqramla əhatə olunan vətəndaşların

sayı ildən-ilə artaraq, son məlumata görə, 38 min ödənişli iş yeri yaradılmalı idi. Bu məqsədlər üçün dövlət büdcəsində on milyonlarla manat vəsait nəzərdə tutulur. Göstəriş vermişdim ki, bu məsələyə çox ciddi nəzarət olunsun. Xüsusilə bölgələrdən gələn siqnallar bu nəzarətin tətbiqinə, əlbəttə ki, imkan yaratmışdı. Çünki bəzi hallarda insanların əmək haqları verilmirdi, ödəniş kartları icra başçıları tərəfindən qanunsuz olaraq götürülürdü, mənimsənilirdi və s. Belə siqnallar ciddi şəkildə araşdırıldı. Bu və buna oxşar cinayətləri törədənlərə qarşı çox ciddi cəza tədbirləri tətbiq edildi. Mən bütün yerli icra orqanlarının nümayəndələrinə xəbərdarlıq etmişdim. İndi isə onların bir neçəsi məsuliyyətə cəlb edilib. Keçirilmiş xüsusi əməliyyatlar nəticəsində onların cinayətləri tam sübuta yetirildi. Əlbəttə, indi istintaq gedir, məhkəmə prosesi olacaqdır, ancaq videogörüntülər hər şeyi açıq-aydın göstərir. Bu biabırçı kadrlar, biabırçı davranış bizim üçün böyük ləkədir. Mən bu adamlara etibar etmişdim. Mən bu adamları vəzifəyə təyin etmişdim və vəzifəyə təyin edilərkən bir çox tapşırıqlar, tövsiyələr vermişdim. Onların arasında ən vacibi o idi ki, get təmiz işlə, rüşvət alma, vətəndaşlara kobudluq göstərmə, təkəbbürlü olma, vətəndaşlara dayaq ol, arxa ol, kəndləri gəz, bütün vətəndaşlarla ünsiyyətdə ol. Amma nəyi görürük? Onu görürük ki, bütün bu tapşırıqlara rəğmən, bəzi yaramaz icra başçıları həm özlərini, həm bizim iqtidarımızı biabır ediblər. Onların alçaq hərəkətləri ümumi qınaq obyektinə çevrilib. Onların dövlət mülkiyyətini talaması, sahibkarları

incitməsi, sahibkarlardan pul alması, hər bir təyinata görə pul alması, məktəb direktorlarından, xəstəxanalardan aylıq haqq alması allahsızlıqdır və onlar bu cinayətlərə görə cavab verəcəklər. Biz işsiz qalan vətəndaşlar üçün şərait yaradırıq ki, onlar evinə çörək pulu aparsın. O da böyük məbləğ deyil, minimum əməkhaqqı səviyyəsindədir. İndi minimum əməkhaqqı artıb, ona görə bu vətəndaşlar daha böyük məbləğ alırlar. Bəzi hallarda bu pullar mənimsənilir. Yaxud da Neftçala rayonundakı cinayətkarlıq hadisəsi barədə mənə məlumat verildi ki, ödənişli işlə təmin edilən 73 nəfəri öz təsərrüfatlarında qul kimi, nökər kimi işlədirdi. Bu nədir? Ağadır, bəydir, xandır? İndi bütün ölkə ona nifrət edir, onun və onun kimilərin biabırçı hərəkətlərinə görə. Hamı bilsin ki, məsələ bununla bitməyəcək. Birinci hadisə oldu – eşitmədilər, ikinci hadisə oldu – eşitmədilər. Neçəsi həbs olunmalıdır ki, bunlar öz çirkin əməllərindən əl çəksinlər?! Bu proses davam etdiriləcək, belə biabırçı hallarla bağlı daha ciddi addımlar atılacaq və hamı üçün də bu, dərs olmalıdır.

Mən sizə göstəriş vermişdim ki, sizin nazirlik çox ciddi monitorinq, uçot aparsın. Onu da bilirəm ki, siz bu uçotu tətbiq etməyə başlayanda yerli icra orqanları tərəfindən böyük müqavimətlə rastlaşdınız. Sizə qarşı təxribatlar törədildi, eyni zamanda, mətbuatda çirkin kampaniyalar aparıldı. Biz bu kampaniyanın sifarişçilərini də yaxşı tanıyırıq. Onların bizim aramızda yeri yoxdur. Ona görə nazirlik tərəfindən bütün bu işlər tam nəzarətə götürülməlidir. Hazırda vəziyyət nə yerdədir, bu il neçə min vətən-

daş bu işlərlə təmin edilib və nəzarət mexanizmi nədən ibarətdir?

**S a h i l  B a b a y e v:** Möhtərəm cənab Prezident, Siz çox doğru buyurdunuz, 38 min nəfərin işlə təmin olunması həm işsizlik, həm də məşğulluq baxımından insanlarımız üçün böyük dəstəkdir. Eyni zamanda, regionlarımızda əlavə işçi qüvvəsi resurslarının cəlb edilməsi də bir çox mövcud problemlərin həllinə dəstəkdir. Bununla bağlı yaradılmış DOST iş Mərkəzi vasitəsilə ötən il 38 min işçi cəlb edilibdir.

Sizin tapşırığınızla biz monitorinqləri tətbiq etdik. Monitorinqlər nəticəsində ümumilikdə il ərzində 9000 kənarlaşma müəyyən edildi. Bununla bağlı biz həm yerli icra hakimiyyətlərinə, həm də aidiyyəti strukturlara məlumat verərək, onları kənarlaşdırdıq. Ümumiyyətlə, 38 min əvəzinə 47 min təyinat oldu. Düzdür, bunlardan bir qismi müəyyən obyektiv səbəblərdən – vətəndaş başqa iş tapıb, oraya müraciət edib – amma böyük əksəriyyəti məhz monitorinqlər nəticəsində kənarlaşmaların müəyyən edilməsi ilə bağlıdır. Bundan əlavə, ictimai şəffaflığın təmin edilməsi üçün hər rayon üzrə ictimai işlərə cəlb edilmiş şəxslərin adlı siyahısı internet portalına yerləşdirilib. Biz dəfələrlə həm mətbuata, həm də vətəndaşlara müraciət etmişik ki, burada ictimai şəffaflıq və ictimai nəzarət tam təmin edilir. İstənilən mənfi fakt haqqında bizə məlumat versinlər və onların əsasında da bu işlər davam etdirilsin. Sizin tərəfinizdən atılmış qətiyyətli addımlardan sonra xeyli irəliləyiş vardır. Bir çox istiqamətlərdə həqiqətən də biz dinamikanın çox müsbət olduğunu görü-

rük. Bəzi hallarda təmizləmə prosesi müəyyən qədər çətinliklə, lakin tam şəkildə gedir. Eyni zamanda, biz vətəndaşların kənarda qalmaması üçün də davamlılığı təmin etməyə çalışdıq. Çünki 38 min şəxsin dekabr ayında işdən azad olunması, yanvar ayında təkrar 38 min əmək müqaviləsinin imzalanması kifayət qədər vaxt apara, onların əməkhaqqını bir ay itirməsinə səbəb ola bilərdi. Ona görə davamlılığı təmin etdik. Mən xüsusi vurğulamaq istərdim ki, təyin etdiyiniz bir çox yeni icra başçıları tərəfindən ciddi monitorinq və inventarlaşdırma aparılıb. Bizə təqdim olunmuş siyahılardan haqsız şərtlər çıxarılıbdır.

**TUNİS RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB KAİS SƏİDƏ**

Hörmətli cənab Prezident!

Tunis Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Tunis dostluq əlaqələri həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar, xüsusən İslam Əməkdaşlıq Təşkilatı və «Qoşulmama Hərəkatı» çərçivəsində bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə cansağlığı, xoşbəxtlik, dost Tunis xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 mart 2020-ci il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARİF ALVİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı − Pakistan Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ənənəvi dostluq və qardaşlıq telləri ilə bir-birinə bağlı olan Azərbaycan–Pakistan münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, strateji tərəfdaşlığımız, beynəlxalq təşkilatlarda, xüsusən İslam Əməkdaşlıq Təşkilatı və «Qoşulmama Hərəkatı» çərçivəsində əməkdaşlığımız bundan sonra da xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2020-ci il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ XANIM KATERİNA SAKELLAROPULUYA**

Hörmətli xanım Prezident!

Yunanıstan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından səmimi təbriklərimi yetirirəm.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2020-ci il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜL HƏMİDƏ**

Hörmətli cənab Prezident!

Banqladeş Xalq Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, ölkələrimiz arasındakı münasibətlər həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar, xüsusən İslam Əməkdaşlıq Təşkilatı və «Qoşulmama Hərəkatı» çərçivəsində inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Banqladeş xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2020-ci il*

## ABŞERON DAİRƏVİ DƏMİR YOLUNUN PİRŞAĞI–GÖRƏDİL–NOVXANI–SUMQAYIT HİSSƏSİNİN YENİDƏN QURULMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*18 mart 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Abşeron dairəvi dəmir yolunun Pirşağı–Görədil–Novxanı–Sumqayıt hissəsinin yenidən qurulmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlət başçısı Pirşağı stansiyasından qatarla Görədil dayanacağına yola düşdü.*

*Yenidən qurulmuş Pirşağı–Görədil–Novxanı–Sumqayıt sərnişin xəttinin açılışı ilə Abşeron dairəvi dəmir yolu tam istismara verilir. Belə ki, Bakı sərnişin–Keşlə–Koroğlu–Bakıxanov–Sabunçu dəmir yolu xətti ötən ilin mayında, Sabunçu–Zabrat1–Zabrat2–Məmmədli–Pirşağı dəmir yolu xətti isə ötən ilin noyabrında artıq istismara verilibdir. Abşeron dairəvi dəmir yolu xəttinin istismar uzunluğu 91, stansiya yolları ilə birlikdə ümumi uzunluğu isə 198 kilometrdir.*

*Sonra Prezident İlham Əliyev Görədil dayanacağına gəldi.*

*Dövlət başçısına görülmüş işlər barədə məlumat verildi. Burada Görədildə yaşayan əhalinin dəmir yo-*

*lu xidmətlərindən yüksək səviyyədə istifadə etməsi və onların rahatlığı üçün hər cür şərait yaradılıb. Bina bütün zəruri infrastrukturla təchiz olunub. Buradakı platformalar da ən müasir səviyyədə yenidən qurulubdur. Görədil–Novxanı–Sumqayıt sərnişin xətti boyu ümumilikdə 15 stansiya və dayanacaq inşa edilib və əsaslı təmir olunubdur. Yenidən qurulmuş Görədil dayanacağının ümumi sahəsi 6300, Novxanı dayanacağının ümumi sahəsi isə 8000 kvadratmetrdən çoxdur. Xətt boyu yerləşən bütün dayanacaqlarda yeni platformalar, yeraltı piyada keçidləri, avtomobillər və velosipedlər üçün dayanacaqlar inşa edilib. Pirşağı–Görədil–Novxanı–Sumqayıt sərnişin dəmir yolu xətti istiqamətində 3 avtomobil tuneli və 8 piyada keçidi layihələndirilibdir.*

*Daha sonra dövlət başçısı Görədil dayanacağından Novxanı dayanacağına yola düşdü.*

*Qatarların hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədilə xətt üzərində 10 yeraltı avtomobil tuneli tikilib, ikisinin isə inşası davam edir. Piyadaların təhlükəsizliyini təmin etmək üçün ümumilikdə 25 yeraltı və yerüstü piyada keçidi inşa olunub, dəmir yolu, rabitə və işarəvermə sistemi yenidən qurulubdur. Sürət qatarının hərəkətinin təhlükəsizliyini təmin etmək üçün zəruri işlər görülübdür.*

*Dövlət başçısı Novxanı dayanacağına gəldi.*

*Novxanı dayanacağında da sərnişinlərin rahatlığı üçün bütün zəruri şərait vardır. Bu dayanacaq da yenidən qurulmadan sonra ən müasir səviyyədə fəaliyyət göstərəcək. Ətrafda geniş abadlıq-quruculuq, ya-*

*şıllaşdırma işləri görülüb, işıqlandırma sistemi yaradılıbdır.*

*Prezident İlham Əliyev burada Abşeron dairəvi dəmir yolunun Pirşağı–Görədil–Novxanı–Sumqayıt hissəsinin yenidən qurulmadan sonra rəmzi açılışını bildirən lenti kəsdi.*

*«Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Abşeron dairəvi dəmir yolu xəttində aparılmış yenidən qurulma işləri və perspektiv layihələr barədə məlumat verdi.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin sosial məsələlərinin həllinə, onların sosial rifahının daha da yaxşılaşdırılmasına dövlət səviyyəsində xüsusi diqqətlə yanaşılır və bununla bağlı ardıcıl layihələr icra olunur. Ölkəmizdə ümumilikdə sosial infrastrukturun yenilənməsi istiqamətində həyata keçirilən işlər dünyada bu sahədə tətbiq olunan ən müasir standartlara cavab verir. Son illərdə Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, Azərbaycanda dəmir yolunun müasirləşdirilməsi istiqamətində də çox mühüm və ardıcıl layihələr həyata keçirilib. Bu, ölkəmizin iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, Azərbaycanda dövlət səviyyəsində sosial sahəyə olan diqqəti də aydın göstərir.*

*Görülən işlər nəticəsində Azərbaycanda yaradılmış ən müasir yol-nəqliyyat infrastrukturu ilk növbədə, vətəndaşların rahatlığına xidmət edir. Bu layihələr sırasında Abşeron dairəvi dəmir yolu xəttinin yenidən qurulması böyük əhəmiyyət daşıyır. Bu layihə-*

*nin reallaşması paytaxtətrafı qəsəbələrdə yaşayan sakinlərin rahat və təhlükəsiz şəkildə şəhər istiqamətinə və geriyə, mənzil başına çatmasına hərtərəfli imkan yaradır.*

*Dövlət başçısı burada dəmiryolçularla görüşdü.*

**İlham Əliyev:** Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Bakı şəhərinin ən önəmli nəqliyyat layihələrindən biri olan dairəvi dəmir yolu xətti Novruz bayramı ərəfəsində istismara hazırdır. Bu həm Bakı sakinlərinə, eyni zamanda, Sumqayıt şəhərinin, Abşeron rayonunun sakinlərinə xidmət göstərəcəkdir. Ümumiyyətlə, bu imkandan milyonlarla insan istifadə edəcəkdir. Beləliklə, şəhərimizin və Abşeron yarımadasının ən önəmli nəqliyyat layihələrindən biri olan dairəvi xətt tamamlanıbdır.

Bu xəttin bir tərəfə uzunluğu 91 kilometrdir, amma bütövlükdə 200 kilometrə yaxın dəmir yolu çəkilişi təmin edilibdir. Bu bir daha göstərir ki, Azərbaycan dövləti belə böyük layihələri həyata keçirməklə öz sosial siyasətini davam etdirir. Çünki bu dairəvi yolun tikintisinə qoyulmuş xərclər bəlkə də ancaq 100 ildən sonra büdcəyə qayıda bilər. Çünki bizdə dəmir yolu tarifləri çox aşağıdır. Bizim əsas məqsədimiz insanlar üçün gözəl imkanlar, rahat şərait yaratmaqdır.

Bu dəmir yolunun tikintisi eyni zamanda, şəhər nəqliyyatına da müsbət təsir göstərəcək, tıxaclar, avtomobil yollarına düşən yük azalacaq, Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun ekoloji vəziyyəti yaxşılaşacaqdır. Çünki havanı çirkləndi-

rən ən böyük amil nəqliyyat vasitələridir. Avtobuslara tələbat azalacaq, indi müəyyən marşrutlarda fəaliyyət göstərən avtobuslar digər marşrutlara köçürüləcəkdir.

Bütövlükdə Bakı şəhərinin avtobus parkının müasirləşdirilməsi istiqamətində böyük işlər görülüb, ən müasir avtobuslar alınır. Bu il 300 yeni avtobusun gətirilməsi nəzərdə tutulur. Keçən il də 300 avtobus gətirilmişdir. Əlbəttə, şəhərimizin və Abşeron yarımadasının nəqliyyat problemləri koordinasiyalı şəkildə həll olunur. Metro, dəmir yolu, avtobuslar, taksilər – bu gün bu baxımdan Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Vətəndaşlar üçün çox rahat, ikimərtəbəli vaqonlar alınıb gətirilib. Bu vaqonlar dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Ən inkişaf etmiş ölkələrin paytaxtlarında bu vaqonlardan istifadə olunur. Deyə bilərəm ki, bu baxımdan biz bir çox ölkələri qabaqlamışıq. Yəni kompleks tədbirlər nəticəsində və dövlət investisiya proqramı çərçivəsində aparılan bu işlər artıq tamamilə başa çatıb və dairəvi yol tam istifadəyə verilibdir.

Şadam ki, dəmiryolçular bu mühüm vəzifənin öhdəsindən şərəflə gəldilər. Dairəvi dəmir yolunun tikintisi ilə bağlı mən 2 il bundan əvvəl sərəncam imzalamışdım və bu işlər qısa müddət ərzində görülübdür. Yolun tikintisi ilə bağlı mənə müntəzəm olaraq məlumat verilirdi. Özüm şəxsən bir neçə dəfə bu yolun tikintisinin müxtəlif mərhələlərində vəziyyətlə maraqlanmışam, işin gedişinə nəzarət etmişəm və bu, yolun müxtəlif mərhələlərdə açılışında 6-cı iştirakımdır. Müxtəlif dövrlərdə bu xətt boyunca 6 dəfə

getmişəm – Pirşağı stansiyası, Sabunçu Dəmir Yolu vağzalı, Sumqayıt Dəmir Yolu vağzalı, Bakı Dəmir Yolu vağzalı və bugünkü açılış. Bütün bu qısa açılışlar bir məqsədi güdürdü ki, biz Novruz bayramına qədər xalqımızı sevindirək. Bu, Abşeron yarımadasında yaşayan insanlara bayramqabağı verilən ən böyük hədiyyələrdən biridir. Bu bir daha göstərir ki, Azərbaycan dövləti sosial sahədə öz sözünü deyir. Baxmayaraq buna böyük vəsait tələb olunur, biz bunu edirik ki, insanlar rahat yaşasınlar, iş başına, mənzil başına daha tez çatsınlar və insanların təhlükəsizliyi təmin edilsin. Çünki bəzi hallarda avtomobil yollarında baş verən qəzalar əfsuslar olsun ki, çox ağır fəsadlar törədir. Ona görə təhlükəsizlik, ekoloji tarazlıq, vaxt, rahatlıq baxımından bütün amilləri tam təhlil edərək, hər kəs bir daha görür ki, bu xəttin nə qədər böyük əhəmiyyəti vardır.

Bundan sonra da işlər davam etdiriləcək. Mənə bu gün təqdim edilmiş xəritədə «Azərbaycan Dəmir Yolları» QSC-nin gələcək planları göstərilir. Digər qəsəbələrə, kəndlərə dəmir yollarının çəkilişi nəzərdə tutulur, layihələr hazırlanır. Biz tədricən bu işləri görəcəyik ki, Abşeron yarımadasının əksər qəsəbələri rahat dəmir yoluna sahib olsun.

Bütövlükdə nəqliyyat sahəsində işlər yaxşı gedir. Keçən il də yaxşı uğurlarımız olub, bu il də. Həm dəmir yollarının, həm də avtomobil yollarının çəkilişi – bütün bu işlər hesab edirəm ki, ən yüksək səviyyədə aparılır. İndiki şəraitdə əsas vəzifə vaqonların dezinfeksiyasıdır. Bu sahəyə çox böyük diqqət

göstərilməlidir. Çünki bütün dünya indi koronavirusdan əziyyət çəkir. Azərbaycan bu istiqamətdə qabaqlayıcı tədbirlər görübdür. Məhz ona görə hazırda ölkəmizdə koronavirusun yayılması o qədər də geniş vüsət almayıb. Ancaq bu elə bəladır ki, heç bir ölkə özünü tam sığortalanmış hesab edə bilməz. Hətta ən inkişaf etmiş ölkələrdə indi yaşanan böhran göz qabağındadır. Ona görə hər bir vətəndaş məsuliyyətli olmalı, öz şəxsi gigiyenasına fikir verməlidir. Eyni zamanda, ictimai işlərlə, ictimai nəqliyyatla məşğul olan qurumlar da bu işləri tam məsuliyyətlə görməlidir, tam dezinfeksiya aparılmalıdır ki, yoluxma hallarının sayı çox olmasın.

Əlbəttə, hazırda bizim sərhədlərimiz bağlıdır. Ancaq yükdaşımalar üçün heç bir ölkə öz sərhədini bağlamayıb. Ona görə yükdaşımalar istiqamətində bizim işlər davam etdiriləcək. Əminəm ki, dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaqdır.

Sizi bir daha ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Sağ olun.

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər, mən sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulayıram. Novruz bayramı bizim milli bayramımızdır, milli sərvətimizdir. Əsrlərboyu Azərbaycan xalqı bu gözəl bayramı qeyd edir.

Bu il koronavirusa görə kütləvi tədbirlərin keçirilməsi mümkün deyil. Əminəm ki, Azərbaycan xalqı bu vəziyyəti yaxşı anlayır. Azərbaycan dövləti tərəfindən görülən bütün tədbirlər xalqın sağlamlığını, ölkəmizin təhlükəsizliyini təmin etmək üçündür. Ona görə xahiş edirəm ki, hər bir vətəndaş öz məsuliyyətini dərk etsin və yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilsin. Yaşlı nəslin nümayəndələrinə Azərbaycan cəmiyyətində həmişə böyük hörmət göstərilir. Mən bu mövzu ilə bağlı fikirlərimi kifayət qədər geniş şəkildə bildirmişəm və bir daha demək istəyirəm ki, bu bizim cəmiyyətimizin əsas sütunlarından biridir. Bizim ənənələrimiz, milli dəyərlərimiz, yaşlı nəslin nümayəndələrinə hörmət və diqqət milli xüsusiyyətimizdir və biz bu dəyərləri bundan sonra da qorumalıyıq. Ancaq indiki şəraitdə yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Onlara hörmət dildə, sözdə yox, əməl-

də göstərilməlidir. Çünki bu xəstəliklə bağlı ən ağır fəsadlar məhz yaşlı nəslin nümayəndələrində müşahidə olunur. Əminəm ki, biz dünyanı bürümüş, pandemiya halına çevrilmiş bu xəstəliyə qarşı birlikdə mübarizə aparacağıq və bu mübarizə öz nəticəsini verəcəkdir.

İlin əvvəlindən görülmüş işlər ölkəmizin uğurlu inkişafını bir daha təsdiqləyir, Azərbaycan müasirləşir, yeniləşir. Azərbaycanda aparılan islahatlar, demək olar ki, bütün sahələri əhatə edir. 2019-cu ildə aparılmış islahatlar iqtisadi sahədə böyük dəyişikliklərə səbəb oldu. Məhz şəffaflıq prinsiplərinin tətbiqi nəticəsində dövlət büdcəsinə 1 milyard manatdan çox vəsait daxil edildi və bu vəsait son qəpiyinə qədər insanların sosial problemlərinin həllinə istiqamətləndirildi. Bildiyiniz kimi, keçən il Azərbaycanın 4,2 milyon vətəndaşı dövlət tərəfindən görülmüş tədbirlər nəticəsində öz maddi vəziyyətini yaxşılaşdırdı, maaşlar, pensiyalar, sosial müavinətlər əhəmiyyətli dərəcədə artırıldı. Bu bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir və bizim bütün iqtisadi imkanlarımızın əsas istiqaməti vətəndaşların sosial təminatıdır. Bu istiqamətdə bundan sonra da işlər aparılacaq. 2020-ci ilin ilk 2 ayı onu göstərir ki, bu istiqamətdə əlavə tədbirlərin görülməsi mümkün olacaqdır.

İlin əvvəlindən ölkəmizdə proseslər müsbət istiqamətdə gedir, Azərbaycanda sabitlik, təhlükəsizlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır, xalq–iqtidar birliyidir, vəhdətidir. Bu birlik özünü bir daha parlament seçkilərində göstərdi.

Fevralın 9-da keçirilmiş parlament seçkiləri ölkəmizin həyatında önəmli hadisədir. Parlament seçkiləri ölkəmizdə aparılan siyasətin xalq tərəfindən yüksək qiymətləndirildiyini bir daha ifadə etdi. Parlament seçkilərində Azərbaycan xalqının iradəsi öz əksini tapdı və Azərbaycan cəmiyyəti bu seçkilərin nəticələrindən məmnun qaldı.

Yeni parlamentin qarşısında duran vəzifələr haqqında mən parlamentin ilk iclasında öz sözlərimi demişəm. Əlavə etmək istərdim ki, parlamentin tərkibi yenidən formalaşdı və ilk dəfə olaraq, parlamentin rəhbərliyində müxalifət nümayəndələri də yer aldı. Eyni zamanda, parlament komitələrinin rəhbərliyində də müxalifət nümayəndələri təmsil olunur. Bu, ölkəmizin tarixində ilk dəfə baş verən hadisədir və bir daha onu göstərir ki, bizim niyyətimiz çoxpartiyalı sistemin təkmilləşdirilməsidir. Sirr deyil ki, parlamentdə səslərin çoxluğu Yeni Azərbaycan Partiyasına məxsusdur. Əlbəttə, Yeni Azərbaycan Partiyasının razılığı olmadan bu islahatlar aparıla bilməzdi. Bu onu göstərir ki, bu istiqamətdə atılan addımlar ölkəmizin gələcək uğurlu inkişafına müsbət təsir edəcək və ölkəmizdə siyasi sistemin yeni konfiqurasiyası formalaşır.

Eyni zamanda, Prezident Administrasiyası bütün siyasi partiyalara dialoq təklifi edib. Bu da çox ciddi addımdır. Sirr deyil ki, bu gün Azərbaycan iqtidarı tarixdə olmadığı qədər güclüdür. Biz hesab edirik ki, güclü ilk addımı atmalı, ilk təklifi verməli və belə demək mümkündürsə, yolunu azmışlara da yol göstərməlidir. Yəni biz bunu etdik və şadam ki,

siyasi spektrin mütləq əksəriyyəti bu təşəbbüsə müsbət reaksiya verdi, faktiki olaraq, siyasi dialoq artıq başlayıbdır. Əminəm ki, bunun nəticələri də xalqımız üçün və ölkəmizin gələcək inkişafı üçün müsbət olacaqdır. O ki qaldı bu dialoqdan imtina edən qruplaşmalara, onlar özləri bilərlər. Hər halda, mən demişəm, bir daha demək istəyirəm, uduzan tərəf biz olmayacağıq və yeni siyasi konfiqurasiyada satqın, xain «beşinci kolon»un nümayəndələrinə yer olmayacaqdır. Azərbaycan təmizlənir, o cümlədən satqınlardan, xainlərdən, «beşinci kolon»un nümayəndələrindən təmizlənir və təmizlənməlidir. Eyni zamanda, Azərbaycan xalqı yaxşı görür ki, xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparılır, korrupsiyaya, rüşvətxorluğa qarşı bundan sonra da mübarizə aparılacaqdır. Son hadisələr, bu istiqamətdə atılan addımlar bunu bir daha göstərir.

İlin əvvəlindən bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənib. Mənim xarici tərəfdaşlarımla ikitərəfli formatda keçirdiyim görüşlər bir daha göstərdi ki, Azərbaycanın dünyada çox böyük hörməti var və bizim siyasətimizə böyük rəğbət vardır. Eyni zamanda, beynəlxalq tədbirlərdə mənim iştirakım ölkəmizin mövqelərini daha da gücləndirdi. Bildiyiniz kimi, Davos Dünya İqtisadi Forumu dünyanın bir nömrəli siyasi və iqtisadi forumudur. Dünyanın siyasi və biznes elitası bu forumda iştirak edir. Mən bu forumda ardıcıl olaraq uzun illərdir ki, iştirak edirəm və hər bir iştirak ölkəmizə yeni dividendlər gətirir – həm siyasi, həm iqtisadi. Bu dəfə bir daha əmin oldum ki, Azərbaycanda gedən

proseslərə böyük maraq vardır. Bütün tərəf-müqabillərim, demək olar, bir məsələni qeyd edirdilər ki, Azərbaycan sabit ölkədir və bu gün qeyri-sabit bölgədə, qeyri-sabit dünyada sabitliyi qorumaq böyük məharət və siyasi səriştə tələb edir. Sabitliyin mövcudluğuna görə Azərbaycana sərmayə qoyuluşu da təmin edilir. Keçən il 13,5 milyard dollar xarici sərmayə qoyulubdur, bu ilin yanvar ayında bərpa olunan enerji növlərinin yaradılmasına yönəlmiş 440 milyon dollar xarici sərmayənin qoyuluşu ilə əlaqədar müvafiq sənədlər imzalanıbdır. Ümumiyyətlə, Davos İqtisadi Forumunda bizim iştirakımız çox uğurlu olub. Davos Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı üzrə regional mərkəzi məhz Azərbaycanda yaradılacaqdır. Bu mərkəz Qafqaz–Orta Asiya məkanını əhatə edəcək və müvafiq sənəd də imzalanıbdır. Bu bir daha bizim güclü mövqelərimizi ifadə edir.

Eyni zamanda, hesab edirəm ki, dünyada təhlükəsizlik sahəsində digər bir nömrəli konfrans Münhen Təhlükəsizlik Konfransıdır. Bu konfransda da mən müntəzəm olaraq iştirak edirəm və hər dəfə Azərbaycan həqiqətlərini geniş auditoriyaya çatdırıram. O cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, haqlı olduğunu və tarixi aspektləri nəzərə çatdırıram. Bu dəfə isə daha gözəl fürsət yarandı, xalqımızın və dünyanın gözü qarşısında Azərbaycan öz üstünlüyünü bir daha ifadə etdi. Tarixi həqiqət, beynəlxalq hüququn normaları bizim tərəfimizdədir. Münhen Təhlükəsizlik Konfransında Ermənistanın

və dünya erməniliyinin uzun illər ərzində apardığı təbliğata sarsıdıcı zərbə vuruldu. Demək olar ki, onların təbliğatı sübutlar, tarixi faktlar, beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələr və qərarlar əsasında darmadağın edildi. Hesab edirəm ki, bu sarsıdıcı zərbə erməni təbliğatının sonudur. Münhen Təhlükəsizlik Konfransının auditoriyası kifayət qədər genişdir. Azərbaycan və Ermənistan rəhbərlərinin canlı debatının ilk dəfə keçirildiyini nəzərə alsaq, təsəvvür etmək çətin deyil ki, bu debatlara nə qədər böyük maraq var idi və milyonlarla insan bu debatları həm canlı formatda, həm də ondan sonra izləyə bilmişdir. Beləliklə, bizim haqq işimiz bir daha öz təsdiqini tapdı və bütün dünya bir daha gördü ki – mən bunu Valday forumunda da canlı efirdə demişdim – Qarabağ Azərbaycandır və nida işarəsi.

Bu il iqtisadi sahədə əldə edilmiş uğurlar, əlbəttə ki, bizi çox sevindirir. İki ayda ümumi daxili məhsul 2,8 faiz, qeyri-neft sektorunda iqtisadiyyat 6,7 faiz, qeyri-neft sektorunda sənaye istehsalı isə 21,7 faiz artıbdır. Əhalinin pul gəlirləri 9 faiz artıb, inflyasiya isə cəmi 2,8 faizdir.

Yenə də islahatlar hesabına və şəffaflıq tədbirlərinin görülməsi nəticəsində iki ayda dövlət büdcəsinə proqnozdan əlavə, 252 milyon manat daxil edilibdir. Bu bir daha göstərir ki, şəffaflıqla bağlı görülən tədbirlər, «kölgə iqtisadiyyatı»na qarşı aparılan siyasət öz nəticəsini verməkdədir. Əminəm ki, bu müsbət meyil ilin sonuna qədər davam edəcək və Azərbaycan iqtisadiyyatının hazırda «kölgə»də olan hissəsi «kölgə»dən çıxacaqdır. Burada təkcə

dövlət orqanlarının fəaliyyəti kifayət deyil. Biznes dairələri də öz məsuliyyətini dərk etməli və əyri yola getməməli, öz fəaliyyətlərini «kölgə»dən çıxarmalı və dövlətin vergisini son qəpiyinə qədər ödəməlidir. Çünki bilməlidir ki, bu vergilər insanların maaşlarının, pensiyalarının artırılmasına istiqamətləndirilir.

Bu il sosial sahədə böyük işlərin görülməsi nəzərdə tutulur. İlin əvvəlindən 3 böyük xəstəxana mənim iştirakımla açılıbdır – Goranboy, Şəmkir və Qazax şəhərlərində. Yenə də xəstəxanaların açılması nəzərdə tutulur və sosial infrastrukturun yaradılması istiqamətində işlər aparılacaqdır. Baxmayaraq ki, dünya bazarlarında neftin qiyməti kəskin aşağı düşdü, bizim bütün sosial öhdəliklərimiz təmin ediləcəkdir. Keçən il görülmüş tədbirlər və qəbul edilmiş qərarlar nəticəsində bizim sosial sahəyə nəzərdə tutulmuş büdcə xərclərimizin kifayət qədər artmasına baxmayaraq, bütün sosial öhdəliklər yerinə yetiriləcək və bütün sosial infrastruktur layihələri tam icra ediləcəkdir.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün nəzərdə tutulmuş 7000 mənzil tikilib istifadəyə veriləcək. Şəhid ailələri üçün nəzərdə tutulan 1500 mənzil tikilib istifadəyə veriləcəkdir. Bu məsələ ilə bağlı heç bir şübhə olmamalıdır. Əminəm ki, biz 2020-ci ili də uğurla başa vuracağıq. Halbuki bu gün bir çox ölkələr böyük çətinliklərlə üzləşib. Bu ölkələrdə həm siyasi sabitlik pozulur, həm iqtisadi böhran yaşanır və o cümlədən, neft hasil edən ölkələrin bəziləri artıq neftin qiymətinin düşməsindən əziyyət çəkməyə başlayıb. Koronavi-

rus xəstəliyi, əlbəttə ki, vəziyyəti çətinləşdirir. Bütün bunlara baxmayaraq, hesab edirəm ki, Azərbaycan bu sınaqdan da şərəflə və az itkilərlə çıxacaq. Buna nail olmaq üçün biz hamımız həmrəylik göstərməli, məsuliyyət göstərməli, birlik göstərməliyik. Dünya üçün bu çətin dövrdə həm xalqımızı, həm dövlətimizi qorumaq üçün xalqımızın ən ülvi xüsusiyyətlərini bir daha göstərməliyik və bunu dünyaya təqdim etməliyik.

Bildiyiniz kimi, koronavirus xəstəliyi dünya gündəliyinin bir nömrəli məsələsidir. Artıq Ümumdünya Səhiyyə Təşkilatı pandemiya elan edib və bəyan edibdir ki, pandemiyanın mərkəzi Avropa məkanıdır. Bu xəstəliyin geniş yayılması onu göstərir ki, hətta inkişaf etmiş ölkələr belə, onun qarşısını ala bilmir. Bu xəstəliyə qarşı heç bir dərman, vaksin yoxdur və nə vaxt olacaq, heç kim bilmir. Ona görə bu xəstəliyin məhdudlaşdırılması və yayılmaması üçün biz bəri başdan, ən ilk günlərdən praktiki addımlar atmağa başladıq. Mənim göstərişimlə yanvarın 24-dən Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Bu qərargah hər gün 24 saat işləyir, bütün dövlət qurumlarının fəaliyyətinə rəhbərlik edir, xəstəliklə bağlı bütün işləri nəzarətdə saxlayır və bu işləri əlaqələndirir. Ciddi tədbirlər görülür. Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə yanvarın 24-dən yeni əməkdaşlıq formatı çərçivəsində işləməyə başlamışıq. Onları ölkəmizə dəvət etmişik. Onların tövsiyələrinə riayət edərək, ölkəmizdə çox ciddi tədbirlər görmüşük. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri mart

ayında Azərbaycana gələrək, vəziyyətlə tanış olaraq bildirdilər ki, Azərbaycan rəhbərliyi koronavirusun yayılmaması üçün çox önəmli və təsirli tədbirlər görür. Bu həqiqətən də belədir.

Bildiyiniz kimi, bütün uşaq bağçaları, məktəblər, ali məktəblər bağlanıb. Kütləvi tədbirlərin keçirilməsi qadağan edilib. Martın 14-dən xüsusi davranış qaydaları tətbiq edilib və ictimaiyyətə bu məsələ ilə bağlı kifayət qədər məlumat verilir. Xəstəliklə, onun yayılması və nəticələri ilə bağlı mənim göstərişimlə vətəndaşlara müntəzəm olaraq bütün məlumatlar verilir. Karantin tədbirləri görülür, yeni laboratoriyalar alınıbdır. Qısa müddət ərzində ən müasir 4 laboratoriya alınaraq gətirilib və hazırda bizim laboratoriyalarımızın sayı 10-a çatdırılıbdır. Lazım olarsa, əlavə laboratoriyalar da alınacaqdır.

10 xəstəxana xüsusi rejimdə işləyir. Bu xəstəxanalar ölkəmizin müxtəlif bölgələrində yerləşir, o cümlədən də Bakı şəhərində. Bu xəstəxanalarda həm xəstələrin müalicəsi aparılır, həm də karantin tədbirləri görülür.

Bir çox ölkələrlə gediş-gəliş artıq məhdudlaşdırılıb, demək olar ki, tamamilə aradan qaldırılıb. Bir çox aviareyslər ləğv edilib, sərhədlərimizin bağlanması istiqamətində əməli addımlar atılıb, elektron vizaların verilməsi dayandırılıb və xəstəliyin geniş yayıldığı ölkələrdən Azərbaycana insanların gəlməsi qadağan edilibdir. Bütün bu tədbirlər əminəm ki, öz müsbət təsirini göstərəcək. Bizim əsas məqsədimiz bu xəstəliyin Azərbaycanda yayılmamasıdır. Buna nail olmaq üçün təkcə dövlət tərəfindən görü-

lən tədbirlər kifayət deyil. Dövlət nə lazımsa edir, vəsait ayırır. Martın əvvəlində bu xəstəliklə mübarizə üçün 10 milyon manat vəsait ayrıldı. Bu gün bəyan edirəm, Prezidentin ehtiyat fondundan əlavə 20 milyon manat ayrılacaq ki, həm bu xəstəliyə qarşı mübarizə daha təsirli olsun, həm də koronavirus xəstələrinə qulluq edən həkimlərin maddi təminatı daha da yüksək olsun. Biz bunu da nəzərə alırıq. Mən bir daha Azərbaycan həkimlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Onlar bu xəstəliyə qarşı fədakarcasına mübarizə aparırlar, öz sağlamlıqlarını risk altına atırlar. Ancaq yüksək məsuliyyət, içdikləri and, əlbəttə ki, onları bu işlərə sövq edir. Xəstələr də həkimlərə böyük diqqətlə yanaşmalıdırlar. Bu, indiyədək dünyada görünməmiş xəstəlikdir və bu xəstəliyin yayılma tempi bizə bəlli deyil. İnkişaf etmiş bir neçə ölkədə artıq bu xəstəlik bir-iki gün ərzində geniş vüsət alıb. Bu onu göstərir ki, xəstəliyin sanki akkumulyasiya dövrü vardır, ondan sonra bu xəstəlik geniş yayılır. Bu xəstəliyin yayılmaması üçün ilk növbədə, bütün dövlət tədbirləri ilə yanaşı, vətəndaşlar da məsuliyyətli olmalıdırlar. Əgər kimsə özündə xəstəlik simptomu hiss edərsə, dərhal həkimlərə müraciət etməli, dərhal özünü təcrid etməli, kütləvi yerlərə getməməli, lazım olmadan kütləvi tədbirlərdə iştirak etməməlidir. Bu tədbirlər artıq ləğv olunub, amma istisna deyil ki, hansısa məsuliyyətsiz adamlar qaydalara uyğun olmayan hərəkətlər etsinlər. Mən bəri başdan hər kəsi xəbərdar etmək istəyirəm, ciddi tədbirlər görüləcək. Çünki bu, milli məsələdir, xalqımızın

sağlamlığıdır, dövlətimizin təhlükəsizliyidir. Hər kəs bilsin, əgər martın 14-də elan olunmuş qaydalara kimsə əməl etməsə, çox ciddi məsuliyyətə cəlb ediləcəkdir.

Təəssüflər ki, məsuliyyətsizliklə əlaqədar faktlar daxil olur. Eyni zamanda, biz açıq təxribatı da görürük. Bu təxribat haradan gəlir? Həmin o «beşinci kolon»dan, içimizdə oturan düşmənlərdən, özünü müxalifət adlandıran ünsürlərdən, xaricdən pul alan satqınlardan. Onların əsas məqsədi Azərbaycanı məhv etməkdir. Azərbaycan üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Baxın onların sosial şəbəkələrdəki çıxışlarına, nifrətlə, təxribatla doludur. Sanki istəyirlər ki, iğtişaş olsun. İstəyirlər ki, aləm qarışsın. İstəyirlər ki, panika olsun. Sonra da deyirlər ki, onlar Azərbaycan xalqının qayğıları ilə yaşayırlar. Onlar düşməndirlər və biz bunu açıq deməliyik. Bu xəstəlik hələ bilinmir nəyə gətirib çıxaracaq. Ona görə xəstəlik dövründə tamamilə yeni münasibət qaydaları mövcud olacaqdır. Hər kəs bunu bilsin və istisna edilmir ki, nə vaxtsa fövqəladə vəziyyət də elan oluna bilər. Belə olan halda, bu «beşinci kolon»un nümayəndələrinin təcrid edilməsi artıq tarixi zərurət olacaqdır. Azərbaycan xalqı onları tarixin zibilxanasına çoxdan atıbdır. Orada onlar artıq 30 ilə yaxındır ki, çürüyürlər. Amma biz imkan verə bilmərik ki, anti-Azərbaycan qüvvələr, «beşinci kolon», milli satqınlar bu vəziyyətdən istifadə edib hansısa təxribat törətsinlər. Hər kəs bunu bilsin. Bizim siyasətimiz birmənalıdır, bizim iradəmiz qətidir. Biz hər zaman olduğu kimi, Azər-

baycan xalqının problemlərini həll edirik və həll edəcəyik. İndiki vəziyyətdə, koronavirus dövründə Azərbaycan dövlətinin addımları bir daha onu göstərir ki, bizim üçün Azərbaycan xalqının sağlamlığı, təhlükəsizliyi, rifahı hər şeydən üstündür və buna nail olmaq üçün biz istənilən addıma gedəcəyik. Heç kimin bu məsələ ilə bağlı şübhəsi olmasın.

Əziz həmvətənlər, bacılar və qardaşlar, dünya yeni dövrə qədəm qoyur. Bu dövrün xüsusiyyəti ondan ibarətdir ki, bilinmir bu xəstəliyin sonu nə vaxt olacaq və bu xəstəlik hansı fəsadlara gətirib çıxaracaqdır. Ona görə bir daha bütün Azərbaycan xalqını həmrəyliyə, məsuliyyətə dəvət edirəm. Əminəm ki, biz birlikdə bütün sınaqlardan üzüağ çıxacağıq.

Bir daha əziz xalqımı bu gözəl bayram münasibətilə təbrik edirəm, hər bir Azərbaycan vətəndaşına cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2020-ci il*

## MƏNZİL İNŞAATI DÖVLƏT AGENTLİYİNİN İKİNCİ LAYİHƏSİ OLAN HÖVSAN YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*24 mart 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 24-də Mənzil İnşaatı Dövlət Agentliyinin ikinci layihəsi olan Hövsan yaşayış kompleksinin açılışında iştirak etmişlər.*

*Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlət başçısına və xanımına Suraxanı rayonunun Hövsan qəsəbəsində salınmış bu kompleks, həmçinin Yasamal yaşayış kompleksinin ikinci mərhələsi, Gəncə və Sumqayıt şəhərlərində reallaşdırılan layihələr barədə məlumat verdi.*

*Bu layihənin icrası üçün 2017-ci ilin fevralında Agentliyə Hövsan qəsəbəsində 20 hektar ərazi ayrılıb. Həmin il dekabrın 24-də Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə kompleksdə ilk yeddimərtəbəli binanın təməli qoyulub. Layihələndirmə zamanı kompleksdə həyətyanı sahələrin, uşaq meydançalarının salınması üçün geniş ərazi ayrılıb, yaşıllaşdırma və abadlaşdırma işlərinə xüsusilə diqqət yetirilibdir. Burada ümumilikdə 11 yaşayış binası inşa olunub ki, onlardan 4-ü birgirişli olmaqla,*

*10 mərtəbəli, 7-si 18 girişli olmaqla, 7 mərtəbəlidir. Yaşayış kompleksində mənzillərin sayı 2962-dir. Onlardan 280-i birotaqlı, 1401-i ikiotaqlı, 980-i üçotaqlı, 301-i isə dördotaqlıdır.*

*Mənzillər tam təmirli, mətbəx mebeli, fərdi kombi sistemi ilə təchiz olunmuş vəziyyətdə vətəndaşlara təklif edilir. Kompleksin tikintisində və mənzillərin təmirində istifadə olunmuş inşaat materiallarının 95 faizi yerli istehsaldır. Prezident İlham Əliyevin «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə» Fərmanı ilə yaradılmış komissiyanın müraciəti əsasında hərbi qulluqçuların mənzillərlə təmin olunması məqsədilə kompleksdə tam təmirli 436 mənzil ayrılıbdır.*

*Burada 1920 şagird-yerlik məktəb binası da inşa olunub. Tam orta məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmaq üçün bütün şərait vardır. Sinif otaqları zəruri tədris avadanlığı ilə təchiz edilib. Bu təhsil ocağında yaradılmış şərait son illərdə ölkədə təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində aparılan işlərin ardıcıl xarakter aldığını göstərir. Bütün bunlar isə Azərbaycanda təhsil sahəsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə nəticələnibdir.*

*Kompleksdə hər biri 90 yerlik olmaqla, 2 uşaq bağçası da inşa olunub. Burada balacaların istirahətinin və asudə vaxtlarının səmərəli təşkili üçün geniş imkanlar vardır.*

*Hövsan yaşayış kompleksi Agentliyin ikinci layihəsidir. İlk layihə olan Yasamal yaşayış kompleksin-*

*də mənzillərin satışı tam başa çatdırılıb. Beləliklə, ümumilikdə 1654 ailə güzəştli mənzilə sahib olmaqla, yaşayış şəraitini yaxşılaşdırıb.*

*Hövsan yaşayış kompleksi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin müsahibəsi**

**M ü x b i r:** Cənab Prezident, xoş gördük Sizi!

**İ l h a m Ə l i y e v:** Salam, xoş gördük!

**M ü x b i r:** Cənab Prezident, dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsinə baxmayaraq, Sizin rəhbərliyiniz və təşəbbüsünüzlə Azərbaycanda bütün irimiqyaslı sosial layihələr uğurla icra olunur və möhtəşəm Hövsan layihəsinin icrası da buna əyani misaldır. İstərdik ölkədə bu istiqamətdə görülən işlər haqqında məlumat verəsiniz.

**İ l h a m Ə l i y e v:** Bəli, Azərbaycan öz sosial siyasətini uğurla davam etdirir. Mən bildirmişəm və bir daha demək istəyirəm ki, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, bu il və bundan sonrakı illərdə də bütün sosial öhdəliklər yerinə yetiriləcək, bütün sosial infrastruktur layihələri icra ediləcək və bu sahədə heç bir narahatlığa əsas yoxdur. Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə inşa edilmiş bu böyük yaşayış kompleksi bunu bir daha göstərir.

Bu kompleksin təməli 3 il bundan əvvəl qoyulmuşdur. Ötən müddət ərzində işlər uğurla aparılıb və indi bu kompleks təhvil verilir. Burada 3000-ə yaxın mənzil var, 2000 şagird-yerlik böyük məktəb

binası, 2 uşaq bağçası, poliklinika – yəni yaşamaq üçün bütün şərait var və bu bir şəhərcik halına gətirilibdir. Burada təqribən, 12–15 min insan yaşayacaqdır. Bu bir daha göstərir ki, Azərbaycanda sosial infrastruktur layihələri yüksək səviyyədə və yüksək keyfiyyətlə icra edilir.

O ki qaldı bütövlükdə bizim sosial siyasətimizə, mən dəfələrlə bildirmişəm, güclü iqtisadiyyatımız imkan verir ki, sosial sahədə bəyan etdiyimiz bütün layihələr və proqramlar icra edilsin. Hesab edirəm ki, keçən il bu baxımdan çox yadda qalan il olmuşdur. Bildiyiniz kimi, keçən il minimum əməkhaqqının, minimum pensiyaların artırılması nəticəsində 4,2 milyon insan, o cümlədən dövlətdən müavinət alan insanlar maddi vəziyyətlərini xeyli yaxşılaşdırmışlar. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya isə 70 faiz artıbdır. Bu gün Azərbaycan minimum pensiyanın alıcılıq qabiliyyətinə görə MDB məkanında 1-ci yerdədir. Əlbəttə ki, indiki səviyyə bizi hələ də qane etmir. Əminəm ki, görüləcək tədbirlər nəticəsində gələcəkdə bu sahəyə daha da böyük vəsait ayrılacaqdır.

Bununla paralel olaraq, bu il sosial infrastruktur layihələri icra edilir. Bu böyük şəhərcik onlardan biridir. Eyni zamanda, bu il məcburi köçkünlər üçün rekord sayda mənzillərin təqdim edilməsi nəzərdə tutulur – 7000 mənzil veriləcəkdir, keçən il isə 5000 mənzil tikilibdir. Şəhid ailələri üçün 1500 mənzil təqdim ediləcək. Hesab edirəm ki, bu gün növbədə duran şəhid ailələri yaxın bir neçə il ərzində evləri alacaqlar və bu proqram da başa çatacaqdır.

Ölkəmizdə sosial yönümlü digər layihələr icra edilir, eyni zamanda, sosial təminatı yaxşılaşdırmaq, bu sahədə şəffaflığı təmin etmək üçün bildiyiniz kimi, DOST mərkəzləri açılmaqdadır. Artıq 2 mərkəz fəaliyyət göstərir və vətəndaşların bəyənmə əmsalı kifayət qədər yüksəkdir. Bütövlükdə 30-dan çox belə mərkəzin yaradılması bu sahədə institusional baxımdan böyük bir irəliləyişə gətirib çıxaracaqdır. Yəni sosial sektor böyük sahə olduğu üçün bunun hər bir istiqaməti üzrə praktiki addımlar atılır, bəyan edilmiş proqramlar icra edilir və verilmiş bir dənə də vəd icra edilməmiş qalmır. Bütün vədlər icra edilir və əminəm ki, həm bu il, həm bundan sonrakı illərdə bu istiqamətdə daha böyük işlər görüləcəkdir.

**S u a l: Sualımız dünyanı bürümüş koronavirus pandemiyası haqqındadır. Azərbaycanda pandemiyanın qarşısının alınması istiqamətində tədbirlər görülür. Bu tədbirlər daim Sizin nəzarətinizdədir və ictimaiyyətə mütəmadi olaraq ətraflı məlumat verilir. Dünən də bir məlumat yayıldı. Cənab Prezident, bu günədək pandemiyanın qarşısının alınması istiqamətində hansı işlər görülmüşdür?**

**C a v a b:** Mən bu barədə öz fikrimi açıq bildirmişəm. Bir daha demək istəyirəm ki, biz qabaqlayıcı tədbirlərin görülməsi sayəsində bu günə qədər vəziyyəti nəzarətdə saxlayırıq. Halbuki dünyada gedən proseslər hər birimizə bəllidir və hətta inkişaf etmiş ölkələrin böyük şəhərlərində belə, bu pandemiya çox faciəvi nəticələrə gətirib çıxarıbdır. Bəzi ölkələrdə gündə yüzlərlə – 500–600 insan vəfat edir. Yəni bu onu göstərir ki, hətta ən inkişaf etmiş ölkə-

lər bu vəziyyətlə bağlı özlərini tam sığortalanmış hesab edə bilmir. Ona görə tərəfimizdən qəbul edilmiş çox konkret qərarlar və «Yol Xəritəsi» hesab edirəm ki, bu gün vəziyyəti nəzarətdə saxlamağa imkan yaradır. Biz bəri başdan bu məsələyə çox ciddi fikir verməyə başladıq. Hətta bu xəstəlik bizdən uzaqlarda yayılanda da artıq hazırlıq işlərinə başlamışdıq. Bildiyiniz kimi, dərhal Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Bu qərargah 24 saat fəaliyyət göstərir və bütün görülmüş tədbirlər haqqında vətəndaşlara mənim göstərişimlə müntəzəm olaraq məlumatlar verilir. Eyni zamanda, biz Ümumdünya Səhiyyə Təşkilatı ilə bilavasitə təmasdayıq. Bizim dəvətimizlə bu təşkilatın nümayəndələri Azərbaycana səfərə gələrək, vəziyyətlə tanış oldular. Onlar Azərbaycan hökuməti tərəfindən görülmüş işlərə yüksək qiymət verdilər. Əlbəttə, onların tövsiyələri bizim üçün vacibdir. Bizim qəbul etdiyimiz qərarların bir çoxu onların tövsiyələrinə, təcrübəsinə və bu gün pandemiyanın geniş yayıldığı ölkələrin mənfi təcrübəsinə əsaslanır. Yəni biz o səhvləri təkrarlamamalıyıq və təkrarlamırıq. Bizim bütün quru sərhədlərimiz dərhal bağlandı, eyni zamanda, xaricdə qalan Azərbaycan vətəndaşlarının təxliyə edilməsi üçün əməli addımlar atıldı. Bu günə qədər 10 000 Azərbaycan vətəndaşı vətənə qaytarılıb. Aviareyslərin sayı kəskin aşağı düşdü və demək olar ki, indi çox aşağı səviyyədə aviareyslər icra edilir və bu da qabaqlayıcı tədbirlərin bir hissəsidir.

Biz yeni laboratoriyalar almışıq. Yəqin hər kəs bilir ki, tibbi ləvazimat və avadanlıq almaq da problemə çevrilib. Çünki indi bütün ölkələr bunu almaq istəyir. İstehsalçıların sayı isə o qədər də böyük deyil. Ona görə biz bu laboratoriyaları vaxtında almaqla, testləri gətirməklə daha böyük imkanlara nail olduq. 10-dan çox xəstəxana həm karantin rejimi, həm də bu xəstəliyə yoluxmuş insanların müalicəsi üçün ayrılıb. Bu xəstəxanalar həm Bakı şəhərində, həm də ölkəmizin müxtəlif bölgələrində yerləşir. Artıq uzun müddətdir ki, məktəblər, uşaq bağçaları, ali məktəblər bağlanıb, ictimai iaşə obyektlərinin iş qrafiki isə məhdudlaşdırılıbdır. Bütün bu tədbirlər haqqında danışmaq çox vaxt aparar, hər halda, müntəzəm olaraq bu barədə məlumat verilir.

Xəstələrə qulluq edən həkimlərin maddi vəziyyətinin yaxşılaşdırılması və onların əməyinə layiqli qiymətin verilməsi üçün əmək haqlarının artırılması məsələsi həll olunub. Onlar maaşın 3–5 mislini alacaqlar və artıq göstərişlər verilib, vəsait də ayrılıbdır. Fürsətdən istifadə edərək, Azərbaycan həkimlərinə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Onlar doğrudan da böyük qəhrəmanlıq göstərirlər, öz həyatlarını, sağlamlıqlarını risk altına atırlar, ancaq öz vəzifə borclarını şərəflə yerinə yetirirlər. Mən bütün vətəndaşları həkimlərə dəstək olmağa çağırıram. O cümlədən bu xəstəliyə yoluxmuş insanlara da – biz, əlbəttə, başa düşürük ki, onların həm fiziki, həm də psixoloji vəziyyəti bu xəstəliyin təsiri altındadır – müraciət edərək, həkimlərə qarşı diqqətli olmalarını tövsiyə edərdim.

Yəni bütün tədbirlər görülüb. Hesab edirəm ki, martın 14-də və dünən elan edilmiş əlavə məhdudlaşdırıcı tədbirlər vaxtında atılmış addımlardır. Çünki biz addımlarımızı yaranmış vəziyyətə uyğun atırıq. Eyni zamanda, biz vəziyyətin mənfi istiqamətdə inkişafının qarşısının alınması üçün də bu qabaqlayıcı tədbirləri görməklə özümüzü qoruyuruq. Biz dövlətimizi, xalqımızı, xüsusilə yaşlı insanları qorumalıyıq. Onların da hərəkətlərinə müəyyən məhdudiyyət qoyulubdur. Hesab edirəm ki, bu da anlaşılan məsələdir. Çünki ən riskli qrup məhz yaşlı insanlardır.

Yaşlı tənha insanların təminatını təchiz etmək üçün mənim göstərişimlə sosial işçilərin səfərbərliyi nəzərdə tutulur və onlar bu işi görəcəklər. Eyni zamanda, fürsətdən istifadə edərək, çoxminli könüllülər ordusuna da müraciət etmək istəyirəm. Hesab edirəm ki, bizim könüllülərimiz də bu işlərə qoşulmalıdırlar, Operativ Qərargahla təmas saxlamalı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əlaqədə olmalıdırlar. Hər halda, nazirliyə də göstəriş verilib ki, yaşlı insanlara onların yaşadıqları yerlərdə xidmətlər göstərilsin – istər dərman preparatları olsun, istərsə də ərzaq – biz tənha yaşayan yaşlı insanları qorumalıyıq.

Hesab edirəm ki, xalqımızın adət-ənənələri, milli dəyərləri bizə bu virusla mübarizədə kömək edəcək. Çünki yaşlı insanlara həmişə böyük hörmət göstərilir. Yaşlı insanlar nadir hallarda tənha yaşayırlar. Azərbaycanda belə insanların sayı çox deyil, təqri-

bən bir neçə min nəfərdir. Ancaq onların da təminatı nəzərdə tutulacaqdır.

Bir sözlə, hesab edirəm ki, bu günə qədər görülmüş bütün işlər vaxtında və düzgün istiqamətdə atılmış addımlardır. Dövlət əlindən gələni edir və edəcək. Ancaq bu faciəvi xəstəliyə qarşı mübarizədə vətəndaşlardan da çox şey asılıdır. Mən vətəndaşları bir daha məsuliyyətə çağırıram ki, onlar yeni qaydalara, xüsusi karantin rejiminə riayət etsinlər, bu məsələni çox ciddi qəbul etsinlər. Bilsinlər ki, həm özlərinin, həm də yaxınlarının sağlamlığı onların əlindədir. Dövlət nə mümkündürsə edir. Ancaq vətəndaşların məsuliyyəti, nizam-intizamı bu məsələ ilə bağlı mübarizəmizi daha da məqsədyönlü və uğurlu edəcəkdir.

**S u a l: Cənab Prezident, Sizin fərmanınızla Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb. Siz və Mehriban xanım Əliyeva birillik əməkhaqqınızı həmin fonda ianə etmisiniz. Bu çox gözəl bir nümunədir. Artıq ayrı-ayrı şəxslər və digər qurumlar da həmin fonda pul vəsaiti köçürürlər. Bunu necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bilirsiniz, Azərbaycan bu sahədə də birincilik göstərdi. Mənə bu gün səhər verilən məlumata görə, bəzi başqa ölkələrdə də buna oxşar fondlar yaradılır. Buna ancaq sevinə bilərik. Çünki birinci dəfə deyil ki, Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər sonra başqa ölkələr tərəfindən də əsas götürülərək, eyni addımların atılmasına gətirib çıxarır.

Fondun yaradılmasının əsas məqsədi milli həmrəyliyi daha da gücləndirməkdir. Sirr deyil ki, bu gün Azərbaycan dövləti güclü dövlətdir və bizim kifayət qədər böyük maliyyə imkanlarımız vardır. Bax, bu gözəl şəhərsalma layihəsi bunun əyani təzahürüdür. Böyük vəsait tələb edən bir çox işlər görülür. Fondun yaradılmasının əsas məqsədi ondan ibarətdir ki, hər bir vətəndaş imkan daxilində öz vətəndaş mövqeyini göstərsin, həmrəylik göstərsin, cəmiyyətimizin əsas sütunlarından biri olan həmrəylik və mərhəmət bir daha özünü büruzə versin. Biz həm özümüzə, həm də bütün dünyaya göstərək ki, biz böyük xalqıq.

Şadam ki, qısa müddət ərzində bu fonda verilən ianələr artıq böyük rəqəmlərə gəlib çatıbdır. Fond yarandıqda Prezidentin ehtiyat fondundan 20 milyon manat ayrılıb. Fond bir neçə gündür ki, o ianələri qəbul etməyə başlayıbdır. Ancaq dünən axşam mənə verilən məlumata görə, fondda artıq 60 milyon manat vəsait yığılıbdır. Bu, xalqımızın nə qədər böyük və yüksək keyfiyyətlərə malik olduğunu bir daha göstərir.

Mənim göstərişimlə «koronavirusinfo.az» saytında bütün vətəndaşların və şirkətlərin adları, onların ianələrinin məbləği göstərilir, özü də əlifba sırası ilə. Biz hamımız bərabərik və vəsaitdən asılı olmayaraq, bütün insanların, bütün şirkətlərin adları əlifba sırası ilə dərc edilir.

Fürsətdən istifadə edərək, bu günə qədər fonda ianə vermiş bütün insanlara, bütün şirkətlərə dərin minnətdarlığımı bildirirəm. Bu bir daha bizim bir-

liyimizi, gücümüzü göstərir və onu göstərir ki, biz birgə səylərlə bu xəstəliyə qalib gələcəyik.

**S u a l: Cənab Prezident, Sizin sərəncamınızla Nazirlər Kabinetinə 1 milyard manat vəsait ayrıldı. Bu vəsait iqtisadiyyatın stimullaşdırılmasına nə dərəcədə töhfə verəcəkdir?**

**C a v a b:** Əlbəttə, biz bu haqda da düşünürük. Görülmüş tədbirlər sırasında ilk növbədə, məşğulluq problemləri ön plandadır. Çünki sirr deyil ki, indi ölkələr özlərini təcrid vəziyyətinə salır və iqtisadi əlaqələr kəsilir, pozulur. Baxmayaraq ki, yükdaşımalarda normal vəziyyət müşahidə olunur, ancaq iqtisadi əlaqələrin, iqtisadi fəallığın zəifləməsi, əlbəttə, ilk növbədə, məşğulluğa mənfi təsir göstərə bilər. Ona görə 1 milyard manatın ayrılmasının əsas məqsədi ondan ibarətdir ki, sahibkarlığa dəstək verilsin, xəstəlikdən və onun fəsadlarından əziyyət çəkmiş sahibkarlara dövlət öz maliyyə dəstəyini göstərsin.

Eyni zamanda, biz artıq çox ciddi çağırışlar etmişik. Fürsətdən istifadə edərək, mən bu gün bir daha bütün sahibkarlara çağırış etmək istəyirəm ki, onlar işçiləri ixtisar etməsinlər. Çünki indiki şəraitdə bunu etmək bizim həmrəylik təşəbbüsümüzə zidd ola bilər. Ancaq təbii ki, əgər sahibkarın da fəaliyyəti məhdudlaşıbsa, o, itkilərə məruz qalır və burada dövlət öz dəstəyini verməlidir. Dövlət bunu edəcək. Bu xəstəliklə bağlı ən həssas sahibkar qruplarına xüsusi maliyyə dəstəyi də göstəriləcək, vergi güzəştləri də ediləcək, digər imtiyazlar da veriləcəkdir. Ancaq bizim əsas tələbimiz və tövsiyəmiz ondan ibarətdir ki, sahibkarlar işçiləri ixtisar etməsinlər.

Ona görə bu 1 milyard manat məbləğində vəsaitin necə xərclənəcəyi haqda vətəndaşlara müntəzəm olaraq məlumat veriləcək. Çünki burada məşğulluq məsələləri ön plandadır, makroiqtisadi sabitlik təmin edilməlidir.

Biz bu ili çox yaxşı nəticələrlə, yaxşı göstəricilərlə başlamışıq. İnflyasiya cəmi 2,8 faiz, əhalinin gəlirləri isə 9 faizdir. İqtisadiyyat 2,8 faiz artıb, amma qeyri-neft sektoru 6,7 faiz. Qeyri-neft sektorunda sənaye istehsalı 21,7 faiz artıb – yəni ilə çox yaxşı göstəricilərlə başlamışıq. Vergi və gömrük orqanları proqnozdan əlavə, 250 milyon manat vəsait toplayıbdır. Ancaq biz yaxşı başa düşürük ki, bu tendensiyaya sanki məhdudiyyət qoyulur. Çünki biz indi bu templərlə arta bilmərik. Ona görə makroiqtisadi vəziyyətin sabit saxlanılması üçün həmin vəsaitdən istifadə olunacaqdır. Eyni zamanda, dediyim kimi, sahibkarlığın inkişafı, sahibkarlara dəstəyin verilməsi, bizim ümumi maliyyə vəziyyətimizin sabit saxlanılması üçün bu vəsaitdən istifadə olunacaqdır. Bu sahədə də Azərbaycan bu böyük addımı atmaqla, yerləşdiyi regionda birincilik göstərdi. Bir daha demək istəyirəm ki, dövlət tərəfindən görülmüş bütün işlər bir məqsədi güdür ki, biz bu ağır, çətin vəziyyətdən az itkilərlə çıxaq. Ancaq eyni zamanda, hər bir vətəndaş bilməlidir və Avropanın aparıcı ölkələrinin təcrübəsi də göstərir ki, əgər burada hökumətlə vətəndaşlar arasında birlik olmasa, biz bu xəstəliyin acı fəsadlarını yaşamalı olacağıq. Biz bu günə qədər həmişə xalq–iqtidar birliyinin hesabına inkişafa nail olmuşuq. Bu gün

Azərbaycanın əsas təkanverici qüvvəsi xalq–iqtidar birliyidir. Çünki bizim siyasətimiz xalq tərəfindən həmişə dəstəklənib və bu dəstəyi biz bu gün də görürük. Vətəndaşlardan yalnız və yalnız məsuliyyət tələb edirik. Xahiş edirik, məsuliyyətli olun, öz yaxınlarınıza arxa olun, dayaq olun, yaşlı nəslin nümayəndələrinə arxa olun, onları qoruyun, özünüzü qoruyun, uşaqlarınızı qoruyun. Dünən xüsusi karantin rejimi tətbiq edilib, buna əməl edin. Mən əminəm ki, həm milli həmrəylik, həm məsuliyyət, həm də milli birliyimiz bizə imkan verəcək ki, bu xəstəliyə qalib gələk. Biz birlikdə güclüyük.

**M ü x b i r:** Çox sağ olun, cənab Prezident. Suallarımızı ətraflı cavablandırdığınıza görə minnətdarıq.

* * *

*Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda son illərdə bütün sahələrdə sürətli inkişaf əldə edilib, ölkəmizin hərtərəfli tərəqqisi təmin olunubdur. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, sosial layihələrin uğurlu icrasını təmin edir və bu proses ardıcıl xarakter alıbdır. Bütün bunlar dövlət başçısının səyləri nəticəsində mümkün olubdur. Prezident İlham Əliyev əhalinin sosial rifah halının daha da yüksəldilməsinə xüsusi qayğı göstərir, bu istiqamətdə görülən işləri diqqət mərkəzində saxlayır. Ölkədə sosial sahədə həyata keçirilən tədbirlər əhəmiyyəti və miqyası ilə seçilir. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımların ardıcıllığını təmin etmək üçün dövlət tərəfindən bütün zəruri*

*işlər görülüb və hazırda da davam etdirilir. Bu baxımdan, Mənzil İnşaatı Dövlət Agentliyinin ikinci layihəsi olan Hövsan yaşayış kompleksinin istifadəyə verilməsi xüsusi əhəmiyyətə malikdir. Bu layihənin icrası Prezident İlham Əliyevin vətəndaşlarımızın sosial məsələlərinin həllinə yüksək diqqət və qayğı ilə yanaşmasının növbəti təzahürüdür. Vətəndaşların mənzil-məişət şəraitini yaxşılaşdırmaq, müasir memarlıq üslubunda ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən çoxmənzilli yaşayış binalarının tikintisini təmin etmək baxımından da bu layihə əhəmiyyəti ilə seçilir.*

## «YENİ KLİNİKA» TİBB MÜƏSSİSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*28 mart 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 28-də Bakıda «Yeni klinika» tibb müəssisəsinin açılışında iştirak etmişlər.*

*Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin – TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı dövlət başçısına burada yaradılmış şərait barədə məlumat verdi.*

*Bildirildi ki, müvəqqəti olaraq, sabahdan etibarən bu müəssisədə koronavirusa yoluxan və ağır simptomları olan xəstələr müalicə alacaqlar. Bu tibb ocağında quraşdırılmış avadanlıqlar istər müalicə, istərsə də müayinə işini ən yüksək səviyyədə və dəqiqliklə yerinə yetirməyə hərtərəfli imkan verir. Görülmüş bütün bu işlərin isə bir məqsədi var: Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin olunması. Tibb ocağı 575 çarpayılıqdır. Burada cərrahiyyə, terapiya, təcili tibbi yardım, poliklinika, ürək və damar cərrahiyyəsi, neyrocərrahiyyə, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Xəstəxanada 1500-dən artıq həkim və tibbi heyət çalışacaqdır.*

*«Yeni klinika» tibb müəssisəsində yaradılmış şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev xəstəxananın kollektivi ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Bu gün ölkəmizin ən böyük xəstəxanalarından biri olan yeni xəstəxana fəaliyyətə başlayır. Bu çox əlamətdar hadisədir. Xəstəxana bütün müasir standartlara cavab verir. Xəstəxana binasının həm xarici görünüşü çox gözəldir, həm də memarlıq baxımından şəhərimizin simasına əlavə yaraşıq verir. Ən önəmlisi isə odur ki, bu xəstəxanada ən müasir standartlar tətbiq olunur, ən müasir avadanlıqlar alınıb, təchizatla bağlı bütün işlər ən yüksək səviyyədə görülübdür. Hesab edirəm ki, bu gün bu xəstəxana Azərbaycanda təchizat baxımından, avadanlıq baxımından və burada göstəriləcək xidmət baxımından aparıcı xəstəxanadır.

Bildiyiniz kimi, bu xəstəxana mənim təşəbbüsümlə inşa edilibdir. Yadımdadır, bu qərar qəbul olunanda bəziləri hesab edirdi ki, buna ehtiyac yoxdur. Çünki son illər ərzində ölkəmizdə bir çox xəstəxanalar inşa edilib və yeni böyük xəstəxananın inşası hesab olunurdu ki, lazımsızdır. Ancaq həyat onu göstərdi ki, bu çox düzgün və vaxtında verilmiş qərar idi. Çünki sabahdan etibarən bu xəstəxanada koronavirus xəstələri müalicə olunacaqlar. Pandemiya başa çatana qədər bu xəstəxanada yalnız koronavirus xəstələri müalicə alacaqlar. Ona görə bu xəstəxa-

nanın işə düşməsi, əlbəttə, koronavirusa qarşı mübarizədə bizə əlavə imkanlar yaradacaqdır.

Onu da bildirməliyəm ki, xəstəxananın açılışı yayın sonunda, payız aylarının əvvəllərində nəzərdə tutulurdu. Ancaq pandemiyaya görə işlər sürətləndirildi, əlavə vəsait ayrıldı, qüvvələr səfərbər olundu və biz xəstəxananın mərhələli yollarla fəaliyyətə başlamasını təmin edirik. Xəstəxanada 575 çarpayı nəzərdə tutulur. Ancaq birinci mərhələdə 100, ondan sonra 300 çarpayı xəstələrin sərəncamına veriləcəkdir. Xəstəxananın ümumi sahəsi 100 min kvadratmetrə yaxındır. Burada 70 reanimasiya yeri vardır. Bu da koronavirus xəstələrinə göstəriləcək xidmətin önəmli hissəsini təşkil edir. 21 əməliyyatxana mövcuddur. Hazırda bu əməliyyatxanalara ehtiyac yoxdur. Ancaq pandemiya başa çatdıqdan sonra bu xəstəxana öz profili üzrə fəaliyyətini davam etdirəcəkdir.

Koronavirus xəstələrinin buraya yerləşdirilməsi hesab edirəm ki, ən düzgün qərardır. Çünki hazırda bu insanlar ən həssas təbəqədir və onların müalicəsi, onlara lazımi tibbi xidmətin göstərilməsi ən vacib məsələdir. Siz həkimlər yaxşı bilirsiniz ki, hazırda hətta ən inkişaf etmiş ölkələr belə, bu xəstəliklə mübarizədə böyük problemlər yaşayır və inkişaf etmiş ölkələrdə gündə 1000-ə yaxın insan vəfat edir. Əgər tibb sahəsi çox inkişaf etmiş ölkələrdə bu xəstəliklə bağlı belə böyük problemlər varsa, təsəvvür etmək çətin deyil ki, bizim üçün nə qədər böyük problem yarana bilər. Ona görə koronavirus xəstələrinə ən yüksək xidmətin göstərilməsi üçün ölkəmi-

zin ən müasir, ən gözəl xəstəxanası mənim qərarımla onların ixtiyarına verilir və siz həkimlər burada onlara xidmət göstərəcəksiniz.

Bütövlükdə son illərdə ölkəmizin səhiyyə sisteminin təkmilləşdirilməsi sahəsində böyük işlər görülmüşdür. 2004-cü ildən bu günə qədər 750-dən çox tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilibdir. Onların bir çoxunun açılışında mən şəxsən iştirak etmişəm. Bu gün Azərbaycanda elə şəhər yoxdur ki, orada müasir tibb mərkəzi, xəstəxana olmasın. 3-4 şəhərdə Mərkəzi Rayon Xəstəxanasının tikintisi davam edir və yaxın vaxtlarda orada da açılışlar gözlənilir. Təkcə bu il Qazax, Goranboy və Şəmkir şəhərlərində mənim iştirakımla Mərkəzi Rayon xəstəxanalarının açılışı olmuşdur. Təsəvvür edin, əgər biz bu sahəyə fikir verməsəydik, bu gün bizim vəziyyətimiz, əlbəttə ki, tələbatımızı təmin edə bilməzdi. Xatırlayıram, 2004-cü ildə mən Prezident kimi, fəaliyyətimə yenicə başlamışdım, Lənkəran şəhərində yaşayış binasının çökməsi nəticəsində bir neçə insan həlak oldu, bir çox insan yaralandı. Mən dərhal Lənkərana getdim, xəstələrə baş çəkdim və orada gördüyüm mənzərə məni dəhşətə gətirdi. Çünki xəstəxana adlandırılan o binaya xəstəxana demək qətiyyən mümkün deyildi. Yəni dağılmış bina, çürümüş avadanlıq, palatalarda heç bir avadanlıq yox idi, adi yataqlar qoyulmuşdu. Dedim ki, bu nədir? Dedilər ki, bizim Mərkəzi Rayon Xəstəxanamızdır. Dedim ki, ağır xəstələr haradadır? Dedilər ki, reanimasiyada. Dedim aparın məni reanimasiyaya, mən onlara baş çəkmək istəyirəm.

Reanimasiya nə imiş? Biz bir mərtəbə qalxdıq, eyni otaq, eyni divarlar, eyni taxta yataq, bir dənə də avadanlıq yox idi. Dedim, budur reanimasiya? Dedilər, bəli. Bax, 2004-cü ildə bizim səhiyyə sistemimizin vəziyyəti bu idi. Mənim göstərişimlə dərhal Lənkəran şəhərində ilk dəfə olaraq, Müalicə-Diaqnostika Mərkəzinin tikintisinə start verildi. Ondan sonra bölgələrimizdə 20-yə yaxın Müalicə-Diaqnostika Mərkəzi inşa edildi. O ki qaldı Mərkəzi Rayon xəstəxanalarının inşasına, dediyim kimi, bəlkə də iki şəhərdə hələ ki, bu xəstəxanalar lazımi səviyyədə deyil, ancaq onların da inşası nəzərdə tutulur.

Bu gün biz koronavirus xəstələrini bir neçə xəstəxanada yerləşdiririk, o cümlədən Bakı şəhərində və bölgələrdə. Əgər bizdə bu infrastruktur olmasaydı, bu xəstəliyə qarşı necə mübarizə apara bilərdik?! Eyni zamanda, onu da bildirməliyəm ki, son illərdə həkimlərin peşəkarlığı xeyli artıb. İndi təsəvvür etmək olmur ki, 10–15 il bundan əvvəl Azərbaycanda çox çətin əməliyyatların həyata keçirilməsi mümkünsüz idi. Bu gün isə bizim həkimlərimiz ən çətin əməliyyatları aparırlar, insanları həyata qaytarırlar, neçə ildir ki, açıq ürək, orqanların transplantasiyası əməliyyatları keçirilir. Yəni bütün bunları bir neçə il əvvəl təsəvvür etmək belə, mümkün deyildi. Həkimlərin təlimi, onların peşəkarlığının artırılması sahəsində böyük işlər görüldü. Bizim tələbələrimiz xarici ali tibb məktəblərinə ezam edildilər, həmçinin kurslarda təlim keçdilər. Odur ki, bu gün bizim səhiyyə infrastrukturumuz həkimlərin peşəkarlığı və bilikləri ilə uzlaşmalıdır. Hələ ki, bu

istiqamətdə görüləsi işlər çoxdur. Əlbəttə, siz yaxşı bilirsiniz ki, dünya tibb elmi sürətlə inkişaf edir. Bu gün elə xəstəliklər müalicə olunur ki, əvvəlki illərdə bu xəstəliyin çarəsi yox idi. Ona görə Azərbaycan həkimləri, xüsusilə həkimlərin gənc nəsli, orta nəsli daim öz üzərində işləməlidir ki, bütün dünyada mövcud olan və yaranan yeni texnologiyalar, yeni müalicə qaydaları, yeni müalicə üsulları bizdə tətbiq olunsun. Mən hesab edirəm ki, bu sahədə əlavə işlərin görülməsi lazımdır.

Əlbəttə, hesab edirəm ki, icbari tibbi sığortanın Azərbaycanda tam tətbiq edilməsi nəticəsində biz səhiyyə sistemində çox ciddi dönüşə nail olacağıq. Bildiyiniz kimi, 3 şəhərdə pilot layihə həyata keçirilib. Mənə verilən məlumata görə, o şəhərlərin sakinləri İcbari Tibbi Sığorta Agentliyinin fəaliyyətindən çox razıdırlar, həkimlər də razıdırlar, xəstələr də lazımi müalicə alırlar. Ona görə bu ildən başlayaraq, ölkə üzrə icbari tibbi sığortaya tam keçid nəzərdə tutulurdu. Ancaq koronavirus xəstəliyinin müdaxiləsi nəticəsində bu proqramın icrası müəyyən dərəcədə təxirə salına bilər. Çünki biz öz addımlarımızı vəziyyətə görə atmalıyıq. O cümlədən hesab edirəm ki, koronavirusla mübarizədə də biz qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində vəziyyəti nəzarət altında saxlayırıq. Halbuki bir daha demək istəyirəm, ən inkişaf etmiş ölkələrdə vəziyyət nəzarətdən çıxıbdır. Minlərlə insanın ölməsi və xəstəliyin, demək olar ki, dünyada geniş yayılması bütün ölkələr üçün böyük sınaqdır, böyük çağırışdır. Biz elə işləməliyik, elə tədbirlər görməliyik ki, bu və-

ziyyətdən az itkilərlə çıxaq. Bu məqsədlə mənim göstərişimlə operativ qərargah yaradıldı. Qərargah 24 saat işləyir. Hesab edirəm ki, qərargahın fəaliyyəti nəticəsində biz çox önəmli addımlar ata bildik.

Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq. Hesab edirəm ki, biz birinci ölkələrdən idik ki, bu təşkilatla təmas yaratdıq və onların mütəxəssislərini ölkəmizə dəvət etdik. Onlar vəziyyətlə tanış oldular və bizdə görülən işlərə yüksək qiymət verdilər. Eyni zamanda, biz beynəlxalq aləmin məsuliyyətli və çox dəyərli üzvü kimi, Ümumdünya Səhiyyə Təşkilatına koronavirusla mübarizə aparmaq üçün 5 milyon dollar ianə verdik. Bu da bizim ümumi işimizə, dünyanın üzləşdiyi problemin həllinə verdiyimiz dəyərli töhfədir. Əlbəttə, ölkəmizdə görülən bütün işlər, qəbul edilmiş qərarlar bir məqsədi güdür ki, biz bu ağır sınaqdan az itkilərlə çıxaq və vətəndaşlarımızı maksimum dərəcədə qoruyaq. Ona görə martın 14-də və ondan sonrakı tarixlərdə qəbul edilmiş qərarlar, karantin rejiminin tətbiq olunması, sabahdan etibarən yeni məhdudlaşdırıcı tədbirlərin görülməsi və onların qüvvəyə minməsi hesab edirəm ki, vəziyyətə uyğun atılmış addımlardır. Çünki biz birinci ölkələrdən idik ki, ali məktəbləri, məktəbləri, uşaq bağçalarını bağladıq, quru sərhədlərimizi bağladıq, aviareyslərin sayını kəskin azaltdıq. Hazırda cəmi 2 istiqamət üzrə, özü də həftədə bir dəfə aviareyslər təşkil edilir. Bu aviareyslər ancaq Azərbaycan vətəndaşlarını ölkəmizə gətirmək rejimində işləyir. Onu da bildirməliyəm ki, bu

günə qədər 10 mindən çox Azərbaycan vətəndaşı digər ölkələrdən ölkəmizə təxliyə edilibdir.

Hazırda Azərbaycana gəlmiş hər bir insan karantinə yerləşdirilir. Hesab edirəm ki, bizim karantin üçün də gördüyümüz işlər nümunəvi xarakter daşıyır. Çünki karantinə alınan insanlar dörd və ya beşulduzlu hotellərdə, o cümlədən 1000-dən çox insan isə Atletlər kəndində saxlanılır.

Fürsətdən istifadə edərək, iş adamlarına bu hotelləri ümumi işimizə təmənnasız təqdim etdikləri üçün minnətdarlığımı bildirmək istəyirəm. Onların arasında ölkəmizin ən böyük hoteli olan «Bulvar Hotel» bu xəstəliklə mübarizə aparmaq üçün öz imkanlarını tamamilə təqdim etdi. «Qafqaz», «Pullman» hotelləri, bölgələrdə, o cümlədən Lənkəran şəhərində, Lerik şəhərində, bizim digər şəhərlərimizdə, Nabranda yerləşən hotellər – yəni bizim 4 və 5 ulduzlu bütün əsas hotellərimiz, istirahət zonaları karantində saxlanılan insanların sərəncamına verildi. Bundan başqa, bizim bəzi dövlət qurumlarının istirahət zonaları vardır, onlar da bu işə cəlb edildilər. Yəni bir daha demək istəyirəm ki, karantində qalan insanların rahatlığı təmin edilib, dövlət bütün xərcləri öz üzərinə götürübdür. Belə də olmalıdır. Bizim dövlətimiz hər zaman vətəndaşın yanındadır və bu ağır günlərdə bir daha biz bunu nümayiş etdirdik.

Ölkəmizin bir nömrəli xəstəxanasını koronavirus xəstələrinin sərəncamına vermək – bundan böyük addım ola bilməz. Əvvəlki dövrlərdə qəbul edilmiş bütün qərarlar da vəziyyətə uyğun verilirdi, o cüm-

lədən ictimai iaşə obyektlərinin iş qrafikinin məhdudlaşdırılması da. Çünki biz başa düşürük ki, insanlar artıq buna öyrəşib, bəzi insanlar artıq öz evlərində yemək bişirmirlər, gedirlər ictimai iaşə obyektlərində qidalanırlar. Biz başa düşürdük ki, bəri başdan bu obyektləri bağlamaq olmaz. Biz tədricən bunu etdik, iş rejimini məhdudlaşdırdıq. Amma indi görürük ki, bu obyektlər koronavirus xəstəliyinin yayılmasında, əfsuslar olsun ki, böyük rol oynayır. Ona görə sabahdan etibarən bu obyektlər öz fəaliyyətini dayandırır. Biz bu elanı dünən axşam verdik ki, o obyektlərin sahibləri üçün müəyyən vaxt olsun, öz işlərini sahmana salsınlar, öz obyektlərinin fəaliyyətinin dayandırılması üçün hazırlıq işləri görsünlər. O cümlədən ticarət obyektlərinin sahiblərinə də bir gün yarım vaxt verildi ki, öz işlərini sahmana salsınlar. Biz hər bir qərarı qəbul edərkən həm xəstələri, həm sahibkarları, həm də işləyən insanları düşünürük ki, bu vəziyyətdən az itkilərlə çıxaq.

Əlbəttə, koronavirus ölkə iqtisadiyyatına da böyük zərbədir. Bizim iqtisadiyyatımız yanvar–fevral aylarında çox yüksək templərlə inkişaf edib. Təkcə onu demək kifayətdir ki, qeyri-neft sektorunda iqtisadi artım 6,7 faizdir. Bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir. Qeyri-neft sektorunda sənaye istehsalı isə 21,7 faiz artıb. Mən düşünürəm ki, bu, rekord göstəricidir. İnflyasiya 2,8 faizdir, əhalinin gəlirləri 9 faiz artıb. Yəni bu artım inflyasiyanı böyük dərəcədə üstələyir. Orta əməkhaqqı əhəmiyyətli dərəcədə artıb. Azərbaycana gələn

turistlərin sayı yanvar–fevral aylarında 18 faiz artıb. Onu da nəzərə almalıyıq ki, son 5 il ərzində turistlərin sayı ardıcıllıqla artıbdır. Yəni bütün bunlara indi elə bil ki, ara verilir. Əlbəttə ki, indiki şəraitdə bütün ölkələr böyük iqtisadi çətinliklərlə üzləşir. İnkişaf etmiş ölkələrin dövlət və hökumət başçıları artıq açıq bəyan edirlər ki, bu xəstəlik çox ciddi böhrana gətirib çıxaracaq. Eyni zamanda, aparıcı beynəlxalq maliyyə qurumları da artıq açıq şəkildə bəyan edirlər ki, bu xəstəlik və onun törətdiyi və törədə biləcəyi fəsadlar 2008–2009-cu illərin böhranından daha da ağır olacaqdır. Dünya iqtisadiyyatına böyük zərbə vurulubdur. Üstəgəl neftin qiyməti də 2 dəfədən çox düşüb və 24 dollar səviyyəsindədir. Bu, əlbəttə ki, bizim üçün böyük itkilərə gətirib çıxaracaq. Ancaq bizim əvvəlcədən qəbul edilmiş qərarlar əsasında gördüyümüz işlər imkan verəcək ki, biz bu sınaqdan da şərəflə çıxa bilək.

Amma hər kəs başa düşməlidir ki, dünya yeni dövrə qədəm qoyub. Bu nə qədər davam edəcək, heç kim bilmir. Xəstəlik nə qədər davam edəcək, heç kim bilmir. Hesab edirəm ki, bütün proqnozlar şərti xarakter daşıyır. Bu xəstəliyin fəsadları özünü hansı formada büruzə verəcək? Bunu da biz bilmirik. Çünki biz hələ ki, bu xəstəliyin ibtidai mərhələsindəyik və özümüzü maksimum qorumalıyıq.

Dövlət bütün işləri görür. Qeyd etdiyim tədbirlər hesab edirəm ki, ən düzgün tədbirlərdir. Eyni zamanda, sahibkarları, işini itirənləri dəstəkləmək üçün mənim sərəncamımla Nazirlər Kabinetinə 1 milyard manat vəsait ayrılıb, 4 işçi qrupu yaradılıbdır. Bu işçi

qruplarının vəzifəsi məşğulluq məsələlərini həll etmək, iqtisadi sabitliyi təmin etmək, makroiqtisadi vəziyyəti sabit saxlamaq və bizim maliyyə imkanlarımızı səfərbər etməkdir. Bu işçi qrupları fəaliyyətə başlayıb və təkliflər hazırlanır. Biz mütləq həm xəstələrə sahib çıxacağıq və çıxırıq, həm də ki, iş adamlarına. Xüsusilə bildirməliyəm ki, Azərbaycanın iş adamları və Azərbaycan cəmiyyəti bu vəziyyətdə özünü çox ləyaqətlə aparır. Bilirsiniz ki, mənim təşəbbüsümlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb və Prezidentin ehtiyat fondundan ilkin olaraq 20 milyon manat bu fonda ianə verilibdir. Fondun fəaliyyətə başlamasından 10 gün keçməyib, dünən axşam mənə verilən məlumata görə, artıq bu fondda 90 milyon manat yığılıbdır. Bunun mütləq əksəriyyəti şirkətlər tərəfindən verilmiş ianələrdir. Buna görə mən Azərbaycanın biznes nümayəndələrinə təşəkkürümü bildirirəm. Onlar əsl vətənpərvərlik və həmrəylik nümayiş etdiriblər. Eyni zamanda, adi insanlar da imkan daxilində dəstəklərini göstərirlər. Mənə müntəzəm olaraq məlumat verilir. Elə adam var ki, bir manat köçürür. Ona «Çox sağ ol!» – deyirik. O da öz vətəndaşlıq borcunu yerinə yetirir.

Deməli, onun imkanı buna çatır. Bu bir daha göstərir ki, biz – mən bunu demişəm, bir daha demək istəyirəm – böyük xalqıq, ən ağır dövrdə birləşə bildik. «Biz birlikdə güclüyük!» şüarı hesab edirəm ki, bu xəstəlik başa çatdıqdan sonra da qüvvədə olacaq. Biz bu birliyi, həmrəyliyi nümayiş etdiririk.

Hesab edirəm ki, bizim hələlik tam razı ola bilmədiyimiz yeganə məsələ məsuliyyətdir. Çünki bəzi insanlar özlərini məsuliyyətsiz aparırlar. Bəzi insanlar qəbul edilmiş qaydaları pozmağa çalışırlar. Beləliklə, həm özlərini, həm yaxınlarını, həm də ki, tanımadığı insanları risk altına qoyurlar. Bunu etmək olmaz. Bu qadağalar ona görə qəbul edilib ki, yoluxma halları məhdudlaşdırılsın. Yaşı 65-dən yuxarı olan insanlar küçəyə çıxa bilməzlər. Bunu onlar başa düşməlidirlər. Bizim polis işçiləri onları çox mülayim formada başa salmağa çalışırlar. Siz indi yaxşı bilirsiniz ki, bəzi ölkələrdə polis nümayəndələri necə davranırlar. Televizorda görürük, heç 2-3 sual da vermir, dərhal hərəkətə keçir. Bizim polisimiz insanları qoruyur. İndi onların üzərinə böyük yük, böyük məsuliyyət düşür. Onlar da öz sağlamlıqlarını risk altına atırlar. Gecə-gündüz küçələrdə onu başa sal, bunu başa sal. Biz nə etməliyik?! Qaydaların pozulmasına imkan verə bilmərik. Biri deyir ki, mənə heç nə olmaz, biri deyir ki, mən qorxmuram. Söhbət ondan getmir ki, sənə heç nə olmaz, yoxsa olar. Birincisi, sənə bir şey olarsa, gərək ən azı 10 həkim sənə qulluq etsin, 10 həkim öz həyatını, sağlamlığını, yaxınlarının sağlamlığını risk altına atsın bir məsuliyyətsiz adama görə. Bu tamamilə qəbuledilməz bir fikirdir ki, «mən qorxmuram, mənə bir şey olmaz». Hesab edirəm ki, belə adamlar məsuliyyətə cəlb edilməlidirlər. Biz maksimum çalışırıq ki, bu vəziyyətdə insanların narahatlığını anlayaq və kömək göstərək. Hər kəs üçün çətindir. Aydın məsələdir ki, evdə oturmaq

çətindir. Xüsusilə nəzərə alsaq ki, son illər ərzində Bakı şəhərində, bütün digər yerlərdə, rayonlarda gözəl parklar, istirahət zonaları salınıbdır, hava da yaxşıdır. Ancaq hər bir adam məsuliyyətli olmalıdır. Olmaz belə. Yaşı 65-dən yuxarı insanlar evdə oturmalıdırlar. Vəssalam, birmənalı şəkildə! Həmçinin 10-dan çox insan bir yerə toplaşmamalıdır. Bunu da pozurlar. Ona görə də bu tədbirlər daha da sərtləşdiriləcəkdir.

İndi görün Avropanın inkişaf etmiş ölkələrində nələr baş verir. Orada 2 nəfərdən çox adam bir yerə yığışa bilməz, 2 nəfərdən çox. Əgər polis işçiləri bunu görürlərsə, dərhal ölçü götürürlər. Heç yalvar-yapış etmirlər, ölçü götürürlər. Ona görə bizdə hər bir kəsdə məsuliyyət hissi olmalıdır. Məsuliyyət hissi də bu gün sərgilədiyimiz həmrəylik və birlik hisslərinin səviyyəsinə qalxmalıdır.

Əlbəttə, bu mübarizədə əsas yük həkimlərin üzərinə düşür. Mən fürsətdən istifadə edərək, Azərbaycan həkimlərinə təşəkkürümü bildirmək istəyirəm. Biz onların maddi təminatının yaxşılaşdırılması üçün əlavə tədbirlər görmüşük. Bildiyiniz kimi, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3, 4, 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən diqqətin təzahürüdür. Ancaq mən bilirəm və tam əminəm ki, həkimlərin əsas motivasiyası bu deyil. Əsas odur ki, onlar öz vəzifə borclarını yerinə yetirmək istəyirlər. Onlar Hippokrat andına sadiqliklərini göstərmək istəyirlər. Onlar xalqımıza xas olan ən yüksək xüsusiyyətləri nümayiş etdirirlər və öz həyatlarını risk altına

ataraq, xəstələrə xidmət göstərirlər. Ona görə hər bir Azərbaycan vətəndaşı həkimlərə dəstək olmalıdır. O cümlədən koronavirusa yoluxmuş xəstələr başa düşməlidirlər ki, həkimlər belə ağır şəraitdə sadəcə olaraq, yeriməyə çətinlik yaradan geyimlərdə, maskalarda onlara xidmət göstərirlər. Ona görə həkimlər ən yüksək qiymətə layiqdirlər. Həkimlərə həmrəylik və dəstək üçün müxtəlif aksiyalar keçirilir və keçiriləcək. Ölkəmizin müasir memarlıq rəmzlərindən biri olan «Alov qüllələri»ndə də həkimlərə bizim münasibətimiz öz əksini tapacaqdır.

Mən bir daha demək istəyirəm ki, dövlət nə lazımdırsa edir. Həkimlər əllərindən gələni edirlər. Xalqımız birlik, həmrəylik nümayiş etdirir. Ümid edirəm ki, məsuliyyət də lazımi səviyyədə olacaqdır. Belə olan halda, biz bu çətin sınaqdan az itkilərlə çıxa bilərik, öz vətəndaşlarımızın sağlamlığını qoruya bilərik. Bir daha həm özümüzə, həm bütün dünyaya nümayiş etdiririk ki, biz böyük xalqıq.

Mən sizi ürəkdən salamlayıram. Sabahdan bizim ən gözəl xəstəxanamızda koronavirus xəstələrinin müalicəsi başlanacaq. Bu sizin üzərinizə çox böyük məsuliyyət qoyur. Mən sizə uğurlar arzulayıram. Arzu edirəm ki, siz sağlam olasınız, bu xəstəliyə yoluxmayasınız və öz vəzifə borcunuzu şərəflə yerinə yetirəsiniz. Sağ olun.

* * *

**Pərviz Abbasov** (*«Yeni klinika» tibb müəssisəsinin direktoru*): Möhtərəm cənab Prezident, günümüzün tələblərinə uyğun, beynəlxalq standartlara cavab verən möhtəşəm bir tibb mərkəzinin açılı-

şına görə bütün tibb işçiləri adından Sizə dərin minnətdarlığımı bildirirəm. Zamanında verilmiş fərmanlar, sərəncamlar, o cümlədən dövlət proqramları nəticəsində bizim çoxsaylı tibb mütəxəssisləri dünyanın müxtəlif ölkələrində tibbi ixtisasa yiyələnmişlər və onlar Vətənə qayıdaraq, burada xidmət göstərirlər. Bir qisim həkimlərimiz xarici ölkələrdə fəaliyyət göstərir. Belə tibb mərkəzlərinin olması onların Azərbaycanda rahat işləmələri üçün şərait yaradır. Müəssisəmiz yalnız tibbi xidmətin göstərilməsi deyil, eyni zamanda, ciddi elmi-tibbi tədqiqatların aparılması üçün də vacib mərkəzlərdən biridir.

Cənab Prezident, biz həkimlər hər zaman Sizin dəstəyinizi, dövlətimizin dəstəyini hiss etmişik. Xüsusilə Sizin son zamanlar həkimlərə göstərdiyiniz dəstək bizi daim ruhlandırır və eyni zamanda, bizim məsuliyyətimizi ikiqat artırmış olur.

**Nəzrin Mustafayeva** (*«Yeni klinika» tibb müəssisəsinin həkimi*): Hörmətli cənab Prezident, əzizimiz Mehriban xanım!

Sizi kollektivimizin və bütün Azərbaycan həkimlərinin adından salamlayıram. Məlumdur ki, həkimlərin ən böyük məqsədi insanların sağlamlığını təmin etməkdir. Bütün dünya ölkələrindəki kimi, bizim səhiyyəmiz də hazırda çətin bir sınaqla üzüzə qalıb. Bu sınaqdan ən yaxşı şəkildə, uğurla çıxmaq üçün ölkəmizin bütün tibb işçiləri səfərbər olublar. Bu çətin dövrdə Sizin də yanımızda olmağınız, bizə dəstək verməyiniz, çıxışlarınızla, müraciətlərinizlə, mükafatlarınızla səhiyyə işçilərimizi dəyərləndirməyiniz bizim ruh yüksəkliyimiz üçün ən

böyük amildir. Biz də öz növbəmizdə, Sizə söz veririk ki, əlimizdən gələni əsirgəməyəcəyik, xalqımızın sağlamlığı üçün bütün fədakarlığımızı göstərməyə hazırıq. Bir daha dəstəyiniz və inamınız üçün Sizə təşəkkürümü bildirirəm.

*Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkədə həyata keçirilən dövlət siyasətində səhiyyə sisteminin təkmilləşdirilməsi, bu sahənin müasirləşdirilməsi və inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi mühüm yerlərdən birini tutur. Ölkəmizdə son dövrlərdə çox sayda yeni tibb ocağı inşa edilib, mövcud xəstəxana və tibb mərkəzləri əsaslı şəkildə bərpa olunubdur. Bu müəssisələr ən müasir tibbi avadanlıq və qurğularla təchiz edilib. Bütün bunlarla yanaşı, tibbi heyətin peşəkarlığının artırılmasına da dövlət səviyyəsində xüsusi diqqət göstərilib. Bu gün təsadüfi deyil ki, ölkəmizdə ən ağır tibbi əməliyyatlar uğurla həyata keçirilir. Bu məsələdə şübhəsiz ki, müasir tibb ocaqlarının yaradılması mühüm yerlərdən birini tutur. Bu işlərin miqyası ildən-ilə daha da genişlənir. «Yeni klinika» tibb müəssisəsinin yaradılması və burada ən müasir tibbi avadanlıqların quraşdırılması bunu bir daha təsdiq edir. Burada dünyanın aparıcı ölkələrinin şirkətlərinin son elmi-texniki yeniliklərə əsaslanaraq hazırladığı tibb avadanlığı və qurğuları quraşdırılıbdır.*

## İQTİSADİYYAT NAZİRİ MİKAYIL CABBAROV İLƏ GÖRÜŞ

*31 mart 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də İqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul etmişdir.*

**İlham Əliyev**: Koronavirusa qarşı mübarizəni daha da səmərəli aparmaq üçün bu gündən etibarən yeni məhdudlaşdırıcı qaydalar qüvvəyə mindi. Əminəm ki, bütün vətəndaşlar bu qaydalara əməl edəcəklər. Yeni məhdudlaşdırıcı tədbirlərin əsas məqsədi bu mübarizədə daha da səmərəli addımların atılmasıdır və yoluxma hallarının dinamikasının azaldılmasıdır. Dövlət tərəfindən qəbul edilmiş bütün qərarlara və atılmış addımlara baxmayaraq, əfsuslar olsun ki, dinamika artır və bunun əsas səbəbi bəzi vətəndaşların məsuliyyətsizliyidir. Çünki Azərbaycan dövləti bu faciə ilə mübarizədə qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində ilkin mərhələdə böyük uğurlar əldə edib və bu gün də digər ölkələrlə müqayisədə Azərbaycanda vəziyyət daha əlverişlidir. Ancaq buna baxmayaraq, artıq daxili yoluxma halları vüsət alır və beləliklə, yoluxan insanların sayı artmaqdadır. Dünən 60-dan çox insan bu xəstəliyə yoluxub və əgər belə gedərsə, onda gələcək

günlərdə və gələcək aylarda bu xəstəliyin daha da geniş vüsət alması qaçılmaz olacaqdır.

Bir daha demək istəyirəm ki, Azərbaycan dövləti bütün lazımi tədbirləri görübdür. Biz bəri başdan bütün quru sərhədlərimizi bağladıq, karantin rejimini tətbiq etdik, bütün məktəblər, uşaq bağçaları, ali məktəblər, ictimai iaşə obyektləri bağlandı, aviareyslərimizin sayı kəskin azaldı və hazırda cəmi 2 beynəlxalq aviareys təşkil edilir, özü də həftədə bir dəfə. Beləliklə, bu xəstəliyin yayılmasına qarşı çox önəmli tədbirlər görüldü və xaricdən gələn vətəndaşların bu xəstəliyin yayılmasında rolu kəskin azaldı. Onu da bildirməliyəm ki, xaricdən gələn Azərbaycan vətəndaşları karantinə yerləşdirilir və hazırda 4500-ə qədər insan karantindədir. Karantin üçün də ən əlverişli şərtlər təqdim olundu, vətəndaşlar 4 və 5 ulduzlu hotellərdə, Atletlər kəndində, Lənkəran, Lerik, Nabran, Bakı şəhərinin hotellərində, istirahət zonalarında yerləşdirilir. Xəstələrə də şərait yaradılır, ölkəmizin müxtəlif yerlərində 10-dan çox xəstəxana koronavirus xəstələrinin sərəncamındadır və bu günlərdə ölkəmizin ən müasir xəstəxanası – «Yeni klinika» koronavirus xəstələrinin ixtiyarına verilibdir. Yəni bu, dövlət tərəfindən atılmış önəmli addımlardır. Amma buna baxmayaraq, bəzi vətəndaşların məsuliyyətsizliyi ucbatından bu xəstəlik Azərbaycanda daha geniş vüsət alır. Ona görə bu gündən etibarən qüvvəyə minmiş məhdudlaşdırıcı tədbirlərə hər bir vətəndaş əməl etməlidir. Əminəm ki, əgər insanlar özlərini məsuliyyətli apararlarsa və özünü-

təcrid qaydalarına əməl edərlərsə, biz bu xəstəliyin geniş yayılmasının qarşısını ala bilərik.

Biz indi yaxşı görürük ki, dünyanın müxtəlif yerlərində nələr baş verir. Dünyanın və Avropanın aparıcı ölkələrində, demək olar ki, vəziyyət nəzarətdən çıxır, hər gün ən inkişaf etmiş ölkələrdə 1000-ə yaxın insan vəfat edir və tibb personalı artıq lazımi xidmət göstərməkdə çətinlik çəkir. Xəstəxanalar doludur, xəstələri dəhlizlərdə yerləşdirirlər. Bir çox insanlar ona görə vəfat edirlər ki, onlara vaxtında operativ tibbi xidmət göstərilmir, o da buna görədir ki, xəstələrin sayı kəskin artır və heç bir ölkənin səhiyyə sistemi bu artan xəstələrin sayına uyğun xidmət göstərə bilməz. Çünki bütün ölkələrin səhiyyə sistemləri normal şəraitə uyğunlaşdırılıb, o cümlədən Azərbaycanda da. Əgər pandemiya Azərbaycanda geniş vüsət alarsa, bizdə də çox faciəvi inkişaf dinamikası qaçılmazdır. Ona görə dövlət tərəfindən qəbul edilmiş bütün qərarlar istisnasız, heç bir güzəştsiz tətbiq edilməlidir və vətəndaşları bir daha məsuliyyətə çağırıram. Lazım olmayan vaxtlarda küçələrə çıxmasınlar. Dünən dərc edilmiş və elan olunmuş qaydalara tam əməl etsinlər. Özlərini, öz yaxınlarını, həkimləri qorusunlar. Çünki həkimlər öz həyatlarını risk altına atırlar. Polis işçilərini qorusunlar, necə ki, polis işçiləri onları qoruyur və öz həyatlarını risk altına atır. Ona görə mən vətəndaşlardan bir daha məsuliyyət tələb edirəm və ümid edirəm ki, Azərbaycan vətəndaşları bu məsuliyyət hisslərini nümayiş etdirəcəklər.

Təbii ki, bu pandemiya bütün dünyanın iqtisadi inkişafına böyük zərbə vurub. Artıq dünyanın aparıcı maliyyə qurumları açıq bəyan edirlər ki, pandemiya nəticəsində yaşana biləcək böhran 2008–2009-cu illərin böhranından daha da ağır olacaqdır. Eyni zamanda, dünya bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsi, demək olar ki, 2 dəfədən çox aşağı düşməsi, bizim iqtisadiyyatımıza da böyük problemlər yarada bilər və təbii ki, bizim gəlirlərimiz azalır. Buna baxmayaraq, bu ilin dövlət büdcəsinin icrası ilə bağlı bir daha demək istəyirəm ki, heç bir problem olmamalıdır. İlk növbədə, bütün sosial öhdəliklər tam yerinə yetirilməlidir, bütün sosial infrastruktur layihələrinin icrası təmin edilməlidir. Eyni zamanda, bir daha büdcə xərclərinə baxmaq lazımdır və təcili olmayan layihələr təxirə salına bilər. Əlbəttə, bu layihələrin həyata keçirilməsi, yaxud da ki, əksinə, təxirə salınması məsələlərinə baxdıqda, məşğulluq məsələlərinə də mütləq baxmalıyıq. Çünki dövlət xətti ilə həyata keçirilən investisiya layihələri eyni zamanda, məşğulluğu təmin edir və əhalisi artan Azərbaycan üçün məşğulluq məsələsi, əlbəttə ki, ön plandadır.

Bizim builki iqtisadi dinamikamız çox müsbət idi. Yanvar–fevral aylarında ümumi daxili məhsul 2,8 faiz, qeyri-neft sektorunda 6,7 faiz, qeyri-neft sənaye sahəsində 21,7 faiz artıbdır. İnflyasiya cəmi 2,8 faiz, əhalinin gəlirləri isə 9 faiz olub, yəni gəlirlər inflyasiyanı üstələyibdir. Vergi və gömrük orqanları 2 ayda dövlət büdcəsinə böyük məbləğdə vəsait daxil edibdir. Vergi orqanları büdcəyə 170 milyon

manat, gömrük orqanları isə 80 milyon manat vəsait daxil edibdir. Əlbəttə, bizim ümidlərimiz ondan ibarət idi ki, il boyunca bu dinamika özünü saxlayacaq, beləliklə, büdcəmizə əlavə gəlirlər gələcək və bunun hesabına əlavə sosial proqramların icrası mümkün olacaqdır.

İndi mart ayının yekunları haqqında danışmaq bir qədər tezdir. Adətən, Dövlət Statistika Komitəsi birinci rübün başa çatmasından təqribən bir həftə sonra rəqəmləri təqdim edir. Ona görə biz bu rəqəmləri hələ təhlil edəcəyik. Ancaq təxmin etmək çətin deyil ki, bu pandemiya iqtisadi inkişafımıza böyük əngəl törədir və törədəcək.

Bu pandemiyanın iqtisadi və sosial fəsadlarını minimuma endirmək üçün mənim qərarımla Nazirlər Kabinetinə 1 milyard manat vəsait ayrıldı, 4 işçi qrupu yaradıldı. Bu işçi qrupların əsas fəaliyyət dairəsi məşğulluq məsələlərini təhlil edib təklif vermək, iqtisadi sabitliyi, iqtisadi inkişafı təmin etmək, makroiqtisadi sabitliyi qorumaqdır və bizim maliyyə vəziyyətimizi təhlil edib ilin sonuna qədər bu sahədə də lazımi əlavə tədbirlərin görülməsindən ibarətdir. Biz ilk növbədə, koronavirusdan ən çox əziyyət çəkən sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərini diqqət mərkəzinə aldıq və bu sahibkarlıq subyektlərində işləyən insanların maliyyə vəziyyətini nəzərə almalıyıq. İndi İqtisadiyyat Nazirliyi tərəfindən mənə təqdim edilmiş arayışda göstərilir ki, bu vəziyyətdən hansı sahələr daha çox əziyyət çəkib və bu sahələrdə 300 mindən çox insan çalışır. Əlbəttə, onların maddi vəziyyəti bizi nara-

hat edir. Biz onlara dəstək verməliyik. Xüsusilə nəzərə alsaq ki, mən bütün Azərbaycan sahibkarlarına müraciət edərək çağırış etdim ki, onlar işçiləri ixtisar etməsinlər. Bu xahiş və yaxud tələb qüvvədədir. Onu da bildirməliyəm və hesab edirəm ki, Azərbaycan sahibkarları bu vəziyyətdə öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirirlər. Mənim fərmanımla yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna bu günə qədər 100 milyon manatdan çox vəsait daxil edilib və bunun cəmi 20 milyonu Prezidentin ehtiyat fondundan köçürülüb. Bu onu göstərir ki, vəsaitin böyük hissəsi sahibkarlar tərəfindən verilmiş ianələrdir və sahibkarlar bu məsələ ilə bağlı həmrəylik göstərirlər. Əminəm ki, işçilərin ixtisar edilməməsi çağırışım da nəzərə alınacaq və alınmalıdır. Ancaq eyni zamanda, aydın məsələdir, bir çox sahələr və 40 mindən çox sahibkarlıq subyekti indi, demək olar ki, fəaliyyət göstərmir, yaxud da məhdud çərçivədə fəaliyyət göstərir. Dövlət onlara kömək etməlidir. Ona görə göstəriş verilib ki, bu sahibkarlıq subyektlərində muzdla işləyən insanların sosial təminatı, eyni zamanda, fərdi sahibkarların fəaliyyəti nəzərə alınsın. Onların da sayı təqribən 300 minə yaxındır. Bu göstərişlər İqtisadiyyat Nazirliyinə verilibdir. Xahiş edirəm bu məsələ və digər məsələlərlə bağlı siz öz təkliflərinizi verəsiniz ki, vaxt itirmədən, yəni bu həftədən başlayaraq, artıq bu ödəmələr təşkil edilsin.

**Mikayıl Cabbarov:** Təşəkkür edirəm, möhtərəm cənab Prezident. İlk növbədə, icazə verin, mən də bir vətəndaş kimi, Sizə dərin təşəkkürümü bildi-

rim ki, bu mühüm çoxamilli çağırışa Sizin liderliyinizlə belə cavab verilir. Xalqımızın və vətəndaşlarımızın sağlamlığını əsas tutaraq, qabaqlayıcı, əhalini qoruyan tədbirlər həyata keçirilir. Siz bu gün xalqımızın sağlamlığını üstün tutaraq, bu qərarları verirsiniz. Son günlər, həftələr ərzində Siz və ölkənin Birinci vitse-prezidenti bizə istiqamət verdiniz, bu qeyri-adi vəziyyətdə hər bir qərarın gündəlik və vaxtında verilməsinə imkan yaratdınız.

Sizin tapşırığınıza uyğun olaraq, biz işçi qruplarda fəaliyyəti həyata keçirərək, 4 işçi qrupun rəhbərləri ilə müntəzəm məsləhətləşmələr apararkən hökumətin, Baş Nazirin ümumi koordinasiyası ilə, həmçinin nazirliklər, komitələr, özəl sektor, Azərbaycan Banklar Assosiasiyası, Mərkəzi Bank, kiçik və orta biznesin nümayəndələri və İnkişaf Agentliyi, o cümlədən Sahibkarlar Konfederasiyasının nümayəndələrini cəlb edərək, tutarlı bir proqram hazırlamağa cəhd etdik və bu gün onu Sizin diqqətinizə məruzə edirəm. Çərçivə müəyyənləşərkən Siz işçi qaydada, həmçinin ictimaiyyətin məlumatlandırılmasını qarşımızda bir hədəf kimi qoydunuz və proqramların yekunlaşması prosesi məhz həmin məsləhətləşmələr çərçivəsində nəzərdə tutulur.

Bu günədək istiqamətlər olaraq, Siz qeyd etdiyiniz kimi, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən 44 min sahibkarlıq subyektində çalışan 304 min muzdlu işçinin əmək haqlarının ödənilməsi üçün birbaşa maliyyə dəstəyi proqramı diqqətinizə təqdim edilir – pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən 292 min fərdi mikro-

biznes subyektinə və fərdi sahibkarlara maliyyə dəstəyi proqramı. Hər iki proqramın başlıca şərti və çərçivəsi iş yerlərinin azaldılmamasına yönəldilib. Bu proqramlar fərqli auditoriyalara – işçilərə və sahibkarlara ünvanlansa da, yanaşma olaraq, birbaşa maliyyə dəstəyini təmin edir. Bu dövrdə qısamüddətli likvidliyi olmayan sahibkarlara, müəssisələrə öz fəaliyyətini davam etdirməyə, onların bir çox hallarda, demək olar ki, əsas xərci olan işçilərin, muzdlu işçilərin əməkhaqqı xərcinin əhəmiyyətli hissəsinin ödənilməsi təklif olunur.

Üçüncü proqram pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri, imtiyazlar və tətillər proqramıdır. Bu, əhatəli proqramdır. Burada əhatə dairəsi ilk növbədə, mənfi təsir altında olan sektorlara ünvanlansa da, onların bəziləri daha da genişdir.

Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə yeni verilən bank kreditləri üzrə kredit zəmanəti dəstəyi proqramı da tapşırığınızla hazırlanıb. Bu proqramın həcmi 500 milyon manat təşkil edir. Burada Siz bizim qarşımızda hədəf qoymusunuz ki, Azərbaycan iqtisadiyyatının inkişaf trayektoriyasının qorunub saxlanılması məqsədilə yeni layihələrin maliyyələşdirilməsi dayanmasın və bu karantin dövründən sonrakı fəaliyyətdə canlanma baş versin.

Digər tərəfdən, başqa bir proqramı – beşinci proqramı da diqqətinizə məruzə edirəm. Bu, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin mövcud kredit portfeli üz-

rə kredit zəmanət dəstəyi proqramıdır. Bu daha da böyük həcmdə olan – 1 milyard manatlıq bir proqramdır. Burada həm qismən dövlət büdcəsinin, həm də Sahibkarlığın İnkişafı Fondunun vəsaitlərinin cəlb edilməsi nəzərdə tutulur. Burada başlıca hədəf həm biznes subyektlərimizə dəstək verməkdir, həm də eyni zamanda, bizim üçün zəruri, çox vacib və əhəmiyyətli olan maliyyə-bank sektorunun kredit portfelinin sağlamlığının qorunub təmin edilməsidir.

Altıncı istiqamət olaraq, əhalinin maddi vəziyyətinin dəstəklənməsi üçün sosial paket Sizə ayrıca təqdim ediləcək. Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsinə dəstək proqramının müzakirəsi gedir. Demək olar ki, bugünkü işlər bu mərhələdədir.

Həmçinin ipoteka və kredit zəmanət mexanizminə maliyyə dəstəyi proqramı səkkizinci istiqamət kimi müəyyənləşdirilib. Bu proqramın həm tikinti sahəsinin fəallığının davam etdirilməsinə, genişləndirilməsinə, həm də əhali üçün hər zaman vacib olan mənzil probleminin həllinə böyük töhfə verəcəyini güman edirik.

Doqquzuncu proqramın istiqaməti əhalinin kommunal ödənişlərə, ilk növbədə, elektrik enerjisinə mövsümü nəzərə alaraq, dəstək proqramıdır. Sizin tapşırığınızla biz bunu təhlil etmişik ki, insanlar evdə daha çox vaxt keçirdiyinə görə elektrik enerjisi sərfiyyatı artır. Burada biz limitlərin genişləndirilməsini diqqətinizə təqdim edəcəyik.

Nəhayət, bizim bir sıra həyati vacib sərnişindaşıma fəaliyyəti ilə məşğul olan şirkətlərimiz, dövlət və özəl şirkətlərimiz obyektiv səbəblərə görə – Siz də artıq bunu qeyd etdiniz – fəaliyyətini, demək olar ki, dayandırıb, yaxud dondurubdur. Bu müəssisələrlə də bağlı məqsədli proqram hazırlanıbdır.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Hesab edirəm ki, bu genişmiqyaslı iqtisadi və sosial paket həm iqtisadi sahədə artan dinamikaya müsbət təsir göstərəcək, eyni zamanda, həssas təbəqəyə aid olan vətəndaşları bu böhrandan qoruyacaqdır. Bizim əsas məqsədimiz ilk növbədə, vətəndaşların təhlükəsizliyi, sağlamlığı və onların rifahıdır. Əlbəttə ki, pandemiya dövründə Azərbaycan digər məsuliyyətli ölkələr kimi, ilk növbədə, vətəndaşların sağlamlığını nəzərə alır. Bütün qalan məsələlər ikinci dərəcəli məsələlərdir, o cümlədən iqtisadi inkişafla bağlı olan məsələlər. Halbuki biz bu məsələlərə də mütləq lazımi fikir verməliyik. Çünki insanların həm sağlamlığı, həm rifahı, ümumiyyətlə, Azərbaycanda sosial sahədə əsas məsələlərdən biridir. İnsanların sağlamlığına aid olan bütün məsələlər bu gün Azərbaycanda öz həllini tapır və əsas məqsəd, bir daha demək istəyirəm ki, pandemiyanın miqyasını nəzarətdə saxlamaqdır. Biz ilk növbədə, buna nail olmalıyıq. Bir daha demək istəyirəm ki, burada əsas amil vətəndaşların məsuliyyətidir.

Eyni zamanda, təqdim etdiyiniz təkliflər genişmiqyaslıdır və bu gün pandemiyadan zərər çəkmiş sahələrdə işləyən vətəndaşların maraqları nəzərə alınaraq, onlara əmək haqlarının əhəmiyyətli hissə-

si müvəqqəti olaraq dövlət tərəfindən ödəniləcək. Eyni zamanda, sahibkarlar da, əlbəttə, bir daha demək istəyirəm ki, işçilərin ixtisarına yol verməməlidirlər. Eyni zamanda, sosial təminat sahəsində əlavə tədbirlərin görülməsi də hesab edirəm ki, zəruridir, o cümlədən, qeyd etdiyiniz sosial sahəyə aid olan məsələlər. Azərbaycan dövləti bir daha öz sosial siyasətini burada göstərməlidir və göstərir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və biz bunu dəfələrlə sübut etmişik.

Bank sektorunun sağlamlaşdırılması istiqamətində bütövlükdə ilin əvvəlindən addımlar atılır və bu məsələ ilə bağlı bir neçə müşavirə də keçirilibdir. Hesab edirəm ki, hətta pandemiya ilə əlaqəsi olmayan sahələrdə də islahatlar dərinləşməlidir və bunu biz təmin edəcəyik. Bank sektorunun sağlamlaşdırılması və real iqtisadiyyatı maliyyələşdirməsi istiqamətində əlavə tədbirlər görüləcək. Kredit zəmanət təklifi də hesab edirəm ki, çox vaxtında verilmiş təklifdir. Biz bunu mütləq nəzərə alacağıq.

Sosial sahəyə gəldikdə, keçən il Azərbaycan dövləti öz niyyətini və addımlarını nümayiş etdirdi. Keçən il misli görünməmiş sosial paket icra edildi, 4,2 milyon insan bu təşəbbüsdən faydalandı. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faiz, müavinətlər 50 faiz, bəzi müavinətlər isə 2 dəfə artırıldı. Bu, insanların yaşayış səviyyəsinə çox müsbət təsir göstərdi. Üstəgəl, vaxtı keçmiş kreditlər məsələsinin həll edilməsi də ən yüksək səviyyədə Azərbaycanda təşkil olundu. Bu il bir daha biz öz

sosial məsuliyyətimizi nümayiş etdiririk. Biz vətəndaşların rifah halının düşməməsi istiqamətində əməli addımlar atırıq və hesab edirəm ki, bu sahədə də birincilik göstəririk.

İndi koronavirusla bağlı ölkələr özlərini təcrid ediblər, bu da təbiidir. Biz görürük ki, hətta bir-birinə çox yaxın olan ölkələr, təşkilatlar, artıq hərə öz problemlərini həll edir və müxtəlif ölkələrdə bu məsələyə yanaşma da fərqlidir. Hesab edirəm ki, bizim yanaşmamız ən geniş və ən düzgün yanaşmadır. İlk növbədə, qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində xəstəliyin geniş yayılmaması üçün addımların atılması – baxmayaraq ki, vətəndaşlar daha məsuliyyətli olmalıdırlar – dünya miqyasında müqayisə apardıqda görürük ki, Azərbaycanda vəziyyət daha yaxşıdır. Bizdə yoluxma halları əhalinin sayına görə çox aşağı səviyyədədir və ölüm halları da həmçinin. Ancaq bu yenə də əsas vermir ki, biz əldə edilmiş nəticələrlə kifayətlənək. Azərbaycanda bu sahədə lazımi işlər görülüb və görüləcəkdir.

Bu gündən etibarən qüvvəyə minmiş qaydalar əminəm ki, müsbət dinamikanı gücləndirəcək. Eyni zamanda, çox geniş iqtisadi paket artıq məruzə edildi və yaxın günlərdə bunun icrası nəzərdə tutulub, həmçinin – sosial paket, işləyən vətəndaşların işlərini itirməməsi üçün sahibkarlara çağırış və nəinki çağırış, eyni zamanda, sahibkarlara dəstək. Biz başa düşürük ki, onlar əziyyət çəkirlər, itkilərə məruz qalırlar. Onlara kim dəstək verməlidir? Dövlət. Hər zaman olduğu kimi, dövlət bunu edir. Həm xəstəliyə qarşı mübarizə, həm iqtisadi fəallığın tə-

min edilməsi, həm sosial məsələlərin həlli – hər bir vətəndaşın problemlərinin dərk edilməsi, kömək göstərmə cəhdlərimiz və niyyətimiz, bax, bütün bunlar bizim siyasətimizi əks etdirir, eyni zamanda, Azərbaycan vətəndaşlarına xidmət edir. Hesab edirəm ki, məruzə etdiyiniz məsələlərin formalaşması artıq tam yekunlaşmalıdır, siyahılar da tutulubdur və vaxt itirmədən faktiki ödəmələr başlanılmalıdır.

Eyni zamanda, bizim ümumi iqtisadi inkişafla bağlı nəzərdə tutduğumuz islahatlar da dərinləşməlidir. Pandemiya burada bizə maneçilik törətməməlidir, vaxt itirməməliyik. Bizim əsas məqsədimiz – mən bu vəzifəni İqtisadiyyat Nazirliyi qarşısında qoymuşdum – «kölgə iqtisadiyyatı»nın miqyasının daraldılmasıdır. Hesab edirəm ki, bu istiqamətdə çox ciddi addımlar atılıb. Keçən il vergi və gömrük orqanları xəzinəyə proqnozdan artıq 1 milyard manat vəsait daxil ediblər. Nəyin hesabına? «Kölgə iqtisadiyyatı»nın kiçilməsi hesabına.

Bu ili çox gözəl başlamışdıq. İki ayda 250 milyon manatdan çox gəlir olmuşdu. Nəyin hesabına? «Kölgə iqtisadiyyatı»na qarşı mübarizə hesabına. Bu proses davam etdiriləcəkdir. Bir daha özəl sektorun nümayəndələrinə müraciət etmək istərdim və artıq mən bunu bir neçə dəfə demişəm ki, biz köklü islahatlar aparırıq. Bu, «kölgə iqtisadiyyatı»nın sonu deməkdir. Ancaq biz hər şeyi ardıcıllıqla edirik, yüzlərlə, bəlkə də minlərlə sahibkarlıq subyekti vardır. Biz onlara vaxt verdik. Eyni zamanda, İqtisadiyyat Nazirliyi onlara həm vaxt verdi, həm də ki, maarifləndirmə işləri apardı. Onlar üçün bu gün de-

diyim sözlər sürpriz deyil. Bu siyasətdir və bu, strateji xəttimizdir. Ona görə hesab edirəm, vaxt gəlib çatıb ki, hələ də «kölgə»də fəaliyyət göstərən sahibkarlıq subyektləri artıq bu işlərə son qoysunlar. Biz səbirli olduq, biz vaxt verdik və hesab edirəm ki, bu vaxt çərçivələri kifayət qədər geniş idi.

Bir çox sahibkarlar artıq «kölgə iqtisadiyyatı»ndan çıxıb və «ağ iqtisadiyyat»da fəaliyyət göstərir, dövlətin vergisini ödəyir, qeyri-formal məşğulluğu öz gündəliyindən çıxarıbdır. Amma elə sahibkarlar var ki, hələ də hesab edirlər, köhnə qayda ilə işləyəcəklər. Mən onlara birmənalı demək istəyirəm ki, bu keçməyəcək və heç kim onlara kömək etməyəcək. Əgər kimsə hansısa tanışlara, qohumlara, yaxud da ki, vəzifədə olan dostlara arxalanırsa, səhv yoldadır. Özü də cəzalandırılacaq, ona himayədarlıq edən də. Heç kimə güzəşt yoxdur. Mən sizə bir daha tapşırıram və bütün Azərbaycan vətəndaşları mənim tapşırığımı eşidir və görür ki, istisnasız bütün sahibkarlıq subyektləri «kölgə iqtisadiyyatı»ndan çıxmalıdır. Beləliklə, hesab edirəm ki, bizim bütövlükdə təmizləmə siyasətimiz öz gözəl nəticələrini verəcək, Azərbaycan iqtisadiyyatı dayanıqlı inkişafını davam etdirəcək.

Mən dəfələrlə demişəm və həyat onu göstərir ki, biz elə işləməliyik, elə yaşamalıyıq, sanki biz postneft dövründə yaşayırıq. İndi neftin qiyməti 21-22 dollar olan zaman, faktiki olaraq, bu bizim üçün postneft dövrüdür. Biz bu dövrə hazırlıq işləri görmüşük və bu hazırlıq işləri hələ ki, davam edir. Ona görə sahibkarlardan da çox şey asılıdır. Biz bütün lazımi

qərarları qəbul etdik, qanunvericilikdə lazım olan düzəlişləri etdik və edəcəyik. Ona görə indi sahibkarlar da ümumi işimizə uyğun fəaliyyət göstərməlidirlər və belə olan halda, biz bu böhrandan da şərəflə çıxa biləcəyik.

«Kölgə iqtisadiyyatı» ilə bağlı nə deyə bilərsiniz? İndiyədək görülmüş işlər hansı nəticə verir və əlavə hansı işlər görülməlidir?

**Mikayıl Cabbarov:** Təşəkkür edirəm, möhtərəm cənab Prezident. Siz 2020-ci il 19 mart tarixli Sərəncamınızla bizim qarşımızda hədəf qoymuşdunuz ki, biz ortamüddətli iqtisadi proqramı və strategiyanı da hazırlayıb təqdim edək. Diqqətinizə çatdırıram ki, onun da konturları müəyyənləşdirilib. İlk növbədə, «ağ» formal iqtisadiyyatın, rəqabətədavamlı və dayanıqlı iqtisadiyyatın qurulması bütün təklif olunan tədbirlərdə hədəf olaraq, qırmızı xətt kimi keçir. İqtisadiyyatımızın ixrac yönümlülüyünü saxlamaqla və genişləndirməklə, daxili istehsal və istehlakın həvəsləndirilməsinə yönəlmiş tədbirlər daha geniş yer alır.

Vurğuladığınız kimi, məşğulluğun qorunmasını və genişləndirilməsini başlıca vəzifəmiz kimi görürük. Neft-qaz gəlirlərinin əvəz edilməsinə yönəlmiş siyasəti həyata keçirmək niyyətindəyik. Spesifik olaraq, «kölgə iqtisadiyyatı» mövzusu da müzakirə edilibdir. Bu gün Sizə məruzə etmək istərdim ki, bu müzakirələr zamanı istər özəl sektor nümayəndələri, istər bank sektorunun nümayəndələri, Azərbaycan Banklar Assosiasiyasının təmsilçiləri «kölgə iqtisadiyyatı»nın azaldılması və aradan qaldırılması

prosesində vacib bir alətin, kapital və əmlak amnistiyasının baxılması vəsatətini qaldırıblar. Biz ümumi paketdə onu da hökumətə və Sizin diqqətinizə təqdim edəcəyik.

Həmçinin diqqətinizə çatdırmaq istərdim ki, bu gün birinci rübün son iş günüdür. Bizim operativ məlumata əsasən, dövlət vergi xidmətinin xətti ilə proqnoz tam yerinə yetirilibdir və Azərbaycan Respublikasının büdcəsinə təxminən 200 milyon manat ətrafında proqnozdan artıq yığılmış vəsaitin təmin olunması gözlənilir.

Əsas istiqamətlər olaraq, biz həmçinin keçən ildən Dövlət Sosial Müdafiə Fondunun ödənişlərinin yığımını həyata keçiririk. Bu istiqamət üzrə də birinci rüb ərzində ünvanlı Dövlət Sosial Müdafiə Fonduna təxminən 120 milyon manat daha çox vəsait yönəldilib. İstiqamətlər olaraq, orta müddətdə həm kənd təsərrüfatı emalı sahəsinin genişləndirilməsi vacib prioritet kimi görünür, həm də tikinti sektoruna dəstəyin artırılması və bu sahədə fəaliyyətin genişləndirilməsi. Mən bir daha Sizə təşəkkürümü bildirmək istəyirəm ki, bu istiqamətlərdə, həmçinin ticarət, tranzit və logistika sahələrində bizə artıq aydın göstərişlərinizi vermisiniz. Yük və karqonun daşınmasına gəldikdə, bugünkü şəraitdə biz hətta keçən ilin mart ayı ilə müqayisədə bu trendlərin artmasını görürük. Bu da Sizin həyata keçirdiyiniz uzaqgörən siyasətin birbaşa nəticəsidir.

Təbii olaraq, Azərbaycanın ixrac potensialının artırılmasına, genişləndirilməsinə, eyni zamanda, bölgələrdə daha çox iş yerlərinin yaradılmasına,

onların müasirləşdirilməsinə və sənaye potensialının gücləndirilməsinə xidmət edən dağ-mədən sənayesi istiqamətində də bir sıra layihələr hazırlanır.

İnanıram ki, biz onları da bu paket çərçivəsində təqdim etmək iqtidarında olacağıq.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Hesab edirəm ki, qeyd etdiyiniz bütün bu məsələlər ilin sonuna qədər öz həllini tapmalıdır. Qeyd etdiyiniz sahələr bizim üçün həmişə prioritet olub. İndiki şəraitdə bu sahələrin inkişafı, əlbəttə, bizə müəyyən dərəcədə imkan verəcək ki, neftdən əldə ediləcək gəlirləri biz müəyyən dərəcədə qeyri-neft sektoru hesabına əvəzləyə bilək. Halbuki bu da həqiqətdir ki, neft sektoru bizim iqtisadiyyatımız üçün əsas sektor olaraq qalır. Ancaq digər sektorlar, qeyri-neft iqtisadiyyatımızın inkişafı prioritetdir. Hesab edirəm ki, ixrac yönümlü məhsulların istehsalı artırılmalı, sahibkarlıq subyektlərində sertifikatlaşma prosesi davam etdirilməlidir ki, bizim məhsullarımız həm daxili, həm də xarici bazarlarda rəqabətqabliyyətli olsun. Əlbəttə ki, daxili istehlak daxili istehsal hesabına stimullaşdırılmalıdır. Onu da bilməliyik ki, xarici bazarlara çıxmaq ildən-ilə daha da çətinləşir. Çünki bir çox ölkələr idxalı əvəzləmək siyasətini aparır. Ona görə biz həm yeni bazarlar axtarmalıyıq, həm də məhsullarımızı daha rəqabətqabliyyətli etməliyik. Eyni zamanda, çalışmalıyıq ki, daxili tələbatı maksimum dərəcədə yerli istehsalla təmin edək. Özümüzü təminetmə əmsalına gəldikdə, bu sahədə daha dəqiq statistika aparılmalıdır. Çünki müxtəlif dövlət qurumlarından mənə fərqli rəqəmlər təqdim edi-

lir. Ona görə bunu da sizə tapşırıram, bütün dövlət qurumlarının rəqəmlərini təhlil edin və real vəziyyəti mənə məruzə edin ki, bizim özümüzü təminetmə əmsalı əsas istehlak malları üzrə nədən ibarətdir və biz öz siyasətimizi daha dəqiq proqnozlaşdıraq. O cümlədən Sahibkarlara Dəstək Fondu hesabına o sahələrə vəsait, kredit ayıraq ki, o sahələr hələ ki, idxaldan asılıdır. Eyni zamanda, bizim ixracımızı və özümüzü təminetmə imkanlarımızı təhlil edərkən mütləq Azərbaycanda istehsal olunan malların xarici komponentinin faizi də nəzərə alınmalıdır. Çünki bəzi hallarda xarici xammal böyük pay təşkil edir. İqtisadiyyat Nazirliyi bu istiqamətlər üzrə fəal işləyir, bu işləri davam etdirin. Hesab edirəm ki, bütün bu işləri düzgün qura bilsək – mən buna şübhə etmirəm – biz bu çətin sınaqdan da şərəflə çıxa biləcəyik.

## BAKI–SUMQAYIT YOLUNUN GENİŞLƏNDİRİLMƏSİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*3 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Bakı–Sumqayıt yolunun genişləndirilməsi çərçivəsində görülmüş işlərlə tanış olmuşdur.*

*Dövlət başçısı Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində tikilmiş yerüstü piyada keçidinin açılışında iştirak etdi.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Bakı–Sumqayıt yolunun genişləndirilməsi çərçivəsində görülmüş işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.*

**Saleh Məmmədov:** Möhtərəm cənab Prezident, biz Sizin sərəncamınızla Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7-ci kilometrindən başlayaraq, 14-cü kilometrə – Masazır körpüsü deyilən yerə qədər yolların genişləndirilməsi ilə artıq 5-ci aydır ki, məşğuluq. Burada bizim əsas məqsədimiz 20 Yanvar – «Şamaxinka» deyilən tunelin çıxışından başlayaraq, mövcud 4 hərəkət zolaqlı avtomobil yolunu genişləndirmək idi. Ondan əlavə, Sizin göstərişinizlə «Xırdalan dairə-

si» deyilən hissədə yeni tunelin inşasına başlamışıq. Deməli, mərkəzdən gələn maşınlar yalnız Bakı–Quba–Rusiya Federasiyası istiqamətində hərəkət edəcəkdir. Biz 20 Yanvar dairəsindən hərəkətin istiqamətini yol nişanları ilə ayıracağıq. Yəni Binəqədiyə, Biləcəriyə, Masazıra və Sumqayıta gedən avtomobillər sağ hissə ilə 2 zolaqda hərəkət edəcəkdir. Yolun «Xırdalan dairəsi» olan hissəsində yeni tunel və 495 metr uzunluğunda, 7,5 metr enində 2 hərəkət zolaqlı yan yolu açmışıq. Yeni tikilən tunelin eni 9 metrdir. Bundan əlavə də bir yenilik etmişik – Şamaxıdan, Xocəsəndən və Lökbatandan gələn avtomobillərin birbaşa 20 Yanvar dairəsinə girişini məhdudlaşdırmışıq. Biz bu hissədə işlərin artıq 80 faizini yerinə yetirmişik. May ayının sonuna qədər yəqin ki, tamamlayacağıq.

Möhtərəm cənab Prezident, bu dəmir yolu körpüsü keçən əsrin 60-cı illərində tikilib, onun dayaqları yeni açılacaq tunelə maneçilik törədirdi. Sizin göstərişinizlə burada 65 metr uzunluğunda, orta dayaqları olmayan yeni bir körpünün inşası nəzərdə tutulub. Biz bu körpünü də tam hazır edəcəyik, dəmir konstruksiyadan ibarət olacaqdır. Dəmir yolu xəttinin dayandırılması məhdudiyyəti olmayacaq və hazır olan kimi, biz o körpünü gətirib quraşdıracağıq. Burada isə əvvəlki ekologiya postu sökülür, yenisi tikilir.

**İlham Əliyev:** Bu yol oradan genişləndiriləcək?

**Saleh Məmmədov:** Bəli, genişləndirəcəyik. Post götürülür və Xırdalandan, Şamaxıdan gələn avtomobillərin mərkəzi yola girməsi üçün burada döngə

də yaradacağıq. Həm Rusiya–Quba istiqamətindən, həm Sumqayıtdan, həm də Şamaxıdan və Sulutəpədən gələn avtomobillərin mərkəzi yola çıxışını təmin edəcəyik.

Möhtərəm cənab Prezident, bu isə «Şamaxinka» deyilən ərazidə yeni inşa olunmuş piyada keçididir. Bu piyada keçidi Azərbaycanda ilk dəfə olaraq pilon üsulu ilə, yəni orta dayağı olmadan tikilib, aşırımı burazlar saxlayır.

**İ l h a m Ə l i y e v:** Son illər ərzində Bakıda bir çox yol-nəqliyyat layihələri icra edilibdir. Əgər bu layihələr icra edilməsəydi, bu gün Bakıda tıxacdan tərpənmək mümkün olmazdı. Onlarla körpü, yol qovşaqları, yeni yolların çəkilişi, yolların genişləndirilməsi, yol çəkilişində nəzərdə tutulan standartlar. Təsadüfi deyil ki, Davos Dünya İqtisadi Forumu Azərbaycanda yol təsərrüfatının keyfiyyətini ən yüksək qiymətlərlə fərqləndirir və yolların keyfiyyətinə görə biz dünyada 30-cu yerdəyik. Ancaq əhali artır, fəallıq artır. Baxmayaraq ki, indi koronavirus dövründə iqtisadi fəallıq aşağı düşüb, amma bu, müvəqqəti məsələdir. Bu xəstəliyə qarşı mübarizə yekunlaşandan sonra iqtisadi fəallıq bərpa ediləcəkdir.

Nəzərə alsaq ki, Bakı–Sumqayıt yolu artıq mövcud olan nəqliyyatı götürə bilmir və hərəkət çox intensiv xarakter daşıyır, əlbəttə, bu yolun genişləndirilməsi zəruri idi. Çünki indi Bakı ilə Sumqayıt elə bil ki, birləşib, bir çox adamlar Bakıda işləyib Sumqayıtda yaşayırlar və ya əksinə. Ona görə bu yolun strateji xarakterini nəzərə alaraq – eyni za-

manda, bu, şimal istiqamətinə gedən yoldur – biz bu layihəni icra edirik. Bu, əlbəttə, texniki cəhətdən asan layihə deyil. Çünki çoxlu köçürülmələr, yeni körpülərin tikintisi, bəzi obyektlərin köçürülməsi nəzərdə tutulur. Bu nəqliyyat layihəsinin icrası Dövlət İnvestisiya Proqramında da nəzərdə tutulur. Ona görə piyada keçidlərinin tikintisi – bu istiqamətdə də son illər böyük işlər görülüb və vətəndaşların təhlükəsizliyi üçün bunun çox böyük əhəmiyyəti vardır – yol infrastrukturunun müasirləşdirilməsi, tıxacların azalması və aradan qaldırılması istiqamətində əlavə addımlar atılacaqdır. Əlbəttə, Azəravtoyol, Bakı Nəqliyyat Agentliyi, nəqliyyatla məşğul olan digər qurumlar həm yolların genişləndirilməsi, həm də keyfiyyəti ilə bağlı bütün bu işləri əlaqəli şəkildə aparmalıdır. Eyni zamanda, yollarda tənzimləyici qaydaların tətbiq edilməsi nəticəsində «yaşıl dəhlizlər»in yaradılması da nəzərdə tutulur və bu istiqamətdə işlər aparılır. Bu işləri davam etdirmək lazımdır. Yol və bütün qovşaqlar nəzərdə tutulmuş vaxtda, yəni təqribən 2 ay, maksimum 3 ay ərzində istifadəyə verilməlidir. Bu, insanlara rahatlıq gətirəcək və bu yolda tıxacların yaranmasına imkan verməyəcəkdir.

**Saleh Məmmədov:** Cənab Prezident, bunlar hamısı Sizin göstərişiniz əsasında həyata keçirilir. Biz də söz veririk ki, bütün bu işləri 2 ay müddətinə başa çatdıraq və bununla da insanların Sumqayıt və Rusiya istiqamətində rahat hərəkətini tam tənzimləyək.

**İlham Əliyev:** Şamaxı yolunun bu hissəsini də genişləndirirsiniz?

**Saleh Məmmədov:** Bəli. Buradan gələn maşınların düz keçəndə bir-birinə maneə törətməməsi üçün.

**İlham Əliyev:** Burada həmişə tıxac yaranırdı, döngə də çox dar idi.

**Saleh Məmmədov:** Bəli, bu hissə dar idi.

**İlham Əliyev:** Hansı tərəfin hesabına genişləndirirsiniz?

**Saleh Məmmədov:** Sağ tərəfdəki dairənin hesabına.

* * *

*Son dövrlərdə dünyada neftin qiymətinin kəskin sürətdə aşağı düşməsinə və iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi inkişafla bağlı nəzərdə tutulan bütün işlər uğurla və vaxtında icra olunur. Sosial sahənin mühüm elementi olan yol infrastrukturunun müasirləşdirilməsi, respublikanın hər yerində yol təsərrüfatının yenidən qurulması bunun əyani göstəricisidir. Son illərdə Bakıda da yolların müasir səviyyədə yenidən qurulması və genişləndirilməsi istiqamətində çox mühüm işlər görülür. Bütün bu tədbirlər vətəndaşların rahatlığının və onların təhlükəsizliyinin təmin olunmasına yönəlib. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Bakı–Sumqayıt yolunun genişləndirilməsi layihəsi bu baxımdan çox böyük rol oynayır. Bakı şəhərinin şimal girişində xüsusən günün pik saatlarında yaranan tıxac və avtomobillərin sıxlığının aradan qaldırılması baxımından bu layihənin olduqca mühüm əhəmiyyəti vardır. La-*

*yihənin icrası ilə nəqliyyat vasitələrinin paytaxta rahat və təhlükəsiz giriş-çıxışı təmin olunacaqdır.*

* * *

*Sonra dövlət başçısı Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində tikilmiş yerüstü piyada keçidinin açılışında iştirak etdi.*

*Prezident İlham Əliyevin tapşırıq və göstərişləri, müvafiq sərəncamları ilə hazırda avtomobil yollarında hərəkətin təhlükəsizliyini və vətəndaşların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə keçməsini təmin etmək məqsədilə kompleks tədbirlər icra olunur. Bu baxımdan yerüstü və yeraltı piyada keçidlərinin tikintisi işləri xüsusi əhəmiyyəti ilə seçilir. Görülən işlər ümumilikdə paytaxtımızın nəqliyyat infrastrukturunun müasirləşdirilməsinə töhfə verir. Bu istiqamətdə icra olunan kompleks tədbirlərin bir hissəsi kimi, Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində tikilmiş yerüstü piyada keçidinin də mühüm əhəmiyyəti vardır. Belə ki, bu ərazi həm nəqliyyat vasitələrinin, həm də piyadaların çox olduğu yerdir. Yerüstü piyada keçidinin burada inşası piyadaların təhlükəsizliyini təmin etməklə yanaşı, ərazidə yarana biləcək tıxacların qarşısını da alacaq və nəticədə avtomobillərin hərəkətinin intensivliyi təmin olunacaqdır. Keçidin inşasına 2018-ci ildə başlanılıb. Keçidin uzunluğu 130, eni isə 3 metrdir.*

## SUMQAYIT KİMYA SƏNAYE PARKINDA «BAKI TEKSTİL FABRİKİ» MMC TƏRƏFİNDƏN YARADILMIŞ TİBBİ MASKA İSTEHSALI MÜƏSSİSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*6 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında «Bakı Tekstil Fabriki» MMC tərəfindən yaradılmış tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak etmişlər.*

*İqtisadiyyat naziri Mikayıl Cabbarov və «Bakı Tekstil Fabriki» MMC-nin rəhbəri Səkinə Babayeva dövlət başçısına və xanımına müəssisə haqqında məlumat verdilər.*

*Qeyd edək ki, koronavirus pandemiyası ilə əlaqədar tələbatın kəskin artması səbəbindən bütün ölkələrdə tibbi ləvazimat və qoruyucu vasitələrin, o cümlədən maskanın böyük qıtlığı yaşanır. İstehsalçı ölkələr isə tibbi maska ixracını dayandırmaqla yanaşı, istehsal avadanlığı və xammalın ixracını da saxlayıbdır. Koronavirus pandemiyasının qarşısının alınması ilə bağlı Azərbaycanda həyata keçirilən bütün işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir.*

*Dövlət başçısı əhalinin sağlamlığının təmin olunması məsələsinə xüsusi diqqətlə yanaşır. Prezident*

*İlham Əliyevin tapşırığına əsasən, aidiyyəti dövlət qurumları qısa müddətdə tibbi maska istehsalı avadanlığının və xammalın Azərbaycana gətirilməsinə nail olub.*

*Məlumat verildi ki, «Bakı Tekstil Fabriki» MMC tərəfindən yaradılmış tibbi maska istehsalı müəssisəsi Sumqayıt Kimya Sənaye Parkının ərazisində müvafiq yerlə təmin edilib və ona sənaye parkının rezidenti statusu verilibdir. Bu status müəssisəyə sənaye parklarına tətbiq edilən güzəştlərdən faydalanmağa imkan yaradır. İstehsalçıya İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu vasitəsilə 1,2 milyon manat güzəştli kredit verilib. Müəssisənin yaradılması üçün investisiya xərcləri 3,9 milyon manat təşkil edir. Tibbi maskaların qablaşdırılması üçün xüsusi qutular da yerli istehsaldır. Onlar Balaxanı Sənaye Parkının rezidenti olan müəssisədə hazırlanır. Tibbi maska istehsalı üçün Türkiyədən gətirilmiş müasir avadanlıq qısa müddətdə quraşdırılıb. Müəssisədə 30-dan çox yeni iş yeri yaradılıb. İstehsal prosesi üçnövbəlidir. Müəssisədə İSO beynəlxalq standartlarına uyğun xammaldan istifadə olunmaqla, birinci mərhələdə hər gün 120 min tibbi maska istehsal ediləcək. Maskalar qablaşdırıldıqdan sonra xüsusi avadanlıqla əlavə olaraq sterilləşdiriləcək. Yaxın günlərdə daha bir istehsal xətti qurulacaq və ikinci mərhələdə istehsal həcmi 2 dəfə artırılaraq, gündəlik istehsal 200–250 min tibbi maskaya çatdırılacaqdır. Müəssisənin məhsulları ilkin olaraq, daxili bazarda tələbatı ödəməyə yönəldiləcəkdir.*

*Sonra dövlət başçısına və xanımına Azərbaycanda istehsal olunan tibbi spirt, dezinfeksiya məhsulları və qoruyucu vasitələr barədə məlumat verildi.*

*Onu da deyək ki, spirt məhsulunun qablaşdırılması və daşınması üçün müxtəlif həcmli qablar da yerli istehsaldır. Hazırda 6 şirkət dezinfeksiyaedici məhlullar istehsal edir.*

*Sonra STEAM–Azərbaycan layihəsi barədə məlumat verildi. 2019–2020-ci tədris ilinin əvvəlindən Heydər Əliyev Fondunun dəstəyi ilə tətbiqinə başlanılan bu layihənin əsas məqsədi ümumtəhsil məktəblərində şagirdlərin müasir İKT avadanlıqlarından istifadə etmək qabiliyyətlərini genişləndirməkdir. Layihə çərçivəsində koronavirusdan qorunmaq üçün tibbi heyətin istifadəsi məqsədilə 3D printerlərlə çap olunan «üz sipəri» maskası və bir çox tibbi cihaz və avadanlıqların müxtəlif detallarının sınaq istehsalına başlanılıb. Hazırda gün ərzində 150 ədəd belə maska istehsal olunur.*

*Müəssisə ilə tanışlıqdan sonra dövlət başçısı Azərbaycan xalqına müraciət etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin müraciəti**

Bu gün ölkəmizdə tibbi maska istehsalı başlayır. Bu çox əlamətdar hadisədir. Çünki indi dünyanın bir çox ölkələrində tibbi maska çatışmazlığı var, o cümlədən Azərbaycanda da və biz bu sahədə daim idxaldan asılı idik. Amma indiki şəraiti nəzərə alaraq, qısa müddətdə, cəmi 2 həftə ərzində yerli istehsal təşkil edildi. Burada sahibkarların böyük rolu

vardır, eyni zamanda, Azərbaycan dövləti də öz maliyyə dəstəyini göstəribdir. Beləliklə, qısa müddət ərzində yeni müasir istehsalat sahəsi yaradıldı və bu bizə imkan verəcək ki, özümüzü tibbi maskalarla təmin edək.

Bildiyiniz kimi, koronavirusla mübarizədə maskalardan istifadə xüsusi əhəmiyyət daşıyır. Qeyd etdiyim kimi, indi dünyanın bir çox ölkələrində bu sahədə problemlər yaşanır. Azərbaycanda da qıtlıq yaranmışdı və bəzi hallarda apteklərdə tibbi maskalar yox idi. Bu istehsal bizə imkan verəcək ki, özümüzü maskalarla təmin edək və koronavirusla mübarizə başa çatandan sonra da Azərbaycan artıq bu sahədə idxaldan asılı olmasın.

Bu gün Azərbaycanda dezinfeksiya vasitələrinin istehsalı da təşkil edilib. Bu da qısa müddət ərzində ərsəyə gəlmiş bir məsələdir. Amma burada üstünlüyümüz ondan ibarət idi ki, ölkəmizdə bir neçə Spirt zavodu var və bu spirt zavodlarında dezinfeksiya vasitələri istehsal edilməyə başlanılıb və artıq satışa verilir. Beləliklə, mübarizəni daha da səmərəli şəkildə aparmaq üçün dəfələrlə qeyd olunub ki, vətəndaşlar daha da məsuliyyətli olmalı və şəxsi gigiyenaya fikir verməlidirlər. Ancaq bunu təmin etmək üçün vasitələr olmalıdır və bu gün bu vasitələr artıq bazara təqdim edilir – tibbi maskalar və dezinfeksiya vasitələri.

İndi əsas məsələlərdən biri odur ki, apteklərdə və digər ticarət yerlərində süni qiymət artımı olmasın. Çünki maska qıtlığı artıq süni qiymət artımına da gətirib çıxarmışdır və bəzi hallarda maskaları alt-

dan satırdılar. Bu hallara qətiyyən yol vermək olmaz və müvafiq dövlət qurumları çox ciddi nəzarət mexanizmi tətbiq etməlidir. Əgər süni qiymət artımı olarsa, bu işdə əli olan şəxslər ciddi cəzalandırılacaq. Çünki indiki pandemiya şəraitində belə addımlar xəyanət kimi qəbul ediləcək.

Tibbi maska və dezinfeksiya vasitələrinin istehsalı bir daha onu göstərir ki, Azərbaycanda yaradılmış infrastruktur bizə qısa müddət ərzində lazım olan istehsalat sahələrinin təşkilində uğur qazanmağa imkan verir. Təsadüfi deyil ki, bu istehsal müəssisəsi Sumqayıtda yerləşən Kimya Sənaye Parkının ərazisində təşkil edilib. Bu park mənim təşəbbüsümlə yaradılıb və artıq burada bir çox müəssisə fəaliyyət göstərir. Bu müəssisələr bizim qeyri-neft iqtisadiyyatımıza da böyük töhfə verir. Eyni zamanda, mövcud kadr potensialı, sahibkarlar sinfinin inkişafı, dövlət və özəl sektorun tərəfdaşlığı, daim dövlət tərəfindən özəl sektora göstərilən dəstək – həm siyasi, həm maddi dəstək, güzəştli kreditlərin verilməsi – bütün bu amillər yeni vəziyyətə gətirib çıxardı ki, biz vətəndaşlara lazım olan vasitələri qısa müddət ərzində operativ şəkildə istehsal edək və bazara təqdim edək. Mən bir daha qeyd etmək istəyirəm ki, hətta inkişaf etmiş ölkələrdə belə, bu gün maska qıtlığı vardır. Bizdə alınmış yeni avadanlıq – bu avadanlığın ikinci xəttinin də gətirilməsi nəzərdə tutulur – imkan verir ki, avtomatlaşdırılmış rejimdə böyük həcmdə, böyük sayda maskalar istehsal olunsun.

Ona görə bugünkü tədbir xüsusi əhəmiyyət daşıyır. Mən son illər ərzində yüzlərlə, bəlkə də mindən çox sənaye müəssisəsinin açılışında iştirak etmişəm, ancaq bu istehsalat sahəsi xüsusi əhəmiyyət daşıyır. Çünki bu gün Azərbaycanda istehsal olunan tibbi maskalar və dezinfeksiya vasitələri insanlarımızı qoruyacaq. Bizim də əsas məqsədimiz ondan ibarətdir ki, insanlar bu xəstəliyə yoluxmasın, insanların sağlamlığı təmin edilsin və buna nail olmaq üçün bütün tədbirlər görülür.

Qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində Azərbaycanda hazırda koronavirus xəstəliyinin yayılması geniş vüsət almayıb. Dünyanın inkişaf etmiş ölkələrində gündə yüzlərlə insan vəfat edir və heç bir ölkənin səhiyyə sistemi bu artan xəstələrin müalicəsini tam təşkil edə bilmir. Bu bizim üçün də bir dərs olmalıdır. Ona görə Azərbaycanda qabaqlayıcı tədbirlərin görülməsi və vəziyyətə uyğun şəkildə bu addımların atılması bir məqsədi güdürdü ki, biz insanların həyatını, sağlamlığını qoruyaq və bu xəstəliyin Azərbaycanda geniş vüsət almasına imkan verməyək. Bu günə qədər görülmüş bütün tədbirlər öz səmərəsini verdi. Bircə onu demək kifayətdir ki, Azərbaycanda bu günə qədər 45 min test keçirilib. İndi müxtəlif internet resurslarında bütün ölkələrdə həm xəstələrin sayı, həm ölüm hallarının sayı, həm keçirilmiş testlərin sayı göstərilir. Hər bir insan həmin saytlara girib baxa bilər, Azərbaycan dünyada aparıcı ölkələrdəndir ki, bu qədər test keçirib. Bu bizə imkan verdi ki, xəstəliyi müəyyən edək, xəstə insanlara operativ tibbi xidmət göstərək

və eyni zamanda, özümüzü böyük bəladan qoruya bilək. Bu günə qədər biz buna müvəffəq olmuşuq. Eyni zamanda, operativ tədbirlərin görülməsi və vəziyyətə uyğun addımların atılması öz səmərəsini göstərdi. Aprelin 5-dən qüvvəyə minmiş yeni karantin qaydalarının bir məqsədi var ki, bu xəstəlik Azərbaycanda geniş yayılmasın. Aprelin 5-nə qədər vaxtaşırı qəbul edilmiş qərarlar və yeni qaydalar bu məqsədi daşıyır. Mən dəfələrlə bildirmişəm ki, biz milli birlik, həmrəylik nümayiş etdirmişik və məsuliyyət də nümayiş etdirməliyik. Amma indiki şəraitdə aprelin 5-dən sonra qüvvəyə minmiş qaydaları nəzərə alaraq, vətəndaşlar nizam-intizam nümayiş etdirməlidirlər. Çünki bu qaydaları pozanlara qarşı ciddi tədbirlər nəzərdə tutulur və bu tədbirlər artıq təsbit edilib. Əminəm ki, vətəndaşlar bu qaydalara tam əməl edəcəklər və beləliklə, xəstəlik geniş vüsət almayacaq, biz bu vəziyyətdən az itkilərlə çıxa biləcəyik.

Eyni zamanda, onu da bildirməliyəm ki, hazırda 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə alırlar. Bu xəstəxanaların arasında bizim ən müasir xəstəxanamız – «Yeni klinika» da vardır. Bu klinika bu yaxınlarda – martın sonunda açılıb, orada 575 çarpayı nəzərdə tutulur. Nəzərə alsaq ki, klinika vaxtından əvvəl istifadəyə verilib, orada xəstələri qəbuletmə imkanları tədricən artacaq – ilkin mərhələdə 100 xəstə, sonra 300 və ondan sonra tam fəaliyyətə başlayacaq. Həmçinin bu il martın əvvəlində mənim iştirakımla bölgələrdə açılmış xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verilib. Qazax, Goranboy və Şəmkir şəhərlərində yer-

ləşən ən müasir xəstəxanalar koronavirus xəstələrinin müalicəsi ilə məşğuldur. Bu üç xəstəxanada çarpayıların sayı təqribən 500 ətrafındadır. Beləliklə, cəmi bir ay ərzində 1000-dən çox çarpayılıq ən müasir standartlara uyğun tibbi müəssisələr istifadəyə verilib və orada koronavirus xəstələri müalicə alırlar.

Azərbaycan dövlətinin və sahibkarların operativ fəaliyyətini nəzərə alaraq, onu da bildirməliyəm ki, yaxın zamanlarda Bakıda və bir neçə bölgədə müasir xəstəxanaların yaradılması nəzərdə tutulur. Bu xəstəxanalar yeni texnologiyalar əsasında inşa ediləcəkdir. Bu texnologiyalar imkan verir ki, qısa müddətdə, bəlkə də üç həftə, bir ay ərzində xəstəxana tamamilə yenidən qurulsun – yığma texnologiyalar prinsipi əsasında qurulacaq – bütün lazımi avadanlıqlarla təchiz edilsin. Hər bir xəstəxananın çarpayı sayı 200-dür. Belə xəstəxanaların ölkəmizdə qısa müddətdə qurulması, əlbəttə ki, bu mübarizədə bizə əlavə imkan verəcəkdir. Mübarizədə əsas məsələlərdən biri də vaxt məsələsidir. Biz vaxtı nə qədər daraltsaq, nə qədər az vaxt çərçivəsində işləri görsək, xəstəliyə qarşı mübarizədə o qədər uğur qazana bilərik. Ona görə vaxt amili və əlbəttə, həkimlərin peşəkarlığı, bizim imkanlarımız, bütün bu amillərin vəhdəti bu gün imkan verir ki, Azərbaycan hələ də az itkilərlə bu vəziyyətdən çıxır. Ancaq əlbəttə, işlərin gələcək inkişafı göstərəcək ki, bizim sonrakı addımlarımız nədən ibarət olacaq. Hər halda, bu ciddi karantin rejimi ayın 20-nə qədər qüv-

vədə qalacaq. Ondan sonra biz addımlarımızı yaranacaq vəziyyətə uyğun şəkildə atacağıq.

Onu da bildirməliyəm ki, xaricdə yaşayan və xaricdə olan Azərbaycan vətəndaşlarının ölkəmizə gətirilməsi istiqamətində atılan operativ addımlar nəticəsində böyük nailiyyətlər əldə edilib. Bu günə qədər 15 minə yaxın Azərbaycan vətəndaşı xarici ölkələrdən təxliyə edilib və onların böyük əksəriyyəti karantinə yerləşdirilibdir. Hazırda karantində qalan vətəndaşların sayı 4500-dür. Karantin üçün ən məqbul yerlər müəyyən edilib. Karantin rejimində olan insanların çoxunun məkanı Atletlər kəndidir. Orada hazırda təqribən 1300 insan yerləşdirilib. Karantində olan vətəndaşlar eyni zamanda, Bakı şəhərində və bölgələrdə 4-5 ulduzlu hotellərdə, istirahət zonalarında, bəzi dövlət qurumlarının istirahət mərkəzlərində yerləşdirilir. Onlara gündəlik yemək verilir, onlar tibbi müayinədən keçirlər. Onların mütləq əksəriyyəti yaradılmış vəziyyətdən çox razıdırlar, dövlətə və həkimlərə minnətdarlıqlarını bildirirlər.

Bir sözlə, Azərbaycan dövləti bu ciddi vəziyyətlə üzləşərək, yenə də öz gücünü göstərdi. Onu göstərdi ki, bizim əsas vəzifəmiz xalqımızı, dövlətimizi qorumaqdır. Buna nail olmaq üçün istənilən addımların atılması mümkündür və biz bunu edirik. Operativ tədbirlər nəticəsində imkan vermədik ki, bu bəla ölkədə geniş vüsət alsın. Ancaq bizim gələcək uğurumuz bundan sonra insanların hərəkətindən daha çox asılı olacaq. Dövlət nə mümkünsə onu edib. Bu gün sərtləşdirilmiş, məhdudlaşdırıcı tədbirlər qüv-

vədədir. İnsanlar məsuliyyətli olmalı, özlərini, yaxınlarını, ailə üzvlərini qorumalıdırlar. Necə ki, biz birlik, həmrəylik göstəririk, eyni tərzdə məsuliyyət və nizam-intizam da göstərməliyik.

Onu da bildirməliyəm ki, koronavirus xəstəliyi dünya iqtisadiyyatına böyük problem yaratdı, bunu artıq dünyanın aparıcı maliyyə qurumlarının rəhbərləri də qeyd edirlər. O cümlədən Beynəlxalq Valyuta Fondu artıq qeyd edib ki, koronavirusun yaradacağı böhran 2008–2009-cu illərin böhranından daha ağır olacaqdır.

Azərbaycana gəldikdə – üstəgəl neftin qiyməti, demək olar ki, 2 dəfədən çox düşüb – koronavirus xəstəliyi bir çox iqtisadi və xidmət sahələrinə mənfi təsir göstərir, ancaq buna baxmayaraq, o sahələrdə çalışan insanların problemləri nəzərə alınıbdır. Mənim göstərişimlə yaradılmış 4 işçi qrupu öz işini, demək olar ki, böyük dərəcədə yekunlaşdırıb. Mənə məruzə edilib və göstəriş əsasında Nazirlər Kabineti artıq Tədbirlər Planını təsdiq edibdir. İlkin mərhələdə nəzərdə tutulurdu ki, bu məqsədlər üçün təqribən 1 milyard manat vəsait ayrılsın. Ancaq sonra əlavə hesablamalar bunun kifayət etməyəcəyini göstərdi və ən azı 2,5 milyard manat ayrılacaq ki, Azərbaycanda həm iqtisadi sabitlik təmin edilsin, məşğulluqla bağlı problemlər öz həllini tapsın, həm də bizim makroiqtisadi və maliyyə vəziyyətimiz sabit olsun.

Əgər biz koronavirusun ən çox təsir etdiyi sahələri və eyni zamanda, fərdi sahibkarlıqla məşğul olan insanları nəzərə alsaq, 600 min insan bu vəziy-

yətdən daha çox əziyyət çəkir, çünki orada iş yerləri bağlanılıb. Mənim sahibkarlara çağırışım, birmənalı tələbim artıq hər kəsə bəllidir – bu dövrdə heç bir ixtisara getmək olmaz. Ancaq biz sahibkarlara da imkan yaratmalıyıq ki, onlar da əziyyət çəkməsinlər. Azərbaycan 600 min işçini, o cümlədən, fərdi sahibkarı dövlət hesabına maliyyələşdirəcək. Onların əmək haqlarının əhəmiyyətli hissəsini dövlət öz üzərinə götürüb və artıq bu ödəmələr başlanır. O cümlədən tələbələrin problemləri, işsizlərə verilən müavinətin həcmi – bütün bunlar nəzərə alınır və 2,5 milyard manat bu məqsədlər üçün nəzərdə tutulub. Bu çox böyük rəqəmdir. Bir daha demək istəyirəm ki, neft gəlirlərimiz azalıb, ancaq insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür. Biz bunu bir daha nümayiş etdiririk. Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük! Sağ olun.

* * *

*Azərbaycanda tibbi maska istehsalına başlanılması bir çox mühüm məqamları özündə ehtiva edir. İlk növbədə, bu addım Prezident İlham Əliyevin əhalinin sağlamlığının qorunması məsələsinə nə dərəcədə diqqətlə və həssas yanaşmasını göstərir və sübut edir ki, Azərbaycanda dövlət tərəfindən bu istiqamətdə konkret və ardıcıl tədbirlər görülür. Bundan başqa, bu*

*müəssisənin fəaliyyətə başlaması Azərbaycanda qeyri-neft sektorunun inkişafının göstəricisi olmaqla yanaşı, eyni zamanda, idxaldan asılılığı azaltmaq, daxili tələbatı ödəmək məqsədilə yerli istehsalı genişləndirmək istiqamətində son illərdə həyata keçirilən işlərin ardıcıl xarakter aldığını nümayiş etdirir.*

## TÜRK ŞURASININ VİDEOBAĞLANTI FORMATINDA FÖVQƏLADƏ ZİRVƏ GÖRÜŞÜ

*10 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videobağlantı formatında Fövqəladə Zirvə görüşü keçirilmişdir.*

*Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunmuşdur.*

*Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli dövlət və hökumət başçıları!

Hörmətli Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru!

Əziz dostlar!

Mən sizin hamınızı səmimiyyətlə salamlayıram. Azərbaycanın sədr ölkə kimi irəli sürdüyü Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünü dəstəklədiyiniz üçün təşəkkürümü bildirirəm. Bu təşəbbüsün irəli sürülməsindən bir neçə gün sonra Zirvə görüşünün

təşkili göstərir ki, Türk Şurası dostluq və qardaşlıq təməlləri əsasında qurulubdur.

Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru, doktor Tedros Adhanom Qebreyesusa Zirvə görüşünə qoşulduğuna görə minnətdarlığımı bildirirəm.

Zirvə görüşünün gündəliyi təqdim olunubdur. Gündəliklə bağlı hər hansı təklifiniz yoxdursa, işimizə başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, keçən ilin oktyabrında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü Bakıda keçirildi. Azərbaycan bu Zirvə görüşündə sədrliyi öz üzərinə götürdü. Dərhal Azərbaycan sədr ölkə kimi, fəaliyyətə başladı. Sədrlik etdiyimiz dövrdə dünyada təşkilatın nüfuzunun daha da artırılması, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində səylər göstəririk.

Koronavirus xəstəliyi sərhəd tanımayaraq, bütün dünyada yayılmış və faciəvi nəticələrə gətirib çıxarmışdır. Pandemiya səbəbindən ölkəmizdə və dünyada həyatını itirənlərə rəhmət diləyir, onların yaxınlarına başsağlığı verir və yoluxanların tezliklə şəfa tapmasını arzulayıram.

Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirir. Bu bizim nümunəvi səviyyədə olan həmrəyliyimizin növbəti bariz təzahürüdür. Bizi birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır. Koronavirus pandemiyası qlobal təhlükə oldu-

ğu üçün qlobal cavab tələb edir. Pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır.

Azərbaycan bu xəstəliyin yayılmasının qarşısını almaq üçün çevik və zəruri qabaqlayıcı addımlar atıb. Məhdudlaşdırıcı tədbirlər yaranmış şəraitə uyğun aparılıb. Mənim sərəncamımla bu ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə aprelin 20-dək dayandırılıb. Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınıb və ya ləğv edilib. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilibdir. Ticarət və əyləncə mərkəzlərinin fəaliyyəti dayandırılıb, park və ictimai istirahət yerlərinə insanların girişi qadağan edilibdir. Şəhərlərarası nəqliyyatın və Bakı Metropoliteninin fəaliyyəti tam dayandırılıb. Aprelin 5-dən etibarən ölkədə hərəkət məhdudiyyəti tətbiq olunur. Bir sıra dövlət və özəl qurumların fəaliyyətinə cəlb edilmiş şəxslər istisna olmaqla, bütün digər vətəndaşların yaşayış yerini tərk etməsinə konkret müəyyən olunmuş hallarda və vaxt çərçivəsində SMS icazə sistemi vasitəsilə icazə verilir.

Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir. Biz mart ayının əvvəllərində təşkilatın mütəxəssislərini Azərbaycana dəvət etdik. Qısa müddətdə dəvətimizə cavab verildi. Belə ki, 9–13 mart tarixlərində təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyət ölkəmizdə səfərdə oldu. Onlar ölkəmizdə vəziyyətlə tanış olaraq, görülmüş işlərə müsbət qiymət verdilər. Ekspert missiyasının hazırladığı hesabatda da öz əksini tapmış tövsiyələr aidiyyəti dövlət qurumları tərəfindən nəzərə alınır.

Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru, doktor Tedros Adhanom Qebreyesus tərəfindən mart ayının 23-də mənə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilib, pandemiyaya qarşı görülmüş tədbirlərə görə Azərbaycan nümunəvi ölkə kimi dəyərləndirilibdir.

Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayır. Azərbaycan qlobal həmrəylik nümayiş etdirərək, koronavirusa qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırıbdır. Mart ayının 13-də Azərbaycan tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının strateji hazırlıq və cavab planı çərçivəsində COVID-19 müraciəti Fonduna könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutan donor Sazişi imzalanıbdır. Biz Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk.

16 il ərzində Azərbaycanın səhiyyə sistemində köklü işlər görülüb, həkimlərin peşəkarlıq səviyyəsi yüksəlib, 750-dən çox səhiyyə ocağı tikilib və ya tam təmir olunubdur. Hər il Azərbaycanda 5 milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir.

Koronavirus xəstələri 20-dən artıq dövlət xəstəxanasında müalicə olunurlar. Bu günlərdə 575 çarpayıdan ibarət olan, ölkəmizin ən müasir «Yeni klinika» adlanan xəstəxanası onların ixtiyarına verilibdir. Bu ilin mart ayında ölkəmizin 3 şəhərində 3 yeni xəstəxana istifadəyə verilibdir. Onların ümumi çarpayı sayı 500-dən çoxdur. Bu xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verilibdir. Qısa müddət ərzində 6-sı dövlət, 4-ü isə özəl sahibkarlar tərəfindən tikilməklə, hər birinin 200 çarpayı yeri olan 10 müasir modul tipli xəstəxananın istifadəyə verilməsi də nəzərdə tutulur.

Həkimlərimizin və tibb işçilərimizin koronavirus xəstəliyinə qarşı mübarizədə xidmətlərini yüksək qiymətləndiririk. Koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3, 4 və 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən qayğının təzahürüdür.

15 mindən artıq Azərbaycan vətəndaşı müxtəlif ölkələrdən, o cümlədən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə təxliyə edilibdir. Ölkəyə qaytarılmış bütün vətəndaşlarımız dövlət hesabına 4 və 5 ulduzlu mehmanxanalarda, xüsusi karantin zonalarında yerləşdiriliblər. Eyni zamanda, bi-

rinci Avropa oyunları zamanı açılmış Atletlər kəndində də karantinə alınmış şəxslər yerləşdirilir.

Beynəlxalq ticarət daşımaları istisna olmaqla, qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində qonşu dövlətlərlə yerüstü və hava nəqliyyatı bağlantıları müvəqqəti olaraq dayandırılıb. Digər ölkələrlə beynəlxalq hava sərnişindaşımaları da dayandırılıbdır.

İndiyə kimi ölkə üzrə 60 minə yaxın test keçirilib. Əhalinin hər 1 milyon nəfərinə düşən testin sayı 5200-dən artıqdır. Aparılan testlərin sayına görə dünyada 30-cu, hər milyon əhaliyə görə aparılan testlərin sayına görə 40-cı yerlərdəyik. Azərbaycanda testlərin aparılması üçün 18 laboratoriya fəaliyyət göstərir, onların 5-i yeni yaradılıbdır.

Hazırda dünyada tibbi ləvazimat və avadanlıqların alınması problemə çevrilibdir. İstehsal olunan avadanlıq və ləvazimatların satılması dövlətlər tərəfindən məhdudlaşdırılıbdır. Ona görə də daxili istehsal ehtiyacı yaranıbdır. Daxili tələbatı ödəmək üçün aprel ayının əvvəlində ölkəmizdə operativ şəkildə tibbi maska istehsalı müəssisəsi fəaliyyətə başlayıbdır.

Mənim təşəbbüsümlə Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fondu təsis edilibdir.

Hazırda bu fonda köçürülmüş ianələrin həcmi 110 milyon manatdan və ya 65 milyon dollardan artıqdır. Dövlət vəsaiti ilə bərabər, ayrı-ayrı şəxslərin, sahibkarların və təşkilatların fonda könüllü ianəsi həm də böyük rəmzi məna daşıyır. Bu, Azərbaycan cəmiyyətində olan həmrəyliyin nümunəsidir.

Sirr deyil ki, koronavirus pandemiyası dünya ölkələrinin iqtisadiyyatına zərbə vurubdur. Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək, həm də makroiqtisadi və maliyyə vəziyyətimizi sabit saxlamaq üçün 2,5 milyard manat və ya təqribən 1,5 milyard dollar vəsait ayrılıbdır. Pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə Nazirlər Kabineti Tədbirlər Planı hazırlayıb və təsdiq edibdir. Əgər biz koronavirusun ən çox təsir etdiyi sahələri və fərdi sahibkarlıqla məşğul olan insanları nəzərə alsaq, görərik ki, 600 minə yaxın insan bu vəziyyətdən daha çox əziyyət çəkir. Sahibkarlara müraciət olunub ki, iş yerləri ixtisar edilməsin. 44 min sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsini dövlət ödəyəcək. Həmçinin dövlət dəstəyindən 290 mindən çox mikro və fərdi sahibkar faydalanacaqdır. Bu proqramlar ümumilikdə 600 minə yaxın insanı əhatə edir. Ümumilikdə dövlət sektoru üzrə 900 mindən artıq işçinin, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanılmaqla, məşğulluğu təmin edilibdir. İşsiz şəxslərin sosial müdafiəsi üçün 50 min ödənişli ictimai iş yeri yaradılacaqdır. Qeydiyyata düşmüş işsizlər üçün birdəfəlik ödəmələrə başlanılıbdır. Banklar tərəfindən sahibkarlara yeni verilmiş 500 milyon manat və ya təqribən 300 milyon dollar həcmində kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcəkdir. Zəmanət verilən kreditlər üzrə faiz dərəcəsinin yarısı dövlət

büdcəsinin vəsaitləri hesabına subsidiyalaşdırılacaqdır. Dövlət zəmanəti olmayan 1 milyard manat, təqribən 600 milyon dollar həcmində mövcud bank kreditləri üzrə faiz dərəcəsinin 10 faiz bəndi subsidiyalaşdırılacaqdır. Bunun üçün dövlət büdcəsindən 50 milyon manat və ya təqribən 30 milyon dollar vəsait ayrılıbdır. Bu tədbirin əsas məqsədi pandemiya səbəbindən faizlərin ödənilməsində çətinliklərlə üzləşmiş sahibkarlara kömək etməkdir. Sosial təcrid tədbirləri nəticəsində əhali tərəfindən elektrik enerjisi sərfi artıbdır. Bunu nəzərə alaraq, kommunal ödəmələrə güzəşt edilibdir. Bu proqramlar dövlət dəstəyinin yalnız bir hissəsidir və digər dövlət dəstəyi mexanizmləri üzərində hazırda iş aparılır.

Hörmətli dostlar, hesab edirəm ki, bugünkü fövqəladə Zirvə görüşünün əsas məqsədi milli səviyyədə atdığımız addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birimizə dəstək göstərilməsi və xalqlarımız arasında həmrəyliyin möhkəmləndirilməsidir. Mövcud qlobal pandemiya şəraitində Türk Şurasının üzv dövlətləri özlərinə qapanmayıbdır. Təşkilat olaraq, Türk Şurası digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırdır. Azərbaycan ayrı-ayrı ölkələrə də öz dəstəyini göstərməkdədir.

Ölkələrimizin iqtisadiyyatı, ticarət münasibətlərimiz və idxal-ixrac əməliyyatları üçün nəqliyyatdaşımaları mühüm əhəmiyyətə malikdir. Azərbaycan Türkiyə və Mərkəzi Asiya arasında etibarlı tranzit-logistika mərkəzi kimi, öz roluna məsuliyyətlə yanaşaraq, tranzit yüklərin daşınması üçün əlavə tədbir-

lər görübdür. Qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində ölkələrimiz arasında beynəlxalq yükdaşımaları fasiləsiz olaraq həyata keçirilir. Pandemiyanın mənfi təsirlərinə baxmayaraq, 2020-ci ilin ilk 3 ayı ərzində türkdilli ölkələrdən 180 min tondan artıq yük Azərbaycan vasitəsilə daşınıbdır ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 40 min ton çoxdur.

Səhiyyə xidmətləri sahəsində əməkdaşlığımız, o cümlədən tibb mütəxəssislərinin təcrübə mübadiləsi, birgə tibbi komissiyaların yaradılması üçün yaxşı imkanlar vardır. Bundan əlavə, sərnişin nəqliyyatdaşımalarının müvəqqəti bağlanmasına görə ölkələrimizin ərazisində qalan vətəndaşlara dəstək və yardım göstərməyimiz vacibdir. Bizim gördüyümüz bu tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunması və pandemiyanın doğurduğu sosial-iqtisadi fəsadların yüngülləşdirilməsi, iqtisadiyyatlarımızın davamlı inkişafının təmin edilməsi məqsədini daşıyır. Ümid edirəm ki, ölkələrimiz və xalqlarımız bu ağır vəziyyətin öhdəsindən layiqincə gələcək və pandemiyaya qarşı qlobal mübarizəyə öz layiqli töhfəsini verəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

İndi isə söz Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru, doktor Tedros Adhanom Qebreyesusa verilir.

**Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun çıxışı**

Hörmətli cənab Prezident Əliyev!

Hörmətli Prezidentlər, Baş nazirlər, baş katib, hörmətli dostlar, həmkarlar!

Əvvəla, çox sağ olun ki, burada çıxış etmək, sizə müraciət etmək üçün məni dəvət etmisiniz. Cenevrədən sizə qoşula bilməyim mənə çox xoşdur. Buna görə müasir texnologiyalara minnətdar olmaq lazımdır. Həqiqətən də bu möcüzədir.

Hörmətli Prezident Əliyev, mən Azərbaycanda olarkən həqiqətən, Sizin öz işinizə sədaqətinizin şahidi oldum. Fürsətdən istifadə edib bunu etiraf etmək istərdim. Səfərim müddətində mənə göstərdiyiniz qonaqpərvərliyə görə sağ olun. Ümidvaram ki, pandemiya başa çatandan sonra mən və digər prezidentlər yenidən oraya gələcəyik. Mən də söz verirəm ki, Sizi ziyarət etmək üçün əlimdən gələni edəcəyəm.

COVID-19 virusu həqiqətən, qlobal miqyasda yayılıb. Siz və sizin Şura bizimlə sıx əməkdaşlıq edirsiniz. Bu əməkdaşlıq xəstəxanaların imkanları, humanitar yardım, testlər, elmi, texniki biliklərin mübadiləsi, tibbi və texniki dəstək məsələlərini əhatə edir. Bu, sərhədaşırı əməkdaşlıq nümunəsidir. Pandemiyaya qarşı səmərəli mübarizə aparmaq üçün bizə bu lazımdır. COVID-19 meydana çıxandan bəri 100 gündən artıq vaxt keçib. COVID-19-un qlobal miqyasda yayılması səhiyyə sisteminə ciddi zərbə vurub, dünya iqtisadiyyatını sarsıdıb, ciddi sosial problemlərə gətirib çıxarıbdır. Ölüm göstəricisi

adi qrip ilə müqayisədə 10 dəfə yüksəkdir. Bundan əlavə, virus olduqca yoluxucudur, çox sürətlə yayılır. Yoluxanların sayı 1,3 milyon, ölənlərin sayı isə 80 mindir. Əməkdaşlıq Şurasının üzvü olan 5 dövlət 36 min yoluxma və 750 ölüm faktı barədə məruzə edib. Bu pandemiyadır. Bu, səhiyyə böhranından da artıqdır. Burada bütün hökumətlər, bütün cəmiyyət fəaliyyət göstərməlidir. Son 100 gündə COVID-19 göstərdi ki, hətta inkişaf etmiş, zəngin dövlətlər də zərər çəkiblər. Görürük ki, əsas zərbə həssas ölkələrə dəyir. Belə olmaması üçün biz nə mümkündürsə edirik. Əlbəttə, milli və submilli səviyyədə imkanlar pəncərəsi bütün ölkələrdə bağlanır. Bununla belə, biz əlimizdən gələni edirik. Yeri gəlmişkən, sizin ölkələrə də testləşdirmə avadanlığı və digər avadanlıqlar göndərmişik. Bu, ilin əvvəlində olub. Əlbəttə, siz pandemiyanın müxtəlif mərhələlərindəsiniz. Lakin epidemiyanın səhiyyə sisteminə, sosial xidmətlərə və iqtisadi fəaliyyətə təsirini minimuma endirmək üçün hamı səyləri artırmalıdır. Sosial ünsiyyətin məhdudlaşdırılması məsələsinə gəldikdə, burada münasibət bildirmək üçün bir qədər vaxtımız vardır. Əlbəttə, bütün səviyyələrdə adekvat işi təmin etmək, bütün hadisələri, əlaqələri izləmək lazımdır. Testləşdirmə vacibdir, ümumiyyətlə, səhiyyə sisteminə adekvat münasibəti təmin etmək lazımdır. Bu, həssas qruplara daha çox aiddir. Hamı üçün əsas xidmətlərin əlçatan olması təmin edilməlidir, əks halda epidemiyanı nəzarətdə saxlamaq çox çətindir və hamı təhlükəli vəziyyətə düşər.

Milli strategiyalar 5 əsas sahədə beynəlxalq səviyyədə dəstəklənməlidir. Biz bu 5 sahəyə birinci dərəcəli əhəmiyyət veririk. Birincisi, adekvat münasibət bildirmək üçün biz potensialı artırmağı çox istəyirik. İkincisi, epidemioloji təhlili və risklər haqqında informasiyanı təmin etmək lazımdır. Daha sonra qlobal təchizatın əlaqələndirilməsi təmin edilməlidir. Növbəti məqam texniki və ekspert köməyin təqdim edilməsi, hər yerdə tibbi qüvvələrin səfərbər olunması və toplanmış biliklər mübadiləsinin fəallaşdırılması ilə bağlıdır. Bizim strateji planımız vardır. Yaxın günlərdə onu dərc edəcəyik. Növbəti mərhələdə milli və beynəlxalq strategiyaların reallaşdırılması üçün çox ciddi resurslar lazımdır. Bu çağırışa cavab verənlərin hamısına təşəkkürümü bildirmək istərdim. 800 milyon dollar yardım göstərilməsi elan edilib. Bu çox yaxşı faktdır.

Azərbaycan hökumətinə və Azərbaycan xalqına da verdikləri töhfəyə görə təşəkkür etmək istəyirəm. Azərbaycan 5 milyon dollar ianə verib. Türkiyə də sağ olsun, çox sağ olun. Avropalı qonşularınıza kömək edir, onlara əsas materiallar göndərirsiniz. Hamınıza təşəkkür etmək istərdim.

Gəlin həmrəylik layihəsində iştirak edək. Gəlin baxaq, hansı metodlar, hansı vasitələr daha səmərəlidir. Bu həmrəylik layihəsində bir sıra ölkələr iştirak edir. Pandemiyaya son qoymaq üçün əməkdaşlığı və qarşılıqlı fəaliyyəti genişləndirmək lazımdır. Siz isə bunu edə biləcəyinizi göstərdiniz. Biz hamımız birlikdə bu vəziyyətə düşmüşük. Biz hələ uzun bir yol keçməliyik. Prezident Əliyevin indicə

dediyi kimi, həmrəylik və qətiyyət lazımdır. Biz bu ümumi təhlükəni birlikdə dəf edəcəyik.

Çıxış etmək imkanı verdiyinizə görə çox sağ olun. Zati-aliləri, Sizin tədbirinizdə iştirak etmək mənim üçün böyük şərəfdir.

**İ l h a m  Ə l i y e v:** Çıxışınıza görə təşəkkür edirəm. Bir daha qeyd edirəm ki, biz Ümumdünya Səhiyyə Təşkilatının koronavirusa qarşı mübarizədə rolunu yüksək qiymətləndiririk. Sizin rəhbərliyinizlə Ümumdünya Səhiyyə Təşkilatının bütün kollektivinə bu çətin və məsuliyyətli vəzifədə uğurlar arzulayırıq. Sağ olun, hörmətli cənab baş direktor.

İndi isə söz verilir Qazaxıstan Respublikasının Prezidenti cənab Kasım-Jomart Tokayevə.

## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin çıxışı

Hörmətli dövlət başçıları, sammit iştirakçıları!

Çıxışımın əvvəlində bugünkü tədbirin təşəbbüskarı olan Azərbaycan Prezidentinə səmimi-qəlbdən minnətdarlığımı bildirirəm. Həmçinin Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Qebreyesusa təşəkkür edirəm ki, bu gün bizimlə bir yerdədir. Artıq Türk Şurası çoxtərəfli məsələlərin müzakirə olunduğu platformaya çevrilib. Bu bizim ölkələrimizin ümumi nailiyyətidir.

*Hazırkı Zirvə görüşünün çətin zamanda – pandemiya dövründə keçirildiyini qeyd edən Qazaxıstan dövlətinin başçısı vurğuladı ki, bütün ölkələr səyləri birləşdirməlidir. O bildirdi ki, müzakirələr zamanı*

*gündəlikdə duran əsas məsələ pandemiyanın yayılmasının qarşısını almaq üçün atılacaq addımların müəyyənləşdirilməsidir. Qazaxıstan Prezidenti ölkəsində virusun qarşısının alınması ilə bağlı görülən işlərdən danışdı. Vurğuladı ki, hazırkı vəziyyət qlobal iqtisadiyyatın inkişaf templərinə mənfi təsir edib, qlobal geosiyasi və iqtisadi vəziyyəti dəyişibdir.*

**İlham Əliyev:** Təşəkkür edirəm, cənab Prezident. İndi isə söz verilir Qırğız Respublikasının Prezidenti cənab Sooronbay Jeenbekova.

**Qırğız Prezidenti**
**Sooronbay Jeenbekovun çıxışı**

Hörmətli həmkarlar, sizinlə görüşməyə şadam. Koronavirus infeksiyasına qarşı mübarizədə bütün dünyaya uğurlar, tezliklə adi həyata qayıtmaq və dövlətlərimizin firavanlaşmasını arzu etmək istərdim. Bu təşəbbüsə görə Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Heydər oğlu Əliyevə və Türk Şurasına dərin minnətdarlığımı bildirirəm.

*Qırğız Respublikasının Prezidenti qeyd etdi ki, müasir dövrün ən vacib çağırışı koronavirus infeksiyasının dünyada yayılmasıdır. O, Qırğızıstanda bu xəstəliyə qarşı mübarizədə görülən işlərdən danışdı və ölkəsinin ciddi təhdidlərlə üzləşdiyini vurğuladı:*

– Təəssüf ki, bizim ölkəmizdə də virusa yoluxmuş insanların sayı artır. Virusun yayılmasının qarşısını almaq və iqtisadiyyatı dəstəkləmək üçün hər cür tədbir görülür. Vəziyyət tam nəzarətdədir. Fürsətdən istifadə edib Türk Şurasının üzvü olan

dövlətlərin – Özbəkistan, Qazaxıstan, Azərbaycan və Türkiyənin rəhbərliyinə bizə göstərdikləriköməyə görə təşəkkürümü bildirmək istəyirəm.

*Prezident Sooronbay Jeenbekov koronavirus infeksiyasının dünyada yayılmasının və bunun nəticəsində yaranmış vəziyyətin davamlı xarakter almasının çoxsaylı risklərə səbəb olduğunu bildirdi, pandemiyanın qarşısını almaq üçün birgə səylərin əhəmiyyətinə toxundu:*

– Türk Şurasında Azərbaycanın sədrliyi çox mürəkkəb dövrdə keçir. Ümidvaram ki, biz koronavirusla bağlı problemlərdən uğurla xilas olacaq və Azərbaycanın sədrliyi ilə iqtisadiyyat, ticarət və investisiyalar sahəsində əməkdaşlığı möhkəmlədəcəyik. Ümid edirəm ki, ölkələrimizin əməkdaşlığı səmərəli olacaq və xalqlarımızın həyat səviyyəsinin yaxşılaşmasına şərait yaradacaq. Diqqətinizə görə sağ olun.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm, cənab Prezident. İndi isə söz verilir Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğana.

### Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

Dəyərli qardaşım, Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürümü bildirirəm. Bütün bəşəriyyət indi görünməz bir düşmənə qarşı çətin müharibə aparır. Türk Şurasının bu fövqəladə Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizəmizdə aramızdakı həmrəyliyi möhkəmləndirəcəkdir. Türk dünyası

olaraq, Allahın izni ilə bu çətin dövrdən də gücləƏnərək çıxacağımıza səmimi-qəlbdən inanıram.

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan koronavirus pandemiyası ilə əlaqədar ölkəsində həyata keçirilən tədbirlərdən danışdı. Qeyd etdi ki, bu çətin günlərdə Türkiyə öz qardaşlarının yanında olmağa, onlara yardım etməyə çalışır. Bu baxımdan Türk Şurasının üzvləri arasında da həmrəyliyin nümayiş etdirilməsi məmnunluq doğurur. Rəcəb Tayyib Ərdoğan pandemiyanın dünya iqtisadiyyatına mənfi təsirindən danışdı, onun fəsadlarının azaldılmasının, həmçinin ölkələrimiz arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğuladı:*

– Türkiyə ilə Azərbaycan və Gürcüstan arasında yükdaşımaları üçün istifadə edilən dəmir yolu xəttini Orta Asiyayadək uzada bilərik. Bakı–Tbilisi–Qars dəmir yolu xətti vasitəsilə mövcud yükə əlavə olaraq, gündəlik 3500 ton yükün daşına bilməsi üçün işlər görürük. Bağlanan quru yollar ilə əlaqədar Azərbaycan və Qazaxıstan türk nəqliyyatçıları üçün mühüm bir tranzit marşruta çevrilibdir.

«Əlbəttə ki, koronavirusla savaşda qalib gələcəyik, bunun ardınca yeni dünya reallığı ilə üz-üzə qalacağıq» – *deyən Türkiyə Prezidenti pandemiyadan sonrakı dövr üçün də hazırlıqların görülməsinin əhəmiyyətinə toxundu.*

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm, cənab Prezident. İndi isə söz verilir Özbəkistan Prezidenti cənab Şavkat Mirziyoyevə.

## Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin çıxışı

Hörmətli İlham Heydər oğlu!
Hörmətli dövlət və hökumət başçıları!
Hörmətli Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru!
Əziz dostlar!
İlk növbədə, Türk Şurasının bugünkü növbədənkənar Zirvə görüşünün təşkil olunması təşəbbüsü ilə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə səmimi minnətdarlığımı bildirirəm. Videokonfrans formatında görüşümüz bütün dünyada böyük narahatlıq doğuran koronavirus pandemiyasının qarşısının alınması kimi olduqca vacib və aktual məsələyə həsr edilibdir.

*Dünyada çox sayda insanın pandemiya ilə bağlı yaranmış vəziyyətdən əziyyət çəkdiyini deyən Özbəkistan Prezidenti virusun yayılma tempi və miqyasına görə misli görülməmiş qlobal böhrana, bütün bəşəriyyət və dünya iqtisadiyyatı üçün çox ciddi təhdidə çevrildiyini vurğuladı.*

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm, cənab Prezident. İndi isə söz verilir Türkmənistan Prezidenti cənab Qurbanqulu Berdıməhəmmədova.

## Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədovun çıxışı

Hörmətli sammit iştirakçıları!
Mən də öz növbəmdə, sizi səmimi-qəlbdən salamlayıram. Sizin hamınıza cansağlığı, dövləti və beynəlxalq fəaliyyətinizdə uğurlar arzu edirəm.

Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə bu sammitin təşkili ilə bağlı irəli sürdüyü təşəbbüsə görə dərin minnətdarlığımı bildirirəm. Bu görüş bizə bütün dünya ölkələrinə aid olan qlobal xarakterli məsələləri müzakirə etməyə yaxşı imkan verir. Aydındır ki, bu gün bəşəriyyət geniş coğrafi sahəni əhatə edən ciddi çağırışla üzləşibdir.

*Hazırkı vəziyyətin bir çox dövlətlərə və xalqların həyatına mənfi təsir göstərdiyini söyləyən Türkmənistan Prezidenti dünyanı bürümüş bu təhdidə qarşı mübarizədə koordinasiyalı addımların, həmçinin xalqlarımızın humanizm, qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirməsinin əhəmiyyətinə toxundu. Qurbanqulu Berdıməhəmmədov Türkmənistanda koronavirusla mübarizə istiqamətində görülən işlərdən danışdı. Bu vəziyyətdə ticari-iqtisadi əlaqələrin dayanıqlılığının təmin olunmasının və nəqliyyat əlaqəsi fəaliyyətinin vacibliyini vurğuladı:*

– Qeyd etmək istəyirəm ki, Türkmənistan və Azərbaycanın koordinasiya olunmuş addımları hesabına Xəzər dənizində Türkmənbaşı və Bakı limanları arasında gəmi əlaqəsi davam edir. Bu, böyük geoiqtisadi məkanda yükdaşımaları baxımından çox vacib nəqliyyat dəhlizidir. Regional tərəfdaşlarla birgə fəaliyyət nəticəsində Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin normal fəaliyyəti təmin edilibdir.

«Biz ümumi tarixi olan qardaş ölkələr kimi, malik olduğumuz yüksək mənəvi və sosial dəyərləri tam göstərməliyik» – *deyən Türkmənistan Preziden-*

*ti bu çətin anların birgə dəf ediləcəyinə, ölkələrimiz arasında əməkdaşlıq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənəcəyinə əminliyini bildirdi.*

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm, cənab Prezident. İndi isə söz verilir Macarıstanın Baş Naziri cənab Viktor Orbana.

## Macarıstanın Baş Naziri Viktor Orbanın çıxışı

Hörmətli cənab Prezidentlər, əziz dostlar! Sizi salamlayıram!

Mən dostum cənab İlham Əliyevə məni bu videokonfransa dəvət etdiyinə görə minnətdarlığımı bildirirəm. Cənab Prezident Ərdoğan, Türkiyənin maska hazırlamaq üçün bizə materiallar göndərdiyinə görə Sizə təşəkkürümü bildirirəm. Biz bu xeyirxahlığı heç vaxt unutmayacağıq. Cənab Prezident Əliyevə – əziz dostuma Azərbaycan tərəfindən bizə göstərilən köməyə görə çox minnətdaram.

*Baş Nazir Viktor Orban qeyd etdi ki, vaksinin olmaması pandemiyanın ciddi fəsadlar törətməsinə səbəb olacaq. Macarıstan hökumətinin başçısı pandemiyanın qarşısının alınmasında tibbi heyətin, avadanlıqların və qoruyucu vasitələrin əhəmiyyətindən danışdı, pandemiyanın Avropada yaratdığı ağır iqtisadi vəziyyət barədə məlumat verdi:*

– Avropanın iqtisadi vəziyyəti birmənalı deyil. Bir çox Avropa ölkələrinin müəssisələri ağır vəziyyətdədir və bu vəziyyətdə qalacaq. İşsizlik geniş miqyas alıb, problemlər bundan sonra da davam edəcək.

Sənayenin müəyyən sahələri çöküb. Avropanın iqtisadi vəziyyəti indi elədir ki, Avropa dövlətləri külli miqdarda kredit götürməyə məcburdur. Böhrandan sonra ölkələrin borcları daha da çox olacaqdır.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm, cənab Baş Nazir. İndi isə söz verilir Türk Şurasının baş katibi cənab Bağdad Amreyevə.

## Türk Şurasının baş katibi Bağdad Amreyevin çıxışı

Cənab Prezidentlər və Baş Nazir! İlk növbədə, Türk Şurasının üzvü olan dövlət başçılarını salamlayıram. Xüsusilə Türk Şurasının fəaliyyətdə olan sədri – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bugünkü tədbirin yüksək səviyyədə təşkilinə görə səmimi-qəlbdən dərin hörmət və ehtiramımı bildirmək istəyirəm.

Pandemiya bizim ölkələrə də təsir edib. Lakin xoşbəxtlikdən dünyanın başqa yerlərinə nisbətən vəziyyət o qədər də faciəvi deyil. Bu onun nəticəsidir ki, virusla mübarizədə sizin qabaqlayıcı tədbirləriniz, qətiyyətli qərarlarınız daha böyük faciələrin qarşısını almağa imkan verdi. Bizim ölkələrimiz bir-birinə humanitar yardım göstərdi, o cümlədən tibbi avadanlığın və maskaların, qoruyucu eynəklərin və əlcəklərin, test dəstlərinin verilməsi baxımından. Xüsusən də vətəndaşların evakuasiyası ictimaiyyət tərəfindən müsbət qarşılandı. Bu vəziyyət göstərdi ki, Türk Şurası çərçivəsində səhiyyə sahəsində əməkdaşlığı genişləndirmək vacibdir.

*Bağdad Amreyev pandemiyadan sonra dünyada yaranacaq iqtisadi böhranın qarşısının alınmasında Türk Şurasına üzv ölkələrin qarşılıqlı birgə fəaliyyətinin gücləndirilməsinin əhəmiyyətindən danışdı. O qeyd etdi ki, Türk Şurasının Bakı Bəyannaməsində əksini tapan birgə investisiya fondu yaratmaq barədə qərarın icrası böhrandan sonrakı dövrdə iqtisadiyyatların bərpasında mühüm rol oynaya bilər.*

**Azərbaycan Prezidenti İlham Əliyevin yekun çıxışı**

Təşəkkür edirəm, cənab baş katib!

Təklif edirəm ki, çıxışlarda səslənən bütün təkliflər katiblik tərəfindən qeydə alınsın və ümumiləşdirilib, bütün ölkələrə razılaşdırılma üçün təqdim edilsin. Əminəm ki, bu dəyərli təkliflər nəzərə alınacaqdır. Beləliklə, biz əməkdaşlığımızın növbəti mərhələsini uğurla davam etdirərək və koronavirusla mübarizədə birlik göstərərək, bu bəlaya qalib gələcəyik.

Əziz qardaşlarımdan soruşmaq istərdim, əlavə hansısa məsələlər, suallar, təkliflər varsa, xahiş edirəm bildirin.

Əgər yoxdursa, onda icazə verin, mən yekun sözümü söyləyim və ondan sonra Bəyannamənin qəbul edilməsi nəzərdə tutulur.

Hörmətli dostlar!

Bir daha əziz qardaşlarıma bizim təşəbbüsümüzü qəbul etdiklərinə və Zirvə görüşündə iştirak etdiklərinə görə dərin minnətdarlığımı bildirmək istəyi-

rəm. Əminəm ki, bu gün çıxışlarda səslənən dəyərli fikirlər və təkliflər koronavirus xəstəliyinə qarşı bizim birgə mübarizəmizi daha da gücləndirəcəkdir. Eyni zamanda, bu xəstəliyin mənfi təsirlərinin aradan qaldırılması üçün pandemiyadan sonrakı dövrdə iqtisadiyyat, ticarət, nəqliyyat və digər sahələrdə əməkdaşlıq üzrə səylərimizi daha da artırmağımız zəruridir.

Bizim həmrəyliyimiz və birliyimiz nümunəvi xarakter daşıyır. Bu onu göstərir ki, biz yalnız xoş günlərdə deyil, çətin günlərdə də bir-birimizin yanındayıq. Qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq böyük önəm daşıyır. Biz digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırıq. Hesab edirəm ki, Zirvə görüşünün yekun Bəyannaməsi bu əməkdaşlığa əhəmiyyətli töhfədir.

Hörmətli həmkarlar, ümidvaram ki, koronavirusla mübarizədə qalib gələcəyik və bu ağır vəziyyətdən az itkilərlə çıxacağıq. İndi isə gündəlikdə Bəyannamənin qəbul edilməsi durur. Bəyannamənin mətni razılaşdırılıb və beləliklə, Bəyannamə qəbul edildi.

Əziz dostlar, bir daha Zirvə görüşündə fəal iştirakınıza görə təşəkkürümü bildirirəm və Zirvə görüşünü bağlı elan edirəm. Sağ olun.

## 2020-ci İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ YEKUNLARINA HƏSR OLUNMUŞ VİDEOBAĞLANTI FORMATINDA MÜŞAVİRƏ

*14 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 14-də videobağlantı formatında 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilmişdir.*

*Dövlət başçısı müşavirədə giriş nitqi söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz ilin birinci rübünün yekunlarını müzakirə edəcəyik, görüləcək işlər haqqında danışacağıq. Deyə bilərəm ki, 2020-ci il uğurla başlanmışdır. İlin əvvəlinin göstəriciləri deməyə əsas verir ki, Azərbaycanda islahatların davam etdirilməsi yaxşı nəticələrə gətirib çıxarır. Xüsusilə yanvar–fevral aylarında həm iqtisadi, həm də sosial göstəricilərimiz çox müsbət idi. Mart ayında isə müəyyən qədər tənəzzülə uğradıq. Bu da təbiidir. Çünki koronavirus bütün dünya üçün böyük bəladır və dünya iqtisadiyyatı üçün böyük problemdir. Əgər ilin 3 ayını bütövlükdə götürsək görərik ki, yenə də inkişaf, tə-

rəqqi vardır. Ancaq hər kəs bilməlidir ki, indi dünya yeni bir mərhələyə qədəm qoyub və hətta ən inkişaf etmiş ölkələr böyük problemlərlə üzləşib.

Koronavirus böyük bəladır, artıq 100 mindən çox insanın həyatına son qoyub. Demək olar ki, dünyanın bütün ölkələrində koronavirusla bağlı problemlər yaşanır. Azərbaycan da dünyanın bir parçasıdır. Ancaq deyə bilərəm ki, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq. Hesab edirəm ki, bu günə qədər atılmış bütün addımlar düzgün istiqamətdə atılmış addımlardır. Məhz bu addımlar nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır. Əgər bu addımlar vaxtında atılmasaydı və biz düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejimi mərhələli yollarla sərtləşdirməsəydik, bu gün xəstələrin sayı 1000 yox, bəlkə 10 000, bəlkə də 20 000 ola bilərdi. Ən inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, heç bir ölkə özünü tam sığortalı hesab edə bilməz. Heç bir ölkənin səhiyyə sistemi bu xəstələrin artan dinamikasının qarşısında duruş gətirə bilməz. Bu bizim üçün də dərs olmalıdır və mən bunu artıq bildirmişəm, bir daha demək istəyirəm ki, bundan ibrət götürməliyik. Bizim bütün addımlarımız ölçülüb-biçilmiş addımlardır və təsadüfi deyil ki, bir neçə ölkə bizim təcrübəmizdən yararlanıb oxşar addımlar atır. Biz bunu görürük.

Ona görə də bizim bundan sonrakı addımlarımız elə atılmalıdır ki, insanların sağlamlığını, onların həyatını qoruya bilək. Əvvəllər qeyd etdiyim kimi, biz addımlarımızı vəziyyətə uyğun atacağıq və əl-

bəttə, hamımız istəyirik ki, bu karantin rejiminə tezliklə son qoyulsun və vətəndaşlar öz normal həyatlarına qayıtsınlar. Ancaq bir daha demək istəyirəm ki, bizim üçün əsas məsələ vətəndaşların sağlamlığı, insanlarımızın həyatıdır. Bu günlərdə mənə ünvanlanan yüzlərlə, minlərlə məktublar, elektron məktublar, mesajlar göstərir ki, vətəndaşlar bizim atdığımız addımları yüksək qiymətləndirirlər.

Ancaq bir daha demək istəyirəm ki, koronavirus pandemiyası nə vaxt qurtaracaq, bunu heç kim bilmir, heç kim proqnoz verə bilmir. Ona görə biz də sadəcə olaraq, ölkə daxilində vəziyyəti tam nəzarətdə saxlamalıyıq, geniş monitorinq aparmalıyıq və aparırıq. Dünyada gedən prosesləri də yaxından müşahidə edərək, öz addımlarımızı elə ataq və tam əmin olaq ki, bu koronavirus pandemiyası artıq təhlükə törətmir. Hesab edirəm ki, ancaq ondan sonra müəyyən dərəcədə yumşalma addımlarının atılması mümkündür. Hələ ki, demək tezdir, amma son günlərin rəqəmləri ümidvericidir. Ümid etmək istəyirəm ki, bu müsbət dinamika, yəni xəstələrin sayı ilə bağlı müsbət dinamika bundan sonra da davam edəcək. Ancaq yenə də deyirəm, biz addımlarımızı vəziyyətə uyğun şəkildə atacağıq.

O ki qaldı pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirinə, bu da qaçılmazdır. Artıq aparıcı beynəlxalq maliyyə qurumları qeyd edir ki, bu pandemiyadan yarana biləcək və yaranmaqda olan böhran 2008–2009-cu ilin böhranından daha ağır olacaq. Bunu Beynəlxalq Valyuta Fondunun rəhbərliyi bildiribdir. Eyni zamanda, biz bilirik ki,

Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına 150-dən çox ölkə yardım üçün müraciət edibdir. Yəni dünya birliyinin mütləq əksəriyyəti artıq yardıma ehtiyac duyur və buna görə müraciət edibdir. Azərbaycanın adı isə bu siyahıda yoxdur. Hesab edirəm ki, bu vəziyyətdən şərəflə çıxmağımız – mən buna əminəm – bir daha göstərəcək ki, bizim bütün addımlarımız düşünülmüş addımlardır və xalqımızın, dövlətimizin maraqlarına uyğun şəkildə atılan addımlardır.

Bir daha demək istəyirəm ki, iqtisadi vəziyyətə pandemiyanın təsiri qaçılmazdır. Biz artıq bunu görürük. Ona görə hökumətə tapşırıq verirəm, xüsusilə Baş Nazir, Maliyyə naziri və İqtisadiyyat nazirinə ki, dövlət xərclərinə yenidən baxılsın və prioritet təşkil etməyən xərclər ixtisar edilsin. Eyni zamanda, vəsaitin xərclənməsinə çox ciddi nəzarət mexanizmi tətbiq olunmalıdır. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bundan əvvəl də bildirmişdim. Son vaxtlar bu istiqamətdə müsbət dinamika göz qabağındadır və bunun nəticəsində biz həm keçən il, həm də bu ilin 3 ayında büdcəmizə əlavə maliyyə vəsaiti daxil edə bilmişik. Ancaq hesab edirəm ki, burada hələ ehtiyatlar var, həm investisiya xərclərinə, həm də cari xərclərə yenidən baxılmalıdır. Çünki bəzi hallarda cari xərclər şişirdilir. Xüsusilə dövlət təşkilatlarının, dövlət şirkətlərinin cari xərcləri əfsuslar olsun ki, şişirdilir və bu sahəyə çox ciddi diqqət göstərilməlidir. Bu sahədə şəffaflığın tam təmin olunması istiqamətində əlavə addımların atılması zəruridir. Hesab edirəm ki, biz bunun he-

sabına, əlbəttə, öz iqtisadi-maliyyə vəziyyətimizi sabit saxlayacağıq. Eyni zamanda, hökumətə tapşırıram ki, yeni gəlir mənbələri aşkar edilməlidir. Yenə də demək istəyirəm, ehtiyatlar var, çoxdur. Son müddət ərzində bu ehtiyatların bir hissəsi artıq üzə çıxıb və büdcəyə daxilolmalar artır, həm keçən il, həm də bu il. Keçən il büdcəyə proqnozdan əlavə 1 milyard manatdan çox vəsait daxil edilibdir, bu ilin 3 ayında isə 300 milyon manatdan çox. Ona görə bu məsələyə çox diqqətlə baxmaq lazımdır və təkliflər hazırlanmalıdır. Yenə də demək istəyirəm ki, biz bilmirik bu vəziyyət nə qədər çəkəcək. Ona görə öz addımlarımızı elə atmalıyıq ki, iqtisadi, makroiqtisadi sabitlik təmin edilsin. Əlbəttə, ilk növbədə, bu vəziyyətdən əziyyət çəkən vətəndaşların problemlərini həll etməliyik və edirik. Bu məqsədlə böyük məbləğdə vəsait ayrılıb, 600 mindən çox insan, hansı ki, pandemiyaya görə öz işini müvəqqəti olaraq itirib, dövlət tərəfindən dəstəklə təmin edilir. Bu insanların maaşlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Eyni zamanda, işsizlərlə bağlı problemlər öz həllini tapır və işini itirənlər artıq öz adlarını kütləvi surətdə qeydiyyata salırlar. Biz burada da çox diqqətli olmalıyıq, sui-istifadədən uzaq olmalıyıq. Bu həm vətəndaşlara aiddir, həm də dövlət orqanlarına. Doğrudan da işini itirmiş, yaxud da ki, işləməyən insanlara yardım göstərilməlidir. Çünki mənə verilən məlumata görə, son günlər ərzində müraciətlərin dinamikası çox sürətlidir və bu, müəyyən şübhələr doğurur. Dövlət orqanlarının kifa-

yət qədər imkanı var ki, bu məsələ araşdırılsın və ehtiyacı olan insanlar dövlətdən yardım alsınlar.

Onu da bildirməliyəm ki, mənim göstərişimlə son aylar ərzində ünvanlı sosial yardım alan insanların sayı artırılıb, indi onların sayı 70 mindən çoxdur. Əlbəttə ki, hər bir məsələyə biz ayrı-ayrılıqda baxmalıyıq, vahid meyarlar tətbiq olunmalıdır və bu meyarlar vətəndaşlara da aydın olmalıdır ki, bununla bağlı heç kimdə heç bir şübhə qalmasın.

Əlbəttə, həyat yerində durmur, həyat davam edir və mən əminəm ki, 2020-ci il də çox dərin və geniş islahatlar ili olacaq, necə ki, 2019-cu ildə islahatların böyük hissəsi icra edildi. Əslində islahatların yeni mərhələsinə start 2018-ci ilin Prezident seçkilərindən sonra verilmişdir. Mənim andiçmə mərasimindəki çıxışımda inkişafımızın və islahatların bütün istiqamətləri açıq-aydın göstərilmişdir. Ondan sonra biz bu islahatların ardıcıllıqla həyata keçirilməsi ilə məşğuluq və bu gün deyə bilərəm ki, ölkəmizdə daha yaxşı vəziyyət yaranmışdır – həm siyasi müstəvidə, həm iqtisadi sahədə, həm də sosial problemlərin həllində. Əlbəttə, əgər bu koronavirus pandemiyası müdaxilə etməsəydi, bizim uğurlarımız daha da böyük həcmli olardı. Ancaq əminəm ki, biz bu ağır vəziyyətdən də çıxacağıq, iqtisadiyyatımız, iş yerləri bərpa ediləcəkdir.

Pandemiya bir daha göstərdi ki, uğurlu inkişaf üçün iqtisadiyyat dayanıqlı olmalıdır. Buna nail olmaq üçün mütləq bütün sahələrdə islahatlar aparılmalıdır – həm iqtisadi-sosial sahədə, həm siyasi sahədə. Mən hesab edirəm ki, siyasi islahatların apa-

rılması bundan sonra bizim imkanlarımızı daha da genişləndirəcək. Biz bu islahatların gözəl nəticələrini görürük. Azərbaycan bundan sonra da demokratik inkişaf istiqamətində önəmli addımlar atacaq. Bizim kifayət qədər güclü siyasi iradəmiz vardır. Biz görürük ki, siyasi və iqtisadi islahatlar paralel aparılarkən doğrudan da böyük uğurlara imza ata bilərik.

Struktur islahatları aparılıb və hesab edirəm ki, struktur islahatlarının davam etdirilməsi məsələlərinə yenə də baxmalıyıq. Siyasi islahatlar göz qabağındadır, kadr islahatları aparılıb. Prezident Administrasiyasında, Nazirlər Kabinetində, parlamentdə böyük kadr dəyişiklikləri edilib. Bütün hakimiyyət qollarında aparılan islahatlar bir məqsədi güdür ki, idarəetmə mexanizmi daha da təkmilləşsin, təbii olaraq, gəncləşmə siyasəti aparılsın və peşəkar kadrlar önəmli vəzifələrə gətirilsin.

Hesab edirəm ki, bizim sözümüzlə əməlimiz arasında hər zaman olduğu kimi, bu dəfə də vəhdət var və nəyi bəyan etmişəmsə, biz onu da təmin edirik. Hesab edirəm ki, Prezident Administrasiyasında, Nazirlər Kabinetində və Milli Məclisdə aparılan ciddi islahatlar nəticəsində ölkəmiz indi yeni inkişaf mərhələsinə inamla qədəm qoyur və idarəetmədə təkmilləşmə göz qabağındadır. Eyni zamanda, yerli icra orqanlarında aparılan kadr islahatları, xüsusilə xoşagəlməz hallara qarşı ciddi mübarizə də göz qabağındadır. Bu bizim şüurlu seçimimizdir. Bütün xoşagəlməz hallara qarşı bundan sonra da ciddi mübarizə aparılacaq. Hesab edirəm ki, Prezident tərəfindən edilən xəbərdarlıq hər kəs üçün dərs

olmalıdır. Əgər kimsə bundan ibrət götürməsə, günah onun özündə olacaqdır.

Bu islahatların məntiqi davamı parlament seçkiləri idi və bu ilin fevral ayında seçkilər keçirildi. Parlament seçkiləri bir daha xalqımızın iradəsini ifadə etdi, bir daha göstərdi ki, apardığımız siyasət Azərbaycan vətəndaşları tərəfindən bəyənilir, dəstəklənir və parlament seçkiləri demokratik inkişaf istiqamətində atılmış növbəti addımdır. Seçkilərdən sonra parlamentin tərkibi böyük dərəcədə, rəhbər orqanları isə tam dəyişdirildi. Tarixdə ilk dəfə olaraq, müxalifət nümayəndəsi Milli Məclis Sədrinin müavini vəzifəsinə seçildi. Hesab edirəm ki, bu, siyasi sistemin təkmilləşdirilməsi və siyasi münasibətlərin sağlam zəmində qurulması istiqamətində atılmış önəmli addımdır. Eyni zamanda, tarixdə ilk dəfə olaraq, parlament komitələrinə müxalifət nümayəndələri başçılıq edirlər – həm sədr, həm də müavin vəzifələrində. Hesab edirəm ki, bu da çox önəmli addımdır və ilk növbədə, siyasi sistemin yeni konfiqurasiyasına yol açan bir addımdır, eyni zamanda, Milli Məclisdə gedən proseslərə müsbət təsir göstərəcəkdir. İndiki şəraitdə biz açıq-aydın görürük ki, siyasi qüvvələrin mütləq əksəriyyəti dövlətçilik prinsiplərini hər şeydən üstün tutur və bu da bizim əsas məqsədimizdir. Çünki əsas məqsədimiz elə siyasi sistem yaratmaqdır ki, fərqli baxışlardan asılı olmayaraq, hər bir siyasi qüvvə üçün bir amal müqəddəs olsun, o da dövlətçilik, müstəqillik, azadlıq, rifah və inkişafdır. Belə olan halda, həm siyasi müstəvidə işlər müsbət istiqamətdə gedəcək, həm

də ölkədə mövcud olan problemlər daha tezliklə həll olunacaqdır. Çünki müxalifət nümayəndələri bəzən iqtidar nümayəndələrinin görmədiyi qüsurları görür, onları dilə gətirir, onları diqqətə çatdırırlar və bu çox müsbət haldır. Ancaq eyni zamanda, bir daha demək istəyirəm ki, bütün siyasi qüvvələr üçün bir amal, bir məsələ toxunulmaz olmalıdır, bu da bizim müstəqilliyimiz, dövlətçiliyimiz və dövlət maraqlarıdır.

Hesab edirəm ki, hakimiyyət tərəfindən atılan addımlar, siyasi dialoqun başlanması və müxalifət partiyaları tərəfindən buna müsbət reaksiyanın verilməsi müstəqillik dövründə tam yeni vəziyyətin yaradılmasına gətirib çıxarır. Müstəqillik dövründə bu sahədə heç vaxt belə müsbət mənzərə müşahidə edilməyibdir.

Əlbəttə, bəlkə mən hadisələri bir qədər qabaqlayıram. Çünki bu proses hələ təzə-təzə başlayır. Ancaq bəlkə ona görə qabaqlayıram ki, mən bu prosesin sürətlə getməsini arzulayıram. Şadam ki, bizim dialoq təklifinə müxalifət partiyalarının hamısı müsbət cavab verib və artıq siyasi dialoq başlayır. Əminəm ki, bu, ölkəmizə böyük fayda gətirəcəkdir. O ki qaldı bu dialoqdan imtina edənlərə, onları siyasi qüvvə adlandırmaq düzgün olmaz. Çünki bu düşərgədə cəmləşən insanlar uzun illərdir iqtidara qarşı yox, dövlətimizə, xalqımıza qarşı çirkin mübarizə aparırlar. Onların əsas məqsədi vəziyyəti gərginləşdirməkdir. Ölkəmiz üçün, xalqımız üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Onların fəaliyyət tarixi də bunu göstərir. Biz bu tarixi

yaddan çıxarmamışıq. Həmin bu qüvvələr Azərbaycanı keçən əsrin 90-cı illərinin əvvəllərində ağır vəziyyətə salıblar, xəyanət ediblər, torpaqlarımızın işğalını şərtləndiriblər. Ondan sonra qorxaqcasına qaçıb gizləniblər. Həmin bu adamlar Azərbaycana böyük zərbə vurub, vətəndaş müharibəsinə start veriblər. Torpaqlarımız işğala düşən zaman burada qardaş qanı axıdılıb. Bu qruplaşma ölkəmizdə xaos, anarxiya yaradıb, korrupsiya dövlət siyasətinə çevrilib və səriştəsizlik, tərbiyəsizlik, mədəniyyətsizlik artıq AXC–Müsavat hakimiyyətinin rəmzinə çevrilibdir. O hakimiyyəti təmsil edən adamların yarıtmaz və xəyanətkar fəaliyyəti nəticəsində ölkə faktiki olaraq, dağılma ərəfəsində idi.

Ona görə bu qruplaşmanı indiki şəraitdə siyasi qüvvə adlandırmaq olmaz. Onu bildirməliyəm ki, həmişə nəyisə gözləyirlər və həmişə xarici amilə ümid edirlər. Yadınıza salın, 2005-ci ildə postsovet məkanında inqilablar baş verdiyi zaman onlar da bundan ruhlanıb «narıncı inqilab» etmək fikrinə düşmüşdülər. Hətta özləri üçün ayrı bir rəng də seçməkdə çətinlik çəkdilər, Ukraynadan o vaxt narıncı rəngi götürüb burada tətbiq etmək istədilər. Narıncı rəngdə maykalar, bantlar sifariş edib ölkəmizə gətirdilər. Ancaq bir şeyi nəzərə almadılar ki, o vaxt, 2005-ci ildə parlament seçkiləri noyabr ayında keçirilmişdi. Noyabrda artıq soyuqlar başlayır. O gülməli mənzərə yadımdadır ki, bunlar pencəyin, paltonun üstündən narıncı maykaları geyib küçələrə çıxmışdılar. Bəziləri isə boyunlarına salmış, bəziləri başlarına bağlamışdılar. Bu bir komedik mənzərə

yaradırdı. Bax, budur bunların qabiliyyəti. O da alınmadı. Ondan sonra «ərəb baharı» başlayanda yenə də ruhlandılar ki, bunların əlinə bir fürsət düşəcək. 2011–2012-ci illərdə Azərbaycanda «ərəb baharı»nın təkrarlanmasını istəmişdilər. O da alınmadı. 2013-cü ildə Prezident seçkiləri ərəfəsində hansı eybəcər addımlar atmışdılar, onu hər kəs xatırlayır. İndi isə koronavirus bunlar üçün sanki, göydəndüşmə bir hədiyyədir. Bu gün koronavirusa sevinən ancaq bu antimilli qruplaşmadır. Mən təbii ki, baş verən hadisələrdən xəbərdaram və bilirəm ki, bunların bu çirkin niyyətləri dəhşətli bir mənzərə yaradır. Ölənlərin sayının artmasını arzulayırlar, xəstələrin sayının artmasını istəyirlər, sevinirlər ki, insanlar vəfat edir. Yəni bu, iqtidara qarşı deyil, dövlətə qarşı düşmənçilikdir. Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var – düşmən. Hər kəs bunları belə də çağırmalıdır. Bunların indiki arzuları da gözlərində qalacaq. Sözüm onda deyil, sözüm ondadır ki, siyasi islahatlar bu gün tam yeni bir konfiqurasiya yaradır. Əminəm ki, marginal qruplaşmaya yeni konfiqurasiyada yer yoxdur və olmamalıdır. Azərbaycan xalqı onları 27 il bundan əvvəl tarixin zibilxanasına atıbdır.

Hesab edirəm ki, bu ilin əvvəlindən beynəlxalq müstəvidə də fəaliyyətimiz uğurludur. Mənim Davos Forumunda və Münhen Konfransında iştirakım, hesab edirəm ki, çox müsbət nəticələrə gətirib çıxarıb. Çünki Davos Dünya İqtisadi Forumu dünyanın bir nömrəli beynəlxalq iqtisadi tədbiridir və

dünyanın siyasi, iqtisadi elitası orada iştirak edir. Mən Azərbaycana böyük marağı bir daha gördüm, bunun şahidi oldum. Dünyanın nəhəng şirkətləri Azərbaycanla işləmək istəyir. Növbəti addımların atılması və yeni razılaşmaların imzalanması üçün yaxşı şərait yaradılıbdır. Davos Forumunda keçirdiyim bir çox görüşlər konkret nəticəyə gətirib çıxarır. Azərbaycana sərmayə qoyulur, böyük şirkətlər Azərbaycanla daha fəal əməkdaşlıq edir və sair.

O ki qaldı Münhen Təhlükəsizlik Konfransına, bu da dünya miqyasında təhlükəsizliklə bağlı bir nömrəli konfransdır. Bu dəfə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı imkan oldu ki, canlı efirdə həm tarixi həqiqətlər, həm münaqişə ilə bağlı həqiqətlər geniş auditoriyaya çatdırılsın. Çünki bu auditoriya milyonlarla insanı əhatə edir. Tarixdə ilk dəfə olaraq, Azərbaycan və Ermənistan rəhbərləri canlı efirdə debatda idilər və bu debatlara çox böyük maraq var idi. Bu bir daha göstərdi ki, erməni təbliğatı saxtakarlıq, yalan, mifologiya üzərində qurulub. Bizim sözümüz isə tarixə, tarixi sənədlərə, tarixi reallıqlara və beynəlxalq hüquqa əsaslanır. Münhen Təhlükəsizlik Konfransının yekunları Ermənistan təbliğatını darmadağın etdi və bunların uzun illər ərzində uydurduğu yalan məlumatlara son qoydu. Əlbəttə, istisna edilmir ki, bu cəhdlər bundan sonra da göstəriləcək, ancaq artıq buna heç kim inanmayacaqdır.

Ona görə hesab edirəm ki, həm münaqişə ilə bağlı, həm Cənubi Qafqazın tarixi ilə bağlı keçirilmiş bu tədbir bizim böyük uğurumuzdur. Azərbay-

can xalqı mənə göndərilən on minlərlə mesajlarda, məktublarda öz dəstəyini bir daha ifadə etmişdir.

Münaqişə ilə bağlı onu da bildirməliyəm ki, Ermənistan təbliğatına və ümumiyyətlə, Ermənistanın münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə bu yaxınlarda vuruldu. Bu zərbəni əslində onlar özləri özlərinə vurdular. Əlbəttə ki, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla yaranmış əlaqələr bu zərbəni daha da gücləndirdi. Söhbət qondarma «Dağlıq Qarabağ respublikası»nda keçirilmiş qondarma «prezident»in qondarma «seçkiləri»ndən gedir. Bu «seçkilər» bir daha göstərdi ki, bu qanunsuz xunta rejimini heç kim tanımır. «Seçkilər»dən sonra bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri tanımadı və açıq-aydın bəyanatlar səsləndi. ATƏT-in Minsk qrupunun həmsədrləri – Amerika, Fransa, Rusiya açıqlama verdi. ATƏT Parlament Assambleyası açıqlama verdi. Avropa İttifaqı, hətta bizə qərəzli mövqedə dayanan Avropa Parlamenti də açıqlama verdi. NATO, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı», Türk Şurası – bütün bu təşkilatlar dünyanın, demək olar ki, mütləq əksəriyyətini cəmləşdirir. «Qoşulmama Hərəkatı»nda 120 ölkə, İslam Əməkdaşlıq Təşkilatında 50-dən çox ölkə, Avropa İttifaqında 30-a yaxın ölkə, ATƏT-də 50-yə yaxın ölkə vardır. Bütün bu təşkilatlar bu «seçkiləri» tanımadı və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu bir daha göstərdi və mən bunu demişəm, bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

Ancaq istəyirəm Azərbaycan vətəndaşları bilsinlər ki, bu beynəlxalq təşkilatlar arasında bir təşkilatın adı yoxdur. Hesab edirəm, hər kəs başa düşür ki, söhbət Avropa Şurasından, Avropa Şurası Parlament Assambleyasından gedir, hansı ki, uzun illər, 20 il ərzində Azərbaycanı qaralamaq, Azərbaycana şər, böhtan atmaq, Azərbaycanı nüfuzdan salmaq üçün əlindən gələni əsirgəmir.

Avropa Şurası Parlament Assambleyası susubdur. Baxın, bütün təşkilatlar, o cümlədən Avropa təşkilatları bəyan edirlər ki, biz bu seçkiləri tanımırıq. Bunun birmənalı mənası odur ki, Dağlıq Qarabağ Azərbaycandır. Avropa Şurası Parlament Assambleyası niyə susur? Niyə bunu demir? Sualın cavabı aydındır. Ona görə ki, orada cəmləşən anti-Azərbaycan qüvvələr, ermənipərəst qüvvələr Azərbaycana düşmən gözü ilə baxırlar. Bizə qarşı o təşkilatdan gələn bütün iradların heç bir əhəmiyyəti yoxdur. Mən demişəm, bir daha demək istəyirəm ki, onların qəbul etdikləri qətnamələr, qərarlar mənim üçün kağız parçasından artıq deyil. O təşkilatın Azərbaycanla bağlı olan fikri məni maraqlandırmır və heç vaxt da maraqlandırmayıb.

Bir məsələyə də diqqətinizi çəkmək istəyirəm. Azərbaycanla bağlı məruzəçilər var və bu məruzəçilər də susub, bir söz demirlər. Burada balaca bir hadisə baş verən kimi, ölkəmiz haqqında ağızdolusu yalan, böhtan uydururlar. Nə üçün susublar? Bundan sonra onlar Azərbaycan üzrə məruzəçi olmaq mənəvi haqqını itiriblər. Azərbaycan xalqı hər şeyi yaxşı görür. Görür ki, bunların çirkin bəyanat-

larının arxasında heç də Azərbaycanda demokratiya, insan haqlarının qorunması məsələsi dayanmır. Azərbaycanı qaralamaq, şantaj etmək, nüfuzdan salmaq, beləliklə, ölkəmizin maraqlarına zərbə vurmaq bu qurumun məqsədidir.

Biz isə öz yolumuzla gedirik. Bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var, o da Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır. Bütün beynəlxalq aləmin bu qondarma «seçkilər»ə olan reaksiyası bizim mövqemizi daha da gücləndirir.

Beynəlxalq tədbirlərdən danışarkən, əlbəttə ki, Azərbaycanın təşəbbüsü ilə videokonfrans şəklində keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünü qeyd etməliyəm. Azərbaycan keçən ilin oktyabr ayında bu təşkilatda sədrliyi öz üzərinə götürmüşdür. Bu təşəbbüs irəli sürüldü. Bildirməliyəm ki, Türk Şurası bu günə qədər dünyanın yeganə təşkilatıdır ki, dövlət başçıları səviyyəsində koronavirusla bağlı Zirvə görüşü keçirib. Görüş çərçivəsində səslənən fikirlər, qarşılıqlı dəstək, həmrəylik və qəbul edilmiş yekun Bəyannamə bir daha göstərdi ki, bizim təşkilatımızın çox möhkəm əsasları var və ağır gündə biz bir-birimizin yanındayıq. Hesab edirəm ki, Azərbaycanın təşəbbüsü burada çox yerində və vaxtında atılmış addımdır, bütün həmkarlarım da bunu qeyd etdilər.

İqtisadi nailiyyətlərimizlə bağlı bir daha demək istəyirəm ki, biz yanvar, fevral aylarını çox yaxşı göstəricilərlə başa vurmuşuq. Ümumi daxili məhsul 3 faizə yaxın artıb, qeyri-neft sektorunda təxminən

7 faizə yaxın artım olubdur. Ancaq əgər üç ayı götürsək, ümumi daxili məhsul 1,1 faiz artıb, qeyri-neft sektorunda isə 3 faizdən bir qədər çox artıb. Yenə də artım vardır. Əgər koronavirus araya girməsəydi, bu artım daha da böyük olacaqdı.

Qeyri-neft sənaye sektorunda artım 23 faizdir. Bu da onu göstərir ki, son müddət ərzində bu sahəyə göstərilən diqqət və qoyulan sərmayə öz gözəl nəticəsini verməkdədir. İnflyasiya 3 faiz səviyyəsindədir, ilin iki ayında 2,8 faiz idi, bir qədər artıb. Əhalinin gəlirləri isə 7 faizə yaxındır. Üç ayda vergi və gömrük orqanları büdcəmizə proqnozdan əlavə, 310 milyon manatdan çox vəsait daxil edibdir. Xüsusilə nəzərə alsaq ki, indi iqtisadi fəallıq aşağı düşüb, bu, hesab edirəm ki, yaxşı nəticədir, yenə də şəffaflıqla bağlı olan tədbirlərin bariz nümunəsidir.

Bildirməliyəm ki, ilin sonuna qədər sosial sahədə heç bir proqram ixtisar edilməyəcək. Əksinə, koronavirusla bağlı ümumi dəstək paketi 2,5 milyard manat nəzərdə tutulur. Ancaq bundan artıq olacaqdır. Təkcə lazımi avadanlıqların, ləvazimatların alınması üçün bu yaxınlarda Prezidentin ehtiyat fondundan 97 milyon manat ayrıldı. Bundan sonra ilin sonunadək hələ 150 milyon manatın ayrılması da nəzərdə tutulur. Bu, 2,5 milyard manatın içində deyil. Bütün sosial ödənişlər aparılır. Hesab edirəm ki, orta aylıq əməkhaqqının 28 faiz, orta pensiyanın təqribən 27 faiz artması da onu göstərir ki, bu istiqamətdə müsbət işlər görülür. İndi bizim orta aylıq əməkhaqqımız 712, orta pensiya 295, yaşa görə pensiya isə 330 manata yaxındır. Yəni biz maaş-

ları, pensiyaları ildən-ilə artırırıq. Əlbəttə ki, keçən il çox böyük artım olmuşdu, 4,2 milyon insan dövlət tərəfindən qəbul edilmiş proqramlardan yararlanıb. Bu il bütün sosial infrastruktur obyektlərinin tikintisi də ixtisarsız icra ediləcək. Minimum 7000 köçkün ailəsi yeni mənzillərə köçürüləcək və minimum 1500 şəhid ailəsinə yeni mənzillər veriləcəkdir.

Bir sözlə, üç ayın yekunlarını prinsip etibarilə müsbət qiymətləndirmək olar. Ancaq bir daha demək istəyirəm ki, heç kim bilmir pandemiya nə qədər davam edəcək və iqtisadi fəallıq nə zaman bərpa olunacaq. Biz bütün addımlarımızı vəziyyətə uyğun şəkildə atmalıyıq.

Onu da bildirməliyəm ki, mənim sərəncamımla sosial, iqtisadi, maliyyə, makroiqtisadi vəziyyəti sabit saxlamaq üçün 4 işçi qrupu yaradılıb. Bu qrupların rəhbərləri görülmüş işlərlə bağlı bu gün məlumat və təkliflər versinlər. Birinci söz verilir Maliyyə naziri Samir Şərifova.

* * *

**Samir Şərifov** (*Maliyyə naziri*): Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Ötən il ölkəmizin sosial-iqtisadi inkişafında əldə edilmiş nəticələr, aşağı inflyasiya və sabit milli valyuta şəraitində iqtisadi artımın sürətlənməsi və gəlirlərimizin artması cari ildə də bu müsbət meyillərin davam etməsi üçün əsaslı gözləntiləri formalaşdırıb. Bu gözləntilər ötən yanvar–fevral aylarında özünü tam doğruldub, cari ilin birinci rübü üzrə döv-

lət büdcəsinin mədaxil göstəriciləri artıqlaması ilə yerinə yetirilibdir. İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidmətinin xətti ilə 2 milyard 40 milyon manat – proqnoz göstəricisindən 221 milyon manat və ya 12,2 faiz çox vergi və rüsumlar yığılıbdır.

Dövlət Gömrük Komitəsinin xətti ilə 991 milyon manat – proqnoz göstəricisindən 91 milyon manat və ya 10,1 faiz çox gömrük rüsumları və idxal vergisi təmin edilibdir.

Ümumilikdə dövlət büdcəsinin 2020-ci ilin birinci rübündəki gəlirləri 5 milyard 748 milyon manat proqnoza qarşı 35,9 faiz və ya 2 milyard 63 milyon manat artıq icra olunaraq, 7 milyard 811 milyon manat təşkil edib. Dövlət büdcəsinin xərcləri isə 5 milyard 255 milyon manat məbləğində və ya proqnoza qarşı 100,8 faiz icra olunubdur. Nəticədə dövlət büdcəsində 2 milyard 556 milyon manat profisit yaranıb. Profisitin 1 milyard 793 milyon manatı Dövlət Neft Fondunun dövlət büdcəsinə proqnozdan artıq transfertinin payına düşür.

Qeyd edim ki, Dövlət Neft Fondunun proqnozdan artıq daxil olmuş transfertin məbləği nəzərə alınmadan belə, cari ilin birinci rübünün profisiti 763 milyon manat təşkil edibdir.

Bu ilin əvvəlində Çin Xalq Respublikasında yeni növ koronavirus infeksiyasının aşkarlanması, yüksək sürətlə yayılması və pandemiyaya çevrilməsi istisnasız olaraq bütün dünya dövlətlərini, o cümlədən Azərbaycan Respublikasını tədqiq olunmamış təhlükə ilə üz-üzə qoyub. Pandemiya insanların ənənəvi həyat tərzini pozaraq, hətta inkişaf etmiş

dövlətlərin səhiyyə sistemlərini xəstə axını qarşısında aciz qoyub. Eyni zamanda, iqtisadiyyatın bir çox sahələrini qeyri-müəyyən müddətdə iflic edib, qlobal istehlakı daraldıb, nəticədə dünya iqtisadiyyatına və ticarətinə ağır zərbə vurulub, qlobal iqtisadi böhranın ilkin əlamətləri yaranıbdır.

Bununla birgə, bəzi neft hasil edən ölkələr arasında ticarət çəkişmələrinin başlanması ölkəmizin xarici valyutada gəlirlərinin kəskin azalmasına, tədiyə balansının pisləşməsinə gətirib çıxarıb ki, bunu biz məhz ötən rübün mart ayının iqtisadi göstəricilərində müşahidə edirik.

Bu qeyri-standart xarici mənşəli şoklar şəraitində Azərbaycan Respublikası Prezidentinin bir çox dövlətlərə örnək olmuş erkən və qətiyyətli qərarları xəstəliyin ölkəmizdə yayılma sürətinin azaldılmasına, səhiyyə sistemimizin xəstəliklə mübarizə imkanlarının artırılmasına, bununla da insan həyatının qorunmasına yönəldilib. Qərarların həyata keçirilməsi üçün zəruri kadr, inzibati və maliyyə resursları səfərbər olunubdur.

Dövlət başçısının tapşırığına müvafiq olaraq, xərclərin prioritetliyi yenidən qiymətləndirilərək, mövcud büdcə qanunvericiliyi çərçivəsində ilkin olaraq, bir sıra xərclərin ixtisarı və təyinatının dəyişdirilməsi, həmçinin Prezidentin ehtiyat fondunun və digər ehtiyat mənbələri hesabına dövlət büdcəsindən koronavirusla mübarizə və iqtisadiyyata mənfi təsirlərin azaldılması tədbirlərinin maliyyələşdirilməsi üçün 1 milyard 350 milyon manat məbləğində vəsait ayrılıbdır.

Bu vəsaitin 350 milyon manatlıq hissəsi bir sıra zəruri tibbi ləvazimat və avadanlıqların təxirə salınmadan alınması, dövlət və özəl tibb müəssisələrində çalışan tibb işçilərinə, cəlb olunmuş könüllülərə xüsusi əlavə və müavinətlərin ödənilməsi, ölkədə dezinfeksiya işlərinin genişləndirilməsi və digər tibbi ehtiyacların maliyyələşdirilməsinə yönəldilir. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 19 mart tarixli Sərəncamı ilə pandemiyanın məşğulluğa, sahibkarlara və iqtisadiyyata mənfi təsirlərinin azaldılması üzrə təkliflərin hazırlanması məqsədilə yaradılmış işçi qrupların təqdim etdiyi təkliflər əsasında Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş Tədbirlər Planından irəli gələn məsələlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən 1 milyard manat vəsait ayrılıb və artıq bu vəsaitin maliyyələşdirilməsi başlanılıbdır. Dövlət fondları və digər maliyyə resursları səfərbər edilərək, ümumi maliyyə dəstək paketi 2,5 milyard manatdan artıq olub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məşğulluq tədbirlərinə maliyyələşmə artıq açılıb, eyni zamanda, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu vasitəsilə sahibkarlara maliyyə dəstək tədbirləri həyata keçirilməkdədir. Eyni zamanda, qeyd etmək istərdim ki, İpoteka Fondunun vasitəsilə maliyyələşmənin açılması üçün də müvafiq tədbirlər görülməkdədir.

Möhtərəm cənab Prezident, qeyd etmək istərdim ki, Sizin tapşırığınıza uyğun olaraq, dövlət büdcəsində bəzi xərclərin ixtisara salınması ilə bağlı mü-

vafiq təkliflər Nazirlər Kabinetinə təqdim edilərək, Sizə məruzə olunub. Bugünkü müşavirədə verdiyiniz tapşırıqların icrası üçün də müvafiq addımlar atılıb Sizə məruzə olunacaqdır.

Cənab Prezident, çıxışımın sonunda əminliyimi ifadə etmək istərdim ki, Sizin və Birinci vitse-prezidentin əzmkar səyləri nəticəsində ölkəmiz bu həssas günləri arxada qoyacaq, yenidən özünün inkişaf yoluna davam edəcəkdir.

**İlham Əliyev:** Sağ olun. Qeyd etdim ki, inflyasiya bu il aşağı səviyyədədir. İki ayda daha aşağı səviyyədə idi. Üç ayın yekunlarına görə 3 faizə çatıb, tam nəzarət altındadır. Makroiqtisadi vəziyyətlə bağlı və eyni zamanda, bank sektorunda görülmüş və görüləcək işlərlə bağlı məruzə üçün söz verilir Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmova.

**Elman Rüstəmov** (*Mərkəzi Bankın İdarə Heyətinin sədri*): Təşəkkür edirəm, cənab Prezident.

Birinci rübün başlıca yekunlarından biri ölkədə makroiqtisadi sabitliyin qorunub saxlanılmasıdır. Artıq Sizin də qeyd etdiyiniz kimi, birinci rübün sonunda bütövlükdə dünya bazarlarında baş verən hadisələr ölkəmizdən də yan keçməyib. Mart ayında baş verən bir qədər tənəzzülə baxmayaraq, ölkədə iqtisadi aktivlik davam edib. İnflyasiya bir qədər artsa da, bu onunla əlaqədardır ki, karantin şəraitində insanların istehlak fəallığı bir qədər artdı, onlar müəyyən ehtiyatlar yaratdı. İnflyasiya bir qədər artsa da, bizim rəsmi proqnozlardan, təxminən 4,6 faizlik proqnozdan hələ aşağıdır. İxrac gəlirləri-

mizin, xüsusilə neft ixrac gəlirlərinin bir qədər azalmasına baxmayaraq, bütövlükdə ticarət balansımız profisitlidir və qeyri-neft ixracı birinci rüb ərzində artıbdır. Bizi əhatə edən qonşu ölkələrdə, bizim ticarət tərəfdaşımız olan ölkələrdə milli valyutanın məzənnələrində dalğalanmalara baxmayaraq, manatın məzənnəsi rüb ərzində sabit qalıbdır.

Birinci rübdə Sizin verdiyiniz tapşırıqların icrası nəticəsində bank sektorunda da müsbət dinamika müşahidə olunur. Cənab Prezident, bütövlükdə rüb ərzində kredit qoyuluşları 2,2 faiz artıb. Lakin bu zaman biznes kreditləri daha yüksək templə – 3,7 faiz, ipoteka kreditləri 4,2 faiz artıb, istehlak kreditləri isə rüb ərzində 1,9 faiz azalıbdır.

Bütövlükdə təbii ki, bu proseslərlə əlaqədar fiziki və hüquqi şəxslərin depozitlərinin bir qədər dollarlaşmasını görürük. Dollarlaşma fiziki şəxslər üzrə 2,8 faiz, hüquqi şəxslər üzrə 1,4 faiz yüksəlib. Aprel ayının birinci ongünlüyünün monitorinqi göstərir ki, artıq əks proses, dedollarizasiya trendləri başlanıb. Bu onu göstərir ki, həm əhalimizin, həm də biznesin milli valyutanın məzənnəsinə olan inamı artıq bərpa olunmaqdadır. Yaranmış qeyri-adi situasiyada ödəniş sistemləri aktiv fəaliyyət göstərir, bütövlükdə rüb ərzində ödəniş sistemində qeyri-nağd ödənişlər 3,6 faiz, amma bütünlükdə nağdsız kart ödənişləri 36 faiz artıbdır. Bu da onu göstərir ki, yaranmış indiki situasiyada əhali daha çox təmassız elektron ödənişlərə və elektron ticarətə üstünlük verir.

Bir daha qeyd etmək istəyirəm, cənab Prezident, yaranmış şəraitdə bilirsiniz ki, olduqca böyük bir əhali qrupu, xüsusilə yaşı 65-dən yuxarı olan əhali – 648 min nəfərin, 12 min nəfər ahıl insanın bank sektoruna gəlmək imkanı yoxdur. Nazirlər Kabineti ilə sıx koordinasiyada Mərkəzi Bank və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birlikdə əhalinin evdən çıxmadan bu ödənişləri vaxtında alması təmin olunub. O cümlədən belə bir situasiyada 153 mindən çox fermer kartı paylamalı idik və artıq bunun böyük əksəriyyəti – 120 mindən çox fermer kartı əhaliyə paylanılıbdır.

Cənab Prezident, sığorta bazarında da yaxşı start götürülüb. Rüb ərzində sığorta ödənişləri 19 faiz artıb. Sizin çağırışınıza uyğun olaraq, özünüməşğulluq proqramlarında bankların iştirakı məsələsi bu günlərdə təbii ki, daha çox aktuallıq kəsb edir. Banklar buna çox fəal, yekdil dəstək verib. Biz – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mərkəzi Bank, Banklar Assosiasiyası üçtərəfli Memorandum imzalamışıq və artıq bu proqrama start verilibdir. Düşünürük ki, bank sektoru tərəfindən, Mərkəzi Bank tərəfindən ilin sonuna qədər 1000-ə qədər insana özünün mikrobiznesini yaratmağa dəstək veriləcək, bu təşəbbüs daimi xarakter daşıyacaq və bu işlər davamlı görüləcəkdir.

Mart ayının birinci ongünlüyündə bütövlükdə pandemiya, karantin tədbirləri və OPEC sazişlərinin uğursuzluğu təbii ki, bizim əsas maliyyə bazarlarımıza, valyuta bazarımıza ciddi təsir göstərdi.

Həmişə olduğu kimi, xüsusilə də nağd pul sahibləri tərəfindən ajiotaj, dollarizasiya problemləri başlandı və bir çox ciddi pik tələblərlə rastlaşdıq. Lakin vaxtında görülmüş tədbirlər nəticəsində artıq situasiya normallaşıb. Demək olar ki, situasiya martın əvvəllərində, yaxud ilin əvvəlində olduğu səviyyəyə çatıb və bu istiqamətdə işlərimizi davam etdiririk.

Cənab Prezident, monetar siyasətdə monetar sabitlik problematikası, yəni əhalinin əmanətləri, hüquqi şəxslərin depozitlərini bank sektorunda saxlaması, onların qaçışının qarşısının alınması istiqamətində təbii ki, biz faiz dərəcəsi ilə bağlı dilemma qarşısında idik. Lakin bütövlükdə iqtisadiyyatda olan situasiya tələb edirdi ki, biz faiz siyasətini yumşaldaq. Belə bir şəraitdə biz bir növ gözləmə mövqeyi tutaraq, faiz dərəcəsini nə artırdıq, nə də azaltdıq. Təbii ki, hadisələri izləyirik, düşünürük ki, faiz dərəcələrini artırmaq potensialı mövcuddur. Lakin Sizin çıxışınızda qeyd etdiyiniz kimi, biz situasiyanı izləməliyik və yaranmış situasiyada operativ və dəqiq cavab verəcəyik. Lakin bank sektorunun likvidlik səviyyəsi bu gün qənaətbəxş səviyyədədir. Mərkəzi Bank tərəfindən banklara lazımi dəstək verilir. İlin əvvəlindən bank sektoruna 627 milyon manat səviyyəsində dəstək verilib. Bunun başlıca istiqamətləri – ipoteka sisteminin dəstəklənməsi, qiymətli kağızlar bazarına dəstək, Beynəlxalq Bank bizim sistem xarakterli banka dəstəkdir. O cümlədən Sizin göstərişinizlə bilavasitə ölkənin ərzaq ehtiyatlarının artırılmasına da dəstək vermişik.

Qarşıdakı başlıca vəzifə nədən ibarətdir? Cənab Prezident, Siz öz çıxışınızda bu proqramı, bu strategiyanı tam şəkildə dediniz. Biz düşünürük ki, qarşıdakı dövrdə makroiqtisadi və maliyyə sabitliyini qorumalıyıq. İkincisi, pandemiyadan, bu məhdudlaşmadan əziyyət çəkən əhaliyə və biznes-iqtisadiyyata dəstək verməliyik. Üçüncü, olduqca önəmli məsələ bütövlükdə bu situasiya qurtarandan sonra əhalimizi və iqtisadiyyatımızı normal həyata qaytarmaqdır. Biz bunun üçün lazımi tədbirləri indidən görməliyik. Burada artıq biz mümkün hadisələri, mümkün inkişaf ssenarilərini düşünməliyik, proqnozlaşdırmalıyıq. Hər bir ssenariyə hazır olmalıyıq. Yəni Siz dediyiniz kimi, indi ən mühüm məsələ qeyri-müəyyənlikdir. Heç kim bilmir bu hadisələr nə qədər davam edəcək, bunun təsiri nə olacaq. Beynəlxalq təşkilatlarda ciddi bədbin proqnozlar var və biz bu proqnozlara, yəni hər şeyə hazır olmalıyıq və buna uyğun öz resurslarımızla manevr edərək, siyasət reaksiyaları yaratmalıyıq.

Biz milli valyuta məzənnəmizin qorunması istiqamətində işlərimizi davam etdirəcəyik. OPEC+ danışıqlarının uğurla nəticələnməsi hesab edirəm ki, həm bizim ticarət və tədiyə balansımız üçün, həm də bütövlükdə ilin sonuna valyuta ehtiyatlarımızın proqnozlaşdırılması üçün yaxşı xəbərdir. Lakin bilirsiniz ki, dünyada iqtisadi tələbatın aşağı düşməsi, bütövlükdə iqtisadiyyatda olan tələbat imkan vermir ki, neftin qiyməti kəskin qalxsın. Amma düşünürük ki, biz ilin sonuna qədər valyuta bazarında sabitlik yarada biləcəyik.

Maliyyə sabitliyi diqqətimizdədir və bu, daimi monitorinqdədir. Mərkəzi Bank situasiyanı izləyir və burada qarşıya çıxan problemləri təbii ki, biz Maliyyə Sabitliyi Şurasında müzakirəyə çıxaracağıq. Bütövlükdə pandemiyadan əziyyət çəkmiş sahələrə Mərkəzi Bankın müntəzəm yumşaltma tədbirləri, yəni hökumətin atdığı addımlarla sıx əlaqədə tətillərin verilməsi məsələlərinə baxılıb. Bu günlərdə Maliyyə Sabitliyi Şurasının iclasının keçirilməsini planlaşdırırıq. Biz bu təklifləri, o cümlədən də valyuta tənzimlənməsi sahəsində atacağımız addımları Maliyyə Sabitliyi Şurasının müzakirəsinə çıxarandan sonra Sizə məruzə olunacaq və ondan sonra lazımi addımlar atılacaqdır.

Sonda, cənab Prezident, mən də Sizi əmin etmək istəyirəm ki, Sizin rəhbərliyinizlə son dövrlərdə ölkədə həyata keçirilən islahatlar, yaradılmış makroiqtisadi sabitlik və maliyyə dayanıqlılığı imkan verəcək ki, bundan öncəki böhranlarda olduğu kimi, Azərbaycan iqtisadiyyatı, Azərbaycan dövləti bu situasiyadan da daha güclü və daha inamlı çıxsın. Təşəkkür edirəm.

**İlham Əliyev**: Sağ olun. Böhran dövründə bank sektorunun fəaliyyəti xüsusi önəm daşıyır. Ona görə bankların sağlamlaşdırılması və bank sektorunun ölkə iqtisadiyyatına verə biləcəyi töhfənin düzgün qiymətləndirilməsi çox vacibdir. Hesab edirəm ki, vurğuladığınız məsələlər tam düzgün təhlil əsasında qeyd olunur. Əlbəttə ki, biz makroiqtisadi vəziyyətimizi qorumalıyıq, sabit saxlamalıyıq. Koronavirusun ilk aylarının təcrübəsi onu göstərir ki,

biz buna müvəffəq olmuşuq. Makroiqtisadi vəziyyət sabitdir, manatın məzənnəsi sabitdir. Siz qeyd etdiyiniz kimi, bir müddət əhali və hüquqi şəxslər tərəfindən dollarizasiyaya doğru addımlar atıldı. Ancaq indi dedollarizasiya prosesi müşahidə olunur.

Mən ictimaiyyətin diqqətini bir məsələyə də çəkmək və öz sözümü bildirmək istəyirəm. Əfsuslar olsun ki, əgər hər hansı bir ölkədə – xüsusilə qonşu ölkələr nəzərdə tutulur – o ölkənin milli valyutasında hansısa dəyişiklik baş verirsə, Azərbaycanda buna dərhal belə sürətli reaksiya verilir. Halbuki buna heç bir ehtiyac yoxdur. Biz bunu bir neçə il bundan əvvəl görmüşük və məhz buna görə iki devalvasiyaya getməli olduq. Çünki bizim Mərkəzi Bankın valyuta ehtiyatları, demək olar ki, əriyirdi, süni ajiotaj yaradılmışdı və dollarizasiya pik həddə çatmışdı. İndiki şəraitdə də həmçinin. İndi koronavirus pandemiyası geniş vüsət alan kimi, bəzi ölkələrin milli valyutaları tənəzzülə uğradı, ancaq hazırda Azərbaycanda bunun heç bir əsası yoxdur. Bizim kifayət qədər resurslarımız var və dövlət orqanlarının nümayəndələri bu məsələ ilə bağlı açıqlamalar veriblər. Ancaq bəzi adamlar şayiə yaydılar, bəzi adamlar panikaya qapıldılar. Biz valyuta bazarında dərhal fəallıq gördük və dollara tələbat artdı. İlkin mərhələdə böyük həcmdə dolların satışı da nəzərdə tutuldu. Amma sonra gördülər ki, makroiqtisadi vəziyyət sabitdir, manatın vəziyyəti sabitdir və indi bu ajiotaj yoxdur. Ona görə Azərbaycan vətəndaşlarından artıq dərəcədə xahiş edirəm, şayiələrə uymasınlar, inanmasınlar. Bizi istəməyən

qüvvələr, daxili və xarici anti-Azərbaycan qüvvələr şayiə yaymaqla məşğuldurlar, insanları çaşdırmaq, insanlarda panika yaratmaq istəyirlər. Bunun üçün heç bir əsas yoxdur. Azərbaycan güclü dövlətdir və Azərbaycan rəhbərliyi vətəndaşlara hər şeyi necə varsa, elə də təqdim edir.

Biz ümumi mənzərəni şişirtmirik, eyni zamanda, tam səmimiyyətlə deyə bilərəm ki, panika üçün, hansısa narahatlıq üçün bu gün heç bir səbəb yoxdur. Əsas məqsədimiz koronavirusla apardığımız mübarizədə qalib gəlmək, bu vəziyyətdən az itkilərlə çıxmaq, iqtisadiyyata az ziyan vurmaqdır. Çünki biz açıq-aydın başa düşürük ki, bu məhdudlaşdırıcı tədbirlər iqtisadiyyata ziyandır. Burada biz iki amil arasında seçim etməliyik – iqtisadi fəallıq və ya insanların sağlamlığı. Mənim seçimim birmənalıdır – insanların sağlamlığı. Ona görə bu məhdudlaşdırıcı addımlar atıldı. Biz, əlbəttə, bəri başdan bilirdik ki, bu, iqtisadi fəallığa mənfi təsir göstərə bilər, istər-istəməz müəyyən şayiələrin yayılmasına, iqtisadi sahədə müəyyən narahatlığa gətirib çıxara bilər. Biz bunu şüurlu şəkildə etdik ki, insanlarımızı, onların həyatını qoruyaq. Çünki bundan daha qiymətli heç nə yoxdur. İqtisadiyyat bir il tənəzzülə uğraya bilər, başqa il arta bilər, hər halda, hər şey nəzarət altındadır. Ona görə valyuta bazarında da bu gün heç bir təşvişə ehtiyac yoxdur.

Biz makroiqtisadi vəziyyəti qorumalıyıq. Eyni zamanda, banklar indiki şəraitdə biznesə daha böyük dəstək verməlidirlər. Mən çox şadam ki, artıq biznes kreditlərinin faizi artır, amma istehlak kre-

ditlərinin faizi düşür. Bu, hesab edirəm ki, çox yaxşı tendensiyadır və bu saxlanılmalıdır.

Mən bankların özünüməşğulluq proqramına qoşulmasını da alqışlayıram. Yaxşı bilirsiniz ki, bu proqrama çox böyük tələbat var və biz nəzərdə tuturduq ki, dövlət xətti ilə 10000 insana vasitələri təqdim edək. İndi Dünya Bankı da buna qoşuldu. Onlar tərəfindən də vasitələr veriləcək, bizim banklar da verəcək. Çünki tələbat daha çoxdur. Təqribən 40–50 min tələb, yəni sifariş vardır. Ona görə xüsusilə indiki şəraitdə mikrobiznesin inkişafı – indi kənd təsərrüfatında da bu sahədə işlər nəzərdə tutulur – mütləq aparılmalıdır ki, biz biznesi qoruyaq, onlara dəstək verək və razıyam ki, artıq normal həyata qayıtmaq üçün hazırlıq işlərimizi aparmalıyıq.

Ona görə mən bütövlükdə bank sektorunda və makroiqtisadi sahədə görülmüş işləri müsbət qiymətləndirirəm, belə də davam edin. Bilirəm ki, siz gündəlik formatda hər şeyə monitorinq aparırsınız. Hesab edirəm ki, faiz dərəcələrinin sabit saxlanılması da çox müsbət addımdır, o qədər də asan məsələ deyil. Çünki neftin qiymətinin kəskin düşməsi, iqtisadi fəallığın azalması istər-istəməz faiz dərəcələrinin artımını şərtləndirirdi. Ancaq son aylar ərzində faiz dərəcələri ardıcıllıqla aşağı düşür. Siz bu dərəcələri indi də sabit saxlayırsınız. Hesab edirəm ki, indiki vəziyyətə görə bu, düzgün addımdır. Təbii ki, koronavirus iqtisadi fəallıqla bağlı bizə çox böyük problem yaratdı. Ancaq buna baxmayaraq, hesab edirəm ki, vaxtında atılmış addımlar, xüsusi-

lə sahibkarlara, biznesə verilən dəstək bir daha dövlətin siyasətini göstərir. Bizim həm siyasətimiz birmənalıdır, həm də imkanlarımız vardır. Bu imkanları biz yaratmışıq. Əgər biz bu maliyyə imkanlarımızı yaratmasaydıq, bu gün necə kömək edərdik? Mən Azərbaycanı heç kimlə müqayisə etmək istəmirəm, amma biz baxırıq, görürük indi başqa ölkələrdə nələr baş verir. Adambaşına bizdəki qədər düşən dəstək həcmi az ölkələrdə müşahidə olunur. Çünki indi bizim həm imkanlarımız var – düzdür, neftin qiymətinin aşağı düşməsi bu imkanlara da mənfi təsir göstərir – həm də siyasi iradə var. Ona görə bu vəziyyətdə biznes strukturlarının dəstəklənməsi təbiidir və biz heç vaxt onları ağır vəziyyətdə qoya bilmərik. Çünki koronavirus onların biznesinə ziyan vurub, biz isə onların işini yüngülləşdirməliyik.

Onu da bildirməliyəm ki, son vaxtlar aparılan islahatlar nəticəsində Azərbaycanda biznes mühiti xeyli yaxşılaşıbdır. Bunu bir neçə mötəbər beynəlxalq təşkilat da qeyd edir. Bu yaxınlarda məşhur «Heritage» Fondu da iqtisadi azadlıqlarla bağlı reytinq cədvəli tərtib edib və Azərbaycan iqtisadi azadlıqlar indeksinə görə dünyada 44-cü yerdədir. Bir il ərzində biz 19 pillə qalxmışıq. Hesab edirəm ki, bu, böyük nəticədir.

Ümumiyyətlə, maliyyə paketi, iqtisadi sabitliyin təmin edilməsi istiqamətində görülən və görüləcək işlərlə bağlı məruzə üçün söz verilir İqtisadiyyat naziri Mikayıl Cabbarova.

**M i k a y ı l  C a b b a r o v** (*İqtisadiyyat naziri*): Təşəkkür edirəm, möhtərəm cənab Prezident.

Hörmətli iclas iştirakçıları! 2020-ci ilin ilk rübündə, yanvar–fevral aylarında müşahidə edilən sağlam artım birinci rübün ümumilikdə müsbət fonda yekunlaşmasını şərtləndirdi. Eyni zamanda, mart ayında pandemiya dünya enerji bazarlarında artım tempinə mənfi təsir etmiş və mütləq göstəricilərin enməsinə səbəb olmuşdur.

Möhtərəm cənab Prezident, Siz qeyd etdiyiniz kimi, qeyri-neft ümumi daxili məhsulunun 3,5 faiz səviyyəsində artımına nail olmuşuq. Ümumi daxili məhsulda ən sürətli artım və azalma sahələrini diqqətinizə çatdırmaq istərdim. Qeyri-neft sənayesində artım 23 faiz təşkil edib. İnformasiya-kommunikasiya texnologiyaları sahəsində 18 faiz, dağ-mədən sənayesində 12 faiz, kənd təsərrüfatı sahəsində 3,7 faiz artım olubdur. Elektrik enerjisi, o cümlədən qaz-buxar istehsalı 17 faiz və yükdaşımaları 7,2 faiz artıbdır. Eyni zamanda, azalan sahələr arasında turizm, iaşə, xidmətlər, sərnişin nəqliyyatı və tikintini qeyd etmək lazımdır.

Xarici ticarətə gəldikdə, ümumilikdə qeyri-neft ixracımız rüb ərzində 1 faiz azalıbdır. Müsbət trend ondan ibarətdir ki, kənd təsərrüfatı məhsulları və ərzaq ixracı ötən ilin birinci rübü ilə müqayisədə 4 faiz artıbdır. Qızıl ixracı 17 faiz və kimya sənayesi məhsulları 14 faiz artıbdır. Eyni dövrdə kənd təsərrüfatı məhsullarının və ərzağın idxalı 5 faiz azalıbdır. Müsbət haldır ki, ərzaq məhsullarında daxili is-

tehlakımızla, o cümlədən idxalla ixrac arasında fərq xeyli azalıbdır.

Sizin tapşırığınıza əsasən, tədbirlər planına uyğun olaraq, məruzə edirəm ki, sahibkarlara dəstək proqramı artıq fəaliyyətdədir. Onun ilkin nəticələrini, bu günə olan rəqəmləri məruzə etmək istərdim. Belə ki, muzdlu işçilərə əməkhaqqının müəyyən hissəsinin ödənilməsi və sahibkarlara dəstək proqramı çərçivəsində 10 914 vergiödəyicisi onlayn sistem vasitəsilə müraciət etmişdir. Həmin vergiödəyiciləri üzrə muzdlu işçilərin sayı 124 510 nəfərdir. Maliyyə Nazirliyi ilə və agent banklarla birlikdə çalışırıq ki, həmin siyahı üzrə maliyyə dəstəyinin birinci ay üzrə ödənilməsini təmin edək. Bu məqsədlə nəzərdə tutulan vəsaitin məbləği 16 milyon 890 min manat təşkil edir. Faktiki olaraq, dünən axşama artıq ödəniş edilmiş vergiödəyicilərinin sayı 2636 vergiödəyicisi olmaqla, həmin vergiödəyiciləri üzrə muzdlu işçilərin sayı 24 463 nəfərdir. Fərdi və mikro sahibkarlara maliyyə dəstəyi proqramı da həyata keçirilir. Bu günədək müraciət etmiş vergiödəyicilərinin sayı 16 502 sahibkardır. Müvafiq olaraq bu günədək təqdim edilmiş müraciətlər üzrə nəzərdə tutulmuş maliyyə dəstəyinin məbləği 15 milyon 483 min manat təşkil edib.Vergi stimullarını özündə əks etdirən qanunvericilik paketi üzrə iş başa çatdırılıb. Həmkar strukturların vizalarının razılaşdırılması prosesi həyata keçirilir. Dövlətin kredit zəmanəti dəstəyinin verilməsi istiqamətində dövlət sektoru və banklarla iş başa çatmaq üzrədir. Bizim hədəfimiz bu ayın sonuna qədər proqramı iş-

lək vəziyyətə gətirməkdir. Burada mən xüsusilə qeyd etmək istəyirəm ki, biz bank sektoru ilə birgə müəyyən olunmuş çərçivədə bu işi həyata keçiririk və məhsuldar iş gedir. Həmçinin yeni iqtisadi şəraitdə, tədbirlər planında müəyyən edilmiş iqtisadiyyatın 8 sektorunda müvafiq sektoral planlar üzərində işlərə başlanılıbdır.

Göstərişinizə uyğun olaraq, dövlət investisiya proqramı çərçivəsində iqtisadi artımın bərpa edilməsinə yönəlmiş layihələri təhlil edirik. Bu gün Sizin verdiyiniz tapşırığa uyğun olaraq, həmkar qurumlarla birlikdə çalışaraq, qısa müddət ərzində məlumatı diqqətinizə təqdim edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**İ l h a m  Ə l i y e v**: Mən giriş sözümdə dedim ki, hökumət və əlbəttə, İqtisadiyyat Nazirliyi yeni gəlirlər mənbəyi axtarmalıdır. Bir daha demək istəyirəm ki, ehtiyatlar var və bilirəm, bu istiqamətdə iş gedir. Bunu uzatmaq lazım deyil. Hesab edirəm ki, qısa müddət ərzində yeni təkliflər hazırlanıb mənə təqdim edilməlidir.

Onu da bilməliyik ki, OPEC və qeyri-OPEC ölkələrinin razılaşması bizim üzərimizə də öhdəliklər qoyur. Bildirmək istəyirəm ki, Azərbaycan həmişə OPEC+ çərçivəsində çox fəal rol oynayıbdır. Onu da xatırlatmaq istəyirəm ki, OPEC+ formatının ideyasını ilk dəfə Davos Dünya İqtisadi Forumun panel müzakirəsində mən vermişdim. Hətta bu gün OPEC-in baş katibi də bunu qeyd edir. İndi artıq nəinki OPEC+, neft hasil edən bütün ölkələr razılığa gəlib. Hesab edirəm ki, bu çox nadir əməkdaşlıq

formatıdır və bu format hər bir ölkənin üzərinə əlavə öhdəlik qoyur, o cümlədən Azərbaycanın. Bu razılaşmaya görə bizim neft hasilatımız bu il ixtisar ediləcək. Artıq kvotalar müəyyən edildi. Əgər neftin qiyməti lazımi səviyyəyə qalxmasa, onda biz əlavə itkilərə məruz qalacağıq. Biz bunu bilməliyik ki, bu itkilər təqribən 700 milyon, bəlkə də 1 milyard dollar ətrafında ola bilər. Ona görə indidən öz addımlarımızı atmalıyıq, çünki onsuz da keçən il qəbul edilmiş qərarlar əsasında böyük sosial paket icra edildi. Təbii ki, bu sosial paket bu il və bundan sonrakı illərdə də insanlara təqdim ediləcək. Koronavirusla bağlı ən azı 2,5 milyard manat nəzərdə tutulur. Qeyd etdiyim kimi, Prezidentin ehtiyat fondundan ləvazimatların alınmasına 100 milyon manata yaxın vəsait istiqamətləndirilib. Əgər neftin qiyməti bərpa olunmasa, bizi əlavə itkilər gözləyir və təbii olaraq, bizim valyuta ehtiyatlarımız azalacaq. Birinci rübdə, yanvarın 1-nə nisbətdə artıq valyuta ehtiyatlarımız azalıbdır. Bu təbiidir və belə olan halda, bir daha demək istəyirəm ki, xərclərə böyük diqqətlə baxmalıyıq. Dövlət investisiya xərcləri əsas iki məqsədi güdməlidir. Məşğulluğu təmin etmək, çünki biz investisiya xərclərimizi kəskin ixtisar edə bilmərik. Birincisi, önəmli layihələr icra edilməlidir və ən başlıcası odur ki, əgər dövlət investisiya xərcləri kəskin azalarsa, onda bu sahədə çalışan insanlar işsiz qalacaq. Ona görə bizim investisiya proqramımıza baxarkən iki əsas amili nəzərə alın. Məşğulluq və bu layihələrin iqtisadiyyatın real sektoruna olan təsiri. Çünki Azərbaycanda böyük infrastruktur la-

yihələri icra edilib. Onların böyük hissəsi tam başa çatıb, ona görə iki əsas amil nəzərə alınmalıdır. Hesab edirəm ki, aprel–may aylarında ikinci yarımillikdə nəzərdə tutulan investisiya proqramlarının təhlili və yenidən tərtib edilməsi zəruridir. Bu məsələ ilə ciddi məşğul olun.

Bununla paralel olaraq – bu vəzifəni mən artıq qarşıya qoymuşam və bilirəm ki, İqtisadiyyat Nazirliyi bu məsələ üzərində işləyir – özəl sərmayənin təşviqi istiqamətində əlavə addımlar atılmalıdır. Biz iqtisadi liberallaşmaya daha inamla getməliyik və investisiyalar üçün bütün sahələr bizdə açıq olmalıdır. Biz həm yerli investorları, həm xarici investorları inandırmalıyıq ki, onların investisiyaları səmərə verəcək, onlara gəlir gətirəcəkdir.

Xüsusilə nəzərə alsaq ki, həm «Doing Business» proqramında böyük irəliləyişə nail olduq, həm iqtisadi azadlıq indeksi – artıq qeyd etdim ki, burada da Azərbaycan yüksək qiymətləndirilir – bizim kredit reytinqimiz də müsbətdir, həm də xarici dövlət borcumuz aşağı səviyyədədir. Azərbaycan vətəndaşları bunu bilir. Mən hətta koronavirusa qədərki bir çox hallarda bu məsələyə xüsusilə diqqət yetirirdim ki, bizim xarici dövlət borcumuz daxili məhsulumuzun 17 faizini təşkil edir və daha da aşağı düşməlidir. İndiki böhranlı dövrdə bu amil çox böyük önəm daşıyır. Dövlət borcumuzun aşağı səviyyədə olması bizim kredit reytinqimizin sabit saxlanılmasına imkan verir. Bu da investorlar üçün əsas amillərdən biridir.

Sosial sahə bizim üçün həmişə prioritet olubdur, indiki şəraitdə isə ikiqat prioritet olmalıdır. Çünki son illərdə məşğulluq, sosial təminat istiqamətlərində böyük addımlar atılıb, ancaq indiki şəraitdə bu, xüsusi önəm daşıyır. Ona görə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri məlumat versin ki, məşğulluqla bağlı işlər nə yerdədir, özünüməşğulluq proqramı necə icra edilir, işsizlərlə bağlı hansı addımlar atılıb və hansı addımların atılması nəzərdə tutulubdur.

**Sahil Babayev** (*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri*): Möhtərəm cənab Prezident!

Bu ilin birinci rübündə bütün sosial ödənişlər vaxtında icra olunub, 2,3 milyon insanımıza 1,5 milyard manat məbləğində sosial ödənişlər həyata keçirilib. Sizin sərəncamınızla sosial dövlət, sosial siyasət prinsipi rəhbər tutularaq, ölkə üzrə bütün növ əmək pensiyalarının sığorta hissəsi 16,6 faiz indeksasiya olunub və bu islahat da Azərbaycanda bütün pensiyaçıları əhatə edib. Sizin qeyd etdiyiniz kimi, yaşa görə pensiya 330 manata, ümumilikdə orta pensiya 295 manata çatıb. 700 min nəfərə müavinət və təqaüdlər birinci rüb ərzində icra olunub və 250 milyon manat vəsait bu vətəndaşlarımıza ödənilibdir. Cənab Prezident, əlavə olaraq bildirim ki, avtomatlaşdırılma tədbirləri nəticəsində son 6 ayda artıq 64 000 təyinat – pensiya, müavinət və təqaüdlər üzrə təyinatların 80 faizi tam şəkildə Avtomatlaşdırılmış formada icra olunubdur.

Sizin müvafiq sərəncamınızla yaradılmış işçi qrupun hazırladığı Tədbirlər Planının məşğulluq,

sosial məsələləri əhatə edən hissəsi ümumilikdə dörd istiqaməti əhatə edir və özündə on tədbiri ehtiva edir. Bu on tədbir üzrə 394 milyon manat vəsait ayrılıb. Yəni pandemiya əleyhinə mübarizə çərçivəsində görüləcək işlərə 400 milyon manatlıq bir paket ayrılıb. Bu 400 milyon manatın 100 milyon manatı dövlət büdcəsindən ayrılan vəsaitlərdir, 200 milyon manatı Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il üzrə yaradılmış ehtiyatıdır, 91 milyon manatı isə İşsizlikdən Sığorta Fondunun vəsaitləri hesabına yönəldilən mənbələrdir. Ümumilikdə birinci istiqamətimiz məşğulluq üzrə dövlət sektorunda olan məşğulluğun qorunması və burada işsizlik riskinin yaranmaması idi. Bu çərçivədə 910 min insanımızın məşğulluğu tam şəkildə təmin olunur və onlarla bağlı hər hansı bir çətinlik meydana çıxmayıb. Digər bir istiqamətimiz qeyri-dövlət sektorunda əmək müqaviləsi ilə çalışan insanların qorunması idi. Bu sahədə də Sizin tapşırığınıza uyğun, olaraq, gündəlik nəzarət təmin edilib. Dövlət tərəfindən təqdim olunan dəstək paketləri və inzibati tədbirlər nəticəsində nəinki qeyri-dövlət sektoru üzrə əmək müqavilələrinin sayı azalıb, əksinə, artıb və aprelin 1-dən etibarən əmək müqavilələrinin sayında 51 minlik, yanvarın 1-i ilə müqayisədə isə 73 minlik artım vardır. Bu bir daha göstərir ki, özəl sektorumuz Sizin çağırışınıza çox aktiv şəkildə qoşulub və bir tərəfdən, inzibati tədbirlər, digər tərəfdən, dövlət dəstəyindən yararlanmaq üçün əmək müqavilələrinin sayı da mütəmadi olaraq artır.

Biz gündəlik dinamikaya nəzarət edirik, bu artım gündəlik dinamikada da özünü göstərir. Bu günə olan son rəqəm qeyd etdiyim kimi, yanvarın 1-i ilə müqayisədə 73 min artım, aprelin 1-i ilə müqayisədə isə 51 min artımdır. İşsizlər və qeyri-formal işlədiyinə görə pandemiya nəticəsində işsiz qalan şəxslərə dəstək mexanizmləri də bir neçə tədbir olaraq müəyyən edilib. İlk olaraq 50 min haqqı ödənilən ictimai iş yerinin yaradılması ilə bağlı tədbir çərçivəsində artıq dünəndən etibarən ictimai iş yerlərinin yaradılması təmin edilib və işəgötürmələr başlanıbdır. Bizim ehtimalımız ondan ibarətdir ki, on gün ərzində ölkənin bütün regionları üzrə 50 min işsiz və işaxtaran vətəndaşlarımız cəlb ediləcəkdir.

Bu istiqamətdə ikinci əsas tədbirimiz ölkə üzrə yaşayış minimumu olan 190 manat məbləğində birdəfəlik ödəmənin həyata keçirilməsi idi. Aprelin 7-də Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə qaydalar qüvvəyə mindi və artıq ötən altı gün ərzində 75 min nağd ödəniş həyata keçirilib. Bu məqsədlər üçün 14 milyondan artıq vəsait vətəndaşlarımıza ödənilibdir.

İşsizlikdən sığorta və özünüməşğulluq proqramlarının genişləndirilməsi də tədbirlər planının istiqamətlərindən biridir və bu çərçivədə bu il ərzində 12 minə yaxın ailənin özünüməşğulluq proqramına cəlb edilməsi nəzərdə tutulur. Burada həm dövlət vəsaitləri, həm Dünya Bankının, həm də özəl banklarımızın vəsaitləri birgə nəzərə alınır. Digər bir tərəfdən isə işsizlikdən sığorta mexanizminin sadələşdirilərək, 20 min insanı əhatə etməsi planlaşdırılır

ki, bu mexanizm də daha çox vətəndaşlarımıza iş-axtarma dövründə dəstək olacaqdır.

Cənab Prezident, Tədbirlər Planının dördüncü istiqaməti xüsusi həssas təbəqənin qorunmasına yönəlib. Bununla bağlı olaraq, əvvəlcə sosial ödənişlərin davamlılığının təmin olunması nəzərdə tutulur və Dövlət Sosial Müdafiə Fondunun 200 milyon manatlıq vəsaiti məhz bu istiqamətə yönəldilir. Digər tədbir 65 yaşdan yuxarı olan tənha ahıl insanlarımıza dəstək mexanizmidir. Bu çərçivədə 15 min tənha ahıl insanımız tam sosial xidmətə götürülüb və gündəlik əsasda sosial xidmətçilər tərəfindən onlara qulluq edilir. Burada da bizim biznes dairələrimiz Sizin çağırışınıza çox aktiv qoşuldular və artıq bu günə – aprel ayında 14 min belə ailəyə ərzaq yardımı şirkətlərimiz, təşkilatlarımız, dövlət qurumlarımız tərəfindən edilibdir. Növbəti 15 gündə də daha 30 min ailəyə yardımın göstərilməsi planlaşdırılır. Bu da bir növ, bizim sosial tərəfdaşlarımızın Sizin çağırışınıza və sosial həmrəyliyə qoşulmasının göstəricisidir.

Ünvanlı sosial yardım şərtlərinin yüngülləşdirilməsi və xüsusi karantin rejimi dövründə vaxtı bitənlərin uzadılması nəticəsində 62 min insanı əhatə edən 14 min ailəni əlavə olaraq, əhatə etməyi planlaşdırırıq. Bunun icrası olaraq bildirim ki, artıq bu günə 79 min ailə ünvanlı yardım mexanizmi ilə əhatə olunub. Aprelin 1-dən bu günədək 9000 ailə və ya 35 min insan bu proqramdan yararlanıb. Ümumilikdə 79 min ailənin 330 min üzvü məhz bu proqramla əhatə olunur.

Əlavə olaraq, əhaliyə güzəştli elektrik limitinin artırılması nəticəsində 100 kilovat/saatlıq əlavə güzəştin verilməsi Nazirlər Kabinetinin qərarı ilə təsdiq olundu və bu da əhalimizə sosial dəstəyin bir növüdür. Eyni zamanda, təhsil alan və həssas kateqoriyadan olan tələbələrin dəstəklənməsi ilə bağlı müvafiq qaydalar da təsdiq olundu. Bu çərçivədə də 17 min tələbənin 2020-ci il üzrə təhsil haqqı dövlət tərəfindən qarşılanacaqdır. Ümumilikdə bu proqram, məşğulluq və sosial paket 2 milyon insanımızı əhatə edir və qısa müddət ərzində tam şəkildə icra olunaraq, Sizə məruzə ediləcəkdir.

Yekunda bir daha əminliyimi vurğulamaq istəyirəm ki, Sizin rəhbərliyiniz altında, hörmətli Birinci vitse-prezidentin dəstəyi ilə pandemiyanın bütün fəsadları aradan qaldırılacaq. Təşəkkür edirəm.

**İlham Əliyev**: Qeyri-formal məşğulluqla bağlı işlər artıq müəyyən müddətdir ki, aparılır və mənə müntəzəm olaraq məruzə edilir. Keçən il də bu istiqamətdə müsbət mənzərə müşahidə olunurdu, yəni əmək müqavilələrinin sayı artır. Hesab edirəm ki, bu pandemiya dövrü hələ də «kölgə»də işləyənlər üçün bir dərs olmalıdır. Çünki mən dəfələrlə həm sahibkarlara, həm işçilərə müraciət etmişəm ki, «kölgə»dən çıxın, əmək müqavilələri bağlayın. Əgər əmək müqavilələriniz olmasa, pensiya ala bilməyəcəksiniz, tibbi sığorta ala bilməyəcəksiniz. Əgər siz işsizsinizsə və qeydiyyata düşmürsünüzsə, işsizlik müavinəti ala bilməyəcəksiniz. Ona görə hesab edirəm ki, indiki şəraitdə, siz qeyd etdiyiniz kimi, əmək müqavilələrinin sayı qısa müddət ərzində

on minlərlə artıb. İndiki şəraitdə bu sahəyə daha da çox diqqət yetirməliyik. Hesab edirəm ki, həm maarifləndirmə istiqamətində, həm də inzibati tədbirlər, monitorinq tədbirləri və institusional islahatlar nəticəsində biz qeyri-formal məşğulluğun əhatə dairəsini böyük dərəcədə daralda bilərik və bu istiqamətdə işlər davam etdirilməlidir. Bu 70 min yeni əmək müqaviləsinin bağlanılması göstərir ki, hələ də ehtiyatlar çoxdur və ağır vəziyyət bu gün «kölgə»də işləyənlər üçün də, necə deyərlər, bir yolgöstərici amil olmalıdır.

Ödənişli ictimai işlərə gəldikdə, biz ilin əvvəlində 37 min ödənişli iş yerinin yaradılmasını nəzərdə tuturduq. İndi pandemiyaya görə bunların sayı 50 minə çatıb. Amma yenə də baxın, əgər bölgələrdə xüsusilə buna əlavə tələbat yaranarsa, məlumat verin, bəlkə biz əlavə vəsait ayıraq ki, bu çətin dövr ərzində insanları işlə təmin edək.

Hesab edirəm ki, 12 min insanın özünüməşğulluq proqramına cəlb edilməsi çox müsbət nəticədir. Nəzərə alsaq ki, biz təqribən 3, 4, 5 minlə başlamışıq. Amma giriş sözümdə dediyim kimi – siz də bu barədə mənə məlumat vermisiniz – təqribən on minlərlə tələbat vardır. Əlbəttə, bu tələbatın ödənilməsi asan məsələ deyil. Çünki hər bir məsələyə ayrı-ayrılıqda baxılır, bəzi hallarda bəzi insanların bu işlərə qabiliyyəti çatmır, bəzi insanlar vasitələri alıb sonra onları satırlar. Belə hallar dünya praktikasında da vardır. Mənə verilən məlumata görə, dünya praktikasında özünüməşğulluq proqramının uğur əmsalı təqribən 50 faiz ətrafındadır, Azərbay-

cana gəldikdə, bu daha çoxdur. Ancaq bu proqrama cəlb olunan vətəndaşlar bilməlidirlər ki, əgər onlara verilmiş imkanlardan düzgün istifadə etməsələr, bu imkanı itirəcəklər və ikinci dəfə onlara bu şərait yaradılmayacaq. Ona görə xahiş edirəm, əgər kiməsə vasitə verilirsə onu satmasın, ondan səmərəli şəkildə istifadə etsin ki, özü üçün davamlı, dayanıqlı gəlir mənbəyi yaratsın. Bizim əsas məqsədimiz budur ki, insanlar özləri üçün müstəqil gəlir mənbələri yaratsınlar və ailələrini saxlaya bilsinlər. Ona görə 12 min insanın imkanlarını araşdırmaq böyük vaxt tələb edir və burada meyarlar çox dəqiq ölçülüb-biçilməlidir ki, ədalət prinsipi tam təmin edilsin.

Həssas təbəqənin qorunması – bu barədə siz məlumat verdiniz – hesab edirəm ki, indiki şəraitdə ən vacib məsələdir. Biz onlara sahib çıxmalıyıq, onlara dəstək verməliyik, onlara kömək göstərməliyik. Azərbaycan xalqının əsrlərboyu yaşatdığı bu gözəl xüsusiyyətləri bu gün bütün xalqımız nümayiş etdirməlidir və nümayiş etdirir. Qeyd etdiyiniz kimi, biznes dairələri öz təşəbbüsləri ilə imkansız adamlara kömək göstərirlər və mən bunu alqışlayıram. Bu, biznesin sosial məsuliyyətinin təzahürüdür. Kimin nəyə gücü, imkanı çatırsa, kimsəsiz insanlara, ahıl insanlara, həssas təbəqədən olan insanlara kömək göstərin. Əlbəttə, dövlət öz üzərinə bu funksiyanı götürüb, bunu edir və edəcək. Ancaq biznes dairələrinin bu şəraitdə bu işlərə qoşulması və ayrı-ayrı insanların öz təşəbbüsü ilə ehtiyacı olan insanların yanında olması məni hədsiz sevindirir, onlara öz tə-

şəkkürümü bildirmək istəyirəm. Yerli icra orqanları şərait yaratmalıdır ki, onlar bu yardımı daha böyük həcmdə etsinlər. O ki qaldı həssas təbəqədən olan tələbələrə, siz qeyd etdiniz, 17 min tələbənin ödənişi dövlət tərəfindən təmin ediləcək. Bu çox gözəl addımdır və buna da tam nəzarət olmalıdır ki, heç kim bu proqramdan kənarda qalmasın.

Kommunal ödənişlərlə bağlı güzəştlər edilibdir. Hesab edirəm ki, pandemiya ilə bağlı sosial paketin tam icra edilməsi karantin və pandemiya dövründə vətəndaşların yaşayışı üçün çox ciddi kömək olacaqdır.

Eyni zamanda, ilin əvvəlində nəzərdə tutulmuş proqramları da yaddan çıxarmamalıyıq. Bu haqda mən artıq giriş sözümdə dedim. Şəhid ailələrinin mənzillərlə təmin edilməsi – ilin sonuna qədər bu istiqamətdə də 1500 mənzilin verilməsini təmin etməliyik. Hazırda birinci 3 ayda neçə şəhid ailəsi evlərlə təmin edilib? Bu haqda məlumat verin.

**Sahil Babayev:** Möhtərəm cənab Prezident, artıq 180 şəhid ailəsi üçün evlər tam satın alınıbdır. Əlavə olaraq, satınalmada 200 şəhid ailəsi ilə bağlı evlər, mənzillər vardır. Sadəcə, bu xüsusi karantin rejimində kütləvi tədbirin olmaması üçün onları təqdim etmirik. Rejim bitən kimi, əlimizdə 300-dən artıq belə mənzil hazır olacaqdır.

**İlham Əliyev:** Karantin rejimi kənd təsərrüfatı işlərinə mane olmamalıdır. Bu barədə müvafiq göstərişlər verilibdir. Çünki bəzi insanlar mövsümi işlərlə bağlı bir rayondan başqa rayona getməli olurlar. İndi şəhərlərarası nəqliyyat dayandı-

rıldığına görə, bu məsələ ayrıca müzakirə edilməli və bütün şərait yaradılmalıdır ki, kənd təsərrüfatı sahəsində karantin rejimi bizə problem yaratmasın və insanların gediş-gəlişi təmin edilsin. Operativ Qərargaha bu məsələ ilə bağlı göstəriş verilib. Əminəm ki, bu göstəriş yerinə yetiriləcəkdir.

Birinci rübdə kənd təsərrüfatının artımı 3,7 faiz olub. Bitkiçilikdə daha böyük nəticələr əldə edilib, 13 faizdən çox artım vardır. Nəzərə alsaq ki, keçən il də bitkiçilikdə artım böyük idi, deməli, bu sahə uğurla, sürətlə inkişaf edir. Heyvandarlığa gəldikdə, burada inkişafa nail olmaq üçün daha çox vaxt lazımdır. Burada da artım 3 faizdən bir qədər çoxdur. Bu il kənd təsərrüfatı sahəsində çalışan sahibkarlara Sahibkarlığın İnkişafı Fondundan kreditlərin ayrılması nəzərdə tutulur. Hesab edirəm ki, indiki şəraitdə kənd təsərrüfatı emalı sahəsinə daha çox diqqət yetirilməlidir. Çünki biz əlavə dəyər zənciri yaratmalıyıq və çalışmalıyıq ki, həm daxili bazara, həm də xarici bazarlara daha çox hazır məhsul təqdim edək. Bu, yeni iş yerlərinin yaradılmasına da gətirib çıxaracaq. Kiçik sahibkarlar da yaddan çıxmamalıdırlar. Bilirəm ki, Kənd Təsərrüfatı Nazirliyinin bəzi təklifləri vardır. Ümumiyyətlə, kənd təsərrüfatı işlərinə hazırlıqla bağlı, görüləcək işlərlə, problemlərlə bağlı məlumat vermək üçün söz verilir Kənd Təsərrüfatı naziri İnam Kərimova.

**İnam Kərimov** (*Kənd Təsərrüfatı naziri*): Möhtərəm cənab Prezident, verdiyiniz tapşırıqlara uyğun olaraq aqrar sahənin inkişafı istiqamətində davamlı tədbirlər həyata keçirilir. Aqrar sektorda fəaliyyət

bu gün xüsusi karantin rejiminin tələblərinə uyğun qurulur. Tətbiq edilən karantin rejiminin kənd təsərrüfatına təsirinin minimuma endirilməsi üçün Sizin verdiyiniz tapşırıqlara uyğun olaraq, zəruri tədbirlər görülür. Hazırkı dövr kənd təsərrüfatı sahəsində aqrotexniki tədbirlərin və yazlıq səpinlərin ən intensiv dövrünə təsadüf edir. Nazirlər Kabineti tərəfindən qəbul olunmuş təlimata əsasən, kənd təsərrüfatı işlərinin fasiləsiz həyata keçirilməsi üçün Daxili İşlər Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə birgə iş qurulubdur.

Bölgələrdə hazırda mineral gübrə, pestisid, toxum təchizatı və satışı həyata keçirilir, kənd təsərrüfatı texnikasının məhdudiyyətsiz hərəkəti təmin edilib. Kənd təsərrüfatı məhsullarının orta və iri həcmli maşınlarla daşınması məhdudiyyət olmadan həyata keçirilir. Bu günədək xüsusi karantin rejimi dövründə əhalinin kənd təsərrüfatı məhsulları ilə təminatında ciddi problem qeydə alınmayıbdır.

Respublika üzrə 2020-ci il üçün 1 milyon hektardan çox sahədə taxıl əkini aparılıb. Əkin sahələrinin 641 min hektarını buğda, 369 min hektarını arpa əkinləri təşkil edir. Hazırda əkin sahələrində intensiv aqrotexniki tədbirlər aparılır, vegetasiya suvarmaları həyata keçirilir.

Bu il respublikanın 21 rayonu üzrə 100 min hektar sahədə pambıq əkini proqnozlaşdırılır. Yaxın günlərdə əkin sahələrində intensiv səpinə başlanılacaqdır. Artıq 19 mindən çox istehsalçı ilə müqavilələr bağlanılıb, əkin sahələrinin toxum, gübrə, pestisidlə təminatı ilə bağlı tədbirlər görülübdür.

Digər yazlıq əkinlər – tütün, şəkər çuğunduru, bostan-tərəvəz, kartof əkini üzrə tədbirlər həyata keçirilir.Fermerlərin gübrəyə olan ehtiyacını təmin etmək məqsədilə ölkəyə lazımi miqdarda mineral gübrə idxal olunub. Bu ildən daxili istehsal gübrəsi olan karbamid gübrəyə olan tələbatın ödənilməsində mühüm rol oynamağa başlayıb. Karantin rejimi dövründə təsərrüfatların gübrə ilə təmin olunması üçün təchizatçı şirkətlər tərəfindən rayonlarda və kəndlərdə səyyar satışlar təşkil edilir.

Taxıl biçininə hazırlıq işləri davam etdirilir. Hazırda respublikada 1700-dən çox taxılbiçən kombayn vardır. «Aqrolizinq» ASC-nin rayon bölmələri tərəfindən biçinə 728 kombayn cəlb ediləcək. Bundan əlavə, Sizin tapşırığınızla əlavə 125 kombaynın alınması planlaşdırılır. Həmçinin dövlət dəstəyi ilə özəl sektor tərəfindən lazımi texnika alınmaqdadır. Ümumilikdə ölkədə taxıl biçini zamanı tələbatı tam ödəyə biləcək sayda kombayn mövcuddur. Bu ilin yanvarından fermerlərə subsidiyalar yeni mexanizmə uyğun verilməyə başlanıb.

Subsidiyaların ödənilməsi yalnız elektron kənd təsərrüfatı sistemi üzərindən həyata keçirilir. Bu günədək elektron sistemdə 484 mindən artıq fermer qeydiyyatdan keçib, 357 mindən çox fermer payızlıq əkinlərini bəyan edib. Artıq bu günə 321 mindən artıq fermerə subsidiyalar ödənilibdir.

Möhtərəm cənab Prezident, qeyd edilənlərlə yanaşı, hazırda fermerlərimizin üzləşdiyi bir sıra çətinlikləri də diqqətinizə çatdırmaq istərdim. Bunlardan biri iqlim dəyişiklikləri ilə bağlıdır. Payızlıq

əkinlərin vegetasiya dövründə müşahidə olunan kəskin quraqlıq kənd təsərrüfatına ciddi təsir edib. Sentyabr–fevral aylarında respublika üzrə illik yağıntı və qarın miqdarı normadan kəskin dərəcədə aşağı olub, bu da əkin sahələrinin suvarılmasında çətinliklər yaradır. Hazırda Nazirlər Kabinetinin koordinasiyası ilə «Meliorasiya və Su Təsərrüfatı» ASC ilə birlikdə yerlərdə su çatışmazlığının aradan qaldırılması ilə bağlı tədbirlər görülməyə başlanıb. Su idarəedilməsinin və uçotunun elektron sistem üzərindən aparılması istiqamətində işlər planlaşdırılır.

Fermerlərimizin qarşılaşdığı digər çətinliklərdən biri də əkin mövsümü dövründə kiçikhəcmli kredit mənbələrinə çıxışın məhdud olmasıdır. Çünki banklar əksər hallarda güzəştli kredit ayırmaq üçün fermerlərdən Bakıda mənzil girovu tələb edirlər. Ancaq Sizin bir neçə gün əvvəl imzaladığınız fərmana əsasən, fermerlərə girovsuz aqrar kreditin verilməsi mexanizmi formalaşdırılıb. Bu fərmanın icrası üçün əlavə maliyyə vəsaitinin ayrılması ilə bağlı fermerlərimizin xahişlərini ifadə etmək istərdim. Bu dəstəyə və fermerlərin maddi rifah halının yaxşılaşdırılmasına göstərdiyiniz davamlı qayğıya görə kənd zəhmətkeşləri adından Sizə dərin təşəkkürümü bildirirəm. Sizi əmin edirəm ki, qarşımıza qoyduğunuz vəzifələri bu il də layiqincə yerinə yetirmək üçün bütün səy və imkanlarımızı səfərbər edəcəyik. Çox sağ olun, cənab Prezident.

## YEKUN NİTQİ

Bir daha deməkistəyirəm ki, son illər kənd təsərrüfatı sahəsində müsbət dəyişikliklər baş verir. Elektron Kənd Təsərrüfatı Proqramı icra edilir. Fermerlərə subsidiyaların verilməsi mexanizmi təkmilləşdirilib və artıq kartlar da verilibdir. Bu çox müsbət haldır, yəni kənd təsərrüfatı müasir standartlara cavab verməlidir. Belə olan halda, əlbəttə ki, həm məhsuldarlıq artacaq, həm kənddə işləyən insanlar əmək sərf edəcəklər, həm də daxili bazarı təmin edəcəyik və xarici bazarlara da daha geniş çeşiddə məhsullarla çıxa biləcəyik. Kənd təsərrüfatı ilə bağlı olan əsas məsələ məhsuldarlığı artırmaqdır. Kənd Təsərrüfatı Nazirliyi artıq bu istiqamətdə işlər görür, demək olar ki, yetişdirilən bütün növ məhsullar üzrə məhsuldarlıq ildən-ilə artır. Amma biz bilməliyik ki, əhalimiz artır və daxili istehlak da artacaqdır. Ona görə kənd təsərrüfatının istehsalı yüksək templərlə inkişaf etməlidir ki, biz həm daxili tələbatı ödəyə bilək, həm də ixrac bazarlarına öz məhsulumuzu çatdıra bilək.

Hesab edirəm ki, qeyd etdiyiniz məsələlərin həlli üçün, əlavə vəsait ayrılmalıdır. Mikrokreditlərin verilməsi üçün Prezidentin ehtiyat fondundan vəsaitin ayrılması nəzərdə tutulmalıdır. Hesab edirəm ki, bu məqsədlər üçün 30 milyon manat vəsait ayrıla bilər. Bu barədə müvafiq sərəncam layihəsi hazırlansın və mənə təqdim edilsin.

Quraqlıqla bağlı dedikləriniz çox ciddi məsələdir, bu, böyük narahatlıq doğurur. Çünki bu meyil

davam edə bilər. Bilirsiniz ki, dünyada iqlim dəyişikliyi ilə bağlı böyük narahatlıq vardır. Bəzi proqnozlar göstərir ki, Azərbaycanda bəlkə 10 ildən, 20 ildən sonra səhralaşma prosesi də istisna deyil. Ona görə biz bu başdan buna hazır olmalıyıq. Keçən ilin quraqlığı bizə çox böyük problem yaratmışdı və hətta yaşlı insanlar belə quraqlığı xatırlamırlar. Bu il də quraqlıq gözlənilir. Ona görə su ehtiyatlarımızın səfərbər olunması, onlardan səmərəli istifadə edilməsi prioritet məsələyə çevrilir. Heç kimə sirr deyil ki, su olan yerdə məhsuldarlıq da artır və insanların dolanışığı da yüksəlir. Məhz bu məqsədlə ölkəmizdə bir neçə önəmli genişmiqyaslı layihə icra edilmişdir. Əgər Şəmkirçay su anbarı, Taxtakörpü su anbarı vaxtında tikilməsəydi, kanallar çəkilməsəydi, o sudan qidalanan rayonlarda böyük çətinliklər ola bilərdi. Biz son bir neçə il ərzində orta hesabla təqribən 100 min hektara yaxın torpağa suyun verilməsini təmin edirik. Bunlar vaxtilə suvarılmayan, yaxud da ki, suvarılması lazımi səviyyədə olmayan torpaqlardır. Amma bundan sonra da kənd təsərrüfatının və fermerlərin bu sahədə tələbatını ödəmək üçün gərək yeni proqram tərtib edilsin. Biz köhnə metodlarla gedə bilmərik. Çünki bu metodların səmərəliliyi özünü doğrultmur. İndi dünya texnologiyaları bütün sahələrdə inkişaf edir, o cümlədən meliorasiya sahəsində. Biz indi bu işləri dədəbaba üsulu ilə görə bilmərik. Yeni texnologiyalar tətbiq edilməlidir. Mənə verilən məlumata görə, bəzi yerlərdə suyun itkisi 40–50 faizə çatır. Baxmayaraq ki, son vaxtlar bu sahəyə böyük investisiya qo-

yulub, amma vaxtilə tikilmiş qurğuların, infrastrukturun bir çoxu çürüyüb və həm suyun çatdırılmasına imkan vermir, həm də ki, o sızmalar torpağın şoranlaşmasına gətirib çıxarır. Ona görə biz burada iki ziyan görürük. Onu da bilməliyik ki, bizim su ehtiyatlarımız o qədər də geniş deyil və əsas su mənbələrimiz sərhədlərimizin kənarında formalaşır. Hər damcı su bizim üçün önəmlidir. Bu məsələ ilə ciddi məşğul olmaq lazımdır. Sovet vaxtında tikilmiş su kanallarımızın, demək olar ki, hamısı torpaq kanallardır. Son vaxtlar biz ancaq beton kanallar tikirik və vaxtilə tikilmiş torpaq kanalları betona alırıq. Beləliklə, su itkisinin qarşısını alırıq. Ancaq hesab edirəm ki, daha irəli baxmalıyıq. İndi dünyanın inkişaf etmiş ölkələrində, xüsusilə bizim iqlimimizə oxşar iqlimi olan ölkələrdə təcrübə var, orada məhsuldarlıq da çox yüksəkdir və bu təcrübə Azərbaycanda tətbiq edilməlidir. Bu sahədə ciddi irəliləyişə nail olmaq üçün xüsusi komissiya yaradılmalıdır. Su ehtiyatlarından səmərəli istifadə etmək üçün komissiya yaradılacaq. Hesab edirəm ki, komissiyaya Baş Nazirin müavini Şahin Mustafayev rəhbərlik etməlidir. Çünki Şahin Mustafayev İqtisadiyyat naziri işlədiyi dövrdə bu məsələ ilə fəal məşğul olub və mənə müntəzəm olaraq məruzələr edib. Komissiyada aidiyyəti qurumların rəhbərləri – Kənd Təsərüfatı naziri, İqtisadiyyat naziri, Ekologiya və Təbii Sərvətlər naziri, «Meliorasiya və Su Təsərrüfatı» Səhmdar Cəmiyyətinin, «Azərsu» Səhmdar Cəmiyyətinin rəhbərləri və digər aidiyyəti qurumların rəhbərləri təmsil olunmalıdırlar ki, konkret

tədbirlər planı hazırlansın. Demək olar ki, indi təhlillə bağlı materiallar və belə məlumatlar vardır. Əsas məsələ odur ki, nə etməliyik, hansı addımları atmalıyıq. Yəqin xarici mütəxəssisləri də cəlb etməliyik ki, bizə yaxşı məsləhətlər versinlər. Biz suyun hər bir damcısının qədrini bilməliyik.

Beləliklə, bugünkü müşavirəmiz başa çatmaq üzrədir. Bildirməliyəm ki, iqtisadi və sosial planlarımız yerindədir. Koronavirus planlarımıza müəyyən təsir etsə də, bizi əsas yolumuzdan döndərə bilməz. Əlbəttə, indi bizim bütün səylərimiz koronavirusla mübarizəyə yönəldilib. Bu da təbiidir. Məhz bu məqsədlə mənim sərəncamımla Baş Nazirin rəhbərliyi altında Operativ Qərargah yaradılıbdır.

Qərargah çox səmərəli işləyir, 24 saat çalışır. Demək olar ki, mən də 24 saat əlaqədəyəm. Gün ərzində bəlkə də 5-6 dəfə zəngləşirik, danışırıq. Deyə bilərəm ki, əgər vaxtında bu addımlar atılmasaydı, əgər çox ciddi koordinasiya aparılmasaydı, bu gün biz daha da böyük problemlərlə üzləşə bilərdik. Biz özümüzü bu günə qədər, demək olar ki, çox böyük problemlərdən qoruya bildik. Son iki günün dinamikası, yəni xəstələrin və sağalanların sayı arasındakı dinamika müəyyən nikbinliyə yol açır. Amma mən hələ ki, vaxtı qabaqlamaq istəmirəm, hələ ki, təhlil aparılır. Bildiyiniz kimi, karantin rejimi ayın 20-nə qədər qüvvədədir. Növbəti həftə ərzində həm Operativ Qərargah, həm bütün digər aidiyyəti qurumlar öz təkliflərini verməlidir ki, ayın 20-dən sonra biz hansı addımları atmalıyıq, karantin reji-

mi qüvvədə qalacaq, ya yox, qalacaqsa, hansı formada qalacaqdır.

Biz yumşalmaya nə vaxtdan başlaya biləcəyimizi gərək dəqiq bilək. Bir daha deyirəm ki, əsas məsələ xalqımızı bu xəstəlikdən qorumaqdır. İqtisadiyyat bərpa olunar. Biz indi fəal işləyirik və işləyəcəyik ki, bu vəziyyətdən minimum itkilərlə çıxaq.

Koronavirusla bağlı addımlar ardıcıllıqla atılır. Bizdə indi 20-dən çox xəstəxanada xəstələr müalicə alır. Eyni zamanda, 4-5 ulduzlu hotellərdə, o cümlədən Atletlər kəndində karantində olan vətəndaşlar yerləşdirilib. Biz artıq 70 mindən çox test keçirmişik və keçirilən testlərin sayına görə dünya miqyasında 30-cu yerlərdəyik. Həkimlərə diqqət göstərilir, onların maaşları 3, 4, 5 dəfə artırılıbdır. Biz maska istehsalına başlamışıq və bir müəssisə artıq fəaliyyətə başlayıb. Mənə verilən məlumata görə, digər müəssisə də fəaliyyətə başlayır. Bu da çox müsbət haldır. Əlavə 10 modul tipli xəstəxananın tikintisi artıq başlanılıb. Onlardan 6-sı dövlət, 4-ü isə özəl sektor tərəfindən inşa ediləcək. Bizim ən müasir xəstəxanamız – «Yeni klinika» keçən ayın sonunda istifadəyə verildi. Bu 575 çarpayılıq ən müasir klinikamız koronavirus xəstələrinin sərəncamına verilibdir.

Mən klinikanın açılışında qeyd etdim ki, biz bu xəstəliyə görə klinikanı vaxtından bir qədər əvvəl istifadəyə verdik və o tədricən fəaliyyətə başlayır. Son məlumata görə, artıq bu klinikada 100 koronavirus xəstəsi müalicə alır. Orada çarpayıların istifadəyə verilməsi prosesi davam edir və bütün imkanlar maksimum səfərbər olunubdur.

Bizim bu sahədə gördüyümüz işlərə ən gözəl qiyməti Azərbaycan xalqı verir. Bir daha demək istəyirəm ki, minlərlə elektron məktub alıram. Məktublarda görülən işlərə görə minnətdarlıq ifadə olunur.

Ümumdünya Səhiyyə Təşkilatı bizim gördüyümüz işlərə yüksək qiymət verərək, Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunəvi ölkə adlandırıbdır. Bütün bunlar deməyə əsas verir ki, biz bu bəlanı da dəf edəcəyik, bu mübarizədə qalib gələcəyik. Biz xalq olaraq, artıq birlik, həmrəylik nümayiş etdirmişik, indi daha çox məsuliyyət və nizam-intizam nümayiş etdirməliyik. Belə olan halda, biz bu ağır vəziyyətdən az itkilərlə və şərəflə çıxacağıq. Azərbaycan xalqına cansağlığı və xoşbəxtlik arzulayıram. Sağ olun.

## GÜRCÜSTAN PREZİDENTİ SALOME ZURABİŞVİLİ İLƏ VİDEOBAĞLANTI FORMATINDA GÖRÜŞ

*15 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Gürcüstan tərəfinin təşəbbüsü ilə Gürcüstan Prezidenti Salome Zurabişvili ilə videobağlantı formatında görüşmüşdür.*

**Salome Zurabişvili:** Cənab Prezident, mən Sizinlə belə çətin bir zamanda deyil, daha yaxşı vaxtlarda söhbət etmək istərdim. Ümidvaram ki, şəxsən Siz, ailəniz, əməkdaşlarınız – hamınız yaxşısınız. Ümid edirəm ki, biz bu çətin şəraitdə əməkdaşlığımızı mümkün olan qədər tez bir zamanda davam etdirəcəyik.

**İlham Əliyev:** Təşəkkür edirəm, xanım Prezident. Sizi görməyə çox şadam. Əlbəttə ki, belə ünsiyyət qurmaq çox qeyri-adidir. Lakin bu, zamanın özəlliyidir. İndi bizə bir-birimizi görməyə və bir-birimizlə söhbət etməyə imkan verən yeni texnologiyaların olması çox yaxşı bir haldır. Əməkdaşlığınıza görə Sizə təşəkkür edirəm. Mən ölkəmizə Sizin çox uğurlu rəsmi səfərinizi xatırlayıram.

*Gürcüstan Prezidenti dünən Gürcüstana göstərilmiş həmrəyliyin ifadəsinə görə minnətdarlığını bil-*

*dirdi. Prezident İlham Əliyev hər zaman olduğu kimi koronavirus pandemiyası şəraitində də ölkələrimiz və xalqlarımızın bir-birinin yanında olaraq həmrəylik nümayiş etdirməsinin önəmini bildirdi. Dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə sahəsində həyata keçirilən təbdirlər və bu istiqamətdə görüləcək işlər ətrafında fikir mübadiləsi apardılar.*

*Söhbət zamanı Azərbaycanla Gürcüstanın beynəlxalq tranzit dəhlizinin önəmli iştirakçıları olduğu bildirilərək, ticarət əlaqələrinin, tranzit-nəqliyyat sahəsində işlərin davam etdirilməsinin vacibliyi vurğulandı.*

*Dövlət başçıları iqtisadiyyat, ticarət, nəqliyyat sahələrində gələcək əməkdaşlığın perspektivlərini də müzakirə etdilər.*

## ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRİ SAHİL BABAYEV VƏ İQTİSADİYYAT NAZİRİ MİKAYIL CABBAROV İLƏ VİDEOBAĞLANTI FORMATINDA GÖRÜŞ

*17 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında iclas keçirmişdir.*

*Dövlət başçısı iclasda çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Aprelin 14-də birinci rübün yekunlarını müzakirə edərkən mən bir çox tapşırıqlar verdim. Təbii ki, bu tapşırıqların hamısı yerinə yetirilməlidir və siz tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar mənə müntəzəm olaraq məlumat verməlisiniz. Bu gün əlavə tapşırıqlar veriləcək, çünki pandemiya davam edir. Baxmayaraq ki, Azərbaycanda vəziyyət nəzarət altındadır, biz öz tədbirlərimizi vəziyyətə uyğun şəkildə görməliyik. Bizim üçün prioritet məsələ – mən bunu qeyd etmişəm, bir daha demək istəyirəm – insanların sağlamlığıdır, insanların həyatıdır və insan-

ların sosial müdafiəsidir. Eyni zamanda, təbii ki, biz bu şəraitdə iqtisadi sahəyə də daha çox diqqət yetirməliyik. Bunu hər kəs bilməlidir, əgər güclü iqtisadi imkanlarımız olmasa, biz öz sosial siyasətimizi uğurla apara bilməyəcəyik, xüsusilə də pandemiya dövründə. Bu xəstəlik və bu xəstəlikdən yaranan fəsadlar böyük maliyyə vəsaiti tələb edir. Ona görə bir daha demək istəyirəm, bu pandemiya dövründə bizim üçün əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır.

Hər kəs bilməlidir ki, bu böyük bəla bütün dünyanı böyük sınaq qarşısında qoyub. Bu günə qədər dünyada 140 mindən çox insan həyatını itirib və bu xəstəlik sərhədlər tanımır. Əgər ilkin mərhələdə bu xəstəlik Azərbaycana xaricdən gətirilibsə, hazırda daxili yoluxma prosesi gedir. Ancaq bildirməliyəm ki, sərt və qabaqlayıcı tədbirlər nəticəsində biz bu vəziyyəti nəzarət altında saxlaya bilirik. Son 3-4 günün statistikası müəyyən mənada nikbinlik üçün əsas yaradır. Bildirməliyəm ki, son günlərdə yoluxanların sayı ilə sağalanların sayı arasında dinamika artıq müsbətdir. Yəni daha çox insan sağalır, nəinki bu xəstəliyə yoluxur.

Bunun başlıca səbəbi görülmüş tədbirlərdir. Mən bunu bir daha demək istəyirəm, əgər biz vaxtında qabaqlayıcı tədbirlər görməsəydik, bu gün Azərbaycanda xəstələrin sayı 1000 yox, bəlkə 10 min, 20 min, bəlkə də daha çox olardı. Biz indi inkişaf etmiş ölkələrin təcrübəsini görürük. Bu ölkələrdə səhiyyə sistemi bir çox ölkələr üçün həmişə nümunə olub. Am-

ma demək olar ki, böyük imkanlara malik ölkələrin səhiyyə sistemi böhran içindədir. Bu da təbiidir. Çünki xəstəliyin yayılma sürəti o qədər genişdir, xəstəlik o qədər tez yayılır ki, heç bir ölkənin səhiyyə sistemi buna davam gətirə bilməz, o cümlədən Azərbaycanın. Ona görə bizim əsas məqsədimiz yoluxma hallarında müşahidə olunan artımın qabağını almaq idi, yoluxma zəncirini qırmaq idi. Görülmüş bütün tədbirlər bu məqsədi güdürdü ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq, vətəndaşlara kömək göstərək, onları bu bəladan qoruyaq və onların sosial müdafiəsini təmin edək. Bu günə qədər həm məhdudlaşdırıcı tədbirlərin görülməsi, həm bu tədbirlərin mərhələ-mərhələ sərtləşdirilməsi, eyni zamanda, pandemiyadan ziyan çəkmiş sahələrdə çalışan insanların sosial müdafiəsinin təmin edilməsi hesab edirəm ki, bizim düzgün siyasətimizi əks etdirir. Çünki bir daha demək istəyirəm ki, son 3-4 gün ərzində müsbət dinamika vardır. Ancaq biz bundan sonra da vəziyyəti nəzarətdə saxlayacağıq, görək ki, bu dinamika nə qədər çəkəcək, bu davamlıdır, yoxsa yox və hansı əlavə tədbirlər görülməlidir. Çünki dünya böyük çağırışla üzləşib və biz görürük ki, bir çox hallarda ölkələr bu bəla ilə təkbaşına mübarizə aparır.

Azərbaycan, əlbəttə, dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi, bu sahədə həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə həmrəyliyin gücləndirilməsi üçün çox önəmli addımlar atıb. Deyə bilərəm ki, ölkəmizdə milli həmrəylik bu günə qədər müşahidə edilməyən dərəcədə artıb. Bu bir

daha bizim xalqımızın böyüklüyünü göstərir. Göstərir ki, biz xalq olaraq, dövlət olaraq, çətin günlərdə maksimum həmrəylik nümayiş etdiririk, bir-birimizə kömək edirik, xüsusilə aztəminatlı ailələrə kömək göstəririk. Təbii ki, ilk növbədə, dövlət, eyni zamanda, sahibkarlar, ictimai təşkilatlar, ayrı-ayrı şəxslər – biz xalqımıza xas olan ən ülvi xüsusiyyətləri bir daha nümayiş etdiririk.

Bildiyiniz kimi, Azərbaycanın hazırda sədrlik etdiyi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası dünya miqyasında ilk təşkilat idi ki, Zirvə görüşünü videokonfrans şəklində keçirdi. Bu Zirvə görüşü bir daha bizim həmrəyliyimizi, birliyimizi göstərdi. Göstərdi ki, biz ağır günlərdə bir-birimizin yanındayıq.

Son günlər ərzində mənə ünvanlanan minlərlə məktub göstərir ki, Azərbaycan xalqı dövlət tərəfindən görülmüş işlərə çox böyük qiymət verir. Əlbəttə, bu bizi daha da ruhlandırır. Bu onu göstərir ki, baxmayaraq insanların həyatı çətinləşib, normal həyata müdaxilə edən karantin rejimi bir çoxları üçün problemlər yaradıb, yenə də xalqımızın böyük əksəriyyəti bu vəziyyəti dərk edərək, dövlətə öz dəstəyini göstərməkdədir. Biz isə bundan sonra da bu bəla ilə mübarizədə fəal olmalıyıq, qabaqlayıcı tədbirlər görməliyik və elə etməliyik ki, bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək.

Karantin rejiminə gəldikdə, bildiyiniz kimi, karantin rejimi aprelin 20-nə qədər nəzərdə tutulurdu. Ancaq mütəxəssislərin vahid fikrinə görə, karantin rejimi uzadılmalıdır. Mən hesab edirəm ki, bu, düzgün addım olacaqdır. Çünki müsbət dinamika hələ

ki, ilk təzahürlərini göstərməkdədir. Biz bu dinamikanı dayanıqlı etməliyik. Operativ Qərargah yaxın vaxtlarda bu məsələ ilə bağlı məlumat verəcək. Hesab edirəm ki, karantin rejiminin uzadılması yeganə düzgün qərardır.

Bunu nəzərə alaraq, biz, əlbəttə ki, insanların sosial müdafiəsini daha da gücləndirməliyik. Azərbaycan xalqı yaxşı bilir ki, biz dərhal bu məsələ ilə ciddi məşğul olmağa başlamışıq. Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən insanların əmək haqlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılanır. Bu kateqoriyaya aid olan insanların sayı 300 mindən çoxdur. Eyni zamanda, 300 minə yaxın mikrosahibkarın maliyyə vəziyyətinin təmin edilməsi üçün dövlət böyük maliyyə vəsaiti ayırıb. Beləliklə, ancaq bu kateqoriyalara aid olan 600 minə yaxın insan dövlətdən maddi dəstək alır. Dövlət sektorunda işləyənlərin əmək haqları tam ödənilir. Hazırda 1 milyona yaxın insanın böyük əksəriyyəti işləmir, ancaq dövlət onların maaşını verir. Yəni bu bir daha Azərbaycan dövlətinin humanist mahiyyətini göstərir. Onu göstərir ki – mən bunu dəfələrlə demişəm, hələ koronavirusdan daha əvvəl demişəm – bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bugünkü ağır vəziyyət bir daha onu göstərir ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, nəyi bəyan ediriksə, onu da edirik.

Ancaq nəzərə almalıyıq ki, karantin rejimi uzadılacaq və karantin rejimindən çıxış da gərək bu başdan planlaşdırılsın. Sizə də bu məsələ ilə bağlı müvafiq göstərişlər verirəm ki, biz karantin rejimini

mərhələli yollarla sərtləşdirmişdik və bu rejimi eyni qaydada – mərhələli yollarla yumşaltmalıyıq. Bu hansı formada olacaq? Gərək bu məsələ üzərində hökumət və o cümlədən nazirliklər işləsin, təkliflər versin. Yumşalma hansı sahələrdən başlanmalıdır, indidən bunu planlaşdırmalıyıq. Çünki ümid edirəm, hətta uzadılmış karantin rejimi dövründə müəyyən yumşalma istisna deyil. Amma yenə də biz addımlarımızı vəziyyətə uyğun şəkildə atmalıyıq.

Əlbəttə, məni indiki vəziyyətlə bağlı ən çox narahat edən insanların sağlamlığıdır. Bizim həkimlərimiz insanlara kömək göstərmək üçün əllərindən gələni edirlər. Bildiyiniz kimi, bizim səhiyyə sistemimiz böyük sınaq qarşısındadır. Səhiyyə sistemimizin çökməməsi ilk növbədə, onunla bağlıdır ki, biz xəstəliyin yayılma sürətini nəzarət altında saxlaya bildik. Əgər bu, nəzarətdən çıxsaydı, bizim səhiyyə sistemimiz buna davam gətirə bilməzdi. Bu gün inkişaf etmiş bəzi ölkələrin – indi oradakı vəziyyət televiziya və internet resurslarında göstərilir – ümumiyyətlə, insanları müalicə etmək imkanı yoxdur. Bəzi xəstələr dəhlizlərdə yerləşdirilir, yerə uzadılır, sadəcə olaraq, xəstəxana binasında qalırlar. Ən inkişaf etmiş ölkələrdə yüzlərlə, bəzi hallarda 1000-dən çox insan vəfat edir. Nəyə görə? Sadəcə olaraq, səhiyyə sistemi buna davam gətirə bilmir, xəstəxanalarda yer yoxdur, bəzi hallarda lazım olan avadanlıq çatışmır. Əgər bu ölkələrin səhiyyə sistemi normal fəaliyyət göstərsəydi, o insanların böyük əksəriyyətinin həyatını xilas etmək olardı.

Bizim səhiyyə sistemimiz son illərdə böyük inkişaf yolu keçib və bu gün 20-dən çox dövlət xəstəxanasında koronavirus xəstələri müalicə olunur. Bu xəstəxanaların mütləq əksəriyyəti son 16 il ərzində tikilibdir. O cümlədən 575 çarpayılıq «Yeni klinika» bu gün ölkəmizin ən müasir səhiyyə ocağıdır və indi orada 100-dən çox xəstə müalicə alır. Eyni zamanda, Azərbaycan Tibb Universitetinin vaxtilə mənim təşəbbüsümlə tikilmiş Tədris-Terapevtik və Cərrahiyyə klinikalarında da bir çox xəstə müalicə alır. Son illər ərzində bölgələrdə inşa edilmiş Mərkəzi Rayon xəstəxanalarında bir çox xəstələr müalicə alır. O cümlədən bu ilin mart ayında Goranboy, Qazax, Şəmkir şəhərlərində açılmış 3 yeni xəstəxanada xəstələr müalicə alır, orada da 500 çarpayı imkanı vardır. Yəni 1000-dən çox çarpayı ancaq mart ayında istifadəyə verilibdir. Mənim göstərişimlə hazırda ölkəmizdə modul tipli 10 xəstəxana inşa edilməkdədir. Hesab edirəm ki, bu xəstəxanalar işə düşəndən sonra yaxın 1-2 ay ərzində orada da 2000 əlavə çarpayı istifadəyə veriləcəkdir.

Yəni biz bütün hazırlıq işlərini görürük. Biz indi həkimlərimizin peşəkarlığını əyani şəkildə görürük. Sirr deyil ki, səhiyyə işçilərinin fəaliyyətinə bəzi hallarda tənqidi yanaşmalar da müşahidə olunurdu. Sanki Azərbaycanın səhiyyə sistemi bərbad vəziyyətdədir, Azərbaycanda xəstələrə lazımi müalicə göstərilmir, imkanlı xəstələr xaricə üz tuturlar. Bəli, belə hallar var, təkcə Azərbaycanda yox, bizdən qat-qat zəngin olan ölkələrdən də imkanlı adamlar

Avropanın, Amerikanın aparıcı klinikalarında müalicə alırlar. Bu, dünya praktikasıdır.

Ancaq bu gün biz yalnız öz imkanlarımıza arxalanırıq. Bizim səhiyyə sistemimiz ancaq Azərbaycan həkimləri tərəfindən dövlət dəstəyi ilə inkişaf edir. Bu gün Azərbaycanda ən mürəkkəb əməliyyatların keçirilməsi, koronavirusla bağlı müxtəlif müayinələrin aparılması, 18 laboratoriyamız – bunlar bizim gücümüzü artırır. Yəni bu gün tam əmin ola bilərik ki, bizim səhiyyə imkanlarımız və həkimlərin peşəkarlığı lazımi səviyyədədir. Göstərdikləri fədakarlığa, qəhrəmanlığa görə həkimlərə bir daha təşəkkürümü bildirirəm. Ona görə mən tam əminəm ki, karantin rejiminin uzadılması nəticəsində biz müsbət dinamikanı gücləndirə bilərik.

Bununla əlaqədar, biz aztəminatlı ailələrin problemlərini daha geniş şəkildə həll etməliyik. Bu günə qədər biz nəzərdə tuturduq ki, karantin rejimi aprelin 20-dək davam edəcək, ancaq indi uzadılacaqdır. Yardım üçün müraciət edənlərin sayı kifayət qədər artıbdır. İndi bu təkliflər, bu sifarişlər geniş təhlil olunur və maksimum şəffaflıq təmin edilməlidir. İlkin mərhələdə nəzərdə tutulurdu ki, 200 min insan dövlətdən 190 manat yardım alacaqdır. Mən hesab edirəm ki, ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayını biz 600 minə çatdırmalıyıq. Yəni 200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir. Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda,

koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür. Baxmayaraq, mən dəfələrlə onlara müraciət etmişəm ki, qeyri-formal məşğulluğa son qoyun, çünki bu sizin üçün problem yaradacaq. Siz işsizlikdən sığorta, işsizlik müavinəti, pensiya, tibbi sığorta ala bilməyəcəksiniz. Son vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi və digər aidiyyəti qurumların fəaliyyəti nəticəsində on minlərlə yeni əmək müqaviləsi bağlanılıb. Mən ümid edirəm ki, bu ağır vəziyyətdən sonra bunu nəzərə alaraq, bu gün hələ də «kölgə iqtisadiyyatı»nda çalışan insanlar dərk edəcəklər ki, yeganə çıxış yolu «kölgə iqtisadiyyatı»ndan çıxmaqdır. Sahibkarlara müraciət edirəm – qeyri-formal məşğulluğa son qoyun. İşçilərə bir daha müraciət edirəm – əmək müqaviləsi olmadan işləməyin, tələb edin. Əgər hansısa sahibkar sizinlə əmək müqaviləsi bağlamaq istəmirsə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, İqtisadiyyat Nazirliyinə, Prezident Administrasiyasına dərhal məlumat verin. Biz o sahibkarların dərsini verəcəyik. Çünki dövlətin bütün resurslarını səfərbər etdiyi indiki şəraitdə dövləti aldatmaq, vergilərdən yayınmaq və öz maddi marağını, öz tamahını təmin etmək xəyanətdir. Bunun başqa adı ola bilməz. Ona görə tapşırıq verirəm ki, aprel–may aylarında – 2 ay ərzində 600 min insan dövlətdən ayda 190 manat alsın. Bu vəsaiti alacaq vətəndaşlardan xahiş edirəm ki, onlar ikinci ödənişi almaq üçün bank hesabı açsınlar. Birinci ödəniş bu ay

veriləcək, ona görə yəqin bəzi insanların imkanı olmayacaq ki, bank hesabı açsın. Ancaq ikinci ödəniş may ayında veriləcək. O vaxta qədər bu 600 min insanın hər biri bank hesabı açsın və ikinci ödənişi bank köçürmə yolu ilə alsın. Bu bizim xahişimizdir, bu bizim tələbimizdir.

Ona görə bu məsələ ilə bağlı indi sizin nazirlik qarşısında çox ciddi vəzifələr durur. Siz qısa müddət ərzində bu ödənişləri təmin etməlisiniz. Sual vermək istərdim Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinə, indi ayın sonuna 13 gün vaxt qalıb, 600 min insana bu ödənişlər nə dərəcədə operativ şəkildə və gündə neçə min insana verilə bilər?

**Sahil Babayev** (*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri*): Möhtərəm cənab Prezident, Sizin təşəbbüsünüzlə təsdiq edilmiş Tədbirlər Planı çərçivəsində işsiz şəxslərə, xüsusi karantin rejiminə görə iş yerini itirmiş qeyri-formal işləyən şəxslərə, habelə qeyd etdiyiniz kimi, aztəminatlı ailədən olan insanlara dəstək mexanizmi artıq aprelin 7-də Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq olunub. Aprelin 9-dan biz ödənişlərə başlamışıq. İlk vaxtlar hər gün 10 min insana ödəniş köçürülürdüsə, artıq son günlər biz bu rəqəmi 20–25 minə çatdıra bilmişik. Dünən axşamadək artıq 140 min insana ödəniş edilibdir. Bugünkü plana əsasən, əlavə 25 min insana ödəniş ediləcəkdir. Biz Sizin tapşırığınıza əsasən, ayın sonuna qədər gündəlik rəqəmi 25–30 minə çatdırmağa çalışarıq ki, təminat maksimum sürətlə icra olunsun, aprelin sonu, mayın əvvəllərində artıq 600 min insanın hər biri bu vəsaiti ala bilsin. Əsas

sual vətəndaşlarımızın bu vəsaiti götürməsi ilə bağlıdır. Çünki bir gündə ödəniş həddən artıq çox olanda istənilən şəkildə bizim bank, poçt şöbələrimizdə vətəndaşların müraciəti və sıxlığı yarana bilər. Ona görə biz onu da Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə tənzimləməyə çalışdıq və əsas yük poçt şöbələrimizin üzərinə düşür. Onlar da həqiqətən, bu günədək bu missiyanı çox uğurla icra edirlər. Amma biz düşünürük ki, ən geci mayın ilk həftəsində bütün ödənişlər yekunlaşacaqdır. Sizin tapşırığınıza uyğun olaraq, ikinci ödənişin böyük bir hissəsi köçürmə yolu ilə həyata keçirilsə, əlbəttə ki, daha sürətlə icra ediləcəkdir.

**İlham Əliyev:** Yaxşı. Onda birinci ödənişi alan vətəndaşlara bir daha tövsiyə olunmalıdır ki, bank hesabı açsınlar. Bizim banklara da müraciət edirəm ki, onlar – düzdür, bu, böyük iş tələb edir – burada maksimum operativlik göstərsinlər. Çünki əgər 600 min insanın hamısı bank hesabı açarsa – biz bunu istəyirik, tövsiyə edirik – bu, əlbəttə, müəyyən problemlər yarada bilər. Ona görə bank sektoru da buna hazır olmalıdır. Beləliklə, bundan sonra artıq həmin insanlar öz maaşlarını köçürmə yolu ilə alacaqlar, şəffaf şəkildə alacaqlar və öz vətəndaşlıq borcunu yerinə yetirmiş olacaqlar. Çünki bu, ən düzgün yoldur. Bu məsələ ilə, yəni görüləcək əlavə işlərlə bağlı sizin başqa sözünüz varmı?

**Sahil Babayev:** Möhtərəm cənab Prezident, işsiz və qeyri-formal məşğul insanlar, o cümlədən xüsusi karantin rejimində iş yerini itirmiş insanlar ilə bağlı bir sıra digər proqramlar da var – Sizin tə-

şəbbüsünüzlə elan edilmiş haqqı ödənilən ictimai iş yerləri proqramı. Bu proqramın əhəmiyyətli dərəcədə artırılmasını tapşırmışdınız və əlavə 50 min ictimai iş yerinin yaradılması nəzərdə tutulmuşdur. Bu proqramın da icrası artıq başlanıbdır. Məruzə edirəm ki, bu günədək 5000 işsiz şəxs artıq bu işlərə cəlb edilibdir, onlarla əmək müqaviləsi yekun imzalanma mərhələsindədir. Biz bunu da 10 gün ərzində tam şəkildə icra etməyə çalışacağıq. Cənab Prezident, digər bir proqram özünüməşğulluq proqramıdır. Sizin tapşırıqlarınıza uyğun olaraq, özünüməşğulluq proqramına həm Dünya Bankı cəlb edilib, həm də Azərbaycan bankları artıq fəal şəkildə qoşulubdur. Bu il biz 12 min ailə üçün mikro-təsərrüfatın yaradılmasını planlaşdırırıq. İşsizlərlə bağlı bu qədər, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Ödənişli ictimai iş yerlərinin açılması ilə bağlı əvvəlki illərin təcrübəsinə əsaslanaraq, biz ilin əvvəlində 37 min iş yerinin açılmasını nəzərdə tuturduq. Onu da bildirməliyəm ki, artıq bu proqram 3-4 ildir həyata keçirilir. Artıq bəzi insanlar, hansılar ki, ilkin mərhələdə bu işlərə cəlb edilmişdilər, sonra daha da yüksək maaş imkanına malik başqa iş yerlərinə keçdilər. Ona görə biz bu proqramı təqribən 30–40 min ətrafında nəzərdə tuturduq. Ancaq pandemiyaya görə işsizliyin qaçılmaz artımını nəzərə alaraq, mən göstəriş verdim ki, biz ilkin mərhələdə bu rəqəmi 50 minə çatdıraq. Amma indi hesab edirəm ki, biz daha böyük rəqəmə çatmalıyıq və bu il 90 min ödənişli ictimai iş yeri yaradılmalıdır. Bu sahəyə də çox ciddi nəzarət

olmalıdır. Bu məsələ ilə bağlı biz sizinlə əvvəllər də danışmışıq. İndi mexanizm daha şəffafdır. Çünki əfsuslar olsun ki, ilkin mərhələdə burada nəzarət sıfır səviyyəsində idi və bir çox hallarda yerli icra orqanları bundan sui-istifadə edərək, aztəminatlı təbəqə üçün nəzərdə tutulmuş vəsaiti də mənimsəyirdilər. Bu, vicdansızlığın zirvəsidir. Məhz buna və digər cinayətlərə görə artıq 3 icra başçısı həbs olunub, onların çirkin əməlləri sənədləşdirilib və ictimaiyyətə təqdim edilibdir. Onlar özlərini, öz əcdadlarını biabır ediblər, öz yaxınlarına, dövlətə böyük ziyan vurublar. Biz bu vəsaiti ayırırdıq ki, iş tapa bilməyən, yaxud da iş qabiliyyəti yüksək olmayan insanlar heç olmasa minimum səviyyədə əməkhaqqı alsın, evinə çörəkpulu aparsın. Biz minimum əməkhaqqını 250 manata qaldırdıq, ancaq onu da mənimsəyib, kartları özündə saxlayıb, kartlardan pul çəkib varlanırdılar. Bu həm cinayətdir, həm də mənəvi eybəcərlikdir. Buna başqa ad vermək olmaz. Ona görə bütün aidiyyəti orqanlar bundan sonra bu məsələyə çox böyük diqqət yetirməlidirlər. Mən vətəndaşlardan da xahiş edirəm, kimin ki, adı bəlkə indi də yazdırılır, amma əməkhaqqı almır, onlar da bu məlumatı bizə versinlər. Beləliklə, biz 90 min işsizi ictimai işlərlə təmin edəcəyik.

Özünüməşğulluq proqramına gəldikdə, biz keçən dəfə də bu məsələ ilə bağlı danışdıq. Hesab edirəm ki, 12 min insanı bu il bu proqrama cəlb etməyimiz çox yaxşı rəqəmdir. Bizim təşəbbüsümüzlə həm Dünya Bankı bu proqrama qoşulub, həm də Azərbaycan bankları ilk dəfədir ki, bu proqrama qoşu-

lur. Ümid edirəm, Azərbaycan bankları gələn il bu kateqoriyadan olan daha çox sayda insana kömək göstərəcəkdir.

Bir də mən sizə tapşırmışdım ki, ünvanlı sosial yardımı alanların sayı artırılsın. Son müddət ərzində bu sahədə vəziyyət və artım dinamikası necədir?

**Sahil Babayev:** Möhtərəm cənab Prezident, artıq 80 min ailə, 330 mindən çox fərd ünvanlı sosial yardım proqramı ilə əhatə olunubdur. Aprelin 1-i ilə müqayisədə artım 10 min ailədir və ya 36 min şəxsdir. Bu dinamika da Sizin tapşırığınıza uyğun olaraq mütəmadi şəkildə artırılacaq. Ünvanlı yardım bizim aztəminatlı ailələrimizə önəmli bir dəstək mexanizmi kimi, yenə də Sizin təşəbbüsünüzlə icra ediləcəkdir.

**İlham Əliyev:** Çox yaxşı. Eyni zamanda, ayın 14-də keçirilmiş müşavirədə mən bildirdim ki, şəhid ailələrinə nəzərdə tutulmuş evlərin təmin edilməsi həyata keçirilsin. Siz də bu məsələ ilə bağlı məlumat verdiniz. Əlbəttə, indi karantin rejiminə görə kütləvi tədbirlər keçirilə bilməz. Ancaq bilməliyik ki, biz ilin sonuna qədər müəyyən edilmiş rəqəmə çatmalıyıq, 1500 şəhid ailəsi bu yardımdan faydalanacaq. Belə olan halda, növbədə daha nə qədər ailə qalacaq?

**Sahil Babayev:** Möhtərəm cənab Prezident, 2014-cü ildə proqramın ilkin icrasına başlanan zaman, yəni 2014-cü il yanvarın 1-nə qədər növbədə olan şəxslərdən artıq bu ilin sonuna cəmi 1500 nəfər qalacaqdır.

**İlham Əliyev:** Yəni bu il 1500 ailə təmin olunandan sonra hələ də 1500 qalacaq. Yəqin ki, biz 1-2 ilə bu məsələni də həll edə bilərik. Beləliklə, bu kateqoriyadan olan bütün insanlara dövlət tərəfindən mənzillərin verilməsi proqramı başa çata bilər.

Eyni zamanda, DOST mərkəzlərinin tikintisi ilə bağlı maraqlanmaq istərdim. Düzdür, indiki şəraitdə bu mərkəzlər fəaliyyət göstərmir. Ancaq bizim proqramımızda bu il bir neçə mərkəzin tikintisi nəzərdə tutulurdu. Karantin rejimi başa çatandan sonra bu mərkəzlər mütləq fəaliyyətə başlamalıdır. Bu sahədə hansı işlər görülüb? Mən 2 mərkəzin açılışında iştirak etmişəm. Ondan əlavə, bu il neçə mərkəzin tikintisi nəzərdə tutulub və hazırdırmı, yoxsa yox?

**Sahil Babayev:** Bu il əlavə 7 mərkəzin tikilməsi üzərində iş aparılır. Onların 4-ünün bu il açılması nəzərdə tutulurdu və 1-i artıq hazırdır. Bu, Nizami, Suraxanı və Sabunçu rayonlarını əhatə edən 3 saylı DOST Mərkəzidir. Biz onu açılış üçün tam şəkildə hazırlamışıq, xüsusi karantin rejimi bitən kimi, fəaliyyətə başlayacaq. Həmin mərkəz gündəlik əsasda təqribən 700 insan qəbul edə biləcək və ən həssas kateqoriyadan olan insanlarımıza dəstək verəcəkdir. Digər mərkəzlərimiz Sumqayıt şəhərində, Abşeron, Bərdə, Quba və Şəki rayonlarında planlaşdırılır. Onların da hər birinin üzərində müvafiq işlər aparılır. İnşAllah, bu mərkəzlərin tikintisi sürətli şəkildə yekunlaşdırıldıqca Sizə məruzə ediləcəkdir.

**İlham Əliyev:** Yaxşı. İndi biz iqtisadi sahə ilə bağlı, əlbəttə, öz addımlarımızı elə atmalıyıq ki, hazırkı çətin şəraitdə iqtisadi fəallığı müəyyən mənada qoruyub saxlayaq. Hər kəs yaxşı bilir ki, demək olar, bütün ölkələr indi pandemiya ilə əlaqədar öz sərhədlərini bağlayıbdır, ancaq ticarət və yükdaşımaları sahəsində işlər davam edir. Düzdür, indi ticarət obyektləri bağlı olduğu üçün burada tənəzzül vardır. Yükdaşımalarda isə vəziyyət nisbətən normaldır. Əlbəttə, iqtisadi sahədə apardığımız siyasət və iqtisadi sabitlik pandemiyaya qarşı mübarizədə bizə əlavə imkanlar yaradır. Bu ilin üç ayının yekunları haqqında biz üç gün bundan əvvəl danışdıq, təkrar etmək istəmirəm. Hələ ki, müsbət dinamika vardır. Ancaq istisna olunmur ki, aprel, may, iyun aylarında tənəzzül müşahidə ediləcək. Çünki biz iki ayın yekunlarını üç ayın yekunları ilə müqayisə edəndə görürük ki, həm ümumi daxili məhsulda azalma, həm də qeyri-neft sektorunda tənəzzül vardır. Baxmayaraq ki, biz hələ artımı görürük, ancaq növbəti aylarda necə olacaq, əlbəttə, bu da karantin rejiminin nə vaxta qədər davam etməsinə bağlıdır. Ancaq eyni zamanda, nəzərə alın ki, karantin rejimi hələ müəyyən qədər davam edəcək. Karantin rejimi çərçivəsində biz hansı əlavə addımları atmalıyıq ki, iqtisadi fəallığı heç olmasa müəyyən dərəcədə qoruyaq və karantin rejimi başa çatandan sonra vaxt itirmədən iqtisadi fəallığı artıraq. Ona görə mən deyəndə ki, biz karantin rejimindən mərhələli yollarla çıxmalıyıq, bu eyni zamanda, bizim iqtisadi sahəyə də aiddir. Çünki bu

sahədə də sizdə artıq prioritetlər olmalıdır. Hətta mən bir daha demək istəyirəm, istisna edilmir ki, aprelin 20-dən sonra uzadılacaq karantin rejimi çərçivəsində belə, biz müəyyən sahələri aça bilərik. Çünki biz indi dünya praktikasına da baxırıq, artıq bir neçə ölkədə, o cümlədən inkişaf etmiş ölkələrdə belə təşəbbüslər irəli sürülür. Ona görə ki, bu karantin rejimi hər bir ölkənin iqtisadiyyatına çox mənfi təsir göstərir və bu təsir nə qədər davam edəcək, bunu deyə bilmərik. Biz addımlarımızı elə atmalıyıq ki, bu müddət ərzində postkarantin rejiminə daha hazırlıqlı olaq. Hesab edirəm ki, bayaq qeyd etdiyim məsələlər öz müsbət həllini taparsa, qeyri-formal məşğulluq karantin rejimindən sonra təbii olaraq düşəcək. Çünki bu müddət ərzində on minlərlə əmək müqaviləsi bağlanmışdır və bu gün qeyri-formal sahədə işləyənlər artıq görəcəklər ki, yeganə çıxış yolu «kölgə iqtisadiyyatı»ndan çıxmaqdır. Əlbəttə, qeyd etdiyim kimi, indiki şərait bundan sonra iqtisadi sahədə qanunları pozmaq istəyənlərin üzərinə çox böyük mənəvi yük qoyacaqdır. Çünki bir daha demək istəyirəm ki, indiki şəraitdə dövləti aldatmaq cəhdləri xəyanətə bərabər tutulacaqdır. Ona görə siz sahibkarlarla müntəzəm əlaqə saxlayın, o cümlədən maarifləndirmə, onların vicdanla fəaliyyət göstərməsi ilə əlaqədar mütləq təmasları davam etdirin. Bir daha onlara göstərilməlidir ki, dövlət nə qədər böyük yükü öz üzərinə götürüb. Mən indi Azərbaycanı heç yerlə müqayisə etmək istəmirəm, amma baxın görün, bu pandemiyadan zərər çəkmiş sahələrdə işləyənlərin əməkhaqqı

dövlət tərəfindən ödənilir, 300 min adamdır, az deyil. Mikrosahibkarların da sayı 300 minə yaxındır, onlara da dövlət tərəfindən vəsait ödənilir. İndi vergi güzəştləri, vergi tətilləri ilə bağlı mən göstəriş vermişəm və istəyirəm ki, siz bu məsələ ilə bağlı məlumat verəsiniz, hansı tədbirlər hazırlanıb və bu paket Milli Məclisə nə vaxt təqdim ediləcək?

**Mikayıl Cabbarov** (*İqtisadiyyat naziri*): Təşəkkür edirəm, möhtərəm cənab Prezident. İlk növbədə, onu vurğulamaq istərdim ki, Sizin iki tapşırığınıza uyğun olaraq, biz bütün işləri planlaşdırıb həyata keçiririk. Birincisi, ilk növbədə, mövcud olan iqtisadi strukturu və məşğulluğu qorumaqdır. İkincisi, yeni şəraitdə fəaliyyəti təmin etməkdir. Operativ məlumat olaraq, diqqətinizə çatdırmaq istərdim ki, pandemiyadan zərər çəkmiş müəssisələrə və fərdi, o cümlədən mikrosahibkarlara dövlətin maliyyə dəstəyinin çatdırılması prosesi uğurla gedir, proses onlayn şəkildə keçirilir. İzahedici videoçarxlar, «qaynar xətt» fəaliyyət göstərir. Bu günə olan rəqəmlər bundan ibarətdir ki, artıq 11 567 vergiödəyicisinə – toplam sayda 123 343 nəfər muzdlu işçisi olan müəssisələrə və 22 949 fərdi sahibkara Maliyyə Nazirliyi və agent banklar vasitəsilə maliyyə dəstəyi göstərilibdir.

İkinci tapşırığınıza uyğun olaraq, Vergi Məcəlləsinə dəyişikliklər paketi hazırlanıb. O, aşağıdakı hissələrdən ibarətdir və bütün dövlət qurumları ilə razılaşdırılıb. Birincisi, pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergiödəyicilərinə 2021-ci il yanvarın 1-dək olan dövr üzrə bir sıra

vergi güzəştləri və vergi tətilləri təklif olunub. Burada əmlak və torpaq vergiləri üzrə tam məbləğdə vergi güzəştlərinin verilməsi, əldə edilən mənfəətin, gəlirin 75 faiz miqdarında vergi güzəşti kimi, fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində tutulan verginin dərəcələrinin 50 faiz, yəni 14 faizdən 7 faizə endirilməsi, ictimai iaşə və ölkədaxili sərnişindaşıma fəaliyyəti üzrə sadələşdirilmiş vergi məbləğinə 50 faiz güzəştin verilməsi və digər tədbirlər.

İkinci istiqamət, mikrosahibkarlıq subyektlərinə 2020-ci il yanvarın 1-dən 2021-ci il yanvarın 1-dək sadələşdirilmiş vergi üzrə 50 faiz vergi güzəştinin, yəni 2 faiz dövriyyədən 1 faiz dövriyyəyə endirilməsi, həmçinin vergilərin, cari vergiödəmələrin hesablanması və ödənilməsi üzrə vergi tətillərinin verilməsi.

Nəhayət, üçüncü istiqamət, bütün sahibkarlıq subyektlərinə şamil edilməsi proqnozlaşdırılır və 2021-ci il yanvarın 1-dək olan dövr üzrə aşağıdakı vergi güzəştlərini təqdim edirik: epidemiyanın qarşısının alınması, əhalinin həyat və sağlamlığının qorunması məqsədilə vergiödəyiciləri tərəfindən həyata keçirilən zəruri profilaktik, o cümlədən dezinfeksiya tədbirlərinə görə çəkilmiş xərclərin məhdudiyyəti nəzərə alınmadan gəlirlərdən çıxarılması, həmçinin əhalinin bir sıra ərzaq və tibbi ehtiyacları üçün zəruri olan və siyahısı, cənab Prezident, Sizin tərəfinizdən təsdiq olunmuş bəzi məhsul növlərinin idxalının əlavə dəyər vergisindən müddətli azad edilməsi. Yəni bu, kifayət qədər geniş paketdir və bu paketdə artıq Siz qeyd etdiyiniz kimi, yeni re-

jimdə fəaliyyət göstərilməsi də müəssisələr tərəfindən nəzərə alınıbdır.

**İ l h a m Ə l i y e v:** Sahibkarlarla bu məsələ ilə bağlı müzakirələr aparılıb?

**M i k a y ı l C a b b a r o v:** Möhtərəm cənab Prezident, Sizin sərəncamınıza uyğun olaraq yaradılmış işçi qruplarında sahibkarlıq subyektləri, Sahibkarlar Konfederasiyası, Azərbaycan Banklar Assosiasiyası və bütün aidiyyəti dövlət orqanlarının iştirakı ilə müzakirələr aparılıb və sahibkarların rəyi nəzərə alınıbdır.

**İ l h a m Ə l i y e v:** Yəni sahibkarların bu təkliflər paketinə münasibəti nədən ibarətdir, bu onları qane edir, yoxsa bundan daha böyük güzəştlər istəyirlər?

**M i k a y ı l C a b b a r o v:** Vergi güzəştlərinə gəldikdə, bu, geniş və əhatəli vergi güzəşti paketidir. Məlum olduğu kimi, bu, yeganə dəstək mexanizmi deyil. Nümunə kimi, bu gün Maliyyə Sabitliyi Şurasında müzakirəsi gözlənilən məsələ ondan ibarətdir ki, bütün digər biznes fəaliyyətinə də pandemiyanın təsirsiz ötüşməməsini nəzərə alaraq, misal üçün, bank kreditləri olan və bank kreditlərinə də requlyativ tədbirlərin yumşaldılması. Bu, sahibkar üçün nə deməkdir? Bu o deməkdir ki, banklar onların cari kredit ödənişlərini yumşaldır, restrukturizasiya edir, dövr və müddət verir. Bu iş Mərkəzi Bankın, Banklar Assosiasiyasının təşəbbüsü ilə işçi qrupu çərçivəsində, aidiyyəti digər işçi qrupu çərçivəsində İqtisadiyyat Nazirliyində sahibkarların iştirakı ilə həyata keçirilir. Bu qərarın da qısa müd-

dətdə Sizin diqqətinizə təqdim edilməsi nəzərdə tutulur.

**İlham Əliyev:** Yaxşı. Verdiyim tapşırıqları operativ, şəffaf şəkildə yerinə yetirmək lazımdır. Əminəm ki, bu tədbirlərin görülməsi nəticəsində biz həm əhalinin sosial müdafiəsini gücləndirəcəyik, eyni zamanda, sahibkarlara əlavə dəstək verəcəyik və ən önəmlisi, insanların həyatını, sağlamlığını qoruyacağıq.

Əminəm ki, Azərbaycan xalqı karantinin uzadılmasını düzgün başa düşəcək. Bir daha demək istəyirəm ki, bu hər birimiz üçün böyük çətinliklər törədir. Ancaq insanların sağlamlığı, həyatı hər şeydən üstündür. Nə qədər lazımdır, dözməliyik. Onu da bildirməliyəm ki, insanların vəziyyətini yaxşılaşdırmaq üçün çox böyük sosial və iqtisadi paket təqdim olunur. Əvvəlki dövrlərdə bu paket 1 milyard manat məbləğində dəyərləndirilirdi, ondan sonra 2,5 milyard manat həcmində dəyərləndirilirdi. İndi verdiyim tapşırıqlar nəticəsində bu iqtisadi paket 3 milyard manatı, bəlkə də 3,5 milyard manatı ötəcəkdir. Nə qədər lazımdır, biz bunu edəcəyik. Azərbaycan bütün imkanları səfərbər edib ki, bu vəziyyətdən az itkilərlə çıxsın, insanların həyatını qorusun və postpandemiya dövrünə hazır olsun. Əminəm ki, biz bunu da təmin edəcəyik. Sağ olun.

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Fərqli sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanda yüz illərdir ki, müxtəlif xalqların və dinlərin nümayəndələri əmin-amanlıq, mehriban qonşuluq, qarşılıqlı etimad və anlaşma şəraitində yaşayırlar. Dərin tarixi köklərə malik tolerantlıq ənənələrimizin qorunub saxlanılması, multikultural dəyərlərə söykənən ictimai münasibətlərin təbliği və təşviqi Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin başlıca istiqamətlərindən biridir.

Azərbaycan Respublikasında formalaşmış nümunəvi dövlət–din münasibətləri cəmiyyətin bütün təbəqələri kimi, xristian icmasına da öz dini-mənəvi dəyərlərindən lazımınca faydalanmaq imkanı yaradır. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, cəmiyyətimizdə özünəməxsus yeri olan pravoslav xristianlar ölkəmizdə gedən böyük inkişaf və quruculuq prosesinin fəal iştirakçılarıdır.

Əziz həmvətənlər!

Builki Pasxa bayramı bütün dünyanı bürümüş təhlükəli epidemiyanın bəşəriyyəti təhdid etdiyi bir vaxta

təsadüf edir. Əminəm ki, üzləşdiyimiz qlobal bəla ilə mübarizədə həmvətənlərimiz yüksək məsuliyyət, həmrəylik və mütəşəkkillik nümayiş etdirəcək, xalqımız bu çətin sınaqdan da uğurla çıxacaqdır.

Yeniliyin, dirçəlişin, birlik və bərabərliyin rəmzi sayılan nurlu Pasxa bayramı günündə bir daha hər birinizə cansağlığı, xoşbəxtlik, ailələrinizə əmin-amanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 aprel 2020-ci il*

## «AZƏRENERJİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN YENİDƏN QURULMUŞ BAŞ İDARƏETMƏ, ELM, TƏDRİS VƏ LABORATORİYA KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*20 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Bakıda «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin yenidən qurulmuş Baş İdarəetmə, Elm, Tədris və Laboratoriya Kompleksinin açılışı mərasimində iştirak etmişdir.*

*Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əsaslı islahatlar həyata keçirilir. İcra olunan layihələrin nəticəsində strateji əhəmiyyət kəsb edən sahələr də yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu baxımdan son illərdə respublikamızda enerji sektorunun müasirləşdirilməsi və inkişafı istiqamətində görülən işlər də miqyası və əhəmiyyəti ilə seçilir. Respublikanın enerji sisteminin etibarlılığının təmin edilməsi və bu sahədə mükəmməl infrastrukturun yaradılması baxımından həyata keçirilən tədbirlər isə ardıcıl və kompleks şəkildə davam etdirilir.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin Baş İdarəetmə, Elm, Tədris və Laboratoriya Kompleksinin müasir səviyyədə yenidən qurulması da bunun*

*bariz nümunəsidir. Bütün bunlar göstərir ki, hazırda ölkəmizdə enerji sektorunun inkişafına, onun maddi-texniki bazasının gücləndirilməsinə xüsusi önəm verilir və bunun nəticəsində hazırda Azərbaycan öz daxili enerji tələbatını tam ödəməklə yanaşı, elektrik enerjisini ixrac da edir.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev görülmüş işlər barədə dövlət başçısına məlumat verdi. Bildirildi ki, 1986-cı ildə istifadəyə verilmiş və o vaxtdan təmir edilmədiyinə görə yararsız vəziyyətə düşmüş bina əsaslı təmir olunaraq, müasir memarlıq üslubunda, yüksək səviyyədə yenidən qurulub. Ətrafda abadlıq işləri görülüb, yaşıllıq sahələri salınıbdır.*

*Dövlət başçısına binada fəaliyyət göstərəcək Baş İdarəetmə Mərkəzi barədə məlumat verildi. Bu mərkəz vasitəsilə enerji sistemin avtomatik idarəedilməsinin, idxal-ixrac proseslərinin, tənzimləmələrin həyata keçirilməsi nəzərdə tutulur. Əməliyyatlar insan müdaxiləsi olmadan məsafədən həyata keçirilir. Hazırda burada müasir avadanlıqlar və proqram təminatı ilə təchiz ediləcək yeni SCADA sistemi qurulur. Yeni sistem Əsas və Ehtiyat Dispetçer İdarəetmə Mərkəzindən, 7 Regional Monitorinq Mərkəzindən ibarət olmaqla, ilkin mərhələdə 21 elektrik stansiyasını və 80 yarımstansiyanı əhatə edəcəkdir. Yeni SCADA layihəsinin ilin sonunda tam başa çatdırılması nəzərdə tutulur.*

*Diqqətə çatdırıldı ki, 10 ədəd nəzəri və praktik trenajor zalının yaradıldığı kompleksin Tədris Mərkəzində enerji sistemində çalışan şəxslərə yeni texni-*

*ka və texnologiyanın öyrədilməsi və onların idarə edilməsi tədris olunacaq. Bu məqsədlə nəzəri və praktiki məşğələlərin tədrisi üçün sinif otaqları təşkil edilib. Burada stansiya və yarımstansiyaların simulyasiyası, rele mühafizəsi və avtomatika, alternativ və bərpa olunan enerji mənbələri, informasiya texnologiyaları, elektrik təhlükəsizliyi və digər aidiyyəti otaqlar yaradılıbdır.*

*Binada ilk dəfə olaraq, müasir avadanlıqlarla təchiz edilmiş 500 nəfərlik Mədəniyyət Mərkəzi yaradılıb. Burada ölkəmizin həyatında baş verən əlamətdar hadisələri, eyni zamanda, energetiklərin fəaliyyəti ilə bağlı təşkil olunan tədbirləri yüksək səviyyədə keçirmək mümkün olacaqdır.*

*Yenidən qurulmadan sonra «Azərenerji» ASC-nin mərkəzi aparatı bu binaya köçürülüb. Əməkdaşların fəaliyyəti üçün bütün zəruri avadanlıqlarla təchiz edilmiş iş, toplantı, arxiv otaqları, 165 nəfərlik yeməkxana yaradılıb. Elektron kitabxana və istirahət guşələri də işçilərin ixtiyarına veriləcək. Bundan başqa, burada Azərbaycan Energetika İnstitutu da fəaliyyət göstərir.*

*Prezident İlham Əliyevə «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin Baş İdarə binasının yenidən qurulma layihəsi barədə də məlumat verildi.*

*Kompleksin yeni Laboratoriya Mərkəzi müasir səviyyədə qurulub. Burada müxtəlif növ sınaqların aparılması üçün bütün imkanlar mövcuddur. Ən son model avadanlıqlarla təchiz olunmuş laboratoriyalarda geotexnika, geodeziya, inşaat, kimya, metalların və inşaat materiallarının sınağını və digər labora-*

*tor işləri görmək və onları sertifikatlaşdırmaq mümkün olacaqdır. Bu isə öz növbəsində, enerji sistemin uzunmüddətli istismarını təmin edəcəkdir. Qeyd edək ki, belə laboratoriyalar ölkədə ilk dəfə yaradılıb.*

*Kompleksin binasında tibbi maskaların istehsalı üçün xüsusi otaq ayrılıb, zəruri avadanlıq qurasdırılıbdır. İdman, Sağlamlıq və Tibb Kompleksi də müasir səviyyədə qurulub. Kompleksdə əməkdasların idmanla məşğul olması üçün geniş imkanlar vardır.*

*Sonra dövlət başçısı «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin bir qrup əməkdaşı ilə görüsdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin Baş İdarəetmə Mərkəzinin istifadəyə verilməsi münasibətilə sizi təbrik edirəm. Şadam ki, bu gözəl binada «Azərenerji»nin bir çox qurumları yerləşir – Dispetçer Mərkəzi, Baş İdarəetmə Mərkəzi, Energetika İnstitutu, Tədris Mərkəzi, Laboratoriya Mərkəzi, energetiklərin Mədəniyyət Mərkəzi. Hesab edirəm ki, indi burada şərait çox yaxşıdır. Bu binada qısa müddət ərzində əsaslı yenidən qurulma işləri aparılıbdır.

Demək olar ki, bina yenidən qurulub və indi bir yerdə, bir mərkəzdə «Azərenerji»nin əsas departamentləri yerləşir. Beləliklə, idarəetmə üçün daha da gözəl imkan yaranır. Çünki bundan əvvəl «Azərenerji»nin departamentləri, qurumları müxtəlif yerlərdə yerləşirdi, bəzi hallarda yarımstansiyaların bi-

nalarında yerləşirdi və əlbəttə ki, idarəetmə üçün bu o qədər də məqbul hal deyildi.

Bu bina sovet dövründə tikilib. Bir müddət bundan əvvəl özəlləşdirməyə çıxarılıb, «Azərenerji»nin balansından çıxarılıbdır. Mən bundan xəbər tutandan sonra göstəriş verdim ki, bu dərhal «Azərenerji»nin balansına qaytarılsın. Çünki əks-təqdirdə bu binanı özəlləşdirən hansısa sahibkarların burada nə yaradacaqları bəlli deyildi. Bina çox böyükdür, ərazisi də böyükdür, təqribən 4 hektara yaxındır. Əvvəlki binanın sahəsi 13 000 kvadratmetr idi, indi isə artırılıb 20 000 kvadratmetrə çatdırılıbdır. Yəni burada ya hansısa mehmanxana, ya şadlıq evi, ya yaşayış binası, ya da ki, hansısa ictimai iaşə obyekti yaradılacaqdı və energetiklər bu binadan məhrum olacaqdılar.

Bu bina energetiklərə qaytarıldıqdan sonra, 2018-ci ilin sonunda burada əsaslı yenidən qurulma işləri başlandı və uğurla başa çatdırıldı. Bu bir daha onu göstərir ki, Azərbaycan dövləti energetika sahəsinə çox böyük əhəmiyyət verir. Təsadüfi deyil ki, bizim infrastruktur layihələrinin icrası ilə bağlı ilk addımlarımız məhz energetika sahəsinə aid idi. Hələ 2004-cü ildə regionların birinci sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilərkən orada infrastruktur layihələrinin arasında əsas diqqət energetika sahəsinə yönəldilmişdi. Bu da təbii idi. Çünki o vaxt biz özümüzü elektrik enerjisi ilə təmin edə bilmirdik. Biz xaricdən elektrik enerjisi alırdıq. Həm valyuta xaricə gedirdi, həm də bizim mövcud infrastruktur xətlərimiz imkan vermirdi ki, ölkə-

mizi elektrik enerjisi ilə təmin edək. Hətta Bakı şəhərində gecə saatlarında elektrik enerjisi kəsilirdi. Yadımdadır – gənc nəslin nümayəndələri bəlkə də bunu xatırlamır – o vaxt hətta televiziya verilişləri axşam saat 12-də dayandırılırdı ki, insanlar televiziyaya baxmasınlar, enerjidən çox istifadə etməsinlər. Yəni böyük qıtlıq var idi. O ki qaldı Azərbaycanın bölgələrinə, orada, ümumiyyətlə, dayanıqlı enerji təminatı nədir, insanlar bilmirdilər. Ən yaxşı halda, sutka ərzində 2–4 saat elektrik enerjisi verilirdi və əlbəttə ki, bu həm insanların həyat tərzinə mənfi təsir göstərirdi, eyni zamanda, bizim iqtisadi, sənaye potensialımızın artımına da böyük problem yaradırdı. Ona görə mənim göstərişimlə birinci regional inkişaf proqramında bu məsələyə çox böyük diqqət göstərildi və biz dərhal işə başladıq. O vaxt regional elektrik stansiyalarının tikintisinə başlamışdıq. Astara, Xaçmaz, Şəki, Şahdağ və Səngəçalda elektrik stansiyalarının tikintisi müəyyən dərəcədə imkan yaratdı ki, öz tələbatımızı özümüz təmin edək. Ancaq bununla paralel olaraq, yeni böyük elektrik stansiyalarının inşası da nəzərdə tutulurdu və son 16 il ərzində bütövlükdə ölkəmizdə 30-dan çox yeni stansiya tikilibdir. Əgər bu stansiyalar tikilməsəydi, bu gün Azərbaycan idxaldan bəlkə də 5 qat, 10 qat daha çox asılı olacaqdı, nəinki 2000-ci illərin əvvəllərində. Bu stansiyalar arasında böyük stansiyalar xüsusi əhəmiyyət daşıyır. Ən böyük stansiya Şirvan şəhərində tikilib – «Cənub» Elektrik Stansiyası. Onun generasiya gücü təxminən 800 meqavata bərabərdir. Ondan sonra Sumqayıt Elektrik Stansi-

yası, 525 meqavat. «Şimal-2» bu yaxınlarda istifadəyə verilib. Onun generasiya gücü 400 meqavata yaxındır. «Səngəçal» stansiyasının generasiya gücü 300 meqavatdır. Təkcə bu 4 stansiyanın generasiya gücü 2000 meqavatdan çoxdur. Bundan əlavə, ölkəmizin müxtəlif yerlərində su-elektrik stansiyaları tikilibdir.

Bildirməliyəm ki, Naxçıvan Muxtar Respublikasında tikilmiş su-elektrik stansiyalarının generasiya gücü bütün muxtar respublikanın tələbatını ödəmək iqtidarındadır. Vaxtilə İrandan və Türkiyədən elektrik enerjisi alan Naxçıvan Muxtar Respublikası indi özünü tam təmin edir və eyni zamanda, orada ixrac potensialı da yaranıbdır. Bütövlükdə ölkəmizdə bu gün ixrac potensialı var və biz elektrik enerjisini idxal edən ölkədən elektrik enerjisini ixrac edən ölkəyə çevrilmişik.

Əlbəttə, bu böyük infrastruktur layihələri böyük vəsait tələb edir. Bu vəsaitin böyük hissəsi büdcənin hesabına təmin edilib, digər hissə götürülmüş kreditlərin hesabına və bu kreditlər qaytarılır. Beləliklə, biz çox müasir enerji sistemimizi yaratdıq və bu gün dayanıqlı enerji təchizatı ölkə üzrə çoxdan təmin edilibdir. Bundan əlavə, xüsusilə son illərdə görülmüş işlər enerji təsərrüfatını tamamilə yeniləşdirib. Bizi qonşu dövlətlərlə birləşdirən yüksəkgərginlikli xətlər inşa edilib, bir çox yerlərdə yeni yarımstansiyalar tikilib, transformatorlar quraşdırılıbdır. Bölgələrə çoxsaylı səfərlərim çərçivəsində mən həmişə maraqlanıram və vətəndaşlardan soruşuram ki, enerji ilə təminat necədir? Son illər ərzində hər

zaman müsbət rəylər eşidirəm. Bu məni çox sevindirir. Bu onu göstərir ki, «Azərenerji» və «Azərişıq» bu istiqamətdə çox böyük işlər görür.

Bizim enerji potensialımız artan iqtisadi inkişafımıza uyğun olmalıdır. Eyni zamanda, «Azərenerji» son 2 il ərzində mövcud stansiyaların generasiya güclərinin bərpası barədə yeni layihə təqdim edib. Çünki bu stansiyaların əksəriyyəti çoxdan tikilib. Bu stansiyalarda mövcud vəziyyət bizi heç cür qane edə bilməzdi. Hamımızın yadındadır ki, Mingəçevir Elektrik Stansiyasında baş vermiş qəza hansı fəsadlara gətirib çıxardı. Ölkəmizi qaranlıq bürüdü. Metronun bütün stansiyalarında böhran yarandı və ölkəmiz qaranlığa qərq oldu. Bu ilk növbədə, səhlənkarlıq, məsuliyyətsizlik ucbatından baş vermiş qəza idi. Ona görə «Azərenerji»nin rəhbərliyi dəyişdirildi, cəzalandırıldı. Yeni rəhbərlik gətirildi. Yeni rəhbərlik qarşısında çox konkret vəzifələr qoyuldu və bu vəzifələr bu gün icra edilir. Çünki enerji təminatı hər bir ölkənin döyünən ürəyidir. Bu olmasa, heç nə olmayacaq. Bu olmasa, sənaye, kənd təsərrüfatı inkişaf etməyəcək, suvarma işləri təmin edilə bilməyəcək, ictimai nəqliyyat işləməyəcək. Ümumiyyətlə, həyat iflic vəziyyətə düşəcək. Ona görə bizim əsas məqsədimiz müstəqil enerji sistemi yaratmaq, xaricdən asılılığı aradan götürmək idi. Enerji potensialımızı elə həcmdə yaratmalı idik ki, bizim ehtiyatda da kifayət qədər generasiya gücümüz olsun və bu gün bu vardır. İndi müxtəlif rəqəmlər səsləndirilə bilər, amma ən aşağı rəqəmlər onu göstərir ki, bizim hazırda ehtiyatda ən azı 1000 meqavat ge-

nerasiya gücümüz vardır. Mövcud stansiyaların gücünün bərpası artıq başa çatır. Bunların arasında ilk növbədə, Mingəçevirdəki İstilik Elektrik Stansiyasını qeyd etməliyəm. Çünki bu bizim ən böyük generasiya gücümüzdür və həmin stansiyada baş vermiş qəza nəticəsində ölkəmiz qaranlığa düçar oldu. Bu stansiyada 8 blokun hamısı yenidən qurulur. Ümid edirəm ki, yaxın bir neçə ayda bu stansiya tamamilə yenidən qurularaq, istifadəyə veriləcəkdir. Bu stansiyada təkcə bərpa olunan güclərin həcmi 600 meqavata yaxındır. Təsəvvür edin, ancaq bərpa işlərini düzgün aparmaqla, biz 600 meqavat gücündə əlavə generasiyaya sahib olacağıq. Əgər bunu biz ayrıca bir stansiya kimi götürsək görərik ki, bu, «Cənub» stansiyasından sonra ölkəmizin generasiya gücünə görə ikinci böyük stansiyası olacaq.

Digər elektrik stansiyalarında da bərpa işləri aparılır və əminəm ki, biz bu istiqamətdə öz hədəfimizə çatacağıq. Bütün bu işlər, o cümlədən ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, iqtisadi inkişaf, sənaye potensialımızın artması, eyni zamanda, qonşu ölkələrlə enerji xətlərinin təmin edilməsi, inşası ona gətirib çıxarıb ki, xarici investorlar artıq bu sahəyə böyük maraq göstərirlər. Biz bunu həmişə arzulamışıq. Ancaq görəndə ki, xarici investor bu sahəyə maraq göstərmir, bütün işləri biz özümüz görürük, öz pulumuzla. Müəyyən hissəni biz borc kimi götürdük, amma əsas hissəni öz pulumuzla həll etdik və bu gün dünya miqyasında ən səmərəli enerji sistemindən biri məhz Azərbaycandadır və bunu təsdiqləyən Davos Dünya İqtisadi Fo-

rumunun hesabatıdır. Bunu mən elə-belə demirəm. Beləliklə, Forumun hesabatında elektrik enerjisinin əlçatanlıq indeksinə görə Azərbaycan dünyada ikinci yerdədir. Təsəvvür edin, ikinci yerdə. Bizdən qabaq, sadəcə olaraq, bir ölkə var. Yəni bir çox inkişaf etmiş ölkələri qabaqlamışıq. Özü də nə vaxt, qısa müddət ərzində.

Bizim müstəqilliyimizin hələ 30 yaşı tamam olmayıb. Biz müstəqil ölkə olanda enerji təsərrüfatımız bərbad vəziyyətdə idi. Ondan sonra daha da bərbad vəziyyətə düşdü. Biz o illəri xatırlayırıq. Burada bir «Barmek» şirkəti peyda olmuşdu, özü də qeyri-təmiz sxemlər əsasında, keçmiş məmurlarla sövdələşmə əsasında gəlib bizim Bakı şəhərinin bütün enerji təsərrüfatına sahib olub və pul qoymaq əvəzinə, bu sistemi bərbad vəziyyətə salıb, Azərbaycandan milyonlarla pul aparmışdır. Sonra da bu, azmış kimi, bizi hələ məhkəməyə də vermək istəyirdi. Mənim göstərişimlə bu çirkin sövdələşməyə son qoyuldu, bu dələduz şirkət Azərbaycandan qovuldu və mənim sərəncamımla o vaxt «Azərişıq» Səhmdar Cəmiyyəti yaradıldı. Adını da mən qoydum – «Azərişıq». Biz bütün enerji təsərrüfatımızı dövlət mülkiyyətinə qaytardıq. Əgər bunu etməsəydik, bu gün biz qaranlıq içində yaşayacaqdıq və «Azərenerji»nin bütün əmlakı dağıdılacaqdı, necə ki, bu bina. Təsəvvür edin, 13 min kvadratmetrlik binanı çıxardılar özəlləşdirməyə və ucuz qiymətə satmaq istəyirdilər. Əgər mən xəbər tutmasaydım, mənə məlumat verilməsəydi, göstəriş verməsəydim satacaqdılar. İndi görün siz nə gözəl binada yerlə-

şirsiniz. Bu, demək olar ki, bizim enerji sistemimizin tənzimlənməsi işində əsas mərkəzdir. SCADA sistemi, dispetçer sistemi, idarəetmə sistemi – hamısı buradadır. Bizim enerji sistemimizi belə dağıtmaq istəyirdilər.

Bizim vətəndaşlar bunu bilməlidirlər və xatırlamalıdırlar. Bu gün haradan-hara gəlmişik, dünya miqyasında ikinci yerdəyik. Bu gün bizim enerji potensialımız artan iqtisadiyyatı dəstəkləyir. Təkcə bu ilin 3 ayında – baxmayaraq ki, neftin qiyməti düşdü, koronavirus pandemiyası bizim ölkəmizə də çox böyük təsir göstərdi – qeyri-neft sənayesi sahəsində artım 23 faizdir və bütün bu artan sənaye müəssisələri enerji tələb edir. Həm generasiya, həm ötürmə, həm dayanıqlı təchizat – bütün bunlar bu gün təmin edilir. Ona görə hesab edirəm ki, bu gün bu binanın açılışı çox böyük rəmzi məna daşıyır. Təbii ki, burada institut yerləşir, Baş İdarəetmə Mərkəzi, Tədris-Laboratoriya Mərkəzi, Dispetçer Mərkəzi, bu bizim enerji sistemimizin yeni simasını əks etdirir. Bu bina artıq satışdan, hərracdan çıxarılaraq energetiklərə, onun sahiblərinə qaytarılıbdır. Ona görə bu binada işləyən vətəndaşlar öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər. Elə etməlidirlər ki, bizim enerji təminatımız daim yüksək səviyyədə olsun.

Bütün bunlarla yanaşı, hələ görüləcək işlər çoxdur. «Azərenerji»nin böyük planları var və hesab edirəm ki, ardıcıl siyasət nəticəsində bütün bu planlar həyata keçəcək. Bir daha demək istəyirəm ki, bütün bu müsbət dinamika və eyni zamanda, sabit-

lik ona gətirib çıxardı ki, xarici investorlar Azərbaycana pul qoymaq qərarına gəldilər. Bu ilin yanvar ayında ilkin razılaşma əldə edildi və bərpa olunan enerji sahəsində böyük təcrübəyə malik 2 böyük şirkət Azərbaycanla ilkin sazişləri imzaladı. Bu sazişlər əsasında ölkəmizdə 440 meqavat gücündə – biri külək, biri günəş olmaqla, 2 stansiya tikiləcəkdir, sırf xarici investorların hesabına. Onu da bildirməliyəm ki, bu layihələri icra etmək, yəni investisiya qoymaq istəyən şirkətlərin sayı 7 idi. Mən ad çəkmək istəmirəm, onların arasında dünyanın ən böyük enerji şirkətləri də vardı. Ancaq müsabiqə onu göstərdi ki, 2 şirkət daha gözəl şərtlər verib və onlar artıq bu işləri başlamalıdırlar. Düzdür, bu koronavirus araya girdi, ola bilər ki, müəyyən yubanma olsun, amma prinsip etibarilə bütün ilkin razılaşmalar əldə edilib. Bu öz növbəsində, digər şirkətlərə də yol açacaq. Bizim bərpa olunan enerji potensialımız çox böyükdür, günəş, külək bizdə boldur. Ona görə əmin edirəm ki, həm yerli, həm də xarici şirkətlər bu sahəyə maraq göstərəcəklər.

Bir də xarici şirkətlərin fəaliyyəti ilə bağlı bildirməliyəm ki, müəyyən müddət ərzində biz bu sahəni dövlət inhisarında saxlamışdıq və mən bunun səbəbini də bildirdim. Ancaq hazırda Azərbaycana investisiya qoymaq istəyən istənilən şirkət öz təkliflərini versin və yeni stansiyalar tiksin, investisiya qoysun və bizimlə bərabər işləsin.

Bilirəm ki, bəzi şirkətlərin mövcud stansiyalara marağı vardır. Ancaq buna baxmaq lazımdır, bu bizə lazımdır, yoxsa yox. Çünki mövcud stansiyalar

hamısı işlək vəziyyətdədir, dövlət hesabına böyük investisiyalar qoyulub. Əgər hansısa xarici şirkət bizdən o stansiyaları daha yaxşı işlədə bilərsə, buyursun təklif versin, göstərsin ki, nədir bunun üstünlüyü, əgər bu, özəl əllərdə olarsa, baxarıq, əgər onlar doğrudan da daha səmərəli işləyəcəklərsə, işləsinlər. Ancaq xarici investorları mən ilk növbədə, yeni stansiyalara yönəltmək istəyirəm. Gəlib pul qoysunlar. Yoxsa hazır vəziyyətdə gəlməyi hər kəs istəyər. Gəl pul qoy, istehsal et, ötür ümumi sistemə və öz biznesini genişləndir. Bax, mənim xarici şirkətlərə tövsiyəm bundan ibarətdir, o cümlədən, yerli şirkətlərə. Əminəm ki, bundan sonra dövlət–özəl sektor tərəfdaşlığı bu sahədə də mümkün olacaqdır.

Bir daha sizi ürəkdən təbrik edirəm və sizə, bütün Azərbaycan energetiklərinə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

**Aytac Süleymanova** (*«Azərenerji» ASC-nin Enerji istehsalı idarəsinin gənc mühəndisi*): Möhtərəm cənab Prezident, koronavirus pandemiyasının yayıldığı bir zamanda açılışa gəlməyiniz Ali Baş Komandan kimi, biz energetiklərə, Sizin əsgərlərinizə stimul verməklə yanaşı, həmçinin məsuliyyətimizi daha da artırır. Bundan əlavə, Sizin tapşırığınızla 2018-ci ildə energetiklərin balansına geri qaytarılmış bu binanın yenidən qurularaq, tam istifadəyə verilməsi olduqca əlamətdar hadisədir. Çünki Azərbaycan energetiklərinin bugünkü zamana qə-

dər hazırkı şəraitdə ən yüksək müasir texnoloji avadanlıqlarla təchiz edilmiş dispetçer idarəetmə sistemi, laboratoriya, təlim-tədris və mədəniyyət mərkəzlərindən ibarət kompleksi olmayıb. Bütün bunlar bu sahədə çalışan, fəaliyyət göstərən peşəkar mütəxəssislərlə, energetiklərlə yanaşı, həmçinin biz gənc mütəxəssislərə də verilən böyük töhfə və stimuldur.

Sizi əmin edirik ki, yaradılmış bu imkanlardan tam səmərəli istifadə etməklə, elmi-texniki potensialı kadr potensialına çevirməyə çalışacağıq. Bütün bunlara və pandemiyanın geniş yayıldığı bu günlərdə biz də daxil olmaqla, ölkənin bütün vətəndaşlarına göstərdiyiniz diqqət və qayğıya görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlığımızı bildiririk.

**İlham Əliyev:** Çox sağ olun.

**Muxtar Mahmudov** (*«Azərenerji» ASC-nin Texniki istehsalat idarəsinin gənc mühəndisi*): Hörmətli cənab Prezident, Sizin elektroenergetika strategiyanıza uyğun olaraq, həyata keçirilən islahat, inkişaf və tərəqqi mərhələləri bu gün də uğurla davam etdirilir. Baxmayaraq ki, karantin vəziyyətidir, «Azərenerji» ASC həyati əhəmiyyətli dövlət müəssisəsi kimi, 24 saat fasiləsiz fəaliyyət göstərir, bu çətin günlərdə qabaqlayıcı tədbirlərin icrası ilə öz işini görür. Biz insanlara «Evdə qal» deyiriksə, onları fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təmin etmək borcumuzdur. Sizin enerji strategiyanız sayəsində enerji sistemində yenidənqurma, təmir-bərpa işləri uğurla davam etdirilir.

Möhtərəm cənab Prezident, xüsusi diqqət və qayğı göstərərək, gəlişinizlə biz energetiklərə böyük ruh, fərəh verdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildirir və söz veririk ki, istehlakçıların fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təchizatı daim təmin ediləcək, evlərimizdə gur işıqlar yanacaqdır.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Təşəkkür edirəm. Bir daha sizi təbrik edirəm. Sağ olun.

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ TELEFONLA GÖRÜŞ

*20 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə aprelin 20-də İran İslam Respublikasının Prezidenti Həsən Ruhani telefonla zəng etmişdir.*

*Prezident İlham Əliyev və Prezident Həsən Ruhani Ramazan ayının gəlişi münasibətilə bir-birilərini təbrik edərək, ən xoş arzularını xalqlarımıza çatdırmağı xahiş etdilər.*

*Dövlət başçıları ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini bildirdilər.*

*Söhbət zamanı koronavirus pandemiyası ilə mübarizə sahəsində ölkələrimizdə həyata keçirilən tədbirlər və görüləcək işlərlə bağlı məsələlər müzakirə edildi. Eyni zamanda, pandemiya dövründə ölkələrimiz arasında tranzit-nəqliyyat sahəsində əməkdaşlıqdan, eləcə də yükdaşımaları, o cümlədən Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə daşımaların davam etdirilməsindən məmnunluq ifadə edildi, bu istiqamətlərdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ İLİR META İLƏ TELEFONLA GÖRÜŞ

*22 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə aprelin 22-də Albaniya Respublikasının Prezidenti İlir Meta telefonla zəng etmişdir.*

*Söhbət zamanı Azərbaycan ilə Albaniya arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Dövlət başçıları Trans–Adriatik qaz boru kəməri layihəsinin uğurla reallaşdırıldığını bildirərək, bunun həm ölkələrimiz arasında əlaqələrin, həm də beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyini vurğuladılar.*

*Telefon danışığı zamanı İlir Metanın Azərbaycana səfəri məmnunluqla xatırlandı, bu səfərin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmi qeyd edildi.*

*Prezident İlham Əliyev və Prezident İlir Meta koronavirus pandemiyasına qarşı mübarizə ilə bağlı məsələləri müzakirə etdilər.*

*Albaniya Prezidenti Azərbaycan Prezidentini ölkəsinə rəsmi səfərə dəvət etdi.*

*Dəvət minnətdarlıqla qəbul edildi.*

## ABŞERON RAYONU ƏRAZİSİNDƏ XIZI RAYONUNUN AĞDƏRƏ KƏNDİNDƏN SUMQAYIT ŞƏHƏRİNƏ ÇƏKİLMİŞ MAGİSTRAL QAZ KƏMƏRİNİN AÇILIŞI MƏRASİMİ

*24 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Abşeron rayonu ərazisində Xızı rayonunun Ağdərə kəndindən Sumqayıt şəhərinə çəkilmiş magistral qaz kəmərinin açılışında iştirak etmişdir.*

*SOCAR-ın prezidenti Rövnəq Abdullayev görülmüş işlər barədə dövlət başçısına məlumat verərək bildirdi ki, Sumqayıt şəhərinin əhalisi qazla Qaradağdan 12 düymlük 12 atmosfer təzyiqli xətlə təmin olunurdu. Həmçinin Sumqayıtın sənayesi üçün Qaradağ–Digah–«Şimal» DRES xəttindən 30 atmosferlik bir xətt çəkilmisdi. Bu xətt Sumqayıtın sənaye müəssisələrini və Karbamid zavodunu qazla təchiz edir.*

**R ö v n ə q A b d u l l a y e v:** Cənab Prezident, artan tələbat və «Şimal» DRES-də artım Sumqayıtın qazla təmin olunması üçün müəyyən problemlər yaradırdı. Sumqayıtda böyük sənaye klasterinin yaradılması üçün qaz imkanları məhdud idi, hətta qış vaxtlarında çatışmazlıq olurdu. Sizin göstərişinizlə 80 milyon manat vəsait ayrıldı və 60 kilometr-

lik yeni Ağdərə–Sumqayıt xətti çəkildi. Bu, imkan verdi ki, Sumqayıt–Abşeron klasterini dayanıqlı, yüksəktəzyiqli qazla təmin edək və hətta gələcəkdə Sumqayıtın inkişafı üçün də böyük imkanlar yaranacaqdır.

Cənab Prezident, bu xətt çəkiləndə biz perspektivdə Yaşma Elektrik Stansiyası və metallurgiya kompleksi üçün də ayrılmalar qoymuşuq. Bu, imkan verəcək ki, inkişaf perspektivi təmin olunsun. Cənab Prezident, tikinti işlərinə keçən ilin üçüncü kvartalında başlanıldı və Sizin göstərişinizlə vaxtından 2 dəfə tez – 6 ay müddətində başa çatdırıldı. Artıq deyə bilərik ki, Sumqayıt dairəvi qazla təmin olunur.

*Sonra Prezident İlham Əliyev magistral qaz kəmərinin açılışını etdi və Sumqayıt şəhər ictimaiyyətinin bir qrup nümayəndəsi ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Bu gün Sumqayıt şəhərinin dayanıqlı qaz təchizatı işində çox əlamətdar bir gündür. Biz Sumqayıt şəhərinə yeni alternativ qaz xəttinin çəkilişini qeyd edirik. Bu münasibətlə bütün sumqayıtlıları təbrik etmək istəyirəm. Çünki bu, şəhəri dayanıqlı qazla təmin etmək üçün imkanlar yaradır və eyni zamanda, şəhərin gələcək potensialını da nəzərə alır. Bu vaxta qədər Sumqayıt bir xətt üzərində qazla təmin edilirdi. Əlbəttə, Sumqayıtda son illərdə yaradılmış sənaye müəssisələri, sənaye klasterləri əlavə həcm

tələb edirdi. Bunu nəzərə alaraq, yeni qaz kəmərinin tikintisi zəruri idi. Qaz kəmərinin uzunluğu 60 kilometrdir. Bu, böyük bir inşaat layihəsi idi. Qısa müddət ərzində bu kəmər istifadəyə verilir və bu gün artıq fəaliyyətə başlayır.

Bu, birinci növbədə, əhalini təbii qazla təmin etmək işində önəmli addımdır. Sumqayıtda qazlaşdırılmanın səviyyəsi 100 faizdir. Əlbəttə ki, şəhərin bir xətt üzərində qidalanması müəyyən problemlər yarada bilərdi, qəza nəticəsində müəyyən problemlər yarana bilərdi. İndi isə bu ikinci xətt həm artan tələbatı ödəyəcək, həm də ikinci sığorta layihəsi kimi, sumqayıtlıları təmin edəcəkdir.

O ki qaldı şəhərin sənaye potensialına, son illərdə Sumqayıt sənaye baxımından çox uğurla inkişaf edir. Burada bir çox önəmli layihələr icra edilibdir. Sumqayıt Texnologiyalar Parkı uzun illərdir ki, fəaliyyət göstərir. Burada 10-dan çox zavod fəaliyyət göstərir. Ondan sonra Sumqayıt Kimya Sənaye Parkı yaradılıbdır. Yüzlərlə hektar torpağı əhatə edən bu böyük ərazidə bütün infrastruktur layihələri, təmizləmə işləri dövlət xətti ilə aparılıb və sonra dövlət və özəl sektor orada investisiya qoymağa başlayıbdır. Hazırda Sumqayıt Kimya Sənaye Parkında bir neçə müəssisənin tikintisi davam etdirilir. Onların arasında Əyirici-Boya fabrikinin tikintisini xüsusi qeyd etməliyəm. Çünki bu bizim xalçaçılıq sənayemizin inkişafı üçün çox önəmli layihədir. Eyni zamanda, Şüşə zavodu da inşa edilir. Biz şüşələri xaricdən idxal edirik və bu zavod işə düşəndən sonra artıq idxaldan asılılığı aradan götürəcəyik.

Sumqayıtda Azərbaycan sənayesinin flaqmanları sayılan iki nəhəng sənaye müəssisəsi inşa edilib – Polimer və Karbamid zavodları. Bu müəssisələr həm daxili tələbatı tam ödəyəcək, həm də eyni zamanda, böyük ixrac imkanları yaradıbdır. Bu ixracın əhəmiyyəti ondadır ki, bu, qeyri-neft ixracıdır. Bizim də əsas məqsədimiz qeyri-neft sənayesini inkişaf etdirmək və qeyri-neft ixracını artırmaqdır. Bildirməliyəm ki, indi dünyada böhranlı vəziyyətdir, demək olar, ölkələr arasındakı iqtisadi əlaqələr müəyyən dərəcədə zədələnib və iqtisadi fəallıq bütün dünyada aşağı düşübdür. Buna baxmayaraq, üç ayda Azərbaycanda qeyri-neft sənaye sahəsində artım 23 faizdir. Bunun böyük hissəsi yeni yaradılmış sənaye müəssisələrinin hesabınadır. Beləliklə, biz bu müəssisələri yaratmaqla həm daxili tələbatı ödəyirik, idxaldan asılılığı aradan götürürük, həm də vətəndaşları işlə təmin edirik. Artıq Sumqayıtda minlərlə yeni iş yeri yaradılıbdır. Son illər ərzində Sumqayıtda bütün sənaye və infrastruktur obyektlərinin açılışlarında mən şəxsən iştirak etmişəm. Son 16 il ərzində bəlkə də 30 dəfəyə yaxın Sumqayıtda olmuşam, şəhərin inkişafı ilə bağlı şəxsən maraqlanıram və bütün məsələləri nəzarətdə saxlayıram.

Bu gün Sumqayıt nəinki Azərbaycanın, hətta Cənubi Qafqazın ikinci böyük, müasir sənaye şəhəridir. Vaxtilə Sumqayıt yaradılanda Sovet İttifaqının kimya sənayesinin mərkəzi kimi nəzərdə tuturdu və bu funksiyanı yerinə yetirirdi. Sumqayıtlılar yaxşı bilir ki, burada ekoloji vəziyyətə çox böyük zərbə vurulmuşdu. Sumqayıt ekoloji fəlakət

zonası idi və Sovet İttifaqı məkanında bəlkə də ekoloji baxımdan ən çirklənmiş şəhərlərdən biri idi. Bu gün isə Sumqayıt Azərbaycanın ekoloji baxımdan ən təmiz şəhərlərindən biridir. Çünki burada yaradılmış bütün yeni müəssisələr ekoloji normalara tam cavab verir. Köhnə müəssisələr bağlanılıb, onların əraziləri yeni sənaye parklarının sərəncamına verilibdir. Bu gün Sumqayıtda təmiz hava artıq adi hala çevrilib. Halbuki Sumqayıtda yaşayan insanlar, xüsusilə yaşlı nəsil yaxşı xatırlayır ki, burada ekoloji vəziyyət çox ağır idi. Sumqayıtın yanından maşınla keçənlər də pəncərəni bağlayırdılar ki, o iylər onlara təsir etməsin. Biz şəhərin inkişafına kompleks şəkildə yanaşırıq və sənaye potensialının artırılması bundan sonra da davam edəcəkdir. Ona görə ikinci qaz xəttinin istifadəyə verilməsi həm bu günün tələbatını ödəyir, həm də bundan sonra inşa ediləcək, yaradılacaq müəssisələrin potensialını nəzərdə tutur.

Bizim planlarımız böyükdür. Sumqayıt inkişaf edir, əhali artır, sənaye potensialı möhkəmlənir. Sumqayıt doğrudan da bu bölgənin, regionun çox müasir sənaye şəhərlərindən biridir. Eyni zamanda, əlbəttə, şəhərin infrastrukturu yenilənir, şəhər abadlaşır, insanlar üçün gözəl imkanlar yaradılır. Təkcə Sumqayıt bulvarını qeyd etmək kifayətdir, qısa müddət ərzində gözəl bir istirahət zonası yaradılıbdır. Bu gün Sumqayıt parklar, bağlar şəhəridir. Eyni zamanda, burada məskunlaşmış köçkünlər üçün də yeni layihələr icra edilir. Hazırda burada – yaxınlıqda məcburi köçkünlər üçün yeni şəhərcik

salınır və orada 3000-dən çox köçkün ailəsi yerləşdiriləcəkdir. Beləliklə, Sumqayıt şəhərinin köçkün problemi yüksək dərəcədə öz həllini tapacaq. Bu gün hələ də ağır vəziyyətdə yaşayan köçkünlər bilməlidirlər ki, növbə onlara da çatacaq. Hər bir köçkünü yerləşdirəcəyik, onlar üçün ən müasir şərait yaradılır. İndi dünya iqtisadiyyatı böhran içindədir, Azərbaycan iqtisadiyyatına da bu, mənfi təsir göstərir. Neftin qiyməti 3 dəfə aşağı düşüb. Amma mən demişəm, bir daha demək istəyirəm və bütün vətəndaşlar bunu bilsinlər ki, biz heç bir sosial layihəni dayandırmayacağıq, heç bir sosial proqramı ixtisar etməyəcəyik. Azərbaycan sosial dövlətdir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Bu gün koronavirus dövründə bizim əsas amalımız Azərbaycan xalqını bu bəladan qorumaqdır. Bizim qəbul etdiyimiz qərarlar, atdığımız addımlar həm ölkə əhalisi tərəfindən yüksək qiymətləndirilir – mənə minlərlə təşəkkür məktubları gəlir – həm də beynəlxalq təşkilatlar Azərbaycanı bu sahədə nümunəvi ölkə kimi göstərir. Ümumdünya Səhiyyə Təşkilatı bizim gördüyümüz işləri təqdir edir və açıq bəyan edir ki, Azərbaycan nümunəvi ölkədir. Biz dünya miqyasında birinci ölkə olmuşuq ki, koronavirusla mübarizə ilə əlaqədar tərəfdaş ölkələrlə Zirvə görüşü keçirdik. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans şəklində Zirvə görüşü bizim təşəbbüsümüzlə keçirilmişdir. Koronavirusla mübarizədə Azərbaycan xalqı bir daha gördü ki, sözümüzlə əməlimiz arasında fərq yoxdur. Və-

təndaşların sağlamlığı, onların həyatı birinci dərəcəli məsələdir.

Əlbəttə, bugünkü tədbirlər – bu gün mən köçkünlər üçün tikilmiş şəhərciyə də baş çəkəcəyəm – göstərir ki, bütün planlarımız yerindədir. Biz bu ili də planlaşdırdığımız kimi başa vuracağıq. Bütün aidiyyəti qurumlara göstərişlər verilib və bundan sonra xərclərimizi prioritet əsasında planlaşdıracağıq. Ancaq sosial məsələlərin həlli daim birinci yerdə olacaqdır.

Biz karantin rejimini nəzərə alaraq, bu günü Sumqayıt şəhərinin məhdud sayda nümayəndələri ilə qeyd edirik. Mən əminəm ki, biz şəhəri bundan sonra da birgə səylərlə inkişaf etdirəcəyik və daha da gözəl şərait yaradacağıq. Sizi və bütün sumqayıtlıları təbrik edirəm.

* * *

**Tərlan Hacızadə** (*Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Sumqayıt şəhər filialının sədri*): Möhtərəm Prezident, Sizi sumqayıtlılar adından salamlayır və «Xoş gəlmisiniz!» – deyirəm. Keçən il məhz Sizin sərəncamınızla Sumqayıtın şəhər statusu almasının 70 illiyi qeyd olundu. Bilirik ki, Sumqayıtın formalaşması və inkişafı məhz ulu öndərin adı və dühası ilə bağlıdır. Ulu öndərin Sumqayıta yanaşması hər zaman fərqli olub. Ulu öndər Sumqayıtı Azərbaycanın kiçik bir modeli adlandırırdı. Bu gün bizi həqiqətən də qürurlandıran hal odur ki, ulu öndərin Sumqayıta göstərdiyi diqqət və qayğı

məhz Sizin tərəfinizdən uğurla davam etdirilir. Vurğuladığınız kimi, Sumqayıta göstərdiyiniz xüsusi diqqət və qayğı nəticəsində Sumqayıt bu gün müasir və yeniliklərlə dolu bir məkana çevrilibdir. O yeniliklər ki, həqiqətən də dinamik artan inkişaf xətti üzrə gedir. Biz sumqayıtlılar təbii ki, bununla fəxr edirik.

Sumqayıt bu gün güllər, çiçəklər, vurğuladığınız kimi, gecələri işıqlı bir şəhərdir. Burada da keçən illər ərzində Sizin iştirakınızla, xeyir-duanızla bir çox sosial inzibati binalar, sənaye müəssisələri inşa olunub bizim ixtiyarımıza verilibdir. Bütün bunlarla yanaşı, sumqayıtlıların bir sıra problemləri də var idi. Bunların sırasında dam örtüklərini, lift məsələlərini, küçələrin asfalt örtüklərini xüsusi vurğulamaq olar. Amma məhz Sizin tövsiyə və tapşırığınızla bu gün Sumqayıtın bütün yaşayış binalarının üstü yenidən qurulub və lift, ümumiyyətlə, servis məsələsi ən yüksək səviyyədədir. Şəhərin ən əsas küçələri, məhəllədaxili bütün yollar, demək olar ki, yeni asfaltla örtülüb. Vurğuladığınız kimi, Sumqayıt çox gözəl atmosferi, çox gözəl şəraiti olan bir şəhərdir.

Cənab Prezident, Sumqayıtın təchizatı baxımından, şükür Allaha, işıq və su ilə bağlı, demək olar ki, heç bir ciddi problem yoxdur. Amma Sumqayıtın qaz təchizatında və xüsusən də qış aylarında qazın təzyiqinin aşağı düşməsində müəyyən qədər problemlər olur. Bu gün Sizin buradakı iştirakınız və xeyir-duanızla, inşAllah, Sumqayıtda qaz problemi də öz həllini tapacaq və təkcə Sumqayıt deyil,

ətrafında yerləşən sənaye müəssisələri də qazla təmin olunacaqdır.

Cənab Prezident, bu gün şəhərimizdə, sözün əsl mənasında, yeni və sağlam mühitin yaradılması nəticəsində potensial bir Sumqayıt ailəsi formalaşıbdır. Bu gün burada iştirak edən sumqayıtlılar, bizlər bu ailənin üzvü olaraq, Sizə dərin minnətdarlığımızı bildiririk.

Cənab Prezident, Azərbaycan xalqının qüruru onun Ali Baş Komandanının, onun Prezidentinin qətiyyəti və mətinliyindədir. Uca Allah qətiyyətli Prezidentimizi və qürurlu Azərbaycan xalqını qorusun! Sağ olun, cənab Prezident.

**İlham Əliyev:** Sumqayıt şəhərinin infrastruktur layihələrinin icrası, əlbəttə, böyük əhəmiyyət daşıyırdı. Mən bu yaxınlarda elektrik enerjisi ilə bağlı məsələlərə toxunarkən demişdim ki, son 16 il ərzində ölkəmizdə 30 elektrik stansiyası tikilib. Amma onu da bildirməliyəm ki, onlardan birincisi mənim göstərişimlə məhz Sumqayıtda tikilibdir. Özü də çox böyük stansiyadır – 525 meqavat gücündə. Çünki bu stansiya olmadan Sumqayıtın sənaye potensialı inkişaf edə bilməzdi. Məhz bu stansiyanın istifadəyə verilməsi ilə Sumqayıtın elektrik enerjisinə olan tələbatı və eyni zamanda, ondan sonra artan sənaye müəssisələrinin tələbatı ödənildi.

Su təminatına gəldikdə isə, Sumqayıt Şollar mənbəyindən qidalanır və bu problem də öz həllini tapıb. İndi yolların çəkilişi də nəzərdə tutulur. Bildiyiniz kimi, mənim göstərişimlə Bakı–Sumqayıt yolunun genişləndirilməsi layihəsi icra edilir. Çünki

mən demişəm, artıq Sumqayıt Bakı ilə elə bil ki, birləşib və bəziləri burada yaşasa da Bakıda işləyir və ya əksinə. Ona görə bu yollarda yaranmış tıxaclar, əlbəttə, ciddi tədbirlər tələb edirdi. İndi yolun genişləndirilməsi işləri gedir. Eyni zamanda, bildiyiniz kimi, biz 2 il bundan əvvəl Bakını, Bakı qəsəbələrini Sumqayıtla birləşdirən Bilgəh–Sumqayıt yolunun da açılışını qeyd etdik. İndi Sumqayıtdan Bakının qəsəbələrinə Bakı şəhərinə girmədən dəniz sahili yolu ilə çatmaq mümkündür. Bütün bu infrastruktur layihələrinin icrası zəruri idi. Bunlar olmadan heç bir inkişafdan söhbət gedə bilməzdi.

Təbii qaz bizim enerji sistemimizin əsas mənbəyidir. Çünki bizim elektrik stansiyalarımızın mütləq əksəriyyəti qazla işləyir. Su-elektrik stansiyalarının həcmini artırmaq istəyirik. Alternativ mənbələrdən də istifadə etmək istəyirik. Amma hələlik təbii qaz uzun illər bundan sonra da bizim əsas enerji mənbəyimiz olacaqdır. Bu gün ölkəmizdə reallaşan böyük qaz layihələri də bu məqsədi güdür. «Şahdəniz-2» layihəsinin işə düşməsi və gələn il «Abşeron» yatağından böyük həcmdə təbii qaz hasilatı bizim qaz potensialımızı bundan sonra da təmin edəcək. Çünki ölkəmizdə həm əhalinin sayı artır, həm də sənaye inkişaf edir. Ona görə bu inkişafa adekvat olan enerji mənbəyi olmalıdır. Bu gün müasir texnologiyalar bu sahədə də çox böyük dəyişikliklərə gətirib çıxarıbdır.

Eyni zamanda, şəhərin abadlaşdırılması sahəsində siz lift təsərrüfatını, dam örtüklərini qeyd etdiniz. Bilirsiniz ki, mənim sərəncamımla Prezidentin

ehtiyat fondundan müntəzəm olaraq bu məqsədlər üçün vəsait ayrılır və artıq dam örtüklərinin böyük hissəsi vurulubdur.

**Z a k i r  F ə r ə c o v** (*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı*): 1100 binanın dam örtüyü təmir olunub, 190-ı qalıb, o da bu il təmir olunacaq.

**İ l h a m  Ə l i y e v:** Cəmi 190 bina qalıb, onları da bu il başa çatdıracaqsınız. Lift təsərrüfatını da. Sonra icra hakimiyyətindən müraciət olunmuşdur ki, şəhər nəqliyyatı üçün avtobuslar alınsın, biz bunu da həll etdik. Kredit verildi, müasir avtobuslar gətirildi, indi hamısı işləyir. Beləliklə, insanları narahat edə biləcək bütün əsas məsələləri biz kompleks şəkildə təhlil edərək, öz addımlarımızı atdıq və deyə bilərəm ki, bütün hədəflərə çatmışıq. Amma həyat yerində durmur, biz Sumqayıtı daha müasir şəhərə çevirməliyik və əminəm ki, buna nail olacağıq.

**T ə r a n ə  R ə c ə b l i** (*Sumqayıt şəhər 1 saylı Doğum evinin baş həkimi*): Cənab Prezident, mən də öz növbəmdə, Sizi salamlayıram və qeyd etmək istəyirəm ki, Sizinlə görüşdən böyük sevinc hissi duyuram. Sizin hər səfərinizdə bizim gündən-günə gözəlləşən Sumqayıt şəhəri daha da böyük inkişaf yoluna addım atır və problemləri həll olunur. Cənab Prezident, Sizin yürütdüyünüz siyasətin mərkəzində, hədəfində xalqımız, xalqımızın rifahı, sağlamlığı və əminliyi durur. Biz illərdir bunun şahidiyik. Son aylarda dünyada tüğyan edən COVID-19 qlobal pandemiyası, əlbəttə ki, Azərbaycandan da yan keçmədi. Bu dövrdə Sizin atdığınız addımlar, verdiyiniz qərarlar bizə bir xalq kimi, bu dövrü çox sa-

bit və rahat keçirməyə imkan verdi. Bu dövrdə xalqımız az itkilər verdi. Buna görə mən Sizə bir vətəndaş kimi, bir ana kimi, bir həkim kimi, təşəkkür edirəm.

Cənab Prezident, artıq bəzi ölkələr bizim təcrübəmizdən bəhrələnirlər. Ümumdünya Səhiyyə Təşkilatının, beynəlxalq təskilatların Sizə təşəkkür etməsi bir vətəndaş kimi, məndə böyük fərəh hissi yaradır. Sizin məhz iqtisadi sabitliyi deyil, əhalinin sağlamlığını üstün tutmağınız çox təqdirəlayiqdir. Siz hər zaman sumqayıtlılara xüsusi diqqət yetirmisiniz, daim yanımızda olmusunuz. Biz bunu hiss etmişik. Sumqayıtın 70 illik yubileyi ərəfəsində Sizin Sumqayıta gəlişiniz və Sumqayıt sakinlərini bu yubiley ərəfəsində medallarla, ordenlərlə təltif etməyiniz biz sumqayıtlıların hədsiz sevincinə səbəb oldu. Fürsətdən istifadə edərək, o vaxt mənə də «Əməkdar həkim» adı verdiyinizə görə Sizə təşəkkür edirəm.

Cənab Prezident, mən Sizi əmin etmək istəyirəm ki, biz Sizin etimadınızı doğruldacağıq. Sizin rəhbərliyinizlə ölkəmiz, dövlətimiz daha böyük inkişaf yolu keçəcək. Bu pandemiya dövründə Sizin verdiyiniz qərarlarla qısa müddətdə laboratoriyaların açılması, modul tipli xəstəxanaların tikilməsi və yüksək standartlara uyğun «Yeni klinika»nın açılıb COVID-19 xəstələrinin öhdəsinə verilməsi infeksiya ilə bizim mübarizəni gücləndirdi. Sizin və Mehriban xanımın həkimlərin yanında olmağınız, bizim sosial rifahımız üçün verdiyiniz qərarlar, əlbəttə ki, nəinki bizim, bütün sakinlərin, aztəminatlı ailələrin, yaşlı nəslin yanında olmağınız bizi bir daha inandırır ki,

xalq–hakimiyyət birliyi güclüdür və bu birlik bizi daha gözəl, işıqlı sabahlara çıxaracaq.

Cənab Prezident, Allah Sizi qorusun! Sizə və ailənizə ulu Tanrıdan cansağlığı, uzun və xoşbəxt ömür arzu edirik. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Xahiş edirəm, mənim salamlarımı Sumqayıt həkimlərinə çatdırasınız. Mən artıq dəfələrlə demişəm ki, həkimlərin fədakarlığı qürur hissi doğurur. Bütün Azərbaycan xalqı bir daha gördü ki, bizim həkimlərimiz öz həyatlarını, öz sağlamlıqlarını risk altına ataraq, xəstələrin yanındadırlar, gecə-gündüz, fasiləsiz xəstələrə qulluq edirlər. Mən demişəm, o geyimdə hətta hərəkət etmək çətindir. Onlar isə ayaqüstə, gecə-gündüz xəstələrin yanındadırlar. Xəstələrin sağalmasında həkimlərin çox böyük rolu vardır. Əlbəttə, görülmüş bütün tədbirlər və sizin də qeyd etdiyiniz kimi, müasir klinikaların koronavirus xəstələrinin sərəncamına verilməsi, düzgün təşkilati işlərin qurulması və qabaqlayıcı tədbirlər bizi, demək olar, bu böyük bəladan qorudu.

Düzdür, itkilər də var, ancaq itkilər daha çox ola bilərdi. İndi həyat göstərir ki, bütün qabaqlayıcı tədbirlərin görülməsi düzgün addım idi.

Əlbəttə, mən həkimlərin fəaliyyətini bir daha qeyd etmək istəyirəm. Bildiyiniz kimi, bir neçə şüar əhali arasında çox təqdir edilir: «Biz birlikdə güclüyük!» və «Azərbaycan həkimlərinə eşq olsun!». Biz ölkəmizin müasir rəmzlərindən biri olan «Alov qülləri»ndə də bütün həkimlərimizi alqışlamışıq. Bir məsələyə də toxunmaq istəyirəm. Bəzi hallarda

Azərbaycan səhiyyə sisteminə müəyyən tənqidi yanaşmalar da müşahidə olunurdu. Hətta deyirdilər ki, xəstələr xaricə üz tutur, xaricdə müalicə almaq istəyirlər. Mən demişəm, indi bir çox ölkələrdə imkanlı adamlar dünyanın ən inkişaf etmiş ölkələrinin xəstəxanalarına müraciət etmək istəyirlər. Ancaq bu gün nəyi görürük? Onu görürük ki, səhiyyə xidməti, tibb xidməti baxımından biz heç kimdən geri deyilik. Bu gün inkişaf etmiş ölkələrin səhiyyə sistemləri böhran içindədir, xəstələrə qulluq edə bilmirlər. COVID-19 xəstəliyinə düçar olmuş, amma vəziyyəti ağır olmayan insanlara nəinki tövsiyə edilir, hətta göstəriş verilir ki, evdə otur. Onları xəstəxanalara götürmürlər, ən inkişaf etmiş ölkələrin xəstəxanalarında xəstələri dəhlizlərdə yerə uzadırlar. Ən inkişaf etmiş ölkələrdə artıq neçə gündür ki, yüzlərlə insan vəfat edir, yüzlərlə. Özü də elə ölkələr var ki, o ölkələrin əhalisi Azərbaycanın əhalisi ilə, demək olar ki, təxminən eynidir. Yüzlərlə – 200, 300, 400 insanın vəfat etməsi onu göstərir ki, o ölkələrin səhiyyə sistemi buna hazır deyil, bu yükü götürə bilmədi və faktiki olaraq çökdü.

Bu gün koronavirusla bağlı əsas problem odur ki, xəstəliyin geniş yayılması o ölkələrin mövcud olan səhiyyə potensialından daha genişhəcmlidir. Ona görə bizim əsas vəzifəmiz ondan ibarət idi ki, xəstəliyin geniş yayılmasına imkan verməyək. Biz bilirdik ki, bu xəstəlik bizə xaricdən gəlib. Artıq daxildə yoluxma prosesi başlayanda anladıq ki, bu yoluxma prosesinin qabağını almaq tam mümkün olmayacaq. Amma məhdudlaşdırmaq, xəstələnmə

zəncirini qırmaq, vaxt udmaq, bu vaxtdan istifadə edərək, bütün tibb sahəsini təşkilatlandırmaq, maska, dezinfeksiya vasitələri müəssisələrini işə salmaq üçün bizə vaxt lazım idi. Eyni zamanda, mənim göstərişimlə bizim ən qabaqcıl xəstəxanalarımızda koronavirus xəstələri yerləşdirildi, o cümlədən «Yeni klinika»da, Azərbaycan Tibb Universitetinin iki klinikasında və bu gün xəstələr 20-dən çox klinikada müalicə alırlar. Artıq bir həftədir ki, biz müsbət dinamikanı görürük. Nədədir bu dinamika? Yəni yoluxanların sayı sağalanların sayından azdır. Əsas budur. Artıq bu məhdudlaşdırıcı tədbirlərin nəticəsini biz görürük. Geniş sosial paket təqdim olundu. Birinci mərhələdə hesab edirdik ki, biz 1 milyard manatla işləri tənzimləyə bilərik. Gördük ki, azdır. Onu qaldırdıq 2,5 milyard manata. İndi isə bütün proqramları, o cümlədən vergi və digər güzəştləri nəzərə alaraq, bu, artıq 3,5 milyarddan böyük rəqəmə çıxır və nə qədər lazımdır biz bunu edəcəyik. Çünki insanların günahı yoxdur. Bəziləri qeyri-formal işləyirdi. Halbuki mən dəfələrlə demişəm ki, öz işinizi sənədləşdirin. Amma onlar işləyirdi, evə pul gətirirdi. İndi onlar da işsiz qalıb. Ona görə bizim qəbul etdiyimiz qərarlar heç bir əmək müqaviləsi olmayan insanları da nəzərə alır. Çünki biz başa düşürük ki, onlar öz işlərindən məhrum olublar. İndi dinamika müsbət istiqamətdə gedir. Əlbəttə, növbəti qərarların qəbul edilməsində biz mütəxəssislərin rəyinə əsaslanacağıq. Çünki burada özbaşınalığa yol vermək olmaz, hansısa bir ayrı qərara getmək olmaz. Gərək mütəxəs-

sislər desinlər ki, bu məhdudlaşdırıcı tədbirləri biz nə vaxt müəyyən dərəcədə yumşalda bilərik. Bu bir həftənin təcrübəsi göstərir ki, o gün uzaqda deyil. Müəyyən addımlar ola bilsin ki, mayın 4-nə qədər də atıla bilər. Çünki bilirsiniz, karantin rejiminin müddəti mayın 4-nə qədər uzadıldı. İndi baxarıq, əgər imkan olarsa, artıq müəyyən yumşaltma addımları atılacaq. Ancaq yenə də daim monitorinq aparılacaq. Əgər bu yumşaltmadan sonra görsək ki, vəziyyət mənfi istiqamətə gedir, məcbur olub yenə də sərtləşdirəcəyik. Ona görə bir daha demək istəyirəm ki, əsas məsələ vətəndaşların sağlamlığıdır, onların həyatıdır. Hər kəs üçün çətindir. İndi biz bu vəziyyətlə üzləşərkən hesab edirəm ki, ən düzgün yolu seçmişik. Xalqımız ən yüksək xüsusiyyətlərini göstərir – həmrəylik, birlik. Mən demişəm ki, buna məsuliyyət də əlavə olunmalıdır. İlk günlərdən fərqli olaraq, məsuliyyət də, nizam-intizam da artıb. Bu vəziyyətdə insanların sağlamlığını qoruyan həkimlər və karantin rejiminə nəzarət edən polis işçiləri ən yüksək qiymətə layiqdirlər. Mən heç şübhə etmirəm ki, biz bu vəziyyətdən az itkilərlə çıxacağıq, inşAllah. Sağ olun.

* * *

*Dünyada koronavirus pandemiyasının bir çox ölkələrin iqtisadiyyatına ciddi ziyan vurması, neftin qiymətinin kəskin aşağı düşməsi fonunda Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sosial layihələr uğurla və ardıcıl şəkildə davam etdirilir. Bu fakt bir daha sübut edir ki, Azərbaycanda hə-*

*yata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, əhalinin sosial məsələlərinin həlli, sosial infrastrukturun daha da müasirləşdirilməsi dayanır. İndiyədək bu istiqamətdə icra olunmuş layihələr arasında ölkə ərazisinin qazlaşdırılması, əhalinin «mavi yanacağ»a tələbatının ödənilməsi məqsədilə həyata keçirilən işlərin də xüsusi yeri vardır. Onu da deyək ki, bu layihənin nəticəsində təbii qaz Yaşma və Sumqayıt Elektrik stansiyalarına, həmçinin SOCAR-ın Karbamid zavoduna və yeni Metallurgiya Kompleksinə nəql ediləcək. Bu kəmərin istifadəyə verilməsi yalnız Sumqayıt–Yaşma iqtisadi regionu üçün deyil, həm də iki lokal nəql sistemini birləşdirməklə, Bakı şəhərinin etibarlı qaz təchizatı üçün alternativ bir sistemə çevrilməsinə imkan verir. Qeyd edək ki, layihənin icrası zamanı istifadə olunmuş borular da yerli istehsaldır.*

## SUMQAYIT ŞƏHƏRİNDƏ YATAQXANALARDA MÜVƏQQƏTİ MƏSKUNLAŞMIŞ 3042 MƏCBURİ KÖÇKÜN AİLƏSİ ÜÇÜN ABŞERON RAYONU ƏRAZİSİNDƏ YAŞAYIŞ BİNALARINDAN İBARƏT MƏHƏLLƏLƏRDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*24 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Sumqayıt şəhərində yataqxanalarda müvəqqəti məskunlaşmış 3042 məcburi köçkün ailəsi üçün Abşeron rayonu ərazisində yaşayış binalarından ibarət məhəllələrdə tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

**Rövşən Rzayev** (*Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri*): Möhtərəm cənab Prezident, bura Sizin tapşırıqlarınıza əsasən, Neft Fondundan ayrılmış vəsait hesabına Abşeron rayonunun ərazisində 1890 ailə üçün nəzərdə tutulmuş tikinti sahəsidir. Hazırda burada iki qəsəbə salınır. Qəsəbələrdən biri 1890 ailə, digəri isə 1152 ailə üçün nəzərdə tutulur. Birinci qəsəbəmizdə 1512 şagird-yerlik məktəbimiz, 280 yerlik uşaq bağçamız, klub icma mərkəzimiz var və musiqi məktəbi tikilir. Digər qəsəbədə doqquzmərtəbəli 29 yaşayış binası tikilir. Bu qəsəbədə isə 35 yaşayış binası nəzərdə tutulub, hazırda tikintisi davam et-

dirilir. Cari ilin yanvar ayının 15-dən tikintisinə başlanılıb, 2200 işçi qüvvəsi cəlb olunub, müasir texnikadan istifadə edilir. Tikinti şərtləri nəzərə alınmaqla, işimizi sürətlə davam etdiririk və nəzərdə tutmuşuq ki, noyabr ayının sonlarına bu qəsəbə tam hazır olacaqdır.

**İ l h a m Ə l i y e v:** Hər iki layihə?

**R ö v ş ə n R z a y e v:** Bəli, hər iki layihə, elə nəzərdə tutulub. Hazırda da işlərimiz sürətlə gedir.

**İ l h a m Ə l i y e v:** Yəni, ümumiyyətlə, 3000-dən çox ailə burada yerləşəcək.

**R ö v ş ə n R z a y e v:** Bəli, 3042 ailə burada məskunlaşacaqdır. Əsasən Sumqayıt şəhərindən köçürüləcək məcburi köçkünlər. Sumqayıt şəhərində 13 mindən çox ailə məskunlaşıbdır. Hörmətli Birinci vitse-prezident Mehriban xanımın tapşırığına əsasən, Sumqayıt şəhəri üçün «Yol Xəritəsi» hazırlanıbdır. Sumqayıt şəhərində inzibati binalarda çətin vəziyyətdə məskunlaşan köçkünlərimizin sayı 3000-dən bir az çoxdur. Onları və Abşeron rayonunda inzibati binalarda çətin vəziyyətdə yaşayan 1500-dən çox ailəni burada məskunlaşdıracağıq.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı, ilk növbədə, ən ağır vəziyyətdə yaşayan insanları yerləşdirin, onların böyük hissəsi burada yerləşdiriləcək. Ondan sonra bu layihələr davam etdiriləcək.

**R ö v ş ə n R z a y e v:** Möhtərəm cənab Prezident, Sizin tapşırıqlarınıza əsasən, burada Komitə üçün 50 hektar ərazi ayrılıbdır. Onun 17 hektarından istifadə olunubdur. İlk qəsəbəmizdə 1001 ailə yaşayır. Siz 2018-ci ilin dekabrında bu qəsəbənin açılışı-

nı etmisiniz. Hazırda ikinci və üçüncü qəsəbələrimiz tikilir, daha 12 hektar ərazimiz qalır. Orada da layihəyə uyğun olaraq, 1008 ailə yerləşdirə biləcəyik. Sizin tapşırıqlarınıza uyğun olaraq, layihə tamamilə dəyişdirilib, nəzərdə tutulmuş 2500 ailə əvəzinə hazırda burada 5000-ə yaxın ailə məskunlaşdırılacaqdır.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı, bu əraziləri gərək elə planlaşdıraq ki, maksimum səmərə ilə binalar tikilsin, həm mərtəbə səviyyəsi, həm ictimai zonaların həcmi şəhərsalma qaydalarına uyğun olmalıdır. Hər bir qəsəbədə məktəb, uşaq bağçası, tibb məntəqəsi, alış-veriş yerləri olmalıdır. Bu vaxta qədər bu qəsəbə tikilibdir.

**R ö v ş ə n R z a y e v:** Bəli, burada 1001 ailə yaşayır, binalar 7 mərtəbədən ibarətdir, qəsəbə 17 hektarda salınıbdır. Amma Sizin tapşırıqlarınızdan sonra layihəyə yenidən baxıldı və artıq yeni qəsəbələrdə doqquzmərtəbəli binalar tikilir.

**İ l h a m Ə l i y e v:** Ümumiyyətlə, bu qəsəbələrdə əvvəlki dövrdə tikilmiş binaları da nəzərə alsaq təqribən 4000-dən çox ailə məskunlaşacaq. Göstəriş vermişəm ki, bütün kommunikasiyalar da təmin edilsin – qaz, işıq, yol, su təminatı – bütün şərait.

**R ö v ş ə n R z a y e v:** Yaşıllıq salınır.

**İ l h a m Ə l i y e v:** Yaşıllıq, həmçinin ictimai zonalar. Çox yaxşı, gələn ilə də planlaşdırın, hələ ki, Sumqayıt şəhərində və Abşeron rayonunda məcburi köçkünlərin sayı çoxdur. Son illərdə biz onların xeyli hissəsini yerləşdirmişik. Ona görə burada bu tikinti layihələri davam etdirilməlidir. O cümlədən

Bakı şəhərində və digər yerlərdə. Bu bina məktəb üçündür?

**R ö v ş ə n R z a y e v:** Bəli, məktəbdir, 3 korpusdan ibarətdir.

**İ l h a m Ə l i y e v:** Hər iki qəsəbə üçün nəzərdə tutulub?

**R ö v ş ə n R z a y e v:** Bəli, hər iki qəsəbə üçün nəzərdə tutulubdur. Şagirdlər sayılıb, hamısı yerləşəcəkdir. Bütün layihələr şəhərsalma qaydalarına uyğun hazırlanıbdır.

**İ l h a m Ə l i y e v:** Bu binalar neçə mərtəbəlidir?

**R ö v ş ə n R z a y e v:** Yeddimərtəbəlidir. İndi isə doqquzmərtəbəli binalar tikilir.

**İ l h a m Ə l i y e v:** Gələcəkdə 12 mərtəbəli binalar da tikilə bilər ki, daha çox insanları yerləşdirək.

**R ö v ş ə n R z a y e v:** Baş üstə. Binəqədi rayonunda bizə yer ayrılıbdır. Sizin tapşırığınızdan sonra biz orada 12 mərtəbəli binaların inşasını nəzərdə tuturuq.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı.

* * *

*İndiyədək Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət səviyyəsində məcburi köçkünlərin mənzil-məişət və sosial problemlərinin həlli istiqamətində çox mühüm layihələr icra olunub. Bu istiqamətdə dövlətin həyata keçirdiyi siyasətə Heydər Əliyev Fondu da böyük töhfələr verib. Bu günədək 62494 məcburi köçkün ailəsinin, ümumilikdə bu qəbildən olan 315 min*

*soydaşımızın mənzil-məişət şəraiti yaxşılaşdırılıb. 2020-ci ildə də bu işlərin davam etdirilməsi nəzərdə tutulur. Bütün bunlar onu göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə reallaşdırılan tədbirlər ardıcıl xarakter alıbdır.*

## FEYZAVƏR TURAN ALPSARIN VƏFATI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI

Azərbaycan ədəbi-ictimai fikrinin görkəmli nümayəndəsi, tanınmış maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin qızı Feyzavər Turan Alpsarın vəfat etməsi xəbərini dərin kədər hissi ilə qarşıladım.

Feyzavər Turan Alpsar böyük mütəfəkkirin ədəbi-elmi irsinin qorunub saxlanılmasında mühüm rol oynamışdır. O, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə «Dostluq» ordeni, «Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)» yubiley medalı ilə təltif edilmişdir.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 aprel 2020-ci il*

## LİTVA RESPUBLİKASININ PREZİDENTİ QİTANAS NAUSEDA İLƏ VİDEOBAĞLANTI FORMATINDA GÖRÜŞ

*27 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Litva tərəfinin təşəbbüsü ilə Litva Respublikasının Prezidenti Qitanas Nauseda ilə videobağlantı formatında görüşmüşdür.*

*Litva Prezidenti Qitanas Nauseda Ramazan ayı münasibətilə Azərbaycan Prezidentini təbrik etdi. Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi.*

*Dövlət başçıları ikitərəfli münasibətlərə toxunaraq, siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu, iqtisadi-ticarət əlaqələrinin də bu səviyyəyə qaldırılmasının önəmini qeyd etdilər və pandemiya başa çatdıqdan sonra hökumətlərarası birgə Komissiyanın iclasının keçirilməsinin vacibliyini bildirdilər.*

*Litva Prezidenti Qitanas Nauseda «Şərq Tərəfdaşlığı»na üzv ölkələrin bu ilin iyun ayında keçirilməsi nəzərdə tutulan Zirvə toplantısına hazırlıq dövründə «Şərq Tərəfdaşlığı» Proqramı və ümumilikdə Azərbaycan–Avropa İttifaqı əlaqələrinin vəziyyəti ilə bağlı Prezident İlham Əliyevdən fikirlərini bölüşməyi xahiş etdi.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan «Şərq Tərəfdaşlığı» Proqramında iştirak etməklə bərabər, Avropa İttifaqı ilə ikitərəfli əlaqələrin inkişafına önəm verir və bu təşkilatın doqquz ölkəsi ilə strateji tərəfdaşlıq münasibətlərinə dair sənədlər imzalamışdır. 2018-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında paraflanmış «Tərəfdaşlıq prioritetləri» sənədi siyasi, iqtisadi, ticari, enerji, nəqliyyat və digər sahələri əhatə edir.*

*Söhbət zamanı koronavirus pandemiyası ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparıldı. Litva Prezidenti Qitanas Nauseda pandemiyaya qarşı mübarizədə Azərbaycanın əhəmiyyətli uğurlar qazandığını bildirdi.*

*Prezident İlham Əliyev koronavirus pandemiyasının başlandığı ilk günlərdən Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx təmasda olduğunu və ölkəmizin pandemiya ilə mübarizədə beynəlxalq səyləri və əməkdaşlığı dəstəklədiyini vurğuladı.*

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİ İLƏ VİDEO-BAĞLANTI FORMATINDA GÖRÜŞ

*28 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə videokonfrans keçirmişdir.*

**İ l h a m  Ə l i y e v**: Cənab Prezident, xanımlar və cənablar, sabahınız xeyir!

**S u m a  Ç a k r a b a r t i:** Cənab Prezident, Sizi görməyimə çox şadam. Bu səhər Avropa Yenidənqurma və İnkişaf Bankının geniş tərkibli heyəti ilə Sizinlə görüşürük. Mənim müavinim Yurgen Riqterinki yəqin ki, xatırlayırsınız. O bu yaxınlarda Bakıda səfərdə olmuşdur. Burada siyasət üzrə vitse-prezident Pyer Helbron, bankçılıq üzrə vitse-prezident Alan Piyu da bizimlədir. Daha sonra Şərqi Avropa və Qafqaz üzrə icraçı direktor Matteo Patrone, Qafqaz üzrə regional direktor Katerina Hansen, Azərbaycan üzrə nümayəndəliyin rəhbəri İvana Duarte, siyasi məsələlər üzrə müşavir Aleksandr Pavlyuk, mənim ofisimdən Svetlana Pirkalo və nəhayət, Avropa Yenidənqurma və İnkişaf Bankında

ölkələr üzrə direktor, Sizin nümayəndəniz və bizim dostumuz Taşkın Temiz də buradadır.

Cənab Prezident, bizə vaxt ayırdığınıza görə təşəkkür edirəm. Bu, olduqca qeyri-adi bir görüş tərzidir. Biz Sizinlə istər Bakı, istərsə də Davosda dəfələrlə görüşmüşük. Biz qəribə və qeyri-adi bir dönəmdə yaşayırıq. Əvvəlcə Azərbaycandakı vəziyyət və həyata keçirilən tədbirlər haqqında Sizdən məlumat almaq istərdik. Daha sonra mən və heyətim bu böhrandan ən qısa zamanda çıxmaq üçün Azərbaycana hansı dəstəyin verilə biləcəyi ilə bağlı məlumat təqdim edəcəyik. Cənab Prezident, bizim fikrimizcə, Siz və hökumətiniz bu böhranın öhdəsindən əla gəlirsiniz. Qısa zamanda bir sıra təsirli tədbirlər həyata keçirilib ki, bununla bağlı Sizi təbrik edirəm. Vəziyyət və görülən tədbirlər haqqında Sizdən məlumat almaq istəyirik.

**İlham Əliyev:** Cənab Prezident, sizə və Avropa Yenidənqurma və İnkişaf Bankının yüksəkrütbəli nümayəndələrinə bu görüşə görə təşəkkür edirəm. Bu, Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanın yaxın və etibarlı tərəfdaşı olmasının göstəricisidir. Odur ki, çətin vaxtda siz belə təşəbbüslə çıxış etmisiniz. Bu bizə hazırda həyata keçirilən layihələrimizi nəzərdən keçirməyə, görüləcək işləri müzakirə etməyə və gələcək əməkdaşlığımızı planlaşdırmağa imkan verəcəkdir.

Virus məsələsinə gəldikdə, biz ilk gündən real vəziyyətə əsaslanan tədbirlər görməyə başladıq.

Vəziyyəti düzgün dəyərləndirmək və bu böhranla məşğul olmaq üçün səmərəli komandanın yaradıl-

ması çox vacib idi. Azərbaycana bu virus qonşuluqdan gəldi və bunun qarşısını almaq üçün biz müvafiq addımlar atdıq. Qonşu dövlətlərlə razılıq və birgə qərar əsasında sərhədlərimizi bağladıq. Hesab edirəm ki, biz bu qərarı vaxtında və digər ölkələrin bənzər qərarlarından tez verdik. Beləliklə, zaman qazanmış olduq.

Biz görürük ki, bu virusla mübarizədə ən vacib məsələ vaxtdır, çünki heç bir ölkənin səhiyyə sistemi bu qədər böyük sayda yoluxmuş insanların müalicəsinə hazır deyil. Bu səbəbdən vaxtın qazanılması, səhiyyə sistemimizin hazırlanması, mütəxəssis və həkimlərimizin səfərbər edilməsi və düzgün idarəçiliyin qurulması əsas hədəflərimiz oldu.

Daha sonra biz virusun ölkə ərazisində yayılmasının şahidi olduq və mart ayından etibarən məhdudlaşdırıcı tədbirlər həyata keçirməyə başladıq. Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə daimi təmasdayıq və bu təmaslar davam etdirilir. Biz vəziyyətin dəyərləndirilməsi üçün ölkəyə mütəxəssislərdən ibarət heyətin göndərilməsi ilə bağlı Ümumdünya Səhiyyə Təşkilatına müraciət etdik. Sonra onlar bəyanatla çıxış etdilər ki, Azərbaycan zəruri tədbirləri görür və müəyyən tövsiyələrini verdilər. Daha sonra Ümumdünya Səhiyyə Təşkilatı bəyanat yayaraq, Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunə kimi göstərdi.

Məhdudlaşdırıcı tədbirlərin tətbiqi qərarı asan olmadı. Biz anlayırdıq ki, insanlar üçün narahatlıq yaranacaq, iqtisadi inkişafımıza böyük zərbə dəyəcək, halbuki bu ilin göstəriciləri olduqca ümidverici

idi. Lakin bizim iki variantımız var idi. Birinci variant insanların həyatını və sağlamlığını qorumaq, ikinci variant isə iqtisadiyyatın xilas edilməsi prioriteti idi. Bu səbəbdən ilk gündən seçimimiz insanların həyatının qorunması oldu.

Gördüyümüz bütün işlərin məqsədi budur və bu istiqamətdə səylərimizi səfərbər etmişik. Biz 120 mindən artıq test həyata keçirmişik və aparılmış testlərin adambaşına düşən sayına görə aparıcı yerlərdəyik. Biz əlavə laboratoriyalar yaratmışıq və hazırda onların sayı 18-dir. Koronavirusa yoluxmuş pasiyentlər 22 dövlət xəstəxanasında, o cümlədən yeni istifadəyə verilmiş 575 çarpayılıq müasir xəstəxanada müalicə olunurlar. Hazırda karantin rejimində 2000-ə yaxın vətəndaşımız var və bu rəqəm aşağı düşməkdədir. Bu insanlar xaricdən gələnlər və onlarla təmasda olmuş şəxslərdir. Onlar 4-5 ulduzlu mehmanxanalarda yerləşdirilib və yüksək standartlara cavab verən şəraitlə təmin ediliblər. Vaxtaşırı sərtləşdirdiyimiz məhdudlaşdırıcı tədbirlərin müsbət nəticəsi olmuşdur və artıq iki həftədir ki, bizdə müsbət dinamika vardır. Sağalanların sayı yoluxanların sayından artıqdır. Ölüm faizinin nisbətən aşağı olması onu göstərir ki, işlər müsbət istiqamətdə aparılır. Dünəndən biz məhdudlasdırıcı tədbirləri yumşaltmağa başlamışıq.

İqtisadiyyatımıza təsirə gəldikdə isə, əlbəttə, təsir mənfi olacaqdır. İlin əvvəlində müsbət perspektivlərimiz var idi. Hələ də ilin ilk rübünə nəzər salsaq, artım 1 faizdir, qeyri-neft sektorunda artım 3 faiz təşkil edir, qeyri-enerji sahəsində isə artım 23 fa-

izdir. Koronavirus nəticəsində mənfi təsirə məruz qalmış özəl sektorun müvafiq sahələrinə ciddi dəstək paketi təqdim edilibdir. Xidmət və digər sahələrdə çalışan 600 min vətəndaşın və mikrosahibkarlıq subyektlərinin əmək haqlarının böyük hissəsi dövlət tərəfindən ödənilib. 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa minimal meyara uyğun olaraq, ödənişlər edilibdir.

Təbii ki, bu bizim üçün böyük xərcdir. Vergi güzəştləri də nəzərə alınsa, bu gün bu rəqəm 3,5 milyard manat və ya 2 milyard dollardan çoxdur. Bu bizim büdcəmiz üçün böyük yükdür, çünki neftin qiymətinin kəskin azalması bizim valyuta ehtiyatlarımıza mənfi təsir göstərəcəkdir. Ancaq bizim üçün bu dövr xərclərimizi artırmalı və yoxsul vətəndaşlarımıza və sahibkarlara yardım etməli olduğumuz dövrdür. Eyni zamanda, bu il biz ödənişli ictimai iş yerlərinin sayını da 2 dəfə artırmışıq. Burada minimal əməkhaqqı verilir və adətən, bu, dövlət sektoruna aid olan iş yerləridir. Bu il belə iş yerlərinin sayı 90 min olacaqdır. Biz sosial yardım alan vətəndaşların da sayını artırmışıq. Hər bir belə ailəyə ayda 222 manat ödənilir və onların sayı 80 minə çatıb. Bununla yanaşı, 12 min insan üçün – burada da 70 faiz artım var – özünüməşğulluq imkanları yaradılıbdır.

Beləliklə, bu, qeyd etdiyim mənfi təsirə məruz qalmış sahələrdə çalışan, habelə işlərini itirmiş vətəndaşlarımıza təqdim edilmiş iqtisadi və sosial paket haqqında məlumatdır. Burada mən çıxışımı da-

yandırmaq istərdim. Hər hansı fikir və ya suallarınız varsa buyurun.

**Suma Çakrabarti:** Təşəkkür edirəm, cənab Prezident. Qeyd etməliyəm ki, qəbul etdiyiniz qərarların və görülmüş tədbirlərin həcmi məndə dərin təəssürat yaratdı. Bununla bərabər, addımlarınız olduqca qətiyyətlidir və Siz çevik hərəkət edirsiniz. Sizin də qeyd etdiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı da bunu təqdir edir.

Sizinlə 2012-ci ildə baş tutmuş ilk söhbətimi xatırlayıram. Azərbaycanda yoxsulluğun rekord dərəcədə aşağı salınmasına nail olunduğunu qeyd etdik və bir çox insan bundan bəlkə də xəbərsizdir, ancaq bu, dünyada ən yüksək templərdən biri idi. Həmin nailiyyətlərin qorunub saxlanılması, yoxsulların müdafiəsi sahəsində gördüyünüz işlər xüsusilə qeyd edilməlidir. Sahibkarlara dəstək, ailələrə yardım – bunlar zənnimcə, qısa perspektivli deyil, orta perspektivli addımlardır.

Burada Mərkəzi Bankla 50 milyon dollar məbləğində «Swap» razılaşmasının başa çatdırılmasına görə dərin təşəkkürümü bildirirəm. Bu bizə özəl sektor müştərilərimizin yerli valyutada maliyyələşdirilməsi üçün vacibdir. Buraya korporativ müştərilərimiz, orta və kiçik sahibkarlıq subyektləri və maliyyə institutları daxildir. Biz yaxın həftələrdə 5 müxtəlif tranzaksiya üzrə 20 milyon avroluq ödəniş edəcəyik. Hesab edirəm ki, bu, ötən bir neçə ay Azərbaycanın gözəl hekayəsi sayıla bilər. Sizin ölkə dünyada ilin ilk rübündə iqtisadi artıma nail olmuş azsaylı ölkələrdəndir, bəlkə də yeganə ölkəsiniz.

Bununla yanaşı, iqtisadiyyatın şaxələndirilməsinin vacibliyini nəzərə alaraq, böhran vaxtı xüsusilə qeyri-neft sektorunun yaxşı göstəriciləri də qeyd olunmalıdır. Çox gözəl bir hekayədir və gün gələcək Azərbaycanla müqayisə aparılacaq. Gələn il bizim illik iclasımız olacaq və növbəti 2-3 il ərzində biz ölkələr üzrə dəyərləndirmə aparacağıq. Azərbaycan burada artıq öndədir.

İstərdim qısaca olaraq, planlarımız haqqında məlumat verim. Artıq 5 layihəni qeyd etdim, ancaq işlərimiz bununla məhdudlaşmır. Ötən illərlə müqayisədə keçən il Azərbaycana sərmayə həcmimiz aşağı səviyyədə olub, çünki biz neft-qaz sahəsinə yatırım etmədik və diqqəti orta və kiçik sahibkarlıq sahəsinə yönəltdik. Bu il isə düşünürəm ki, yenidən Azərbaycana böyük sərmayə yatıracağıq və bu, böhrana cavab tədbirləri və iqtisadiyyatın canlandırılması baxımından düzgün olardı. Biz münbit şərait olduqda bu il Azərbaycana 250 milyon dollardan artıq sərmayə yatırmağı planlaşdırırıq. Bu sərmayənin qoyulması üçün bizə suveren və subsuveren zəmanət tələb olunacaq və həmkarlarımdan bu barədə ətraflı danışmağı xahiş edəcəyəm.

Bu layihələr xüsusilə dövlət sektorunu əhatə edir və buraya enerji, infrastruktur və İKT sahələri daxildir. Buraya bəzi dövlət müəssisələrinin kommersiyalaşması da daxildir. Biz Sizinlə 150 milyon dollarlıq yaşıl zərfi müzakirə etmişik və bu mövzunu yenidən gündəmə gətirmək istərdik.

Bilirsiniz ki, biz əvvəllər həmin 150 milyon dollarlıq yaşıl zərfi müzakirə etmişik. Onu işə salmaq

istərdik. Bu barədə fikirlərinizi bilmək istərdim. Bu işləri biz Sizin hökumətinizlə irəliyə doğru aparırıq. Elektrik enerjisi şəbəkəsinə gəldikdə, biz şəbəkənin təkmilləşdirilməsinə təxminən 100–200 milyon avro məbləğini sərmayə kimi yatırmağı təklif edirik. Bu, böhran zamanı cavab tədbirləri və bərpa baxımından çox əhəmiyyətlidir. Həmçinin bərpa olunan enerji mənbələrinə özəl yatırımlar üçün imkanlar yaranar. Daha sonra «yaşıl şəhər» ideyası vardır. Azərbaycan «yaşıl şəhər» təşəbbüsünə qoşulan ilk ölkələrdən oldu. Tullantıların idarə edilməsi layihəsi baxımından Gəncə bu çərçivə təşəbbüsünə mart ayında qoşuldu. Biz təklif edirik, o, ilk «yaşıl şəhər» layihəsi olsun.

Həmçinin «Aztelekom» şirkəti ilə bağlı təklifimiz var. Bizim alt suveren 15–25 milyon avroluq mühüm investisiya layihəmiz var. Rayonlarda genişzolaqlı internet imkanları genişlənəcək. Bu da çox vacibdir. Böhrandan sonra bərpa mərhələsi üçün də bunun əhəmiyyəti olacaq. Bizim yeni mühüm infrastrukturlar üzrə proqramımız var. Şuramız onun üzərində razılığa gəlib. Biz Şura üzvlərinə təşəkkürümüzü bildiririk. Yüksək səviyyədə prosedurlar razılaşdırılıb. İstərdik ki, həmin məbləği Sizə daha tez çatdıraq, adi sürətdən daha tez. Bu həmçinin həmin yeni proqram əsasında olacaqdır.

Suvarmaya gəldikdə, bir neçə il öncə Siz mənə bildirdiniz ki, kənd təsərrüfatı sektorunda bu sahəyə xüsusi önəm verilir. Biz istərdik bu baxımdan pilot layihəni həyata keçirək, bu sektorda müəyyən yeni texnologiyaları tətbiq edək. Eyni zamanda, biz

təklif etdik ki, bu sahədə sığorta qurumu yaransın və biz onu maliyyələşdirək. Hökumətdən, həmçinin bu sahədə təsdiqləməni gözləyirik. Bundan əlavə, böyük həcmdə texniki əməkdaşlıq aparılır. Bir sıra yerli banklarla iş birliyi qurulub ki, onlara riskin idarə edilməsində, problemli kreditlərin həllində, uyğunluğun planlaşdırılmasında və sair işlərdə yardımçı olaq. Biz nəinki bank sektoru vasitəsilə, birbaşa kiçik və orta sahibkarlıq subyektləri ilə də işləyirik – böhran vəziyyətinə hansı yanaşmanı tətbiq etmək? Bu baxımdan onlara dəstək verilməlidir. Bu da normaldır. Biz bunu da etməyə çalışırıq. Qeyd etməliyəm ki, biz sizin «yaşıl» iqtisadiyyata keçidə bağlı olduğunuzu bilirik. Bir çox ölkələr çəkinir. Biz isə həmin ölkələr üzrə əməliyyatları genişləndiririk. Bir tərəfdən, deyə bilərik, əlbəttə, «yaşıl» iqtisadiyyat çox yaxşıdır, lakin ölkələr deyir ki, biz axı indi böhran içərisindəyik. Əslində biz bunu yaşıl rəngə çevrilmə adlandırırıq. Böhran zamanı belə, çalışırıq ki, əlavə nəticələri əldə edək, «yaşıl» iqtisadiyyat inkişaf etsin. Bir sözlə, biz gələcəkdə bərpa olunan enerji təşəbbüslərini dəstəkləyəcəyik. Artıq özəl sektor öz marağını nümayiş etdirir. Bunu nəzərə almalıyıq. Enerjiyə aid qaydaları da nəzərdən keçirməklə yardım etməliyik.

Yekun olaraq, dövlət müəssisələri və dövlət sektoru haqqında. Fikrimcə, biz növbəti həftə və ay ərzində dövlət müəssisələrinin orta perspektivdə kommersiyalasdırılmasına, özəlləşdirilməsinə keçə bilərik. Bu, dövlət investisiya holdinqi vasitəsilə edilə bilər. Biz dövlət–özəl tərəfdaşlığı düsturu üzə-

rində hökumətlə qanunvericilik sahəsində artıq işləyirik. Dövlət müəssisələrinin kommersiyalaşdırılması və özəlləşdirilməsinə keçidə həqiqətən, kömək etmək istərdik.

Biz həmçinin Azərbaycanın yeni İnkişaf Korporasiyasının yaradılması istiqamətində çalışırıq. Bir sözlə, qeyd etmək istəyirəm ki, Avropa Yenidənqurma və İnkişaf Bankı olaraq, biz – bilmirəm Azərbaycan dilində də bu kəlam varmı? – «işləri məcrasına salmaq» istəyirik. Əlimizdən gələni edirik ki, Azərbaycanda və digər ölkələrdə böhrandan sonra bərpa baş versin və bu, mümkün qədər tez olsun. Fikrimcə, Azərbaycana gəldikdə, vəziyyət daha yaxşıdır, çünki birinci rübdə artım müşahidə olunub. Lakin biz bununla arxayınlaşmamalıyıq. Biz hökumətin səylərini və özəl sektorla işi çox fəallaşdırmalıyıq ki, Azərbaycanda bu, baş versin. Bunu da edəcəyik. Mənim bütün həmkarlarımı ekranda görürsünüz. Bütün yüksək rəhbərlik Sizə dəstək vermək üçün buradadır.

**İ l h a m Ə l i y e v:** Sağ olun, cənab Prezident. Əvvəlcə ölkəmizlə, koronavirusla əlaqədar gördüyümüz işlə və iqtisadi gündəliyimizlə bağlı söylədiyiniz sözlərə görə minnətdaram. Bu məsələləri əvvəllər dəfələrlə müzakirə etmişik. Sonra apardığımız müzakirələri yenidən nəzərdən keçiririk.

Görürük ki, planlaşdırdığımız işlərin əksər hissəsini artıq yerinə yetirmişik. Hazırda iqtisadi inkişafımızın əsas məqsədlərindən biri «kölgə iqtisadiyyatı»nın miqyasının azaldılmasıdır. Ötən il biz yaxşı irəliləyişə nail olduq. Bu il bu istiqamətdə çox

uğurla irəliləyirik. Azərbaycanda çoxlu dəyişikliklər olub. Prezident Administrasiyasında, hökumətdə, parlamentdə, yerli icra hakimiyyəti orqanlarında dəyişikliklər baş verib. Onlar davam edir.

Gələcək planlara gəldikdə, mən həmçinin şəxsən sizə, bankın rəhbərliyinə Azərbaycana önəm verdiyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Ən vacib infrastruktur və enerji infrastrukturu layihələrinə, o cümlədən «Cənub Qaz Dəhlizi»nə dəstək verdiyinizə görə sizə çox minnətdarıq.

İndi isə biz razılaşdırılmış gündəliyə keçirik. Mən də planlarımızla bağlı dediklərinizi şərh etmək istərdim. «Yaşıl» proqrama gəldikdə, biz bu məsələyə çox ciddi yanaşırıq. Mənə məlumat verildi ki, hazırda bizdə 9 layihə vardır. Gəncədə tullantıların idarə edilməsi layihəsinə artıq yaşıl işıq yandırılıb. «Gəncə–yaşıl şəhər», fikrimcə, Azərbaycanın digər böyük şəhərləri üçün yaxşı nümunə ola bilər. Bərpa olunan enerjiyə gəldikdə, biz buna çox həvəslə yanaşırıq. Bu indi də belədir. Yanvarda biz bərpa olunan enerji sahəsində iki təcrübəli şirkətlə 440 meqavatlıq Günəş və külək enerjisi stansiyalarının tikintisi ilə əlaqədar ilkin sənədləri imzaladıq.

Bildiyim qədər, Avropa Yenidənqurma və İnkişaf Bankı onlara dəstək verməyi planlaşdırır. Çox vacibdir ki, bu koronavirus həmin şirkətlərin planına müdaxilə etməsin. Bir neçə gün öncə Energetika nazirimiz mənə məlumat verdi ki, onlar öhdəliklərinə ciddi yanaşırlar. Bu, əlbəttə ki, digər böyük şirkətlər üçün də geniş qapılar açacaq. Yəqin bilirsiniz ki, tender prosesində iştirak edən 7 əsas enerji şir-

kəti var idi. Bu dəfə keçməyən şirkətlərə gəldikdə, biz onlara ayrıca olaraq, növbəti danışıqların aparılması təklifi ilə müraciət etdik. Həmçinin sizin fikirlə razıyam ki, bu böhran dövründə biz çox ciddi tədbirlər görməliyik. Biz səylərimizi səfərbər etməliyik və daha çox vəsait sərf etməliyik ki, böhrandan çox asan çıxış yolu tapa bilək.

Bu elə bir vəziyyətdir ki, heç kəs buna hazır deyildi. Biz bu vəziyyətdən necə çıxacağıq, fəsadları nə olacaq, onları necə qiymətləndirməliyik, prioritetləri necə planlaşdırmalıyıq?! Buna görə bizim sizin dəstəyinizə, ekspert yardımınıza ehtiyacımız olacaq. Çünki söylədiyim kimi, dünyada heç bir ölkə belə vəziyyətlə qarşılaşmamışdır.

Siz həmçinin suvarma məsələsini qeyd etdiniz. Sizə deyə bilərəm ki, həmin məsələ infrastruktur sektorunda hazırda bizim əsas prioritetimiz ola bilər, çünki bütün digər infrastruktur layihələri, demək olar ki, başa çatıb. Ötən il bizdə çox ciddi quraqlıq oldu. Belə quraqlıq bu il də müşahidə olunur. Anbarlarda saxlanılan su həcmləri heç vaxt görünmədiyi qədər azdır. Keçənilki quraqlığı hətta yaşlı nəsil belə, xatırlamır. Bu səbəbdən suvarma ən vacib infrastruktur layihəsinə çevrilir. Bu məqsədlə bu yaxınlarda mən dövlət komissiyasını yaratdım və ona keçmiş İqtisadiyyat nazirimiz, yaxşı tanıdığınız Şahin Mustafayev rəhbərlik edir.

Maliyyə naziri, İqtisadiyyat naziri, Ekologiya naziri, Kənd Təsərrüfatı naziri, dövlət suvarma qurumunun rəhbəri bu komissiyanın üzvləridir. Əvvəlcə onlar bizim bütün su ehtiyatlarımızı qiymət-

ləndirəcəklər. Su ehtiyatlarına nəzarət üçün elektron sistemimiz olmalıdır. Sonra qiymətləndirmə infrastrukturumuz üzərində iş aparılacaq. Onun əksər hissəsi sovet vaxtının mirasıdır. Bizdə bəzi hallarda su itkiləri hətta 40–50 faiz təşkil edir, çünki həmin kanallar, demək olar ki, bütün keyfiyyətini itirib. Biz xarici mütəxəssisləri dəvət edəcəyik.

Həmçinin sizin dəstəyinizə nəinki maliyyə, o cümlədən, ekspert bacarıqları baxımından arxalanırıq ki, bizim həm qısa, həm də orta perspektivdə layihələrimiz olsun. Biz uzunmüddətli strateji plan istəmirik, çünki bizim bu halda 5 ilə ehtiyacımız olacaq. Biz öz resurslarımızı ayırmağa hazırıq. Əlbəttə ki, bank dəstək versəydi, lap yaxşı olardı. Ən vacibi isə layihənin lazımi şəkildə idarə edilməsidir.

Dövlət müəssisələrinə gəldikdə, İqtisadiyyat naziri bu məsələ üzərində çalışır. Artıq qeyd edildiyi kimi, kommersiyalaşdırma, qismən özəlləşdirmə – biz, ola bilsin, bunu sizinlə müzakirə etməliyik ki, ilkin addımlar hansılar olacaqdır. Biz əslində buna hazırıq. Korporativ idarəçilik məsələsi də vardır. Hazırda bildiyiniz kimi, biz daha çox əlaqələndirmə məqsədilə ana təşkilat ideyasını müzakirə edirik. Çünki problemlərimizdən biri dövlət şirkətləri arasında əlaqələndirmənin çatışmamasıdır. Hətta indi ən perspektivli sektorlardan biri olan nəqliyyat sektorunda biz görürük ki, şirkətlərin korporativ maraqları dövlət maraqlarını üstələyir. Bu məqsədlə əlavə işçi qrupu yaradılacaqdır.

* * *

*Sonra Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın perspektivi ətrafında fikir mübadiləsi aparıldı. Müzakirələrdə İqtisadiyyat naziri Mikayıl Cabbarov və Avropa Yenidənqurma və İnkişaf Bankının Şərqi Avropa və Qafqaz Regionu üzrə icraçı direktoru Matteo Patrone çıxış etdilər.*

*Videokonfrans zamanı Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərliyi bir daha Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizədə həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirdi, pandemiyanın doğurduğu sosial-iqtisadi fəsadların qarşısının alınması üçün ölkəmizdə görülən səmərəli işlərin böyük əhəmiyyət daşıdığını vurğuladı.*

*Bildirildi ki, Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanla gələcəkdə də müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlıdır.*

**İlham Əliyev:** Təşəkkür edirəm, cənab Prezident. Bütün həmkarlara iştiraka görə təşəkkür edirəm və böhran başa çatdıqdan sonra sizinlə tezliklə görüşməyə ümid edirəm.

**POLŞA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ANDJEY DUDAYA**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən xoş arzularımı və səmimi təbriklərimi çatdırıram.

Ölkələrimiz arasındakı dostluq əlaqələrinin bugünkü səviyyəsi, qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsi məmnunluq doğurur. İnanıram ki, strateji tərəfdaşlıq münasibətlərimiz xalqlarımızın rifahı naminə bundan sonra daha da dərinləşəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər, dost Polşa xalqına daim rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 aprel 2020-ci il*

## ZAKİR QARALOV İLƏ TELEFONLA GÖRÜŞ

*30 aprel 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Zakir Qaralov ilə telefonla danışmışdır.*

*Telefon danışığı zamanı dövlət başçısı Baş prokuror vəzifəsində səlahiyyət müddəti başa çatmış Zakir Qaralovun bu vəzifədə xalqımızın ümummilli lideri Heydər Əliyevin dövlətçilik prinsiplərinə sədaqətlə xidmət etdiyini vurğulayaraq, özünün Prezidentlik fəaliyyəti dövründə də prokurorluq orqanlarının işinin təkmilləşdirilməsi istiqamətində onun gördüyü işləri qeyd etdi.*

*Fəaliyyətinə verilmiş qiymətə görə dərindən minnətdarlıq edən Zakir Qaralov Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu siyasəti daim dəstəkləyəcəyini bildirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORU VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ KAMRAN ƏLİYEV İLƏ VİDEOBAĞLANTI FORMATINDA GÖRÜŞ

*1 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə yeni təyin olunmuş Kamran Əliyevi videobağlantı formatında qəbul etmişdir.*

**İlham Əliyev**: Siz bu gün Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilirsiniz. Ümid edirəm ki, bu yüksək etimadı doğruldacaqsınız. Siz prokurorluq orqanlarında 30 ildən çoxdur ki, işləyirsiniz. Hələ sovet dövründən bu işə başlamısınız və son 6 il ərzində Azərbaycan Respublikası Baş prokurorunun müavini vəzifəsində çalışırsınız. Ümid edirəm, əldə olunmuş təcrübə sizə imkan verəcək ki, prokurorluq orqanlarının işinin təkmilləşdirilməsi və islahatların dərinləşməsi istiqamətində nəticələr əldə edilsin.

Bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac vardır. Bu gün Azərbaycanın hər sahəsində islahatların nəticələri vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz isla-

hatlar aparmaqla ölkəmizi gücləndirir və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Tərəqqi islahatlarsız mümkün deyil. Ona görə hüquq-mühafizə orqanlarında da digər sahələrdə olduğu kimi, islahatlara böyük ehtiyac vardır. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaqdır.

Bu gün siyasi sahədə çox genişmiqyaslı islahatlar aparılır. Deyə bilərəm ki, müstəqillik dövründə miqyasa və nəticəyə görə bu günə qədər islahatların bu səviyyədə aparılması müşahidə edilmirdi.

Hakimiyyət tərəfindən təklif edilmiş siyasi dialoq, demək olar ki, baş tutur və biz artıq bu dialoqun ilkin müsbət təzahürlərini görürük. Demək olar ki, ölkəmizin bütün əsas siyasi qüvvələri bu dialoqa qoşularaq, öz müsbət münasibətlərini bildiriblər. Hesab edirəm ki, növbəti illərdə siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması işində önəmli addımlar atılacaqdır. Bir daha bildirməliyəm ki, Azərbaycanda heç kim öz siyasi baxıslarına, siyasi mənsubiyyətinə, siyasi fəaliyyətinə görə təqib edilməməlidir.

Eyni zamanda, iqtisadi islahatlar aparılmadan ölkəmizin dayanıqlı inkişafı mümkün deyil. Mən hələ bir neçə il bundan əvvəl demişdim ki, biz postneft dövrünə hazırlaşmalıyıq və əslində postneft dövrü artıq göz qabağındadır. Çünki neft bazarlarında müşahidə olunan böhran, demək olar ki, neftlə zəngin olan bütün ölkələrin gəlirlərinə çox mənfi təsir göstəribdir. Ona görə əsas məqsədimiz

qeyri-neft sektorunun inkişafıdır və bu istiqamətdə əldə edilmiş nəticələr məhz islahatlara söykənir, aparılan islahatların nəticəsidir. Məhz şəffaflıq, dürüstlük və islahatlar nəticəsində keçən il büdcə daxilolmalarının həcmi proqnozdan əlavə, 1 milyard manat artıb və bu vəsait böyük dərəcədə imkan verib ki, bir çox sosial layihələr icra edilsin. Bu ilin birinci rübünün yekunları göstərir ki, pandemiyaya baxmayaraq, iqtisadi artım vardır. Düzdür, çox kiçik rəqəmlərlə ölçülür – 1,1 faiz. Ancaq bu yaxınlarda Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərliyi ilə keçirdiyim görüş əsnasında məlum oldu ki, bir çox ölkələrdə indi iqtisadi tənəzzül müşahidə olunur. Bizdə də bu, istisna edilmir, çünki pandemiya ölkə iqtisadiyyatına çox böyük mənfi təsir göstəribdir. Ancaq hər halda, birinci rübün yekunları göstərir ki, iqtisadiyyat 1,1 faiz, qeyri-neft iqtisadiyyatımız isə 3 faizdən çox artıbdır. Bütün bunların əsas səbəbi aparılan islahatlardır və bu bizə imkan verir ki, sosial sahədə çox genişmiqyaslı proqramlar icra edilsin, o cümlədən keçən il 4,2 milyon insanın sosial vəziyyəti yaxşılaşıb, minimum əmək haqları, minimum pensiyalar, müavinətlər əhəmiyyətli dərəcədə artıbdır. Koronavirusa görə bu il bu istiqamətdə əlavə addımların atılması təmin edilibdir. Bu addımlar bir daha göstərdi ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prokurorluq orqanları üçün də bu əsas məqsəd, həmişə, bütün işlərdə əsas amil kimi dəyərləndirilməlidir.

Kadr islahatları aparılır və bu islahatlar imkan verir ki, yeni peşəkar, bilikli, müasir kadrlar önə çəkilsin. Onlara önəmli vəzifələr həvalə edildi və hesab edirəm ki, bu da zəmanənin tələbidir. Çünki bu gün müasir dünyada siyasi, iqtisadi sahələrdə, beynəlxalq müstəvidə müasir yanaşmalar olmalıdır. Yüksəkkeyfiyyətli təhsil almış gənc kadrların hökumətdə, Prezident Administrasiyasında, parlamentdə və digər qurumlarda təmsil olunması bizim şüurlu seçimimizdir. Təbii ki, təcrübəli kadrlar da öz biliklərini gənc nəsillə bölüşməlidir. Belə olan halda, təbii ki, hüquq-mühafizə orqanlarında da daha genişmiqyaslı islahatların aparılması başlıca şərtdir. Burada sizin üzərinizə böyük vəzifə düşür və ümid edirəm ki, siz bu vəzifənin öhdəsindən gələcəksiniz. İlk növbədə, qanunun aliliyi tam təmin edilməlidir və ədalətli cəmiyyətin qurulması üçün bu, başlıca şərtdir.

Əfsuslar olsun ki, biz istədiyimizə hələ də tam nail olmamışıq, o cümlədən hüquq-mühafizə orqanları tərəfindən qəbul edilmiş qərarlar bəzi hallarda qanunlara ziddir, sosial ədaləti pozur, insanları haqlı olaraq narazı salır və beləliklə, ümumi işimizə böyük ziyan vurur. Bunun səbəblərindən biri qeyri-peşəkarlıq ola bilər, ancaq bəzi hallarda bunun arxasında hansısa maraqlar, şəxsi təmənna dayanır. Bu gün bütün hüquq-mühafizə orqanlarının əməkdaşları və rəhbərləri məni eşidirlər.

Mənim sözlərim onlar üçün əsas göstəriş olmalıdır ki, Azərbaycanda hüquq-mühafizə sistemində islahatlar dərinləşsin və qanunun aliliyi təmin edilsin.

Kadr peşəkarlığı da daim diqqət mərkəzində olmalıdır və siz bu məsələ ilə ciddi məşğul olmalısınız. Bu gün fəaliyyətdə olan kadrların peşəkarlığının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülməlidir, prokurorluq orqanlarına yeni qəbul olunacaq işçilər yüksək peşəkarlığa malik olmalıdırlar, eyni zamanda, bu vacib amillə bərabər, dövlətçiliyə sədaqət prinsipləri də həmişə üstün olmalıdır. Çünki bu gün müstəqil dövlətimizin uğurlu yaşaması və möhkəmlənməsi ilk növbədə, dövlətçiliyimizin möhkəmləndirilməsi ilə bağlıdır. Biz elə etməliyik ki, Azərbaycan bundan sonra da uğurla inkişaf etsin, müstəqilliyimiz daim möhkəmlənsin, istənilən sahədə çalışan kadrlar dövlətə, xalqa bağlı olmalı, vətənpərvər olmalı və onlar üçün dövlət maraqları hər şeydən üstün olmalıdır.

Digər vacib vəzifələrdən biri korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədir. Hesab edirəm ki, prokurorluq orqanları bu istiqamətdə daha fəal iş aparmalıdır. Bu xoşagəlməz hallara qarşı Azərbaycanda çox ciddi mübarizə aparılır. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Bütün dövlət məmurlarını xəbərdar etmişəm, hətta demişəm ki, əgər hansısa dövlət məmuru öz işində düzəliş edə bilmirsə, yaxud istəmirsə, qoy özü könüllü şəkildə dövlət işindən istefa versin. Amma əfsuslar ki, mənim sözlərim bəziləri üçün dərs olmadı və bunun nəticəsində indi Dövlət Təhlükəsizliyi Xidməti bir neçə əməliyyat keçirərək, rüşvətxorları, yüksək vəzifə sahiblərini ifşa etdi və onlar artıq cinayət məsuliyyətinə cəlb ediliblər. Ağstafa, Biləsuvar,

Yevlax, Neftçala rayonlarının icra başçıları həbs edilib, ictimaiyyətə bu məsələ ilə bağlı ətraflı məlumat verilib və bundan sonra da ətraflı məlumat veriləcəkdir.

Eyni zamanda, bu yaxınlarda Binəqədi qəsəbə bələdiyyəsinin sədri saxta icazə sənədi satmaqda ittiham olunub və əşyayi-dəlillə saxlanılıb. İsmayıllı rayonunun şəhər üzrə icra nümayəndəsi yardımın mənimsənilməsi ilə məşğul olurmuş, kasıb adamlara göndərilən yardımı özünə götürürmüş. Həbs edilmiş icra başçılarının istintaqı gedir. Ancaq bu gün nümayiş etdirilən videokadrlar onu göstərir ki, rüşvətxorluq bu adamlar üçün əsas prinsip olubmuş.

Bütün aidiyyəti qurumlar bir qayda olaraq, hər ay icra başçılarına və icra hakimiyyətinin digər nümayəndələrinə rüşvət verməli olublar. Əfsuslar olsun ki, belə xoşagəlməz hallar digər rayonlarda da vardır. Bu haqda məlumat var və bir daha demək istəyirəm ki, heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək. Heç kim qanundan üstün deyil və əgər kimsə fikirləşir ki, onun yaxınları, tanışları, qohumları, yüksəkvəzifəli dostları ona kömək edəcəklər, səhv edir. Qanun qarşısında hamı bərabərdir, Azərbaycan cəmiyyətində korrupsiya və rüşvətxorluq olmamalıdır. Hər halda, biz çalışmalıyıq ki, korrupsiya və rüşvətxorluq üçün meydanı həm inzibati yollarla, həm də institusional üsullarla daraldaq. Eyni zamanda, cəza tədbirləri də tətbiq edilir və ediləcəkdir. Ona görə icra başçıları həbs olunmuş bu 4 rayonda işlər geniş təhlil edilməlidir.

Artıq dünən mənə məlumat verildi ki, Biləsuvar rayonunun həbs edilmiş icra başçısı bir neçə insanın torpaq sahəsini əlindən alıb. Bu vətəndaşlar mənə açıq şəkildə müraciət etdilər və dərhal göstəriş verildi ki, bu məsələ araşdırılsın. Əgər bu siqnal özünü təsdiqləsə, bu torpaqlar həmin vətəndaşlara qaytarılmalıdır. Prokurorluq orqanları bu işlərdə fəal olmalıdır. Bu gün bu ağır dövrdə verilən ərzağı oğurlamaq, fəhlələrə nəzərdə tutulmuş maaşı öz cibinə qoyaraq mənimsəmək həm cinayətdir, həm də böyük vicdansızlıq. Bu vəsaiti ayırırıq ki, bu gün özünə iş tapa bilməyən insanlar heç olmasa minimum əməkhaqqı səviyyəsində işlə təmin edilsin. Bunlar ictimai işlərdir və biz bu yolla insanları işlə təmin edirik. Əgər birinci mərhələdə təqribən 30 min iş yeri yaradılmışdırsa, hazırda mən göstəriş vermişəm ki, onların sayı 90 minə çatdırılsın. Ancaq birinci mərhələdə bu vəsaitin paylanılması icra başçıları tərəfindən həyata keçirilirdi. Burada mövcud olan nəzarətsizlik və korrupsiya halları bir çox insanları dövlət tərəfindən verilən bu yardımdan faktiki olaraq məhrum edibdir. Bu vicdansızlıqdır, buna başqa ad vermək olmaz. Artıq nəzarəti gücləndirmişik.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə də tapşırıq verilib ki, onlar bu işlərə də nəzarəti gücləndirsinlər. Ancaq buna baxmayaraq, həbs edilmiş icra başçılarının, icra nümayəndəsinin iş otaqlarından, onların ciblərindən yenə də həmin o kasıb insanlara çatacaq kartlar çıxır. Ona görə bu və digər hallara qarşı mübarizə çox ciddi olmalıdır.

Pandemiya ilə əlaqədar bu gün Azərbaycan dövləti bütün resursları səfərbər edib, ilk növbədə, vətəndaşları, onların həyatını, sağlamlığını qorumaq üçün əlindən gələni edir. Operativ Qərargah, bütün aidiyyəti qurumlar gecə-gündüz işləyirlər. Hər gün bizim birinci və günün axırında sonuncu əsas işimiz bu məsələ ilə məşğul olmaqdır. Nə qədər adam xəstələndi, nə qədər adam sağaldı, neçə nəfər xəstəxanalara yerləşdirildi, onların vəziyyəti necədir, ağır vəziyyətdə olan vətəndaşların durumu, onların sağalma şansları necədir – biz gecə-gündüz bununla məşğul oluruq. Dövlət, ictimai təşkilatlar, ilk növbədə Heydər Əliyev Fondu, ayrı-ayrı sahibkarlar, ayrı-ayrı imkanlı adamlar öz təşəbbüsləri ilə gedib kasıb insanlara əl tuturlar. Bu yardımı mənimsəməyə nə ad vermək olar?! Bu yaxınlarda Heydər Əliyev Fondu tərəfindən göndərilmiş ərzaq paylarını da aparıb öz qohumlarının evlərində saxlayıblar ki, sonra onları satsınlar. Biz buna gözmü yumacağıq? Belə adamlar ən ciddi cəzaya layiqdirlər.

İndi dünya liderlərinin bir çoxu qeyd edir ki, pandemiya müharibədir. Bəli, mən bu tezislə razıyam. Əgər indiki şəraitdə bunlar özlərini belə aparırlarsa, bundan daha ağır vəziyyət yaranarsa, onda bunlar nə edəcəklər? Bunun bir adı var – vicdansızlıq və xəyanət! Ona görə bundan sonra bu ünsürlərə qarşı mübarizə daha da ciddi aparılmalıdır.

Biz dövlət sektorunda işləyən 900 min insanın əməkhaqqını tam ödəyirik. 600 min özəl sektor nümayəndəsinin, o cümlədən mikrosahibkarın – hansı ki, onların çalışdıqları sahələr pandemiyaya görə

daha çox zərər çəkib – əməkhaqqının əhəmiyyətli hissəsini ödəyirik. Aztəminatlı təbəqəyə aid olan 600 min insanın, o cümlədən işsizlərin və qeyri-formal məşğul olanların vəsaitini ödəyirik.

Biz hər bir vətəndaşa kömək etmək istəyirik, hər bir vətəndaşa. İcra başçılarının, digər mərkəzi və yerli icra orqanları rəhbərlərinin vəzifəsi budur. Hər bir icra başçısı vəzifəyə təyin olunanda ona mənim əsas sözlərim odur ki, get, vətəndaşlara xidmət et, vətəndaşlarla bir yerdə ol, təmiz işlə, rüşvət alma, vətəndaşları incitmə, onlara, sahibkarlara köməklik göstər, onların malını əlindən alma, onların fəaliyyətindən özünə pay istəmə. Hər birinə bu sözləri deyirəm. Bu məsələ ilə bağlı bizim mövqemiz birmənalıdır.

Korrupsiyaya və korrupsionerlərə qarşı amansız mübarizə aparılacaq. Onu da bildirməliyəm ki, bu hallar təkcə yerli icra orqanlarında müşahidə edilmir, mərkəzi icra orqanlarında da belə hallar, belə siqnallar var və bu siqnallar araşdırılır. Verilən məlumata görə, bəzi mərkəzi icra orqanlarında, bəzi nazirliklərdə – hələ bu siqnallar araşdırılır – vəzifəyə təyin olunmaq üçün insanlardan bəzi hallarda rüşvət tələb edilir. Bu cinayətdir, bu bizim cəmiyyətimizin əsaslarını sarsıdan çirkin addımlardır. Pul verib vəzifəyə gələn adam ilk növbədə neyləyəcək? Çalışacaq ki, o pulun əvəzini çıxsın. Bunu haradan çıxaracaq? Ya haradansa dövlət malını oğurlayacaq, ya da ki, əgər imkanı olacaqsa, insanlardan pul tələb edəcək.

Biz bunu dəfələrlə görmüşük. Sadaladığım bu rayonlarda səhiyyə, təhsil, mədəniyyət sahəsində kütləvi şəkildə vətəndaşlardan, valideynlərdən, hər məktəb direktorundan pul yığılıb. Rayon Mərkəzi Xəstəxanasının baş həkimindən icra hakimiyyətinə pul verilir. O da öz növbəsində, bütün şöbələrdən hər ay haqq yığır. Bütün bələdiyyələr icra hakimiyyətinə aylıq pul verir. Biz bu hallara qarşı amansız mübarizə aparacağıq. Haqq da, xalq da bizim tərəfimizdədir. Bütün bu ifşaedici görüntülər hər bir Azərbaycan vətəndaşında haqlı olaraq, ikrah hissi doğurur.

Mənə ünvanlanan yüzlərlə, minlərlə məktubda bizim bu addımlarımıza böyük dəstək göstərilir. Ona görə prokurorluq orqanları bu işdə ön sıralarda olmalı və qanunun aliliyini təmin etməlidir. Ümid edirəm, sizin iş təcrübəniz və peşəkarlığınız imkan verəcək ki, mənim bu göstərişlərimin icrası təmin edilsin. Prokurorluq orqanlarının işçiləri bundan sonra da Vətənə ləyaqətlə xidmət etsinlər və bütün hüquq-mühafizə orqanları elə çalışsınlar ki, həm vətəndaşlar, ictimaiyyət onların işindən razı olsun, eyni zamanda, dövlətin maraqları və qanunun aliliyi təmin edilsin.

Mən bu gün Sizi bu vəzifəyə təyin edirəm və ümid edirəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız.

* * *

**K a m r a n  Ə l i y e v**: Çox sağ olun, möhtərəm cənab Prezident. İcazə verin, əvvəlcə Sizə mənə böyük etimad göstərdiyinizə, məni bu mühüm dövlət

postuna layiq gördüyünüzə, bu vəzifəyə təyin etdiyinizə görə dərin təşəkkürümü bildirim.

Prokurorluq orqanları doğrudan da dövlət quruculuğunda, dövlət idarəçiliyində çox mühüm bir orqandır. Prokurorluq orqanlarının dövlət idarəçiliyində yerini ulu öndər Heydər Əliyev müəyyən etmişdir. Ulu öndər Heydər Əliyev qeyd etmişdir ki, prokurorluq dövlətin əsas sütunlarından biridir. Bu doğrudan da belədir. Prokurorluq orqanları ulu öndər Heydər Əliyevin diqqət və qayğısı ilə daim əhatə olunmuşdur. Onun rəhbərliyi ilə müstəqil Azərbaycanın prokurorluğu mühüm inkişaf yolu keçmişdir. Məhz onun müvafiq sərəncamı ilə prokurorluq orqanlarının – müstəqil Azərbaycan Prokurorluğunun peşə bayramını – 1 oktyabr gününü biz hər il qeyd edirik.

Möhtərəm cənab Prezident, Siz 2003-cü ildə Azərbaycan xalqı tərəfindən Prezident seçildikdən sonra prokurorluq orqanları yenə də daim diqqət və qayğınızla əhatə edilib. Prokurorluq orqanlarında bu gün kifayət qədər peşəkar, Vətənə, dövlətə xidmət edən, dövlətə sədaqətli kadrlar vardır. Bu Sizin rəhbərliyinizlə prokurorluq orqanlarında həyata keçirilmiş mühüm islahatların nəticəsidir.

Sizin rəhbərliyinizlə digər sahələrdə həyata keçirilən islahatların prokurorluq orqanlarında da aparılması çox zəruridir. Siz ötən il məhkəmə-hüquq islahatları barədə müvafiq fərman imzalamısınız və bu istiqamətdə işlər davam edir. Bu baxımdan hesab edirəm ki, məhkəmə-hüquq sisteminin tərkib

hissəsi olan prokurorluqda islahatların aparılması xüsusi önəm kəsb edir.

Siz tamamilə düzgün qeyd etdiniz ki, hazırda – postneft dövründə həyata keçirilən islahatlar birinci növbədə, əhalinin rifahının, hər bir Azərbaycan vətəndaşının gündəlik həyatının yaxşılaşmasına xidmət edir.

Prokurorluq orqanlarının fəaliyyət dairəsi genişdir. Prokurorluğun əsas fəaliyyət istiqamətlərindən biri də təbii ki, ağır cinayətlərə, dövlətə, dövlətçiliyə qarşı yönələn bütün daxili və xarici təhdidlərə qarşı amansız mübarizə aparmaqdır. Bu sahədə təbii ki, prokurorluq orqanları digər dövlət qurumları ilə – həm Dövlət Təhlükəsizliyi Xidməti, həm Daxili İşlər Nazirliyi və digər müvafiq dövlət qurumları ilə birbaşa sıx əlaqədə işləməlidir.

Möhtərəm cənab Prezident, Siz korrupsiyaya qarşı mübarizəni xüsusi olaraq qeyd etdiniz. Azərbaycan Prezidenti seçildikdən sonra korrupsiyaya qarşı mübarizə Sizin həyata keçirdiyiniz islahatların, siyasətin ən mühüm tərkib hissəsi olubdur. Məhz həmin dövrdən Azərbaycan Respublikası bu sahədə bütün beynəlxalq təşəbbüslərə – həm Avropa Şurasının, həm Birləşmiş Millətlər Təşkilatının bu sahədə bütün mövcud konvensiyalarına qoşulub və bu sahədə institusional tədbirlər həyata keçirilib, müvafiq qurumlar yaradılıbdır. Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi də bu sahədə ixtisaslaşmış cinayət təqibi orqanı kimi yaradılıbdır.

Sizin 2013-cü ildə prokurorluğun peşə bayramı günü ərəfəsində Korrupsiyaya Qarşı Mübarizə Baş

İdarəsinin yeni tikilmiş binasının açılışında iştirak etməyiniz tam əminliklə deyirəm ki, prokurorluq orqanlarında xüsusi olaraq, ruh yüksəkliyi yaratdı. Sizin həmin vaxt gənc prokurorluq əməkdaşları qarşısında çıxışınız hər bir prokurorluq əməkdaşının bu gün də xatirindədir və onlar bunu daim böyük fərəh, qürur hissi ilə qeyd edirlər.

Biz prokurorluq orqanlarında islahatları davam etdirməliyik. Kadr islahatları doğrudan da çox vacib məsələdir və biz bu sahədə fəaliyyətimizi davam etdirəcəyik. Əgər zərurət yaranarsa, prokurorluğun, həmçinin struktur qurumların fəaliyyəti təhlil edilməlidir. Hesab edirəm ki, biz bu sahədə də mütərəqqi addımlar atmalıyıq.

Sizin tapşırığınız və göstərişinizlə prokurorluq orqanları beynəlxalq qurumlarla daim əməkdaşlıq edir. Həm beynəlxalq qurumlar, həm digər ölkələrin prokurorluq və antikorrupsiya orqanları ilə mütəmadi əlaqələr saxlanılır.

Təbii ki, bu iş Sizin siyasi iradənizə uyğun həyata keçirilir. Siz prokurorluq orqanlarının əməkdaşları qarşısında çıxışınız zamanı qeyd etdiyiniz kimi, biz fəaliyyətimizdə ən qabaqcıl təcrübəni yalnız öyrənməklə kifayətlənməməli, eyni zamanda, gündəlik fəaliyyətimizdə də tətbiq etməliyik.

Cənab Prezident, Siz koronavirus pandemiyası ilə bağlı qeyd etdiniz ki, bu bir müharibədir. Azərbaycan dövləti Sizin rəhbərliyinizlə, Mehriban xanımın diqqət və qayğısı sayəsində digər qabaqcıl ölkələrlə müqayisədə, demək olar ki, bu böyük prob-

lemi artıq arxada qoymaq üzrədir. Ümid edirik ki, bu istiqamətdə işlər belə də davam edəcəkdir.

Möhtərəm cənab Prezident, icazə verin, məni bu çox məsul dövlət vəzifəsinə layiq bildiyiniz üçün Sizə bir daha dərin təşəkkürümü bildirim. Sizi tam əmin etmək istəyirəm ki, prokurorluq orqanları bundan sonra da daim Heydər Əliyev prinsiplərinə, dövlətə, dövlətçiliyə, öz xalqına xidmət edəcəkdir. Bir daha təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun, sizə uğurlar arzulayıram.

**K a m r a n Ə l i y e v:** Çox sağ olun.

## «QOŞULMAMA HƏRƏKATI»NIN TƏMAS QRUPU FORMATINDA VİDEOKONFRANS VASİTƏSİLƏ KORONAVİRUSLA MÜBARİZƏYƏ HƏSR OLUNMUŞ «COVİD-19-a QARŞI BİRLİKDƏYİK» MÖVZUSUNDA ZİRVƏ GÖRÜŞÜ

*4 may 2020-ci il*

*«Qoşulmama Hərəkatı»nın sədri kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də «Qoşulmama Hərəkatı»nın Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş «COVID-19-a qarşı birlikdəyik» mövzusunda Zirvə görüşü keçirilmişdir.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Zirvə görüşünün iştirakçıları! Mən sizi səmimiyyətlə salamlayıram. «Qoşulmama Hərəkatı»nın Təmas Qrupunun Zirvə görüşü qlobal pandemiyaya – koronavirus xəstəliyinə qarşı mübarizəyə həsr olunubdur.

Zirvə görüşünün gündəliyi üzv dövlətlərlə razılaşdırılıb. Etiraz yoxdursa, Zirvə görüşünün gündəliyi qəbul olunur. Mən «Qoşulmama Hərəkatı»nın Təmas Qrupunun COVID-19-la mübarizəyə həsr olunan onlayn Zirvə görüşünü açıq elan edirəm.

*Dövlət başçısı Zirvə görüşündə giriş nitqi söylədi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Hörmətli dövlət və hökumət başçıları!
Hörmətli BMT Baş Assambleyasının sədri!
Hörmətli beynəlxalq təşkilatların rəhbərləri!
Zati-aliləri!

Azərbaycan «Qoşulmama Hərəkatı»nın sədr ölkəsi kimi, Hərəkatın 1996-cı ildə qəbul olunmuş Metodologiyalar üzrə Kartaxena sənədindən çıxış edərək, koronavirusa qarşı mübarizə üzrə Təmas Qrupunun yaradılması və bu formatda Zirvə görüşünün keçirilməsi təşəbbüsünü irəli sürmüşdür.

Təqdirəlayiq haldır ki, «Qoşulmama Hərəkatı»nın bütün üzv dövlətləri bu təşəbbüsü yekdilliklə dəstəklədi. Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak prinsipi əsasında bütün regional qruplardan olan ölkələr təmsil olunubdur.

Zirvə görüşündə iştirakına görə Təmas Qrupuna daxil olan dövlətlərə təşəkkürümü bildirirəm.

Mən eyni zamanda, Zirvə görüşünə qatılmış BMT Baş Assambleyasının sədrinə, Ümumdünya Səhiyyə Təşkilatının baş direktoruna və Afrika İttifaqı Komissiyasının sədrinə öz minnətdarlığımı ifadə etmək istərdim.

BMT-nin Baş katibi cənab Antonio Quterreşə, Avropa İttifaqının ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti cənab Cozef Borelə videomüraciətinə görə təşəkkürümü bildirirəm.

2019-cu il oktyabr ayının 25–26-da «Qoşulmama Hərəkatı»nın Bakıda XVIII Zirvə görüşü keçirildi. Zirvə görüşündə qəbul olunmuş Bakı Bəyannaməsi

və Bakı Yekun Sənədində beynəlxalq hüququn prinsipləri öz əksini tapdı. Eyni zamanda, bu sənədlərdə 65 illiyi bu günlərdə qeyd edilən Bandunq prinsiplərində yer alan dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına bir daha dəstək ifadə olundu. 120 üzv dövlətin yekdil dəstəyi ilə Azərbaycan 3 il ərzində «Qoşulmama Hərəkatı»na sədrlik edəcək. Bizə göstərilən böyük inam və etimada görə bir daha minnətdarlığımı bildirirəm.

Sədrliyi öz üzərimizə götürərkən mən bəyan etdim ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaqdır.

Azərbaycan «Qoşulmama Hərəkatı»nda sədrliyinə dair əhatəli Tədbirlər Planı hazırlayıb və praktiki fəaliyyətə başlayıbdır. Koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişib və nəticədə yeni reallıqlar meydana çıxıbdır. Azərbaycan yeni vəziyyətə çevik və adekvat reaksiya verdi. Azərbaycanın təşəbbüsü ilə keçirilən «Qoşulmama Hərəkatı»nın koronavirusa qarşı Təmas Qrupunun Zirvə görüşü bunu göstərir.

COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmayıb. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik.

BMT-nin Baş katibi Antonio Quterreş tərəfindən koronavirusa qarşı mübarizə məqsədilə qlobal

humanitar cavab planının elan edilməsini, BMT Baş Assambleyasında müvafiq qətnamələrin qəbul olunmasını və Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk.

Pandemiyanın ilk günlərindən biz Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq. Təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyət müraciətimiz əsasında mart ayında ölkəmizə səfər edərək, vəziyyətlə tanış oldu. Azərbaycana göstərdiyi dəstəyə və Zirvə görüşümüzdə iştirakına görə doktor Tedros Adhanom Qebreyesusa təşəkkürümü bildirirəm.

Bu, Azərbaycanın təşəbbüsü ilə keçirilən 2-ci Zirvə görüşüdür. Sədri olduğumuz Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının mənim təşəbbüsüm ilə aprelin 10-da COVID-19-a qarşı Zirvə görüşü keçirildi. Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru həmin Zirvə görüşündə də iştirak etdi və dəyərli tövsiyələrini verdi.

«Qoşulmama Hərəkatı»nın «Ümumdünya Səhiyyə Təskilatı və onun baş direktoruna dəstək» adlı 9 aprel tarixli Bəyanatını məmnuniyyətlə qeyd etmək istərdim.

Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru tərəfindən martın 23-də mənə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilibdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilibdir. Azərbaycan dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi, koronavirusa qarşı qlobal mübarizəyə dəstək olaraq, Ümumdünya Səhiyyə

Təşkilatına 5 milyon dollar könüllü maliyyə yardımı ayırıbdır.

Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün vaxtında çevik və zəruri qabaqlayıcı tədbirlər həyata keçiribdir. Mənim sərəncamımla ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıbdır.

Pandemiya dövründə bizim üçün prioritet məsələ insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsidir. Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınıb və ya ləğv edilibdir. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi tədricən dayandırılıbdır. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilibdir.

Azərbaycanda koronavirus xəstələrinin müalicəsi üçün 20-dən artıq xəstəxana ayrılıbdır. Virusun diaqnostikası və müalicəsi üçün zəruri olan laborator testlər, bəzi tibb avadanlığı və ləvazimatlar Azərbaycana gətirilibdir. Testlərin aparılması üçün ölkədə 23 laboratoriya fəaliyyət göstərir. İndiyə kimi ölkə üzrə 160 mindən artıq test keçirilibdir.

Daxili tələbatı ödəmək üçün qısa müddət ərzində qoruyucu və digər tibbi ləvazimatların istehsalına başlanılıbdır.

Beləliklə, həyata keçirilən bütün bu tədbirlər nəticəsində kütləvi yoluxma hallarının qarşısı alınıbdır. Son 3 həftə ərzində ölkəmizdə xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasındakı dinamika müsbətdir. Pandemiya dönəmində biz bir da-

ha həkimlərimizin peşəkarlığının şahidi olduq. Azərbaycan koronavirus xəstələrinin müalicəsi sahəsində öz təcrübəsini «Qoşulmama Hərəkatı»nın digər üzv dövlətləri ilə bölüşməyə və bu sahədə əməkdaşlığa hazırdır.

Əhali arasında virusa yoluxma sürətinin aşağı düşməsini, xəstələrin sağalma dinamikasını nəzərə alaraq, xüsusi karantin rejimindən çıxış planı mərhələli şəkildə həyata keçirilir. Xüsusi karantin rejimi mayın 31-nə qədər uzadılsa da, tətbiq edilən bir sıra məhdudiyyətlər aprelin 27-si və mayın 4-dən etibarən yumşaldılıbdır.

Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək, makroiqtisadi və maliyyə sabitliyini təmin etmək üçün 3,5 milyard manatdan artıq və ya 2 milyard dollardan çox sosial-iqtisadi dəstək paketi qəbul olunubdur. Ümumilikdə dövlət sektoru üzrə 900 mindən çox işçinin əməkhaqqı tam həcmdə, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa yaşayış minimumuna uyğun olaraq, iki ay ərzində vəsait ödənilir.

İşsiz şəxslərin sosial müdafiəsi üçün ilin sonuna qədər 90 min ödənişli ictimai iş yerinin yaradılması nəzərdə tutulur.

Banklar tərəfindən sahibkarlara yeni verilmiş kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcəkdir. Pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergiödəyicilərinə 2021-ci il yanvarın 1-dək

olan dövr üçün vergi güzəştləri və vergi tətilləri ediləcəkdir. Bütün bunlar atılan addımların yalnız bir hissəsidir. Ümumiyyətlə, dövlətin həyata keçirdiyi tədbirlərə vətəndaşlarımız tərəfindən çox yüksək qiymət verilir.

Hörmətli həmkarlar, pandemiya şəraitində ölkələrimiz arasında ticarətin açıq saxlanılması və beynəlxalq yükdaşımaların fasiləsiz olaraq həyata keçirilməsi vacibdir. Azərbaycan artıq Avrasiyada önəmli nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib, onlarla ölkəni birləşdirən Şərq–Qərb, Şimal–Cənub, Şimal–Qərb nəqliyyat dəhlizlərinin yaradılmasında böyük rol oynayıbdır. Pandemiya dövründə də Azərbaycan etibarlı tranzit-logistika mərkəzi kimi, öz roluna məsuliyyətlə yanaşaraq, ərazisi vasitəsilə maneəsiz tranzit daşımalarını təmin edir. Eyni zamanda, tibb mütəxəssislərinin təcrübə mübadiləsi, virusa qarşı mübarizədə əldə edilmiş təcrübənin, məlumatların, elmi biliklərin bölüşülməsi, ehtiyacı olan ölkələrə yardım göstərilməsi mühüm əhəmiyyət kəsb edir.

Zirvə görüşünün təklif olunan Bəyannaməsində qeyd edildiyi kimi, «Qoşulmama Hərəkatı»nın yaradılacaq İşçi Qrupu üzv ölkələrin pandemiya ilə bağlı humanitar və tibbi ehtiyaclarını vahid məlumat bazasına daxil edəcəkdir. Həmin məlumatlar mümkün yardımların göstərilməsi üçün donor ölkələrə, beynəlxalq humanitar təşkilatlara təqdim ediləcəkdir.

Pandemiyaya qarşı mübarizədə ən çox yardıma ehtiyacı olan «Qoşulmama Hərəkatı»nın üzv döv-

lətlərini dəstəkləmək üçün Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına əlavə olaraq, 5 milyon dollar ianə ayırır. Bu vəsait bizimlə razılaşdırılmaqla ən çox yardıma ehtiyacı olan Afrika, Asiya və Latın Amerikası regional qruplarından olan üzv ölkələr üçün nəzərdə tutulur.

120 ölkəni özündə birləşdirən «Qoşulmama Hərəkatı» BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisatdır. Azərbaycanın sədrliyi dövründə birgə səylərimizlə «Qoşulmama Hərəkatı»nın beynəlxalq nüfuzunu, beynəlxalq aləmdə oynadığı rolunu artırmaq əzmindəyik. Ölkələr arasında dostluq, həmrəylik və qarşılıqlı dəstək xüsusi rol oynayır.

Razılığınız olarsa, qlobal həmrəyliyin nümunəsi kimi, «Qoşulmama Hərəkatı»nın üzv ölkələri olaraq, BMT Nizamnaməsində nəzərdə tutulmuş Baş Assambleyanın COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış edə bilərik.

Hamımız üçün bu çətin dövrdə bir daha bütün dövlətləri dostluğa, qarşılıqlı dəstəyə və həmrəyliyə dəvət edirəm. Diqqətinizə görə minnətdaram.

İndi isə sözü BMT Baş Assambleyasının 74-cü sessiyasının prezidenti Ticani Məhəmməd-Bandeyə verirəm.

**BMT Baş Assambleyasının 74-cü sessiyasının prezidenti Ticani Məhəmməd-Bandenin çıxışı**

Hörmətli sədr, nazirlər, xanımlar və cənablar!

Mən cənab Prezident İlham Əliyevə təşəkkürümü bildirirəm ki, bu gün belə mühüm tədbirə ev sahibliyi edir.

Mən öz yaxınlarını itirənlərə dərin hüznlə başsağlığı verirəm və xəstəlikdən əziyyət çəkənlərə tezliklə sağalmalarını arzulayıram. Mən bu xəstəliklə mübarizənin ön cəbhəsində vuruşan səhiyyə işçilərinə və digər şəxslərə əhalinin sağlam və təhlükəsiz qalması üçün gördükləri işə görə təşəkkür edirəm.

Bu gün üzərimizə düşən səlahiyyətlərdən çıxış edərək bildirmək istəyirəm ki, biz pandemiyanı məğlub etmək üçün verdiyi mühüm dəstəyə və göstərdiyi xidmətlərə görə Ümumdünya Səhiyyə Təşkilatının, «Qoşulmama Hərəkatı»nın üzv dövlətlərinin, vətəndaş cəmiyyətinin və özəl sektorun səylərini alqışlamalıyıq. BMT-nin COVID-19 qlobal humanitar cavab tədbirləri planına da maliyyə dəstəyi verilməlidir.

Zati-aliləri, bu gün COVID-19 bütün dünyada milyardlarla insanı təhlükə ilə üz-üzə qoyub. Bu gün Beynəlxalq Əmək Təşkilatının hesablamalarına görə, həmin insanlar 3,4 trilyon ABŞ dolları məbləğində gəlirlərini itiriblər.

Qlobal səhiyyə sistemi bu gün çox ağır təzyiq altındadır və təbii ki, beynəlxalq səfərlər də dayandırılıbdır. Heç bir ölkə qarşıya çıxan bu çətinliyi, bu maneəni təkbaşına aradan qaldıra bilməz. Biz BMT

olaraq çox böyük məmnunluqla belə təşəbbüsləri dəstəkləyirik və istəyirik ki, COVID-19 virusunun yayılmasının qarşısını alaq. Biz həmçinin istəyirik ki, bütün dövlətlər, millətlər arasında olan qeyri-bərabərsizlik aradan qaldırılsın. Bunun üçün biz daha güclü və dayanıqlı sistem yaratmalıyıq. Eyni zamanda, biz görürük ki, inkişafda olan bir sıra ölkələrin borcları çox kəskin şəkildə artır. Bunlardan irəli gələrək bildirmək istəyirik ki, biz cari böhranın lap ortasındayıq. Bir çox ölkələr, həmçinin öz həllini tapmayan silahlı münaqişələrdən əziyyət çəkir, münaqişələr dayandırılmalıdır. Biz bununla bağlı BMT-nin Baş katibi adından qlobal miqyasda atəşkəsin təmin edilməsi üçün çağırış etmişik. Biz beynəlxalq əməkdaşlığı gücləndirməliyik.

Bu böhrana gəldikdə görürük ki, biz məhz Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə bağlı onillik tədbirlər planını tam həyata keçirməliyik. Biz verdiyimiz bu vədlərdən heç zaman geri çəkilə bilmərik. Əlimizdən gələni etməliyik ki, 2030-cu ilə olan gündəliyi icra edək və «Əddis-Əbəbə» tədbirlər planının maliyyələşdirilməsi və icrası üçün çalışmalıyıq. Biz bununla bağlı çoxtərəfli səylərimizi nümayiş etdirməliyik.

Zati-aliləri, həmçinin Birləşmiş Millətlər Təşkilatı olaraq bildiririk ki, «Qoşulmama Hərəkatı» da müxtəlif cavab tədbirləri görməyə başlayıb. Bilirik ki, insanlar və ölkələr arasında etimadın artırılması üçün təşkilatın üzv dövlətləri bir çox mühüm işlər görməyə başlayıbdır. Biz artıq yeni erada yaşayırıq, vəziyyət əvvəlki kimi deyil. Ölkələr bu gün artıq

anlayır ki, çox böyük çətinliklər qarşısındadır. Bütün bunlar bizim ümumi vəzifəmizin icrası üçün vacibdir. Biz birgə işləməyə çalışmalıyıq və elə etməliyik ki, bu və ya digər əhalinin spesifik ehtiyaclarına cavab verək. Biz buna məhz çoxtərəfli əməkdaşlıq sayəsində nail ola bilərik. Yalnız belə olan halda, biz prosesləri əlaqələndirə və mövcud şəraitə görə təcrid olunmuş insanlara bu yolla yardım edə bilərik.

Zati-aliləri, 2030-cu ilin gündəliyinin icrasında təhsilə də xüsusi önəm verilir. Biz çalışmalıyıq ki, işçi planı tərtib edək və orada səmərəli mexanizmlər olsun ki, həm pandemiyaya qarşı mübarizə aparılsın, həm də istədiyimiz nəticələr təmin edilsin. Biz bunu ona görə etməliyik ki, bunlar təxirəsalınmaz məsələlərdir və dünyada təhsillə bağlı məsələlər daha da dərinləşməsin. Bu gün dünya üzrə tələbələrin ümumi sayının 90 faizindən çoxu məhz bu çətinliklərlə üzləşib. Bir çox tədris ocaqları bağlanılıb. Biz öz işimizi səmərəli şəkildə əlaqələndirməli və bir-birimizə dəstək verməliyik. Heç bir halda imkan yarada bilmərik ki, bu sahədə boşluq olsun. Bütün bunlar məhz sizə, sizin göstərdiyiniz əməkdaşlığa əsaslanır. Biz istərdik ki, pandemiyaya qarşı bu cavab tədbirləri uğurla nəticələnsin.

Biz bilirik ki, dünya kənd təsərrüfatı sahəsindəki vəziyyətdən asılıdır. İnsanların ərzaqla təmin olunması, eyni zamanda, onların gəlir qazanması üçün əlimizdən gələni etməliyik ki, kənd təsərrüfatı sahəsində çalışan işçilər əhalini ərzaqla minimal itkilərlə təmin edə bilsinlər. Zati-aliləri, sizə müraciət edi-

rəm ki, bu sahəyə inklüziv olaraq, geniş şəkildə sərmayələr qoyulsun, daha müqavimətli ərzaq sistemləri qurulsun və hər bir dövlət bu sistemlə əhatə olunsun. Biz çox diqqətli olmalıyıq ki, milyonlarla insan aclıq problemləri ilə üzləşməsin.

Zati-aliləri, biz təxirəsalınmaz tədbirlər görərkən dayanmadan öz yardımlarımızı göstərməliyik. Xüsusən də bu, zəif ölkələrə aiddir ki, onlar səhiyyə sahəsində cavab tədbirləri görsünlər və əhalisinin sosial müdafiəsini təmin etsinlər. Biz öz səylərimizi birləşdirməliyik, qeyri-qanuni maliyyə axınlarının qarşısının alınmasında konkret tədbirləri davam etdirməliyik. Bu məqsədlə əlavə vəsaitləri səfərbər etməliyik ki, COVID-19-un təsirlərini aradan qaldıraq.

Zati-aliləri, mən bu baxımdan «Qoşulmama Hərəkatı»nın və onun üzv dövlətlərinin göstərdiyi rəhbərlik keyfiyyətlərini alqışlayıram. Çünki onlar pandemiyanın lap başlanğıcından öz həmrəyliyini nümayiş etdiriblər. Beləliklə, onlar ən yaxşı təcrübəni mübadilə etməli, bir-birinə tibbi avadanlıq və ləvazimatları çatdırmalı, ərzaq və digər bu kimi humanitar yardımları göstərməlidirlər. Mən müraciət edirəm ki, «Qoşulmama Hərəkatı» bu ülvi məqsədləri, bir-birinə iqtisadi yardımı və digər bu kimi halları təşviq etsin. Mən «Qoşulmama Hərəkatı»na minnətdaram ki, onlar bir çox formada öz prinsiplərindən çıxış edərək, həmçinin BMT-nin Xartiyasına da dəstək vermişlər. İnanıram ki, «Qoşulmama Hərəkatı» bundan sonra da öz haqlı səsini ucaldacaq və işini davam etdirəcək. Həmçinin BMT Nizamnaməsi və Bandunq prinsipləri çərçivəsində mühüm

işlərə, beynəlxalq sülhə və təhlükəsizliyə, qanunun aliliyinə, ədalətə xidmət edəcək. İstərdim ki, tərəfdaşlığı bundan sonra da davam etdirəsiniz, COVID-19-un məğlub edilməsi istiqamətində başladığınız işi daha da gücləndirəsiniz və biz bu çətinlikləri birgə aradan qaldıraq. Sağ olun, cənab Prezident.

**İlham Əliyev:** Sağ olun, cənab prezident. İndi isə mən hamınızı BMT-nin Baş katibi cənab Antonio Quterreşin videomüraciətini dinləməyə dəvət edirəm.

### BMT-nin Baş katibi Antonio Quterreşin videomüraciəti

Bu görüşü təşkil etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürümü bildirirəm.

Cəmiyyətlərimiz ağır sınaqdan keçməkdədir. COVID-19 bütün dünyada milyardlarla insana ciddi iztirablar verərək və qlobal iqtisadiyyatı pozaraq, onların həyatlarında təşviş yaradıb.

O, cəmiyyətlərimiz və iqtisadiyyatlarımızın sarsıntı qarşısında kövrəkliyini açıq nümayiş etdirdi və Dayanıqlı İnkişaf Məqsədlərinin icrasını təhdid edərək, dərin qeyri-bərabərliyi bütün çılpaqlığı ilə üzə çıxardı.

Burada yeganə cavab cəsarətli, uzaqgörən və əməkdaşlığa əsaslanan rəhbərlik keyfiyyətləridir.

Bu böhranın miqyası və mürəkkəbliyi əlaqələndirilmiş qlobal cavab tədbirlərini tələb edir. Etiraf

etməliyik ki, inkişaf edən ölkələrə münasibətdə kifayət qədər həmrəylik göstərilməyib.

Həm pandemiyaya qarşı mübarizə prosesində səhiyyə sistemlərindəki boşluqları, həm də cəmiyyətlərinə sosial və iqtisadi təsirlərin aradan qaldırılması üçün onların genişmiqyaslı dəstəyə ehtiyacları vardır.

Biz COVID-19-a səmərəli cavab tədbirlərinin hər kəs üçün və hər yerdə əlçatan olmasını və bərabərliyi təmin etməliyik.

Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlərin üçdə ikisini əhatə edən «Qoşulmama Hərəkatı» qlobal həmrəyliyin formalaşdırılmasında əhəmiyyətli rol oynayır. Bizim 3 təxirəsalınmaz prioritetimiz var: COVID-19 pandemiyasına son qoymaq, onun sosial-iqtisadi təsirlərini aradan qaldırmaq, bərpa mərhələsindən daha güclü əsasları qurmaqda və heç kəsi kənarda qoymamaqda istifadə etmək.

Biz Dayanıqlı İnkişaf üçün 2030-cu il gündəliyinin və «İqlim dəyişikliyi üzrə Paris Sazişi»nə dair gözləntilərin nəticəsiz qalmasına imkan verə bilmərik. Bu münasibətlə mən BMT-nin bütün səylərinizi dəstəklədiyini bir daha bəyan edirəm.

Sizə məhsuldar görüş arzulayıram.

**İlham Əliyev:** Mən BMT-nin Baş katibinə bu videomüraciətə görə təşəkkürümü bildirirəm. İndi isə söz verilir Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru cənab Tedros Adhanom Qebreyesusa.

**Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun çıxışı**

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev, çox sağ olun!

Hörmətli dövlət və hökumət başçıları!

Hörmətli nazirlər, həmkarlar, əziz dostlar!

Bu gün sizinlə bu tədbirdə iştirak etməkdən şərəf duyuram.

Məni bu tədbirə dəvət etdiyinə və «Qoşulmama Hərəkatı»nın Təmas Qrupu qarşısında çıxış etmək imkanı yaratdığına görə zati-aliləri cənab İlham Əliyevə təşəkkürümü bildirirəm.

Biz Ümumdünya Səhiyyə Təşkilatına Sizin verdiyiniz dəstəyi yüksək dəyərləndiririk. Mən həmçinin fürsətdən istifadə edərək, Azərbaycan xalqına, Azərbaycan hökumətinə bizə 5 milyon ABŞ dolları həcmində maliyyə dəstəyinə görə təşəkkürümü bildirirəm. Fürsətdən istifadə edərək, zati-alinizə təşəkkürümü bildirirəm ki, Siz təşkilatımıza əlavə olaraq, 5 milyon ABŞ dolları həcmində yardım göstərmisiniz.

Mən məmnunluq hissi ilə bildirmək istəyirəm ki, Ümumdünya Səhiyyə Təşkilatı «Qoşulmama Hərəkatı»na və onun üzv dövlətlərinə COVID-19 xəstəliyinə qarşı apardıqları mübarizədə onlara dəstək verir. Mən bilirəm ki, bu il Bandunq prinsiplərinin 65 illiyi qeyd olunur. Əməkdaşlıq bizim üçün çox vacibdir ki, ölkələr cavab tədbirlərini həyata keçirə bilsin, COVID-19 xəstəliyinə qarşı mübarizə aparılsın və bu kimi digər fövqəladə hallar aradan qaldırılsın.

Tamamilə aydındır ki, heç bir ölkə öz ölçüsündən, resurslarından, pul imkanlarından asılı olmayaraq, pandemiyaya qarşı təkbaşına mübarizə apara bilməz. Biz həmrəy olmalıyıq, bütün siyasi sərhədləri aşaraq, heç zaman görünmədiyi qədər bu mühüm işləri aparmalıyıq. Çünki virus özlüyündə iki əsas meyarın bir kombinasiyasıdır. O, sürətlə yayılır və o qatildir. Buna görə bizə qlobal həmrəylik və birlik lazımdır. Bu baxımdan, biz virusu önləməliyik, ondan öndə getməliyik.

Sizin davamlı çoxtərəfli işiniz və uzunmüddətli öhdəliyiniz COVID-19-un qarşısının alınmasında çox vacibdir. Ölkələr arasında şəffaflığın, etimadın və əlaqələndirmənin qurulması olduqca önəmlidir. Ona görə dünyanın hər bir dövləti buna hazır olmalıdır. Belə bir qlobal fövqəladə hal qarşısında həmrəylik prinsiplərindən çıxış edərək, biz insanları və millətləri bu səylərdə birləşdirməliyik. Əvvəlcə bildirildiyi kimi, COVID-19 yanvar ayında pandemiya elan edildi. Həmin vaxtdan etibarən dünyanın müxtəlif guşələrinə çox sürətlə yayıldı, siyasi, sosial və iqtisadi sistemlərdə problem yaratdı.

Pandemiya bizdən həm qlobal, həm də milli səviyyədə fövqəladə tədbirlərin görülməsini tələb etdi. Buna görə də bizim qarşımızda sadə bir vəzifə dayanır – biz planetimizi qorumalıyıq, eyni məqsədlərdən çıxış edərək, insanları xilas etməliyik. Buna görə də biz, həmçinin burada güclü milli və alt milli səhiyyə sistemlərinin əhəmiyyətini qeyd edirik ki, qlobal təhlükəsizlik və universal səhiyyə paketi təmin oluna bilsin. Bütün cəmiyyətlərin bu baxımdan

ehtiyaclarından irəli gələrək deyə bilərik ki, biz həlledici böhran mərhələsindəyik. Çünki burada qaçqınlar problemi vardır. İnsanlar münaqişələrdən əziyyət çəkirlər. Bu gün ictimai səhiyyə üçün böhrana səbəb olan COVID-19 inkişafda çox ciddi problemlər yaradıbdır. Bunu eşitmək ağrılıdır və dünya bunun şahididir. Pandemiya ilə bağlı hazırkı həlledici mərhələdə bütün dövlətlər və maraqlı olan tərəflər, o cümlədən özəl sektorun nümayəndələri birgə çalışmalıdırlar ki, geridə qalan olmasın.

«Qoşulmama Hərəkatı»nın Nizamnaməsinin təməlində duran çoxtərəflilik və beynəlxalq əməkdaşlıq dəyərlərinin gücləndirilməsi bu həlledici məqamda çox önəmlidir.

Ümumdünya Səhiyyə Təşkilatı müşahidə və erkən müəyyənetmə, şübhəli hallar zamanı təcrid, test aparma imkanlarının artırılması, xəstələrin klinik şəraitdə müalicəsi, məlumat mübadiləsi, müxtəlif sektorlar üzrə fəaliyyət, risklərlə bağlı məlumatlandırma və cəmiyyətin səfərbər edilməsi sahəsində bütün ölkələrin səylərini dəstəkləyir.

Beynəlxalq Səhiyyə Qaydaları kimi, instrumentlər sayəsində səhiyyə təhlükəsizliyi ilə bağlı hazırlıqda irəliləyişə nail olunsa da, boşluqlar hələ də qalmaqdadır və milli hazırlıq səviyyəsində böyük fərq vardır. İstər milli, istərsə də qlobal səviyyədə hazırlıq imkanlarının artırılması istiqamətində fəaliyyətin sürətləndirilməsi vacibdir.

«Təşviş və etinasızlıq» dövrünə son qoymaq üçün dünya hadisədən sonra reaksiya verən mövqeyindən çəkilməlidir. Əvəzində biz səylərimizi bütün

cəmiyyət səviyyəsində müxtəlif sahələri əhatə edən, çoxtərəfli fəaliyyətə əsaslanan uzunmüddətli hazırlığa yönəltməliyik.

Zati-aliləri, COVID-19 ilə mübarizədə nümayiş etdirdiyiniz liderlik və əzmkarlığınıza görə Sizə bir daha minnətdaram. Ümumdünya Səhiyyə Təşkilatı «Qoşulmama Hərəkatı» ilə əməkdaşlığa, onun üzvlərinin COVID-19 ilə mübarizəsinə dəstək verilməsinə və mühüm prinsiplərdən olan çoxtərəflilik, milli birlik və qlobal həmrəyliyə sadiqdir.

Hərəkatın təsisçilərinin baxışına uyğun olaraq və «Qoşulmama Hərəkatı»nın dəstəyi ilə biz bərabər, dinc və firavan dünya yarada və hər kəsə sağlamlığın bəxş edilməsi kimi mühüm məqsədimizə daha yaxşı şəkildə çata bilərik. Təşəkkür edirəm.

**İlham Əliyev:** Sağ olun, cənab baş direktor. İndi isə sözü Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamata verirəm.

## Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamatın çıxışı

Mən əvvəlcə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə təşəkkürümü bildirmək istəyirəm. Demək istəyirəm ki, dünyanın bütün ölkələri öz sərhədləri daxilində bu çağırışlarla üz-üzə qalıb.

Xanımlar və cənablar, zati-aliləri!

Virusun geniş yayılması bu ilin əvvəlində baş verdi. Əfsuslar olsun ki, bəzi gözlənilməz hallar və meyillər tüğyan etdi, yayıldı. Biz bu halda məhz

çoxtərəfli müttəfiqlik və tərəfdaşlığı, yardımı qurmağa müvəffəq olduq. Bu, Afrika qitəsində yaşayan əhaliyə lazımdır və biz bunun şahidi olduq.

Bu çoxtərəfli tərəfdaşlıq baş tutubdur. Biz Bandunq prinsiplərində olduğu kimi, üzv dövlətlər arasında həmrəyliyin, dostluğun öz təzahürünü tapması üçün əlimizdən gələni etmişik. Həmçinin əvvəlki vaxtlarda olduğu kimi – fövqəladə hallarda, cinayətkarlığın yayılmasının qarşısının alınmasında, təbii fəlakətlərin fəsadlarının aradan qaldırılmasında birgə olmuşuq. İndi isə biz həmin həmrəyliyi bu istiqamətdə də davam etdirməliyik. Lakin bu, bir neçə həftənin, ayın işi deyil. Bu bizim hamımızdan kollektiv tədbirlərin görülməsini tələb edir. Biz hamımız birlikdə olmasaq, səfərbər olmasaq qalib gələ bilmərik.

Qarşımızda bir fakt var ki, «Qoşulmama Hərəkatı»nın oynadığı rol danılmazdır, fundamentaldır, əhəmiyyətlidir. Həm ikitərəfli, həm çoxtərəfli qaydada tərəfdaşlıq, o cümlədən BMT ilə olan işçi münasibətlərimiz bizdən onu tələb edir ki, biz əl-ələ verib birgə addımlayaq. Bu virusa qarşı bütün dünya miqyasında aparılan mübarizəyə gəldikdə, istənilən hər hansı siyasi sərhədləri, hər hansı bir ideologiyanı, məfkurəni kənara qoymalıyıq. Biz nümayiş etdirməliyik ki, birgə işləməklə necə böyük ülvi məqsədlərə xidmət edən millətlərik, dövlətlərik. Bizim hamımızdan, hər birimizdən bu tələb olunur. Mövcud şərait göz qabağındadır. Elə bir mərhələdir ki, biz güclü olmalıyıq, yalnız birlikdə olaraq, ən yoxsul ölkələrə kömək edə bilərik.

Mən fürsətdən istifadə edərək, Ümumdünya Səhiyyə Təşkilatını fəaliyyətinə görə təbrik edirəm, onların əldə etdiyi nəticələri təqdir edirəm. Mən Afrika İttifaqı adından bildirmək istəyirəm ki, bu gün pandemiyanın qarşısının alınması üçün bizim də özümüzə məxsus strategiyalarımız formalaşıb. Onun iki sütunu vardır. Birincisi, səhiyyə, ikincisi isə sosial-iqtisadi sütun. COVID-19-a qarşı mübarizənin daha sonra hansı şəkildə aparacağımızla bağlı bizim planlarımız tərtib olunubdur. Hesab edirik ki, bu plan icra olunarsa, Afrika qitəsində bizim mübarizəmiz daha ciddi şəkildə güclənəcəkdir.

Regionumuzda olan vəziyyətlə tam tanışıq. Biz bilirik ki, hansı vəsaitlər toplanılmalıdır, hansı xam materiallar istifadə olunmalıdır. Bununla bağlı bizim ciddi əlaqələrimiz qurulubdur ki, hər hansı bir fasilə olmasın. Bu gün minlərlə müəssisə müflis olub. İnsanlar bu fəsadlardan davamlı şəkildə əziyyət çəkirlər. İstərdik ki, biz bundan sonra da «Qoşulmama Hərəkatı»nın timsalında dəstəyi görək, onu alaq və əhaliyə çatdıraq. Pandemiyanın qarşısının vaxtında alınması üçün Afrika dövlətlərinə, xüsusən də bəzi ölkələrə bu dəstək göstərilsin. Əgər bu olmasa, həmin dövlətlər üçün fəsadlar çox ağır olacaqdır. Afrika nəinki öz imkanlarına, həmçinin öz tərəfdaşlarının dəstəyinə arxalanır.

Biz beynəlxalq əməkdaşlığa hazırıq, buna açığıq. Biz tərəfdaşlarımızla birgə bu həmrəyliyin şahidi oluruq. Mən burada Çinin və Kubanın dəstəyini qeyd etmək istəyirəm. Onlar bizə ləvazimat yardımı

göstəriblər. Bu yardım Afrika dövlətlərinə çatdırılıbdır.

Xanımlar və cənablar, zati-aliləri, dünya çox keşməkeşli bir vaxtını yaşayır. Biz bilirik ki, mövcud şərait böyük problemlər yaradır, bir sıra ölkələrdə bu, siyasi hadisələrə səbəb olur. Biz bu halda bütün maraqlarımızı kənara qoyub həmrəylik nümayiş etdirməliyik. Belə bir vaxtda mən bütün dünyaya müraciət edərək bildirmək istəyirəm ki, bütün siyasi və iqtisadi ölçüləri kənara qoyub, bu işlərin qarşısının alınmasında bizə dəstək göstərilsin və Afrika qitəsi bundan yararlansın. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** İndi isə mən sizi Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Cozef Borelin videomüraciətini dinləməyə dəvət edirəm.

## Avropa Komissiyasının vitse-prezidenti Cozef Borelin videomüraciəti

Avropa İttifaqı adından qarşınızda çıxış etmək üçün məni dəvət etdiyinizə görə minnətdaram. Əgər nə zamansa dünyanın müxtəlif guşələrinin biri-birindən hansı şəkildə bağlı olduğunu bilmək istəyirdiksə, COVID-19 bunu özü göstərdi. Bu, oyanış üçün qlobal çağırışdır. Pandemiyanın dünyanın müxtəlif yerlərində tüğyan etdiyi bir zamanda heç kəs heç bir ölkədə, heç bir regionda özünü təhlükəsiz hiss etməyəcək. Mən əlaqələndirilmiş, çoxtərəfli yanaşmaya dəstək vermək üçün bu Zirvə görüşünü keçirdiyinə görə «Qoşulmama Hərəkatı»nın təşəb-

büsünü alqışlayıram. Pandemiyanın məğlub edilməsi qlobal yanaşmanı və əlaqələndirilmiş cavab tədbirlərini tələb edir. Lakin əgər biz davamlı qlobal bərpanı görmək istəyiriksə, onda yeni və innovativ çoxtərəfli tərəfdaşlıq vacib olacaqdır.

BMT səviyyəsində cavab tədbirlərinin əlaqələndirilməsinə və qlobal miqyasda atəşkəs çağırışlarına gəldikdə, Avropa İttifaqı BMT-nin Baş katibinin göstərdiyi səyləri tam dəstəkləyir. Bu, münaqişələrin qarşısının alınması, sülh quruculuğu və onun möhkəmləndirilməsi baxımından sülh və təhlükəsizlik gündəliyinin yenidən canlandırılması üçün fürsətdir. Aztəminatlı əhali üçün humanitar yardıma çıxış əlçatan olmalıdır.

Ümumdünya Səhiyyə Təşkilatı virusun yayılmasının qarşısının alınmasında çox mühüm rol oynayır. Avropa İttifaqı dünyada fövqəladə səhiyyə vəziyyətinin yarandığı dövrdə çoxtərəfli sistem daxilində Ümumdünya Səhiyyə Təşkilatının rolunu dəstəkləmək və qorumaq üçün lazımi resursları səfərbər etməkdə davam edəcək. Digər ölkələrdən və regional qruplardan dəstək almaq üçün mayın 18-də Dünya Səhiyyə Məclisində COVID-19-la bağlı qətnaməmizin layihəsinin təkan gücündən istifadə ediləcək. Bu təklifin dəstəklənməsi üçün burada bu gün təmsil olunmuş ölkələrə müraciət edirəm.

Hazırkı pandemiyanın aradan qaldırılması və gələcək epidemiyalara müqavimətin qurulması bir-biri ilə yanaşı getməlidir. Biz Ümumdünya Səhiyyə Təşkilatının və digər qlobal səhiyyə təşkilatlarının hərəkətə keçmək çağırışlarını alqışlayırıq ki, təhlü-

kəsiz, keyfiyyətli, səmərəli və əlçatan diaqnostikaya, müalicəyə və koronavirusa qarşı peyvəndlərə ədalətli, universal və bərabər çıxış formalaşdırılsın.

Ümumiyyətlə, Avropa İttifaqı və onun üzv dövlətləri Ümumdünya Səhiyyə Təşkilatının ən iri donorlarıdır. Avropa İttifaqı təkcə 2019-cu ildə təşkilata 146 milyon avro ayırmışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatına maliyyə dəstəyini gücləndiririk. Avropa İttifaqı bu gündən – 4 maydan etibarən 7,5 milyard avro həcmində vəsaitin toplanılması üçün digər qurumlara qoşulur.

Təxirəsalınmaz ictimai səhiyyə çağırışları ilə bərabər, beynəlxalq cavab tədbirləri insanları diqqətdə saxlamalı, bərabərsizlik aradan qaldırılmalı və hamı üçün insan hüquqlarını müdafiə etməlidir. Biz qlobal nəqliyyat və ticarət sistemində iş pozulmalarını minimal həddə salmalıyıq və ixraca məhdudiyyətlər tətbiq etməməliyik. Xüsusən də ərzaq və tibbi ləvazimatların təchiz xəttində ümumi düsturdan istifadə etməliyik. Əvvəldə söylədiyim kimi, pandemiya sərhəd tanımır. Bizim Avropada faciəvi surətdə ilkin təcrübəmiz olubdur.

Biz bütün Avropa İttifaqı ölkələrində bu böhranın yaratdığı ciddi sosial və iqtisadi itkiləri aradan qaldırmalıyıq. Bununla belə, bu bizi pandemiyaya qarşı qlobal mübarizəyə böyük töhfənin verilməsindən çəkindirməli deyil və çəkindirmir.

Bizim «Avropa heyəti» adlı paketimiz tərəfdaş ölkələrə dəstək verəcək, xüsusən də Afrikada ən zəif ölkələrə bu günə qədər 20 milyard avrodan çox vəsait verilib. Bu gün sizin məqsədiniz üzv ölkələr

arasında əsas ehtiyaclar və tələblər üzrə məlumat bazasının qurulmasından ibarətdir. Həmin məqsəd mümkün qədər səmərəli şəkildə Avropa İttifaqının bu baxımdan səylərinin təmin edilməsinə yardımçı ola bilər. Biz insan sağlamlığının və planetimizin durumunun bir-biri ilə necə bağlı olduğunu və mövcud bərabərsizliklərin bizi daha da zəiflətdiyini anlamağa başlayırıq. Bir sözlə, gəlin bundan özümüz üçün dərs götürək. Aydındır ki, biz daha çox iş görməliyik. İndi heç zaman görünmədiyi kimi, biz 2030-cu ilə olan gündəliyin tam icrasına və «İqlim dəyişikliyi üzrə Paris Sazişi»nə gəldikdə ümumi səylərimizə diqqət yetirməliyik.

Gəlin bu fürsətdən istifadə edək ki, sabahın dünyası daha mükəmməl olsun. Müxtəlifliyin zənginliyini özündə tərənnüm edən dünya mövcud olsun. Vətəndaşlarımız və planetimiz qorunsun. Biz birlikdə daha səmərəli ola bilərik. Bunu nümayiş etdirmək bizim məsuliyyətimizdir.

Pandemiyaya qarşı birgə mübarizənin aparılması bərpa mərhələsində və pandemiyadan sonra daha səmərəli dünyanın qurulmasında güclü, çoxtərəfli əməkdaşlıq üçün əsas yol olacaqdır. Biz Avropa İttifaqı olaraq, bu məqsədlə bütün tərəfdaşlarla işləməyə hazırıq və işləməyi arzulayırıq.

* * *

*Sonra Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani, Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelməcid Tebbun, Ku-*

*ba Respublikasının Prezidenti Migel Diaz-Kanel, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi, İndoneziya Respublikasının Prezidenti Coko Vidodo, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani, Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd uld Qazuani, Nikaraqua Respublikasının Prezidenti Daniel Orteqa, Nigeriya Federativ Respublikasının Prezidenti Muhammadu Buhari, Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi, Fələstin Dövlətinin Prezidenti Mahmud Abbas, Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Qotabaya Racapaksa, Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Abdelrahman al-Burhan, Cənubi Afrika Respublikasının Prezidenti Siril Ramafosa, Toqo Respublikasının Prezidenti Faure Qnassinqbenin müraciətini oxuyan bu ölkənin Səhiyyə və İctimai Gigiyena naziri Mustafa Mljiyava, Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov, Venesuela-Bolivar Respublikasının Prezidenti Nikolas Maduro, Zimbabve Respublikasının Prezidenti Emmerson Mnanqaqva, Namibiya Respublikasının vitse-prezidenti Nanqolo Mbumba, Belarus Respublikasının Baş Naziri Sergey Rumas, Efiopiya Federativ Demokratik Respublikasının Baş Naziri Abiy Əhməd, Hindistan Respublikasının Baş Naziri Narendra Modi, Malayziyanın Baş Naziri Muhiddin Yassin, Nepal Federativ Demokratik Respublikasının Baş Naziri Şarma Oli, Vyetnam Sosialist Respublikasının Baş Naziri Nquyen Xuan Fuk, Bəhreyn Krallığı Baş Nazirinin müavini şeyx Məhəmməd Bin Mübarək əl-Xəli-*

*fə, Banqladeş Xalq Respublikasının Xarici İşlər naziri Abdul Momen, Qambiya Respublikasının Xarici İşlər naziri Mamadou Tanqara, Qana Respublikasının Xarici İşlər və Regional İnteqrasiya naziri Şirli Ayorkor Botçvey, Küveyt Əmirliyinin Xarici İşlər naziri Əhməd Nasir əl-Məhəmməd əl-Sabah, Mavriki Respublikasının Xarici İşlər naziri Nankoomar Bodha, Mərakeş Krallığının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Nasser Bourita, Uqanda Respublikasının Xarici İşlər naziri Sam Kahamba Kutesa, İordaniya Haşimilər Krallığının Baş Nazirlik üzrə Dövlət naziri Sami Davud çıxış etdilər.*

*Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşünə yekun vurdu.*

## Azərbaycan Prezidenti İlham Əliyevin yekun çıxışı

Mən bütün çıxışçılara təşəkkür edirəm. Gündəliyimizin növbəti müddəasına keçirik. Bu da yekun Bəyannaməmizin qəbul edilməsidir. Bəyannamə artıq razılaşdırılıb. Bu səbəbdən Bəyannaməni bununla da qəbul olunmuş hesab edirik. Konstruktiv iştiraka və Bəyannamənin qəbulunda göstərdiyiniz münasibətə görə təşəkkür edirəm.

Hörmətli tədbir iştirakçıları, bizim dəvətimizi qəbul edərək, Zirvə görüşündə iştirak etdiyinizə görə sizin hamınıza bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm.

«Qoşulmama Hərəkatı»na üzv ölkələrin bir-birinin problemlərini anlayışla qarşılaması, həmrəylik

nümayiş etdirməsi və çoxtərəfli əməkdaşlığa üstünlük verməsi böyük əhəmiyyət kəsb edir. Qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq xüsusilə aktualdır. Əminəm ki, bu gün dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri tərəfindən edilən çıxışlarda səsləndirilən dəyərli fikirlər və təkliflər koronavirus xəstəliyinə qarşı bizim birgə mübarizəmizə töhfə verəcəkdir.

Eyni zamanda, bu xəstəliyin mənfi təsirlərinin aradan qaldırılması məqsədilə pandemiyadan sonrakı dövr üçün iqtisadiyyat, ticarət, nəqliyyat və digər sahələrdə əməkdaşlıq üzrə səylərimizi daha da artırmağımız faydalı olardı.

Zirvə görüşü «Qoşulmama Hərəkatı»nın digər beynəlxalq təsisatlar və dünya birliyi ilə əməkdaşlığa hazır olduğunu göstərdi. Hesab edirəm ki, müzakirələrimiz həm də Təmas Qrupu formatının səmərəli bir mexanizm olduğunu nümayiş etdirdi. Gələcəkdə Təmas Qrupunun tematik alt işçi qrupları da təsis edilə bilər.

Bir daha əminliyimi bildirmək istərdim ki, biz birlikdə pandemiyaya qalib gələcəyik.

«Qoşulmama Hərəkatı»nın Təmas Qrupunun Zirvə görüşünü bağlı elan edirəm. Təşəkkür edirəm.

* * *

*«Qoşulmama Hərəkatı»nda 120 dövlətin təmsil olunduğunu nəzərə alaraq, Zirvə görüşü coğrafi təmsilçilik prinsipi əsasında Avropa, Asiya, Afrika və Latın Amerikasında yerləşən ölkələrin iştirakı ilə*

*Təmas Qrupu formatında keçirilib. Xatırladaq ki, 2019-cu il oktyabrın 25–26-da «Qoşulmama Hərəkatı»nın XVIII Zirvə görüşü Prezident İlham Əliyevin sədrliyi ilə Azərbaycanda keçirilib. Üzv dövlətlərin yekdil dəstəyi və razılığı ilə 2019–2022-ci illər üzrə «Qoşulmama Hərəkatı»nın sədrliyini Azərbaycan Respublikası öz üzərinə götürüb. Çoxtərəfli diplomatiyanın təşviq edilməsi, «Qoşulmama Hərəkatı»nın üzv dövlətləri arasında əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi Prezident İlham Əliyev tərəfindən Azərbaycanın «Qoşulmama Hərəkatı»nda sədrliyinin prioritetlərindən biri kimi müəyyən edilibdir.*

*Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə bu il aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü də keçirilib. Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçiribdir. Qeyd olunan tədbirlər qlobal səviyyədə beynəlxalq həmrəyliyin daha da möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli töhfədir.*

*Beləliklə, Azərbaycan nəinki milli səviyyədə COVID-19-la mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda, regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfəsini verir.*

## BAKIDA MODUL TİPLİ XƏSTƏXANANIN AÇILIŞI MƏRASİMİ

*7 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 7-də Bakıda modul tipli xəstəxana kompleksinin açılışında iştirak etmişlər.*

*Dövlət başçısına və xanımına tibb müəssisəsində yaradılmış şərait barədə məlumat verildi.*

*Bildirildi ki, paytaxtda istifadəyə verilmiş modul tipli ilk xəstəxana kompleksinin tikinti və quraşdırma işləri 3 həftə ərzində tamamlanıb. Sahəsi 3000 kvadratmetr olan bu kompleks 1 saylı Kliniki Tibbi Mərkəzin nəzdində fəaliyyət göstərəcək. 3 korpusdan ibarət, ümumilikdə 100 palatada 200 çarpayı yeri olan modul tipli xəstəxana kompleksində orta-ağır simptomlu infeksion xəstələrin qəbulu və müalicəsi üçün hərtərəfli şərait yaradılıb. Ehtiyac yaranacağı təqdirdə, əlavə avadanlıqlar təchiz olunmaqla, palataların reanimasiyaya çevrilməsi də mümkündür.*

*Kompleks bütün zəruri sistem və avadanlıqlarla təchiz olunub. Burada quraşdırılmış xüsusi havalandırma sistemi havanı ventilyasiya qurğusu ilə təmizlədikdən sonra palatalara ötürür. May ayı ərzində modul tipli daha 5 xəstəxana kompleksinin, iyun ayının ortalarınadək isə digər 4 kompleksin istifadəyə*

*verilməsi nəzərdə tutulubdur. Bu komplekslərin müəyyən edilmiş şəhər və rayonlardakı mövcud xəstəxanaların yaxınlığında quraşdırılaraq, onlara təhkim edilməsi nəzərdə tutulur ki, bu da koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi koordinasiyanı təmin edəcəkdir. Modul tipli yardımçı xəstəxana korpuslarının mühüm üstünlükləri vardır. Qısa müddət ərzində sadə beton bünövrə üzərində quraşdırılan bu tikililər pandemiya ilə mübarizə başa çatdıqdan sonra, yəni zərurət olmadıqda tezliklə və asanlıqla digər sahələrə köçürülə və başqa məqsədlər üçün də istifadə edilə bilər.*

*Modul tipli xəstəxana kompleksi ilə tanışlıqdan sonra dövlət başçısı və xanımı tibb işçiləri ilə görüşdülər.*

*Dövlət başçısı görüşdə nitq söylədi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqi**

Bu gün biz modul tipli yeni xəstəxananın açılışını qeyd edirik. Bu çox əlamətdar hadisədir. Hər bir xəstəxananın açılışı əlamətdar hadisədir. Son 16 il ərzində ölkəmizdə 700-dən çox səhiyyə ocağının tikilib və ya əsaslı təmir edildiyini nəzərə alsaq, təsəvvür etmək çətin deyil ki, nə qədər böyük işlər görülübdür. Biz hesab edirdik ki, artıq mövcud xəstəxana fondu, xüsusilə müasir xəstəxanaların fəaliyyəti uzun illər ərzində tələbatımızı ödəyəcək.

Ancaq koronavirus pandemiyası, əlbəttə, öz qaydalarını diktə edir, ona görə yeni xəstəxanaların ti-

kintisi labüddür. Əlbəttə, xəstəxana tikintisi çox vaxt aparır – layihələndirmə işləri, onun texniki tərəfi, yerin seçilməsi. Hesab edirəm, biz yeni texnologiyalara üstünlük verərək, düzgün seçim etdik ki, modul tipli, tez bir müddətdə yığılan və sonra söküləb başqa yerə daşına biləcək xəstəxanaların tikintisini təmin edək. Mən bir müddət bundan öncə ictimaiyyətə bu haqda məlumat vermişdim və bu gün bu xəstəxananın açılışını qeyd edirik. Cəmi bir ay ərzində 200 çarpayılıq xəstəxana istifadəyə verilir.

Əlbəttə, koronavirusa qarşı mübarizədə bu xəstəxana və bundan sonra tikiləcək xəstəxanalar böyük rol oynayacaq. Ölkəmizin müxtəlif bölgələrində 10 belə xəstəxananın tikintisi nəzərdə tutulur. Əlbəttə ki, çarpayı sayının artırılması hər bir ölkə üçün koronavirusa qarşı mübarizədə xüsusi rol oynayır.

Biz indi bəzi inkişaf etmiş ölkələrin təcrübəsini görürük. Görürük ki, orada çarpayı çatışmazlığı ucbatından xəstələr vaxtında müalicə ala bilmir, koronavirusa yoluxmuş bir çox insan, ümumiyyətlə, xəstəxanalara götürülmür, onlar evdə qalırlar. Əlbəttə, evdə onları müalicə, onların vəziyyətini monitorinq etmək qeyri-mümkündür.

Azərbaycanda koronavirusa qarşı mübarizədə bizim təcrübəmiz hesab edirəm ki, ən mütərəqqi və ən insansevər təcrübədir. Çünki bizim bütün xəstələrimiz xəstəxanalarda yerləşdirilib və həkimlər onlara gecə-gündüz xidmət edirlər. Yeni xəstəxanaların tikintisi, əlbəttə, gələcəyə hesablanıb. Çünki hazırda mövcud xəstəxana fondu bizim tələbatımızı

ödəyir və 20-dən çox dövlət xəstəxanası koronavirus xəstələrinin sərəncamına verilibdir, o cümlədən ən yeni və ən müasir 575 çarpayılıq «Yeni klinika». Orada hazırda xəstələr müalicə olunurlar. Bu, gələcəyə hesablanmış düzgün addımdır, çünki heç kim bilmir pandemiya nə qədər davam edəcək, heç kim bilmir bunun gələcək mərhələləri nədən ibarət olacaqdır. Ona görə biz tam hazır olmalıyıq.

Bizim atdığımız bütün addımlar qabaqlayıcı xarakter daşıyır. Bu xəstəxana və buna oxşar 9 xəstəxananın istifadəyə verilməsi 1-2 ay ərzində nəzərdə tutulub. Bütün bu addımlar qabaqlayıcı xarakter daşıyır və məhz buna görə hesab edirəm ki, koronavirusla mübarizədə biz birinci mərhələdə qalib gələ bilmişik. Ancaq mübarizə davam edir, koronavirus heç bir yerə qeyb olmayıb, dolaşır və dolaşacaq və bunu hər kəs bilməlidir.

Bu gün testlərin aparılması istiqamətində də böyük uğurlar vardır. Adambaşına keçirilən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Testlərin keçirilməsi üçün yeni laboratoriyalar alınıbdır. Onların sayı 23-ə çatdırılıb və yeni laboratoriyaların yaradılması gündəlikdə duran məsələdir.

Bütün lazımi tibbi avadanlıq alınır. Bildiyiniz kimi, Prezidentin ehtiyat fondundan tibbi avadanlıqların, ləvazimatların alınması və işi düzgün təşkil etmək üçün 100 milyon manat vəsait ayrılıbdır. Bu, birinci tranşdır, əlavə 150 milyon manat artıq hazır vəziyyətdədir, lazım olan vaxtda biz ondan da istifadə edəcəyik. Əlbəttə, bütün bu kompleks tədbir-

lər – testlərin keçirilməsi, xəstəxanaların, laboratoriyaların fəaliyyəti və həkimlərin peşəkarlığı, işin düzgün təşkili bizə imkan verdi ki, hazırda bu vəziyyətdən istədiyimiz kimi, az itkilərlə çıxaq. Hər bir insanın ölümü onun yaxınları, qohumları üçün böyük faciədir və hər bir insanın həyatı bizim üçün qiymətlidir, dəyərlidir. Ancaq dünyada hər şey müqayisədə ölçülür və biz görəndə ki, inkişaf etmiş ölkələrdə gündə yüzlərlə, bəzi hallarda 1000-dən çox insan vəfat edir, əlbəttə, Azərbaycanda bu sahədə görülmüş işlər xüsusi əhəmiyyət daşıyır və bunu hər kəs görür. Hətta bizimlə eyni sayda əhalisi olan ölkələrdə artıq uzun müddətdir ki, hər gün yüzlərlə insan vəfat edir. Bu ölkələrin səhiyyə sistemi həmişə bütün dünyaya, o cümlədən bizə nümunə kimi göstərilirdi. Ancaq bu dövrdə hər kəs gördü ki, orada vəziyyət artıq böhranın pik həddinə çatıbdır.

Müqayisə aparılanda Azərbaycan dövlətinin gördüyü işlər böyük üstünlük təşkil edir. Biz əsas diqqətimizi vəziyyəti nəzarətdə saxlamaqda görürük və birinci mərhələdə buna nail ola bilmişik. Ona görə kompleks tədbirlərin görülməsi, o cümlədən karantin rejiminin tədricən, vəziyyətə uyğun olaraq qüvvəyə minməsi, onun sərtləşdirilməsi və son günlər ərzində yumşaldılması – bütün bunlar ölçülüb-biçilmiş addımlardır.

Karantin rejimi nə üçün sərtləşdirilirdi? Yoluxma hallarının geniş yayılmasının qarşısının alınması üçün və biz buna nail olduq. Birinci mərhələdə bu virus bizə, belə demək mümkündürsə, idxal edilmişdi, amma ondan sonra daxili yoluxma halları

baş verdi. Dərhal operativ tədbirlər görüldü və məhz sərt karantin qaydalarına görə biz bu mərhələni az itkilərlə başa vurduq. Görəndə ki, artıq 3 həftə ərzində hər gün sağalanların sayı yoluxanların sayından xeyli çoxdur, onda biz artıq yumşaltma tədbirlərini görməyə başladıq. Ancaq əfsuslar olsun ki, bəzi adamlar bunu karantin rejiminin ləğvi kimi qəbul etdilər. Əfsuslar olsun ki, bəzi adamlar karantin rejiminə əməl etmirlər. Yumşalma tədbirləri yalnız bir məqsədi güdürdü ki, insanların öyrəşdiyi həyat tərzi müəyyən dərəcədə bərpa olunsun. Karantin rejiminin yumşaldılması o demək deyil ki, karantin başa çatıb, xeyr. Karantin rejimi ən azı mayın 31-nə qədər qüvvədə olacaq və ondan sonra əgər lazım olarsa, uzadılacaq. Ona görə son günlərin mənzərəsi, sözün düzü, məni çox üzür və narahat edir. Çünki son 2-3 gündə xəstələnənlərin sayı sağalanların sayından çoxdur və əgər bu dinamika kəskin artarsa – mən bunu açıq demək istəyirəm və hər kəs bunu bilsin – biz məcbur olub karantin rejimini əvvəlki vəziyyətə gətirəcəyik, sərtləşdirəcəyik, qaydaları pozanlara qarşı da daha ciddi cəza tədbirləri görüləcək ki, biz vəziyyəti daim nəzarətdə saxlayaq.

Azərbaycan dövlətinin siyasəti və Operativ Qərargahın bu işlərə gündəlik rəhbərlik etməsi əsas bir məqsədi güdür ki, biz vətəndaşların həyatını, sağlamlığını qoruyaq. Eyni zamanda, bu məhdudlaşdırıcı rejim çərçivəsində insanlara maksimum imkan yaradaq ki, onlar öyrəşdiyi gündəlik həyat tərzindən çox da uzaqlaşmasınlar. Ona görə biz bu

yumşaldıcı tədbirləri gördük. Aprelin 27-dən, sonra mayın 4-dən daha da yumşaq rejim qüvvədədir. Ancaq biz nəyi görürük? Onu görürük ki, bəzi məsuliyyətsiz vətəndaşlar heç bir qaydalara əməl etmirlər, maska taxmırlar, məsafə saxlamırlar, özlərini elə aparırlar ki, sanki virus artıq məhv olub. Buna qətiyyən yol vermək olmaz. Ona görə bu adamlara qarşı ciddi tədbirlər görüləcək. Hamı bunu bilsin və nəticə çıxarsın. Biz imkan verə bilmərik ki, hansısa məsuliyyətsiz vətəndaşlara görə insanların həyatı risk altına düşsün. Bu, qətiyyən mümkün deyil.

İndi ölkəmizin bəzi bölgələrində sanki pandemiyanın yeni mərhələsi başlayır, xüsusilə Gəncə şəhərində. Buna çox ciddi yanaşmaq lazımdır. Ona görə indiki karantin rejimində Bakı, Sumqayıt, Abşeron, Gəncə, Lənkəran üçün xüsusi rejim var. Nəyə görə? Çünki bu yerlərdə, bu şəhərlərdə xəstələrin sayı, yoluxma halları daha çoxdur. Son günlərdə yoluxanların, demək olar ki, 30, 40, 50 faizi Gəncə şəhərinin payına düşür. Deməli, orada vəziyyət narahatlıq doğurmalıdır. İndi bu, araşdırılır, səbəbi nədir? Əsas səbəb insanlar və rəhbər orqanlar tərəfindən vaxtında tədbirlərin görülməməsidir. Harada ki, vaxtında tədbirlər görülür, harada ki, qəbul edilmiş qaydalar icra edilir, orada vəziyyət nəzarət altındadır. Biz nəzarəti gücləndirəcəyik. Ona görə karantin rejimi ilə bağlı sərtləşdirici tədbirlər istisna deyil. Bir daha demək istəyirəm ki, biz virusla mübarizədə birinci mərhələdə qalib gəlmişik. Virus qeyb olmayıb, burada dolaşır və dolaşacaq. Bunu

həkimlər, mütəxəssislər çox yaxşı bilirlər, istərdim ki, vətəndaşlar da bilsinlər. Maarifləndirmə işləri daha geniş vüsət almalıdır. Bəziləri hesab edir ki, bəli, virus daha yoxdur, bütün dünya böhran içindədir, Azərbaycan isə sanki dənizdə bir adadır, burada hər şey yaxşıdır və yaxşı olacaqdır. Əlbəttə, bir çox ölkələrə nisbətən yaxşıdır, ancaq buna mütləq formada yaxşı demək olmaz.

Əlbəttə, vətəndaşlar şəxsi gigiyenaya riayət etməlidirlər. Hesab edirəm ki, uzun müddət bundan sonra bu, bir növ yeni reallıqdır və biz bu reallıqla barışmalıyıq, istəsək də, istəməsək də. Maska taxmaq, məsafə saxlamaq, gündə bir neçə dəfə sabunla əlləri yumaq, dezinfeksiya vasitələrindən istifadə etmək bir qayda olmalıdır. İndi bilirsiniz, biz bəzən özümüzü bir neçə ölkə ilə müqayisə edirik, deyirik – bəli, mən də bu gün bunu deyirəm – həqiqətdir ki, bir çox inkişaf etmiş ölkələrdə vəziyyət acınacaqlıdır, böhranlıdır. Azərbaycandan fərqli olaraq o ölkələr bilmirlər ki, bu böhranla necə bacarsınlar. Amma digər tərəfdən biz görürük ki, inkişaf etmiş ölkələrdə, məsuliyyət, nizam-intizam yüksək səviyyədə olan ölkələrdə insanlar məsafə saxlayırlar. Biz televiziyada görürük, növbə var, adamlar öz aralarında bir metr yarım, iki metr məsafə saxlayırlar, maska taxırlar. Amma bizdə məsafə saxlayan varmı? Açın istənilən kanala baxın. Dünən mən baxmışam, bankın qabağında bir-birinin yanında durublar, maska yox, müxbirlər soruşurlar ki, nə üçün? Elə bil ki, məktəb uşaqlarıdır, min cür bəhanə gətirirlər – yadımdan çıxdı, havada maska lazım

deyil, cibimdədir. Biz belə münasibətə dözə bilmərik. Bu, zarafat deyil. Hər kəs bunu çox ciddi qəbul etməlidir. Belə adamlara qarşı ciddi cəza tədbirləri görüləcək. Mən bu gün bütün aidiyyəti orqanlara müraciət edərək deyirəm, cəza tədbirlərini sərtləşdirin. Biz vətəndaşları qorumalıyıq. Biz imkan verə bilmərik ki, hansısa intizamı pozan, məsuliyyətsiz adama görə vətəndaşlarımız xəstələnsin, ölsün. Ona görə bu qaydalara hər kəs riayət etməlidir, özü də bundan sonra uzun müddət ərzində.

Həkimlər, mütəxəssislər yaxşı bilirlər və geniş ictimaiyyət də bilməlidir ki, koronavirusa qarşı mübarizə o vaxt başa çatacaq ki, peyvənd hazırlanacaq. İndi bütün dünya bu peyvəndi gözləyir. Peyvəndin icad edilməsi üzərində bir çox ölkələrdə alimlər işləyir. Peyvənd hazırlanandan sonra artıq deyə bilərik ki, bəli, biz özümüzü bu virusdan qoruya bilərik. O vaxta qədər virus var və bunu hər kəs bilsin.

Hesab edirəm ki, bütün kompleks tədbirlər, vətəndaşların məsuliyyəti və nizam-intizamı nəticəsində biz bundan sonra da bu vəziyyəti nəzarət altında saxlaya biləcəyik. Çünki burada məsələ ancaq dövlət qurumlarının fəaliyyətindən asılı deyil. Dövlət qurumları, vətəndaş cəmiyyəti, vətəndaşlar – biz bir nöqtəyə vurmalıyıq. Biz həmrəylik, birlik göstərmişik. Həmrəyliyin təzahürlərindən biri də odur ki, həm dövlət, həm özəl sektor, sahibkarlar, həm də ayrı-ayrı adamlar imkansız insanlara əl tutur, kömək göstərir, onları ərzaq malları ilə təchiz edirlər. Mənim təşəbbüsümlə yaradılmış Koronavirusla

Mübarizəyə Dəstək Fonduna ianələr verirlər. Artıq fondda 100 milyon manatdan çox vəsait toplanılıb. Bütün bunlar bizim xalqımızın ən yüksək xüsusiyyətlərini göstərir: mərhəmət, imkansızlara diqqət, yardım, birlik, həmrəylik.

Amma məsuliyyət də, nizam-intizam da göstərməliyik. Hələ ki, biz bunu müraciət formasında dilə gətiririk. Amma lazım olsa, bu, məcburi qaydada tətbiq ediləcəkdir.

Həkimlər öz həyatını, sağlamlığını, yaxınlarının sağlamlığını risk altına qoyurlar, xəstələrə gecə-gündüz xidmət edirlər. Biz həkimlərin fədakarlığını yüksək qiymətləndiririk. Bir daha Azərbaycan xalqı gördü ki, ən çətin dövrdə, bu pandemiya dövründə aparıcı şəxs, aparıcı adam insanların həyatını qoruyan həkimlərdir. Əlbəttə, bütün başqa amillərlə bərabər, dövlət lazımi tədbirləri görür. Amma son nəticədə xəstələri müalicə edən, onları həyata qaytaran həkimlərdir. Həkimlər gecə-gündüz işləyirlər, insanları xilas edirlər. Bu xəstəlikdən canını qurtaran bütün pasiyentlər ilk növbədə, həkimlərə minnətdar olmalıdırlar. Bizim polis əməkdaşları, Daxili Qoşunların əməkdaşları gecə-gündüz küçələrdə həyatlarını risk altına atır, camaatı başa salmağa çalışırlar. Biz onların əməyini yerə vurmamalıyıq. Nəyə görə kimsə özü üçün hansısa xüsusi imtiyaz yaratmaq istəyir?! Buna gəldikdə də bildirməliyəm, pandemiya bütün dünyaya göstərdi ki, bu xəstəlik qarşısında hamı bərabərdir. Heç kimə heç bir imtiyaz verilmir və verilməyəcək. Bu bizim siyasətimizin əsas hissəsindən biridir ki, qanunun alili-

yi, bərabərlik daim bərqərar olmalıdır. Ona görə heç kimə heç bir imtiyaz verilməyəcək. Odur ki, karantin rejimini pozan, vaxtını hansısa iaşə obyektində keçirmək istəyən adamlara qarşı da – onlar müəyyən olunduqda ciddi cəza tədbirləri görülür, tətbiq olunur, o cümlədən vəzifəli şəxslərə qarşı. Karantin rejimini pozduqlarına görə artıq bir neçəsi cəzalandırılıb.

Eyni zamanda, əfsuslar olsun ki, biz bu vəziyyətdə milli xainlərin də üzünü gördük. Kasıbın malına, ərzaq payına göz dikən xaindir, bunun başqa adı yoxdur. Bu, oğurluq deyil, bu, kiçik bir cinayət deyil. Heydər Əliyev Fondu tərəfindən göndərilən ərzaq paylarına sahib çıxmaq istəyən vəzifəli şəxslərin hərəkətinə nə demək olar? Ancaq xəyanət. Mən demişəm, bir daha demək istəyirəm ki, bir çoxları pandemiyanı müharibə adlandırırlar. Müharibə əslində göz qabağındadır. Bu şəraitdə belə adamlara nə ad vermək olar? Ona görə bu adamların cəzalandırılması qaçılmazdır. Eyni zamanda, xüsusilə indiki şəraitdə kasıb adamların maaşını mənimsəmək, ictimai işlərə cəlb edilən vətəndaşların ödəniş kartlarını götürüb ondan pul çəkmək xəyanətdir. Son günlərdə həbs olunmuş icra başçılarının beşi də bu bəd əməllərdə təqsirləndirilir. Son həbslər də onu göstərir. O icra başçılarının, onların yaxınlarının, köməkçilərinin iş otaqlarından yüzlərlə ödəmə kartı çıxıb, yüzlərlə. Mənə verilən məlumata görə, son tutulan icra başçısının iş otağından 140 ödəmə kartı çıxıb. Bu nədir? Biz bu kartı özünə iş tapa bilməyənlərə veririk. Əvvəl də verirdik. Biz ildə 30 min,

40 min belə adamı ictimai işlərə cəlb edirdik – hansısa binanın rənglənməsi, yaxud da ki, onların bağçaya xidmət etməsi və digər işlərə. Onlar minimum əməkhaqqı səviyyəsində maaş alırdılar, bu gün 250 manat. Amma onlara çatacaq kartlar icra başçıları tərəfindən götürülür, sonra o pullar mənimsənilir. Kasıb adamlar da işsiz və pulsuz qalır. Bu, adi cinayətdirmi? Yox. Bu xəyanətdir. Bunun başqa adı yoxdur. İndiki şəraitdə də bunu davam etdirirlər. Bu adamlarda vicdan deyilən şey yoxdur, vicdanı tam itiriblər. Biz belə ünsürlərə qarşı bundan sonra da amansız mübarizə aparacağıq. Bu gün cəmiyyətimizin bütün sağlam qüvvələri bir amal ətrafında birləşib ki, bu vəziyyətdən az itkilərlə çıxaq, insanları qoruyaq, xəstələri sağaldaq.

Həkimləri qoruyaq ki, onlar insanları qorusunlar, özlərini qorusunlar. Ona görə belə bir vəziyyətdə belə çirkin addımların atılması tamamilə qəbuledilməzdir. Bir daha demək istəyirəm ki, bu addımları atanlar, bu cinayətləri törədənlər layiqli cəzalarını alacaqlar.

Mən deyə bilərəm ki, pandemiyadan, əlbəttə, bizim iqtisadiyyatımız da zərər çəkir. İstisna deyil ki, ikinci rübün yekunları o qədər də ürəkaçan olmayacaq. Ancaq bu, ikinci dərəcəli məsələdir. Birinci dərəcəli məsələ vətəndaşların sağlamlığıdır. Biz bilirik ki, əgər karantin rejimini dediyim bu səbəblərə görə sərtləşdirsək, iqtisadi vəziyyətimizə bunun çox mənfi təsiri olacaqdır. Amma biz buna gedəcəyik. Çünki insanların sağlamlığı və sosial rifahı birinci yerdədir. Məhz bu məqsədlə 3,5 milyard manat və-

sait ayrılıb. Pandemiyadan ən çox ziyan çəkən sahələrdə işini itirən 700 minə yaxın vətəndaşın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən verilir. Bu məqsədlə 600 min işsiz, aztəminatlı və qeyri-formal məşğulluqla pul qazanan insanlar dövlət tərəfindən maddi yardımla təmin edilir. Bütün bu işləri biz görürük ki, vətəndaşların sosial və maddi vəziyyətini sabit saxlayaq. Bütün bu addımlar, əlbəttə ki, beynəlxalq birlik tərəfindən də qiymətləndirilir. Mən bunu demişəm, bir daha demək istəyirəm ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda pandemiyaya qarşı mübarizə istiqamətində görülmüş tədbirləri yüksək qiymətləndirib, bizi nümunəvi ölkə adlandırıbdır. Bu, həqiqətən də belədir. Azərbaycanda həm ölkə daxilində ilk növbədə, bütün lazımi tədbirləri görürük, həm də beynəlxalq müstəvidə öz sözümüzü deyirik. Mən deyə bilərəm ki, biz 10-dan çox ölkəyə yardım etmişik. Texniki yardım, maliyyə yardımı, təyyarələr göndərmişik, yük təyyarələri o ölkələrə ki, bizə müraciət edib və onların maddi imkanları məhduddur, belə deyək, müraciət edəcəyi başqa bir ölkə də yoxdur. 10-dan çox ölkəyə yardım etmişik və hesab edirəm ki, düz etmişik. Çünki məhz belə günlərdə, belə dövrdə insanların da, ölkələrin də əsl siması üzə çıxır. Yaxşı vəziyyətdə hər kəs hər kəslə dostdur. Hər kəs yaxşı sözlər deyir, beynəlxalq tədbirlərdə çıxışlar edir, qarşılıqlı dəstək haqqında danışır, amma əməldə bunu göstərmək lazımdır. Biz o ölkələrdənik ki, əməldə bunu göstəririk. Pandemiyaya qarşı qlobal mübarizədə biz birinci ölkələrdən olduq ki, Ümum-

dünya Səhiyyə Təşkilatına 5 milyon dollar donor ianəsi verdik. Bu yaxınlarda artıq «Qoşulmama Hərəkatı»nın sədri kimi, əlavə 5 milyon dollar da ianə verdik ki, Ümumdünya Səhiyyə Təşkilatı bizimlə razılaşdırmaqla, Hərəkata üzv ölkələrə yardım göstərsin. Bilirsiniz ki, mənim təşəbbüsümlə iki Zirvə görüşü keçirildi – Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və «Qoşulmama Hərəkatı»nın Zirvə görüşü. Hər iki təsisatda Azərbaycan hazırda sədrdir. Bu təşəbbüs vaxtında və yerində olan təşəbbüsdür. Demək olar ki, bütün dünya birliyi bunu alqışlayır və Azərbaycanın rolunu qeyd edir.

Biz bunu etməyə də bilərdik. Kimsə bizə bir söz deyəcəkdi? Yox. Bu ağır dövrdə biz bu təşəbbüsü irəli sürməsəydik kim bizə irad tuta bilərdi?! Amma biz bunu etdik. Çünki biz məsuliyyətli ölkəyik və etibarlı tərəfdaşıq. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü dünya miqyasında onlayn formatda birinci Zirvə görüşü idi.

«Qoşulmama Hərəkatı»nın Zirvə görüşü isə 120 ölkəni birləşdirir. Onu da bildirməliyəm ki, bu Zirvə görüşünə təbrik müraciətlərini BMT-nin Baş katibi Quterreş, BMT Baş Assambleyasının prezidenti, Afrika İttifaqının sədri, Avropa Komissiyasının vitse-prezidenti göndərmişdilər. Onu da bildirməliyəm ki, «Qoşulmama Hərəkatı» ilə Avropa İttifaqı arasında, mən bilən, bu günə qədər hər hansı bir ciddi təmas olmayıb. Çünki bu iki təsisat fərqli qütblərdə yerləşir və bir çox hallarda onların baxışları üst-üstə düşmür. Ona görə bu da bir ilkdir. Əgər biz ölkələrin sayını götürsək, görərik ki, «Qo-

şulmama Hərəkatı»nda 120 üzv, Avropa İttifaqında 27 üzv, artıq 147 və Afrika İttifaqında 55 üzv fəaliyyət göstərir. Düzdür, onların bəziləri «Qoşulmama Hərəkatı»nın üzvüdür. Buna baxmayaraq, dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanın təşəbbüsü ilə COVID-19-a qarşı vahid platforma formalaşdırdı. Mən tam səmimiyyətlə deyə bilərəm, özümüzü tərifləmək üçün yox, sadəcə olaraq, həqiqəti dilə gətirmək üçün, Azərbaycan dünyanı birləşdirir.

Birincisi, milli zəmində, yəni ölkə ərazisində görülən bütün işlər, tədbirlər nümunəvi xarakter daşıyır. Sosial-iqtisadi paket adambaşına düşən xərclərə görə dünyada bəlkə də birincilər sırasındadır. Beynəlxalq müstəvidə özünü məsuliyyətli üzv kimi aparıb və yenə də ümumi daxili məhsula görə bizim qədər donor ianəsi verən olmayıb. Düzdür, bəzi ölkələr böyük rəqəmlər bəyan ediblər, amma hanı o vəsait? Yoxdur. Bizimki isə nağd verilib. Beynəlxalq təşkilatlar çərçivəsində irəli sürülmüş təşəbbüslər də dünya birliyi tərəfindən birmənalı şəkildə yüksək qiymətləndirilir və təqdir edilir. Bax, bu çətin dövrdə hər kəsin əsl siması üzə çıxdı. Kim nəyə qadirdir, kim ölkəni necə idarə edir, kim böhrana qarşı necə hərəkət edir, kim xalqı, cəmiyyəti səfərbər edə bilib, kim isə, sadəcə olaraq, xarici yardıma möhtac qala-qala başqasından yardım diləyir. Ona görə həm özümüzə, xalqımıza, həm də dünyaya bir daha göstərdik ki, biz ləyaqətli ölkəyik. Bizim üçün milli maraqlar prioritet məsələdir. İnsanların sağlamlığı isə milli maraqlar arasında prioritet yerdədir.

Bugünkü açılış böyük rəmzi məna daşıyır. Birincisi, ona görə ki, 10 xəstəxana işə düşəndən sonra bizim əlavə 2000 çarpayımız olacaqdır. Əsas odur ki, biz qısa müddət ərzində bütün resursları səfərbər edib yüksək nailiyyətlərə nail ola bilmişik.

Əlbəttə, həkimlərin fəaliyyətini bir daha qeyd etmək istərdim. Həkimlər doğrudan da böyük fədakarlıq, qəhrəmanlıq göstərirlər. Sizə bundan sonra da uğurlar arzulayıram. Amma xahiş edirəm ki, özünüzə də yaxşı baxın, xəstələnməyin, həmişə belə vətənpərvər, peşəkar və xalqı sevən insanlar kimi yaşayın, yaradın, insanlara tibbi xidmət göstərin. Sağ olun.

* * *

**V a s i f  Ə l i y e v** (*həkim*): Möhtərəm Prezident İlham Əliyev və hörmətli Mehriban xanım!

Əvvəlcə Sizə minnətdarlığımı bildirmək istəyirəm ki, çox qısa zaman ərzində koronavirusla mübarizə çərçivəsində lazımi imkanlara malik yeni modul tipli xəstəxana biz həkimlərin ixtiyarına verilir.

Modern tibbi xidmətin təşkilində xüsusi yeri olan modul tipli xəstəxanalar bu gün də, gələcəkdə də xəstəliklərin müalicəsində və idarə edilməsində daha çevik davranmağımıza imkan verəcəkdir.

Pandemiya dövründə «Yeni klinika» tibb müəssisəsinin açılması və orada ən müasir tibbi avadanlıqların quraşdırılması da xüsusilə ağır koronavirus xəstələrinə xidmət göstərməyimiz baxımından müstəsna rol oynayır.

Onu da qeyd etmək istəyirəm ki, dövlətimiz tərəfindən xəstəxanalarımızın dərmanlarla, zəruri tibbi ləvazimatlarla vaxtında təchizatı, Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılması biz tibb işçilərinin etibarlı və adekvat xidmət göstərməsinə imkan yaradıbdır.

Ümumdünya Səhiyyə Təşkilatının baş direktorunun Sizə ünvanladığı təşəkkürü də Sizin rəhbərliyinizlə verilmiş qərarların nə qədər doğru və zamanında olduğunu bir daha sübut edir.

Bunun nəticəsidir ki, Azərbaycanın pandemiya ilə savaşdakı uğuru dünya ölkələrinin də diqqətindən yayınmayıbdır.

Xalqımız bir daha əmin oldu ki, Prezidenti və dövləti hər zaman onun yanındadır. Biz birlikdə virusla savaşda qalib gələcəyik. Biz birlikdə güclüyük. Təşəkkür edirəm.

**Günay Muradova** (*həkim*): Hörmətli cənab Prezident və çox dəyərli Mehriban xanım!

Dövlət Proqramı çərçivəsində Türkiyədə tibbi təhsil almış gənc həkimlər olaraq əvvəlcə bizə yaradılmış şəraitə və verilən dəstəyə görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Zamanında səhiyyəmiz üçün verdiyiniz qərarlar sayəsində bu sahənin inkişafı artıq öz töhfəsini verir. Hazırda Dövlət Proqramı məzunları pandemiya ilə mübarizə komandasında fəal iştirak edirlər. Görülən bütün bu işlər, verdiyiniz dəstək sayəsində səhiyyəmizin inkişafı isə xarici ölkələrdə təhsil almaqda olan və çalışan bizim kimi gənc həkimləri-

mizin də vətənimizə geri dönüb, xalqımıza xidmət göstərməsi üçün stimuldur.

Koronavirus pandemiyasına qarşı mübarizənin gücləndirilməsi məqsədilə verdiyiniz qərarlardan biri də inkişaf etmiş xarici ölkələrdə olduğu kimi, Azərbaycanda da modul tipli xəstəxanaların yaradılmasıdır.

Məhz müasir avadanlıqlarla təchiz olunmuş modul tipli xəstəxanalar sayəsində biz yoluxmuş xəstələrin səmərəli müalicəsini təşkil edə biləcəyik.

Sizi əmin etmək istəyirik ki, bu çətin və şərəfli yolda əlimizdən gələni əsirgəməyəcək, ölkəmizə layiqincə xidmət göstərəcəyik.

* * *

*Qeyd edək ki, koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması, bu virusa yoluxanların müalicəsinin yüksək səviyyədə təşkili, onların tezliklə sağalması istiqamətində görülən işlər birbaşa Prezident İlham Əliyevin nəzarətindədir. Virusun yayılmağa başladığı dövrdən dövlət başçımızın tapşırığına əsasən zəruri qabaqlayıcı, profilaktik və təxirəsalınmaz tədbirlər görülüb. Təsadüfi deyil ki, COVID-19 ilə bağlı Azərbaycanda görülmüş işləri Ümumdünya Səhiyyə Təşkilatı bu gün nümunə kimi göstərir. Bu istiqamətdə görülmüş kompleks işlər çərçivəsində Prezident İlham Əliyevin təşəbbüsü ilə modul tipli 10 yeni xəstəxananın tikintisinin xüsusi əhəmiyyəti vardır. Bu, tətbiq olunan xüsusi karantin rejimi dövründə ölkənin səhiyyə sisteminin indiyədək*

*görünməmiş bu qlobal çağırışa və arta biləcək xəstə sayına tab gətirməsi üçün mövcud xəstəxanaların infeksion çarpayı fondunun artırılması baxımından müstəsna rol oynayır. Hazırda ölkə ərazisində ümumilikdə modul tipli daha 9 xəstəxana kompleksinin quraşdırılması aparılır.*

*Onlardan daha biri Bakıda, digərləri isə Gəncə, Sumqayıt, Abşeron, Şəki, İsmayıllı, Qəbələ, Qobustan və Şamaxıda quraşdırılacaqdır. Modul tipli xəstəxanaların istifadəyə verilməsi nəticəsində ölkəmizin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyatı yaranacaqdır.*

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ TELEFONLA GÖRÜŞ

*7 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə mayın 7-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon telefonla zəng etmişdir.*

*Emoməli Rəhmon koronavirus pandemiyası ilə mübarizədə Azərbaycanın ölkəsinə göstərdiyi yardımı yüksək qiymətləndirərək, indiki çətin dövrdə bunu qardaşlıq münasibətlərinin bariz nümunəsi kimi dəyərləndirdi.*

*Dövlət başçısı İlham Əliyev dost və qardaş xalqlarımızın hər zaman, xüsusilə də ağır pandemiya dövründə bir-birinin yanında olmasının önəmini vurğuladı və bunu dostluq münasibətlərimizin təbii göstəricisi kimi qiymətləndirdi.*

*Dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə istiqamətində ölkələrimizdə həyata keçirilən işlər barədə fikir mübadiləsi apardılar və ikitərəfli münasibətlər, o cümlədən iqtisadi əməkdaşlığın perspektivləri, nəqliyyat-tranzit problematikası ilə bağlı məsələləri müzakirə etdilər.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ARİF ALVİ İLƏ TELEFONLA GÖRÜŞ

*7 may 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə mayın 7-də Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi telefonla zəng etmişdir.*

*Pakistan Prezidenti Arif Alvi Prezident İlham Əliyevin təşəbbüsü ilə bu yaxınlarda «Qoşulmama Hərəkatı»nın koronavirusla mübarizəyə həsr olunmuş videokonfransının keçirilməsi münasibətilə təbriklərini çatdırdı və konfransın pandemiya ilə mübarizə sahəsində səylərin gücləndirilməsi baxımından önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev bu tədbirin ölkələr arasında həmrəyliyin və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə böyük töhfə verdiyini bildirdi.*

*Dövlət başçıları beynəlxalq səviyyədə ölkələrimizin bundan sonra da bir-birilərinin mövqeyini dəstəkləyəcəklərinə əminliklərini ifadə etdilər.*

*Telefon söhbəti zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Pakistan Prezidenti Arif Alvi ko-*

*ronavirusla mübarizə sahəsində həyata keçirilən tədbirlərdən danışdılar, ikitərəfli münasibətlərin perspektivləri, o cümlədən iqtisadi və ticarət əlaqələrinin inkişafı ilə bağlı fikir mübadiləsi apardılar.*

## QEYDLƏR

**1. Sahil Babayev,** S a h i l  R a f i q  o ğ l u (d.1980) – hüquq elmləri üzrə fəlsəfə doktoru, 1999–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici İnvestisiyalar İdarəsinin baş mütəxəssisi vəzifəsində çalışmışdır. 2009-cu ildən İqtisadi İnkişaf Nazirliyinin Xarici İnvestisiyalar və Yardımların Əlaqələndirilməsi şöbəsinin, 2011–2014-cü illərdə isə Beynəlxalq Təşkilatlarla Əməkdaşlıq şöbəsinin müdiri olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 13 mart 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye nazirinin müavini, 30 yanvar 2016-cı il tarixli Sərəncamı ilə isə Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini vəzifəsinə təyin edilmişdir. 2018-ci ildən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir. – 5–23, 172–176,192–212.

**2. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi

yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 6, 7, 52.

**3. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə

olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 10, 12, 140, 165, 173, 204.

**4. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 13, 252, 280.

**5. İrlandiya,** İ r l a n d i y a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 70,3 min $km^2$, əhali-

si 4,9 milyon nəfərdir. İnzibati ərazisi 26 qraflığa və 5 şəhər qraflığına bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dublin şəhəridir. – 24.

**6. Maykl Higgins** (d.1941) – İrlandiya siyasətçisi, şair, yazıçı, sosioloq. 2011-ci ildən İrlandiyanın Prezidentidir. – 24.

**7. Tunis,** T u n i s R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 163,6 min $km^2$, əhalisi 11 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici hakimiyyət Nümayəndələr Palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 26.

**8. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 26.

**9. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət.

Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 25, 122, 129–130, 221.

**10. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 25, 129–130.

**11. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min $km^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 27, 335.

**12. Arif Alvi** (d.1949) – Pakistanın siyasi və dövlət xadimi. 2018-ci ildən Pakistan İslam Respublikasının Prezidentidir. – 27, 335.

**13. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min $km^2$, əhalisi 10,7 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 28.

**14. Katerina Sakellaropulu** (d.1956) – Yunanıstan siyasətçisi, hüquqşünas. 13 mart 2020-ci ildən Yunanıstan Respublikasının Prezidentidir. – 28.

**15. Banqladeş,** B a n q l a d e ş X a l q R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 144 min $km^2$, əhalisi 169 milyon nəfərdir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkə şəhəridir. – 29, 312.

**16. Əbdül Həmid** (d.1944) – Banqladeşin siyasi və dövlət xadimi. 2013-cü ildən Banqladeş Xalq Respublikasının Prezidentidir. – 29.

**17. Cavid Qurbanov,** C a v i d  Q ə n b ə r  o ğ l u (d.1958) – mühəndis, texniki elmlər üzrə fəlsəfə doktoru. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, 2005–2019-cu illərdə isə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Azərbaycan Voleybol Federasiyasının prezidentidir.

Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 32.

**18. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də) keçirilir. Qədim zamanlardan başlayaraq, İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırdı. Respublikamız müstəqillik qazandıqdan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir.

2009-cu ildən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə UNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT Baş Məclisi martın 21-ni Beynəlxalq Novruz Günü elan etmişdir. – 33, 37–48.

**19. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilkin partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum Prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 39.

**20. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda keçirilən forum. Forum 1971-ci ildə yaradılmışdır. Siyasi liderlər foruma ilk dəfə 1974-cü ildə dəvət edilmişdilər. Forum bu tarixdən qısa bir müddət sonra siyasi liderlər tərəfindən tərəfsiz bir platforma olaraq, istifadə edilməyə başlanıldı. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu forumda iştirak etmişdir. – 40, 41, 147, 223.

**21. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayır. – 41, 42,148, 151.

**22. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə baş-

ladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın

müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 49, 57, 63, 228, 285, 315, 330, 331.

**23. Mikayıl Cabbarov,** Mikayıl Çingiz oğlu (d.1976) – hüquqşünas-iqtisadçı. 2004–2009-cu illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf nazirinin müavini, 2013–2017-ci illərdə Azərbaycan Respublikasının Təhsil naziri, 2017–2019-cu illərdə isə Vergilər naziri olmuşdur. 23 oktyabr 2019-cu ildən İqtisadiyyat naziridir. – 79–96, 103, 167–169, 192–212, 270.

**24. Mərkəzi Bank,** Milli Bank (AMB) – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymət sabitliyinin təmin edilməsi, xarici valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikası-

nın tədiyə-hesablama balansının tərtibinə rəhbərlik edir. – 85, 157–162, 262.

**25. Saleh Məmmədov,** S a l e h Ə r ş a d o ğ l u (d.1958) – Əməkdar mühəndis. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədridir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı və «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 97.

**26. COVID-19** – koronavirus pandemiyası. 2019-cu ilin ortalarında, Çinin mərkəzi Hubey əyalətinin Uhan şəhərində yerli sakinlərdə naməlum mənşəli virusun yayılması ilə başlanan xəstəlik. – 115–136, 287–314.

**27. Tedros Adhanom Qebreyesus** (d.1965) – Efiopiyanın dövlət xadimi. 2012–2016-cı illərdə Efiopiyanın Xarici İşlər naziri, 2017-ci ildən isə Ümumdünya Səhiyyə Təşkilatının baş direktorudur. – 124–127, 301–304

**28. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon $km^2$, əhalisi 18,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 127–128.

**29. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstanın dövlət və siyasi xadimi. 2013–2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 127–128.

**30. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 128–129.

**31. Sooronbay Jeenbekov** (d.1958) – Qırğızıstanın siyasi və dövlət xadimi. 2017-ci ildən Qırğız Respublikasının Prezidentidir. – 128–129.

**32. Özbəkistan,** Özbəkistan Respublikası– Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 448,8 min km$^2$, əhalisi 34 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 131.

**33. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın siyasi və dövlət xadimi. 2003–2006-cı illərdə Özbəkistan Respublikasının Baş Naziri olmuşdur. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 131.

**34. Türkmənistan** – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 131–133, 311.

**35. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistanın Prezidentidir. – 131–133, 311.

**36. Macarıstan** – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,6 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 133–134.

**37. Viktor Orban** (d.1963) – Macarıstanın siyasi və dövlət xadimi. 1998–2002-ci illərdə Macarıstanın Baş Naziri olmuşdur. 2010-cu ildən yenidən Macarıstanın Baş Naziridir. – 133–134.

**38. Beynəlxalq Valyuta Fondu** (BVF) – beynəlxalq valyuta-maliyyə təşkilatı, BMT-nin ixtisaslaşmış orqanı. BMT-nin Bretton-Vudsda keçirilmiş konfransının qərarına əsasən, 1944-cü ildə yaradılıb, 1947-ci ildən isə əməliyyatlara başlayıbdır. Mənzil-qərargahı Vaşinqtonda yerləşir. 189 dövlət BVF-nin üzvüdür. İşçilərinin sayı 133 ölkədə 2500 nəfərdir. Kvotaların

ümumi həcmi 383 milyard dollardır. Ehtiyat ayrılmaları üçün qəbul edilən əlavə öhdəliklər 600 milyard dollardır.

BVF-nin maliyyə resursları üzv ölkələrin üzvlük haqlarından – SDR-lə (beynəlxalq hesablaşma vahidləri) ifadə olunan kvotadan formalaşır. Kvota ölkənin iqtisadi potensialı və dünya ticarətindəki mövqeyindən asılı olaraq müəyyən edilir. 1992-ci ildən Azərbaycan Respublikası BVF-nin üzvüdür. – 139, 140.

**39. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. 57 üzv, 11 əməkdaşlıq üzrə tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüş-

lərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 149.

**40. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından Rusiya, ABŞ və Fransa həmsədr ölkələrdir. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 149.

**41. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 149.

**42. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 149.

**43. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 149.

**44. ATƏT-in Parlament Assambleyası** – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq, ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir və yığıncaqlara sədr-

lik edir. Assambleyanın 14 daimi əməkdaşı vardır. Mənzil-qərargahı Kopenhagendə yerləşir. – 149.

**45. Avropa Parlamenti** – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avropa Parlamentinin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avropa Parlamenti məcburi xarakter daşımayan qərar verir. Avropa Parlamenti beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avropa Parlamenti Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 149.

**46. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Fe-

derativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 149.

**47. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 149, 307–310.

**48. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-ın bütün üzv dövlətləri Avropa İnsan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan müqaviləni – insan hüquqlarının müdafiəsi haqqında Konvensiyanı imzalamışdır. Üzv dövlətlərdə yerli və regional demokratiyanın gücləndirilməsindən məsul olan Yerli və Regional Hakimiyyətlər Konqresi AŞ-ın bir təsisatıdır. 2 palata və 3 komitədən ibarətdir. AŞ-ın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 25 yanvar 2001-ci ildən Avropa Şurasının tamhüquqlu üzvüdür. Mənzil-qərargahı Strasburqda yerləşir. – 150.

**49. Avropa Şurası Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. Üzv dövlətlərin məclis üzvlərinin təmsil olunduğu Parlament Assambleyası 324 deputatdan ibarətdir. Assambleya baş katibi, İnsan hüquq-

ları üzrə komissarı və Avropa İnsan Hüquqları Məhkəməsinin hakimlərini seçir. Mənzil-qərargahı Strasburqda yerləşir. – 150.

**50. Samir Şərifov,** S a m i r R a u f o ğ l u (d.1961) – hüquqşünas. 2001–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikasının Maliyyə naziridir. Eyni zamanda, Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təmsilçi direktordur. – 153–162.

**51. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanılmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 154.

**52. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayən-

dələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 154.

**53. Elman Rüstəmov,** E l m a n  S i r a c  o ğ l u (d.1952) – iqtisadçı, iqtisad elmləri doktoru. 1995-ci ildən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 157–162.

**54. OPEC+** (Neft ixrac edən ölkələr təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Əlcəzair, Nigeriya, Ekvador, Qabon, Anqola, İraq, Konqo, Liviya, BƏƏ, Ekvatorial Qvineya daxildir. Mənzil-qərargahı Vyanada yerləşir. – 161.

**55. İnam Kərimov,** İ n a m  İ m d a d  o ğ l u (d.1977) – hüquqşünas. 2012–2018-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri olmuşdur. 2018-ci ildən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 180–183.

**56. «Aqrolizinq»** – 2004-cü ildə təsis edilmişdir. Şirkət ölkənin Kənd Təsərrüfatı Nazirliyinin struk-

turuna daxildir. «Aqrolizinq» ASC-nin yaranma zamanı qarşısına qoyduğu əsas məqsədlər ölkədə kənd təsərrüfatı texnikası çatışmazlığının aradan qaldırılması, fermerlərə güzəştli şərtlərlə belə texnika və avadanlıqların verilməsidir. Sonradan Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə şirkətin funksiyaları daha da genişləndirilibdir. Təşkilatın ölkənin 55 rayonunda xidmət məntəqələri vardır. – 182.

**57. Şahin Mustafayev,** Şahin Abdulla oğlu (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri, 2016–2019-cu illərdə isə İqtisadiyyat naziri olmuşdur. 22 oktyabr 2019-cu ildən Azərbaycan Respublikası Baş Nazirinin müavinidir. – 186, 268.

**58. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 190–191.

**59. Pasxa bayramı** – yəhudi və xristian bayramı. Pasxa əvvəllər yəhudilərin Misirdən «çıxıb getmələri»

münasibətilə, sonra isə yəhudi xalqının xilaskarının zühurunu gözləməklə, xristianlıqda isə İsanın iztirabları, din yolunda fəda olması, onun ölümü və yenidən dirilməsi ilə əlaqələndirilir. Əvvəllər yəhudi və xristian pasxaları eyni vaxta təsadüf edirdi. 325-ci ildə Ümumdünya xristian yığıncağı xristian pasxasını yəhudi pasxası qurtardıqdan bir həftə sonra qeyd etməyi qərara aldı. Bu tarix aprelin 4-dən mayın 8-dək olan dövrə təsadüf edir. – 213–214.

**60. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 221.

**61. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə

seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 221, 230,311.

**62. SOCAR,** Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) – Azərbaycan Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 232.

**63. Rövnəq Abdullayev,** Rövnəq İbrahim oğlu (d.1965) – mühəndis. 2003–2004-cü illərdə Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru

olmuşdur. 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 232.

**64. Rövşən Rzayev,** R ö v ş ə n  Ş ü k ü r  o ğ l u (d.1962) – hüquqşünas. 4-cü çağırış Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. 2018-ci ildən Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. – 249–253.

**65. Əli bəy Hüseynzadə,** Ə l i  b ə y  H ü s e y n  o ğ l u (1864–1940) – yazıçı, jurnalist, filosof, tərcüməçi, ictimai xadim, ədəbiyyat tənqidçisi, XX əsr Azərbaycan-türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri. «Füyuzatçılar» ədəbi-fəlsəfi cərəyanının əsas nəzəriyyəçisi olmuşdur. Fəaliyyətində «türkləşmək, islamlaşmaq, müasirləşmək» ideologiyası əsas yer tuturdu. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əli bəy Hüseynzadə Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir. – 254.

**66. Feyzavər Turan Alpsar** (1919–2020) – Azərbaycanın ədəbi-ictimai fikrinin parlaq nümayəndəsi, gör-

kəmli türkoloq, tanınmış mütəfəkkir və yazıçı publisist. Əli bəy Hüseynzadənin qızı. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 254.

**67. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəb-

lərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 254.

**68. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 257–270, 275.

**69. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 267.

**70. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,3 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 271.

**71. Andjey Duda** (d.1972) – Polşanın siyasi xadimi. Hüquq elmləri doktoru. 2015-ci ildən Polşa Respublikasının Prezidentidir. – 271.

**72. Kamran Əliyev,** Kamran Bayram oğlu (d.1965) – hüquqşünas, II dərəcəli Dövlət Ədliyyə müşaviri. 2014–2020-ci illərdə Azərbaycan Respublikası Baş prokurorunun müavini olmuşdur. 1 may 2020-ci ildən Azərbaycan Respublikasının Baş prokurorudur. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 273–286.

**73. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal

sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamış-

dır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti,

eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 283, 286.

**74. Antonio Quterreş** (d.1949) – Portuqaliyanın dövlət xadimi. 1995–2002-ci illərdə Portuqaliyanın Baş Naziri, 1999–2005-ci illərdə Sosialist İnternasionalının sədri, 2005–2015-ci illərdə BMT-də Qaçqınların İşi üzrə baş komissar olmuşdur. 2017-ci ildən BMT-nin Baş katibidir. – 288, 299–300.

**75. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin 2 müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcə layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 288, 307–310.

**76. Əfqanıstan,** Ə f q a n ı s t a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 32,2 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 310.

**77. Kuba,** K u b a  R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Ali orqanı birpalatalı Milli Assambleyadır. Dövlət başçısı Prezident, hökumət başçısı isə Dövlət Şurasının Sədridir. Paytaxtı Havana şəhəridir. – 306, 310.

**78. Məhəmməd Əşrəf Qani** (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 310.

**79. Migel Diaz-Kanel Bermudes** (d.1960) – Kubanın dövlət və siyasi xadimi. 2019-cu ildən Kuba Respublikasının Prezidentidir. – 311.

**80. Misir,** M i s i r  Ə r ə b  R e s p u b l i k a s ı – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1 milyon km$^2$, əhalisi 100 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici

orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 311.

**81. Əbdülfəttah əs-Sisi** (d.1954) – Misirin siyasi və hərbi xadimi. 2014-cü ildən Misir Ərəb Respublikasının Prezidentidir. – 311.

**82. İndoneziya,** İ n d o n e z i y a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon $km^2$, əhalisi 266,3 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 311.

**83. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 311.

**84. Həsən Ruhani** (d.1948) – İranın siyasi və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 230, 311.

**85. Fələstin,** F ə l ə s t i n  D ö v l ə t i – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən, Böyük Britaniya mandatlığı ləğv edilərək, Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri

yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin Dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. Sahəsi 6 min km$^2$, əhalisi 5 milyon nəfərdir. Paytaxtı Qüds şəhəridir. – 311.

**86. Mahmud Abbas** (d.1935) – Fələstin siyasətçisi, Fələstin Milli Administrasiyasının Sədri (Fələstin Dövlətinin Prezidenti) və FƏTH hərəkatının rəhbəridir. – 311.

**87. Şri-Lanka,** Şri-Lanka Sosialist Demokratik Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 65,6 min km$^2$, əhalisi 22 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Şri-Cayavardenepura-Kotte şəhəridir. – 311.

**88. Qotabaya Racapaksa** (d.1949) – Şri-Lankanın dövlət və hərbi xadimi. 2019-cu ildən Şri-Lanka Sosialist Demokratik Respublikasının Prezidentidir. – 311.

**89. Venesuela,** V e n e s u e l a - B o l i v a r R e s p u b l i k a s ı – Cənubi Amerikanın şimalında dövlət. Sahəsi 916,4 min km$^2$, əhalisi 30,7 milyon nəfərdir. Ərazisi 23 ştata bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir (Deputatlar palatası və Senat). Paytaxtı Karakas şəhəridir. – 311.

**90. Nikolas Maduro** (d.1962) – Venesuelanın siyasi və dövlət xadimi. 2013-cü ildən Venesuela Respublikasının Prezidentidir. – 311.

**91. Mavritaniya,** M a v r i t a n i y a İ s l a m R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 1,03 milyon km$^2$, əhalisi 3,9 milyon nəfərdir. İnzibati ərazisi 12 vilayətə, 1 mərkəzi muxtar əyalətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Nuakşot şəhəridir. – 311.

**92. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 9,3 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı Prezident,

qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 334.

**93. Emoməli Rəhmon,** Emoməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 334.

**94. Məhəmməd uld Əbdüləziz** (d.1956) – Mavritaniyanın hərbi və siyasi xadimi, 2009–2019-cu illərdə Mavritaniya İslam Respublikasının Prezidenti olmuşdur. – 311.

**95. Ramiz Mehdiyev,** Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə

müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının şöbə müdiri, 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü, 1995–2019-cu ilin oktyabrına qədər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri olmuşdur. 2019-cu ilin oktyabrından Azərbaycan Milli Elmlər Akademiyasının prezidentidir. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. «Heydər Əliyev», «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 4.

## Şəxsi adlar göstəricisi


**Abbasov Pərviz** – 76–77
**Abdullayev Rövnəq** – 232
**Alvi Arif** – 27, 335
**Amreyev Bağdad** – 134–135
**Babayev Sahil** – 5–23, 172–176, 192–212
**Babayeva Səkinə** – 103
**Berdıməhəmmədov Qurbanqulu** – 131–133, 311
**Bermudes Migel** – 311
**Bodha Nankoomar** – 312
**Borel Cozef** – 288, 307–310
**Bourita Nasser** – 312
**Buhari Muhammadu** – 311
**Cabbarov Mikayıl** – 79–96, 103, 167–169, 192–212, 270
**Çakrabarti Suma** – 257–270
**Davud Sami** – 312
**Duarte İvana** – 257
**Duda Andjey** – 271
**Əhməd Abiy** – 311
**Əl-Xəlifə Məhəmməd** – 312
**Əl-Sabah Əhməd** – 312

**Əliyev Heydər** – 283, 286
**Əliyev Kamran** – 273–286
**Əliyev Vasif** – 330–331
**Əliyeva Mehriban** – 49, 57, 63, 228, 285, 315, 330, 331
**Ərdoğan Rəcəb Tayyib** – 25, 129–130
**Əs-Sisi Əbdülfəttah** – 311
**Feyzavər Turan Alpsar** – 254
**Fərəcov Zakir** – 248
**Hacızadə Tərlan** – 238–240
**Helbron Pyer** – 257
**Həmid Əbdül** – 29
**Higgins Maykl** – 6
**Hüseynzadə Əli bəy** – 254
**Jeenbekov Sooronbay** – 128–129
**Kərimov İnam** – 180–183
**Qani Məhəmməd** – 310
**Qaralov Zakir** – 272
**Qebreyesus Tedros** – 124–127, 301–304
**Qurbanov Cavid** – 32
**Quterreş Antonio** – 288, 299–300
**Maduro Nikolas** – 311
**Mahamat Musa** – 304–307
**Mahmud Abbas** – 311
**Mahmudov Muxtar** – 288–229
**Meta İlir** – 231

**Məhəmməd-Bande Ticani** – 295–299
**Məmmədov Saleh** – 97
**Mljiyava Mustafa** – 311
**Mbumba Nanqolo** – 311
**Mirziyoyev Şavkat** – 131
**Mnanqaqva Emmerson** – 311
**Momen Abdul** – 312
**Muradova Günay** – 331–332
**Mustafayev Şahin** – 186, 268
**Mustafayeva Nəzrin** – 77–78
**Narendra Modi** – 311
**Nauseda Qitanas** – 255–256
**Nquyen Xuan Fuk** – 311
**Oli Şarma** – 311
**Orban Viktor** – 133–134
**Orteqa Daniel** – 311
**Piyu Alan** – 257
**Racapaksa Qotabaya** – 311
**Ramafosa Siril** – 311
**Rəcəbli Təranə** – 242–244
**Rəhmon Emoməli** – 334
**Riqterinki Yurgen** – 257
**Ruhani Həsən** – 230, 311
**Rumas Sergey** – 311
**Rüstəmov Elman** – 157–162
**Rzayev Baba** – 216

**Rzayev Rövşən** – 249–253
**Sadıqov Sadiq** – 49
**Səid Kais** – 26
**Süleymanova Aytac** – 227–228
**Şərifov Samir** – 153–162
**Tebbun Abdelməcid** – 310
**Temiz Taşkın** – 258
**Tokayev Kasım-Jomart** – 127–128
**Uld Qazuani Məhəmməd** – 311
**Vidodo Coko** – 311
**Yassin Muhiddin** – 311
**Zurabişvili Salome** – 190–191

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(rayon)* – 18, 206, 232–248
**Ağstafa** – 277
**Afrika** – 294, 304–307
**Albaniya** – 231
**Amerika Birləşmiş Ştatları** – 149
**Ağdərə** – 232
**Asiya** – 294
**Astara** – 220
**Avropa** – 75
**Bandunq** – 305
**Banqladeş** – 29, 312
**Bəhreyn** – 31
**Bərdə** – 206
**Biləcəri** – 98
**Biləsuvar** – 277
**Binəqədi** – 98, 278
**Cənubi Afrika Respublikası** – 311
**Cənubi Qafqaz** – 148
**Çin** – 154, 306
**Dağlıq Qarabağ** – 41, 42,148, 151
**Digah** – 232
**Əfqanıstan** – 310

| | |
|---|---|
| **Əlcəzair** | – 310 |
| **Fələstin** | – 311 |
| **Fransa** | – 149 |
| **Gəncə** | – 10, 49 |
| **Goranboy** | – 43, 110 |
| **Goradil** | – 30, 31 |
| **Gürcüstan** | – 190–191 |
| **Hövsan** | – 49 |
| **Xaçmaz** | – 220 |
| **Xəzər dənizi** | – 132 |
| **Xızı** | – 232 |
| **Xocasən** | – 98 |
| **İndoneziya** | – 311 |
| **İordaniya** | – 312 |
| **İran** | – 221, 230 |
| **İrlandiya** | – 24 |
| **Kuba** | – 306, 310 |
| **Küveyt** | – 312 |
| **Qafqaz** | – 257 |
| **Qambiya** | – 312 |
| **Qana** | – 312 |
| **Qazax** | – 43, 110 |
| **Qazaxıstan** | – 127–128 |
| **Qırğızıstan** | – 128–129 |
| **Quba** | – 18, 206 |
| **Latın Amerikası** | – 294 |

**Lerik** – 70
**Lənkəran** – 70
**Litva** – 255–256
**Lökbatan** – 98
**Macarıstan** – 133–134
**Masazır** – 98
**Mavriki** – 312
**Mavritaniya** – 311
**Mərakeş** – 312
**Mərkəzi Asiya** – 122
**Misir** – 311
**Nabran** – 70
**Naxçıvan Muxtar Respublikası** – 221
**Neftçala** – 21, 278
**Nepal** – 311
**Nigeriya** – 311
**Nikaraqua** – 311
**Novxanı** – 31
**Orta Asiya** – 130
**Özbəkistan** – 131
**Pakistan** – 27, 335
**Pirşağı** – 30
**Polşa** – 271
**Rusiya** – 149
**Sabirabad** – 18
**Səngəçal** – 220

**Sudan** – 311
**Sumqayıt** – 18, 49, 103–114, 232, 249–253
**Şahdağ** – 220
**Şəki** – 18, 206, 220
**Şəmkir** – 43, 110
**Şərqi Avropa** – 257
**Şri-Lanka** – 311
**Tacikistan** – 334
**Tunis** – 26
**Türkiyə** – 25, 122, 129–130, 221
**Türkmənbaşı** *(liman)* – 132
**Türkmənistan** – 131–133, 311
**Toqo** – 311
**Ukrayna** – 140
**Venesuela** – 311
**Vyetnam** – 311
**Yevlax** – 278
**Yunanıstan** – 28
**Zimbabve** – 311

# MÜNDƏRİCAT

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ KORONA-VİRUS İNFEKSİYASINA QARŞI MÜBARİZƏ MƏQSƏDİLƏ GÖRÜLƏN TƏDBİRLƏRƏ DAİR TELEFONLA GÖRÜŞ

*14 mart 2020-ci il.................................................................. 5*

İRLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYKL HİGGİNSƏ

*14 mart 2020-ci il.................................................................. 6*

ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRİ SAHİL BABAYEV İLƏ GÖRÜŞ

*16 mart 2020-ci il.................................................................. 7*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAİS SƏİDƏ

*17 mart 2020-ci il................................................................ 26*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARİF ALVİYƏ

*18 mart 2020-ci il................................................................ 27*

YUNANISTAN RESPUBLİKASININ PREZİ-
DENTİ XANIM KATERİNA SAKELLARO-
PULUYA

*18 mart 2020-ci il............................................................ 28*

BANQLADEŞ XALQ RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
ƏBDÜL HƏMİDƏ

*18 mart 2020-ci il............................................................ 29*

ABŞERON DAİRƏVİ DƏMİR YOLUNUN
PİRŞAĞI–GÖRƏDİL–NOVXANI–SUMQAYIT
HİSSƏSİNİN YENİDƏN QURULMADAN
SONRA AÇILIŞI MƏRASİMİ

*18 mart 2020-ci il............................................................ 30*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ
AZƏRBAYCAN XALQINA TƏBRİK

*18 mart 2020-ci il............................................................ 37*

MƏNZİL İNŞAATI DÖVLƏT AGENTLİYİNİN
İKİNCİ LAYİHƏSİ OLAN HÖVSAN YAŞAYIŞ
KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*24 mart 2020-ci il............................................................ 49*

«YENİ KLİNİKA» TİBB MÜƏSSİSƏSİNİN
AÇILIŞI MƏRASİMİ

*28 mart 2020-ci il........................................................... 63*

İQTİSADİYYAT NAZİRİ MİKAYIL CABBAROV İLƏ GÖRÜŞ

*31 mart 2020-ci il*............................................................ 79

BAKI–SUMQAYIT YOLUNUN GENİŞLƏNDİRİLMƏSİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*3 aprel 2020-ci il* ............................................................ 97

SUMQAYIT KİMYA SƏNAYE PARKINDA «BAKI TEKSTİL FABRİKİ» MMC TƏRƏFİNDƏN YARADILMIŞ TİBBİ MASKA İSTEHSALI MÜƏSSİSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*6 aprel 2020-ci il* ............................................................ 103

TÜRK ŞURASININ VİDEOBAĞLANTI FORMATINDA FÖVQƏLADƏ ZİRVƏ GÖRÜŞÜ

*10 aprel 2020-ci il* .......................................................... 115

2020-ci İLİN BİRİNCİ RÜBÜNÜN SOSİAL-İQTİSADİ YEKUNLARINA HƏSR OLUNMUŞ VİDEOBAĞLANTI FORMATINDA MÜŞAVİRƏ

*14 aprel 2020-ci il* .......................................................... 137

YEKUN NİTQİ

*14 aprel 2020-ci il* .......................................................... 184

GÜRCÜSTAN PREZİDENTİ SALOME ZURABİŞVİLİ İLƏ VİDEOBAĞLANTI FORMATINDA GÖRÜŞ

*15 aprel 2020-ci il* ........................................................ *190*

ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRİ SAHİL BABAYEV VƏ İQTİSADİYYAT NAZİRİ MİKAYIL CABBAROV İLƏ VİDEOBAĞLANTI FORMATINDA GÖRÜŞ

*17 aprel 2020-ci il* ........................................................ *192*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*17 aprel 2020-ci il* ........................................................ *213*

«AZƏRENERJİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN YENİDƏN QURULMUŞ BAŞ İDARƏETMƏ, ELM, TƏDRİS VƏ LABORATORİYA KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*20 aprel 2020-ci il* ........................................................ *215*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ TELEFONLA GÖRÜŞ

*20 aprel 2020-ci il* ........................................................ *230*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ İLİR META İLƏ TELEFONLA GÖRÜŞ

*22 aprel 2020-ci il* ........................................................ *231*

ABŞERON RAYONU ƏRAZİSİNDƏ XIZI RAYONUNUN AĞDƏRƏ KƏNDİNDƏN SUMQAYIT ŞƏHƏRİNƏ ÇƏKİLMİŞ MAGİSTRAL QAZ KƏMƏRİNİN AÇILIŞI MƏRASİMİ

*24 aprel 2020-ci il* ........................................................ *232*

SUMQAYIT ŞƏHƏRİNDƏ YATAQXANALARDA MÜVƏQQƏTİ MƏSKUNLAŞMIŞ 3042 MƏCBURİ KÖÇKÜN AİLƏSİ ÜÇÜN ABŞERON RAYONU ƏRAZİSİNDƏ YAŞAYIŞ BİNALARINDAN İBARƏT MƏHƏLLƏLƏRDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*24 aprel 2020-ci il* ........................................................ *249*

FEYZAVƏR TURAN ALPSARIN VƏFATI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI

*25 aprel 2020-ci il* ........................................................ *254*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ QİTANAS NAUSEDA İLƏ VİDEOBAĞLANTI FORMATINDA GÖRÜŞ

*27 aprel 2020-ci il* ........................................................ *255*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİ İLƏ VİDEOBAĞLANTI FORMATINDA GÖRÜŞ

*28 aprel 2020-ci il* ........................................................ *257*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDJEY DUDAYA

*30 aprel 2020-ci il* ........................................................... *271*

ZAKİR QARALOV İLƏ TELEFONLA GÖRÜŞ

*30 aprel 2020-ci il* ........................................................... *272*

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORU VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ KAMRAN ƏLİYEV İLƏ VİDEO-BAĞLANTI FORMATINDA GÖRÜŞ

*1 may 2020-ci il* ................................................................ *273*

«QOŞULMAMA HƏRƏKATI»NIN TƏMAS QRUPU FORMATINDA VİDEOKONFRANS VASİTƏSİLƏ KORONAVİRUSLA MÜBARİZƏYƏ HƏSR OLUNMUŞ «COVİD-19-a QARŞI BİRLİKDƏYİK» MÖVZUSUNDA ZİRVƏ GÖRÜŞÜ

*4 may 2020-ci il* ................................................................ *287*

BAKIDA MODUL TİPLİ XƏSTƏXANANIN AÇILIŞI MƏRASİMİ

*7 may 2020-ci il* ................................................................ *315*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ TELEFONLA GÖRÜŞ

*7 may 2020-ci il* ............................................................... *334*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ARİF ALVİ İLƏ TELEFONLA GÖRÜŞ

*7 may 2020-ci il* ............................................................ *335*

QEYDLƏR ......................................................................... *337*

*Şəxsi adlar göstəricisi*....................................................... *376*

*Coğrafi adlar göstəricisi*.................................................... *380*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.